# PEDAQOJİ UNİVERSİTETİN
# XƏBƏRLƏRİ

# TRANSACTIONS
## OF PEDAGOGICAL UNIVERSITY

**ISSN 2520-2014**

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası***

***Series of humanitarian, social, pedagogical and psychological sciences***

# 2022, C. 70, № 3

**Jurnal 24 may 1991-ci il tarixdə Azərbaycan Respublikası Mətbuat Komitəsində qeydiyyatdan keçmişdir (şəhadətnamə № 307)**
***(1953-cü ildən nəşr edilir)***

# PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası*, 2022, C.70, №3**

**BAŞ REDAKTOR** T.ü.e.d., prof. C.M.Cəfərov
**EDITOR-IN-CHIEF** Prof. Dr. J.M.Jafarov

**REDAKSİYA HEYƏTİ**

F.-r.e.d., prof. A.D.Zamanov ***(baş redaktorun müavini)***, psix.e.d., prof. R.İ.Əliyev, f.ü.e.d., prof. M.N.Hüseynova, p.ü.e.d., prof. M.İ.İlyasov, f.e.d., prof. H.Ə.Qasımov, p.e.d., prof. F.A.Rüstəmov, f.ü.e.d., prof. F.Ç.Rzayev, t.e.d., prof. O.B.Sultanov

**REDAKSİYA ŞURASI**

F.e.d., prof. Y.M.Babayev, f.e.d., prof. T.S.Cavadov, p.e.d., prof. M.R.Dadaşova, p.ü.e.d., prof. M.M.Əmirov, p.e.d., prof. R.L.Hüseynzadə, f.e.d., prof. Z.A.Xəlilov, s.ü.e.d., prof. J.H.Qədimova, t.e.d., prof. X.M.Məmmədov, f.ü.e.d., dos. N.M.Sadıqova, p.ü.f.d., prof. İ.N.İsayev, p.ü.e.d., prof. Ş.Q.Əliyeva, p.ü.f.d., dos. N.Ə.Abdullazadə, p.ü.f.d., dos. N.T.Hüseynova
F.ü.f.d. N.Q.Aslanova ***(məsul katib)***

**EDITORIAL BOARD**

Prof. Dr. A.D.Zamanov ***(ass. editor)***, Prof. Dr. R.I.Aliyev, Prof. Dr. M.N.Huseynova, Prof. Dr. M.I.Ilyasov, Prof. Dr. H.A.Gasimov, Prof. Dr. F.A.Rustamov, Prof. Dr. F.Ch.Rzayev, Prof. Dr. O.B.Sultanov

**ADVISORY BOARD**

Prof. Dr. Y.M.Babayev, Prof. Dr. T.S.Javadov, Prof. Dr. M.R.Dadashova, Prof. Dr. M.M.Amirov, Prof. Dr. R.L.Huseynzadeh, Prof. Dr. Z.A.Khalilov, Prof. Dr. J.H.Gadimova, Prof. Dr. Kh.M.Mammadov, Ass. prof. Dr. N.M.Sadigova, Prof. Phd I.N.Isayev, Prof. Dr. Sh.Q.Aliyeva, Ass. prof. Phd N.A.Abdullazadeh, Ass. prof. Phd N.T.Huseynova
Phd N.G.Aslanova ***(executive secretary)***

***©ADPU, 2022***
***©ASPU, 2022***

# MÜNDƏRİCAT

## Humanitar elmlər

*Abdullazadə N.Ə.*
"ŞUŞA" XALQ ƏDƏBİYYATI NÜMUNƏLƏRİ VƏ YAZILI ƏDƏBİYYATDA .... 9
*Ağazadə M.Ç.*
FRANSIZ ƏTRİYYAT VƏ KOSMETİKA REKLAM MƏTNLƏRİNDƏ "GÖZƏLLİK" KONSEPTİNİN İFADƏ VASİTƏLƏRİ …........................................... 18
*Baxşəliyev Ə.Ş.*
SƏMƏD VURĞUNUN BƏDİİ OBRAZI ÖZBƏK DRAMATURGİYASINDA .......... 23
*Quliyeva S.B.*
NATƏVANIN QƏZƏLLƏRİNDƏ BƏZİ POETİK FİQURLARIN İŞLƏNMƏ TEXNİKASI ……...................................................................................... 33

## İctimai elmlər

*Abulova V.C.*
CƏNUBİ QAFQAZDA GEOSİYASİ REALLIQLAR VƏ TƏHLÜKƏSİZLİK SİSTEMİ FONUNDA AZƏRBAYCANIN LİDER ROLU .......................................... 41
*Aloyeva K.T.*
MİLLİ DÖVLƏT MARAQLARININ FORMALAŞMASI VƏ REALLAŞMASINDA GEOSİYASİ AMİLLƏRİN ROLU ...................................................................... 49
*Bəşirova A.N.*
BREXİT PROSESİNİN MEYDANA GƏLMƏSİNƏ TƏSİR EDƏN AMİLLƏR ........ 62
*Kərimov Z.H.*
VƏTƏN ATASI – ƏLƏKBƏR BƏY RƏFİBƏYOV …………………………….. 70
*Qasımlı H.H.*
AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZM FƏALİYYƏTİNİN KİTABXANA İNFORMASİYA TƏMİNATININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI: TARİXİ İCMAL .... 76
*Qasımova A.E.*
MƏDƏNİYYƏTLƏRİN QARŞILIQLI ƏLAQƏSİNƏ DAİR BAXIŞLAR VƏ BEYNƏLXALQ MƏDƏNİ ƏLAQƏLƏRİN İNKİŞAF TENDENSİYALARI: MÜQAYİSƏLİ TƏHLİL ……..........................................................................…........... 88
*Məmmədov N.R.*
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRƏ QAYĞISI (1993-2003) ........................................................................ 98
*Məmmədova (Süleymanova) E.K.*
XVIII ƏSRİN İKİNCİ YARISINDA AZƏRBAYCANIN İNZİBATİ QURULUŞU VƏ İDARƏCİLİK SİSTEMİ ................................................................................ 108
*Mirabdullayev A.M., Hacıyeva S.M.*
MÜASİR MƏRHƏLƏDƏ RUSİYANIN MƏRKƏZİ ASİYA SİYASƏTİ: MÖVCUD VƏZİYYƏT VƏ ƏSAS NƏTİCƏLƏR ……...............................................…........... 120
*Rəşidov Z.F.*
A.O.MAKOVELSKİNİN TƏDQİQATLARINDA ŞƏRQ FƏLSƏFƏSİNİN PROBLEMLƏRİ ……...........................................................................…........... 127

## *Pedaqoji-psixoloji elmlər*

***Ağayeva E.A.***
KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN ƏDƏBİ KOMPOZİSİYALAR VASİTƏSİLƏ ESTETİK TƏRBİYƏSİNİN PEDAQOJİ ŞƏRTLƏRİ .................................................. 142
***Əhmədova N.E.***
BMT-nin DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİ PROQRAMINDA TƏHSİLİN İNKİŞAF KONSEPSİYASI ........................................................................................ 148
***Qurbanova L.M.***
MÜHARİBƏ İŞTİRAKÇILARININ POSTTRAVMATİK STRESS POZUNTULARI VƏ ARADAN QALDIRILMASI YOLLARI ................................................................ 156
***Rizayeva G.S.***
UŞAQLIQ DÖVRÜ VƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASI .................................... 166
***Rzayeva P.H.***
"ŞƏRQ QADINI" JURNALINDA KİÇİK YAŞLI UŞAQLARIN ƏXLAQ TƏRBİYƏSİ HAQQINDA ........................................................................................ 177

# СОДЕРЖАНИЕ

## *Гуманитарные науки*

***Абдуллазаде Н.А.***
«ШУША» НА ПРИМЕРАХ НАРОДНОЙ И ПИСЬМЕННОЙ ЛИТЕРАТУРЫ ..... 9
***Агазаде М.Ч.***
СПОСОБЫ РЕАЛИЗАЦИИ КОНЦЕПТА «КРАСОТА» ВО ФРАНЦУЗСКИХ РЕКЛАМНЫХ ТЕКСТАХ ПАРФЮМЕРНО-КОСМЕТИЧЕСКОЙ ПРОДУКЦИИ ........ 18
***Бахшалиев А.Ш.***
ХУДОЖЕСТВЕННЫЙ ОБРАЗ САМЕДА ВУРГУНА В УЗБЕКСКОЙ ДРАМАТУРГИИ ........ 23
***Гулиева С.Б.***
ТЕХНИКА ОБРАБОТКИ НЕКОТОРЫХ ПОЭТИЧЕСКИХ ФИГУР В ГАЗЕЛЯХ НАТАВАНА ........ 33

## *Общественные науки*

***Абулова В.Дж.***
ЛИДИРУЮЩАЯ РОЛЬ АЗЕРБАЙДЖАНА НА ФОНЕ ГЕОПОЛИТИЧЕСКИХ РЕАЛИЙ И СИСТЕМЫ БЕЗОПАСНОСТИ НА ЮЖНОМ КАВКАЗЕ ……........... 41
***Алоева К.Т.***
РОЛЬ ГЕОПОЛИТИЧЕСКИХ ФАКТОРОВ В ФОРМИРОВАНИИ И РЕАЛИЗАЦИИ НАЦИОНАЛЬНО-ГОСУДАРСТВЕННЫХ ИНТЕРЕСОВ …......... 49
***Баширова А.Н.***
ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ФОРМИРОВАНИЕ ПРОЦЕССА БРЕХИТА ......... 62
***Каримов З.Х.***
ОТЕЧЕСТВО – АЛЕКПЕР БЕК РАФИБЕКОВ ........ 70
***Гасымлы Г.Г.***
ОРГАНИЗАЦИЯ И РАЗВИТИЕ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОГО ОБЕСПЕЧЕНИЯ ТУРИСТИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ: ИСТОРИЧЕСКИЙ ОБЗОР ........ 76
***Гасымова А.Е.***
ВЗГЛЯДЫ НА ВЗАИМОСВЯЗЬ КУЛЬТУР И ТЕНДЕНЦИИ РАЗВИТИЯ МЕЖДУНАРОДНЫХ КУЛЬТУРНЫХ СВЯЗЕЙ: СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ 88
***Мамедов Н.Р.***
ЗАБОТА ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА О БЕЖЕНЦАХ И ВЫНУЖДЕННЫХ ПЕРЕСЕЛЕНЦАХ (1993-2003) ........ 98
***Мамедова (Сулейманова) Э.К.***
АДМИНИСТРАТИВНОЕ УСТРОЙСТВО И СИСТЕМА УПРАВЛЕНИЯ АЗЕРБАЙДЖАНСКИХ ХАНСТВ ВО ВТОРОЙ ПОЛОВИНЕ XVIII ВЕКА ........ 108
***Мирабдуллаев А.М., Гаджиева С.М.***
ПОЛИТИКА РОССИИ В ЦЕНТРАЛЬНОЙ АЗИИ НА СОВРЕМЕННОМ ЭТАПЕ: НЫНЕШНЯЯ СИТУАЦИЯ И ОСНОВНЫЕ ВЫВОДЫ ........ 120
***Рашидов З.Ф.***
ПРОБЛЕМЫ ВОСТОЧНОЙ ФИЛОСОФИИ В ИССЛЕДОВАНИЯХ А.О.МАКОВЕЛЬСКОГО ........ 127

## *Педагогико-психологические науки*

***Агаева Э.А.***
ПЕДАГОГИЧЕСКИЕ УСЛОВИЯ ЭСТЕТИЧЕСКОГО ВОСПИТАНИЯ МЛАДШИХ ШКОЛЬНИКОВ ПОСРЕДСТВОМ ХУДОЖЕСТВЕННЫХ КОМПОЗИЦИЙ ........ 142

***Ахмедова Н.Э.***
КОНЦЕПЦИЯ РАЗВИТИЯ ОБРАЗОВАНИЯ В ПРОГРАММЕ ЦЕЛЕЙ УСТОЙЧИВОГО РАЗВИТИЯ ООН ........ 148

***Гурбанова Л.М.***
ПОСТТРАВМАТИЧЕСКИЕ СТРЕССОВЫЕ РАССТРОЙСТВА УЧАСТНИКОВ ВОЙНЫ И ПУТИ ИХ ПРЕОДОЛЕНИЯ ........ 156

***Ризаева Г.С.***
ДЕТСТВО И ФОРМИРОВАНИЕ ЛИЧНОСТИ ........ 166

***Рзаева П.Г.***
О НРАВСТВЕННОМ ВОСПИТАНИИ ДЕТЕЙ МЛАДШЕГО ВОЗРАСТА В ЖУРНАЛЕ "ШАРК КАДЫНЫ" ........ 177

# TABLE OF CONTENTS

## *Humanitarian sciences*

***Abdullazade N.A.***
SHUSHA IN THE EXAMPLES OF FOLK AND WRITTEN LITERATURE ........ 9
***Aghazade M.Ch.***
WAYS TO IMPLEMENT THE CONCEPT OF "BEAUTY" IN THE FRENCH ADVERTISING TEXTS OF PERFUMES AND COSMETICS ................................ 18
***Bakhshaliyev A.Sh.***
LITERARY IMAGE OF SAMAD VURGUN IN THE UZBEK DRAMATURGY ... 23
***Guliyeva S.B.***
DEVELOPMENT TECHNOLOGY OF SOME POETIC FIGURES IN NATAVAN'S GHAZAL …………………………………………………………. 33

## *Social sciences*

***Abulova V.J.***
THE LEADER ROLE OF AZERBAIJAN IN THE BACKGROUND OF GEO-POLITICAL REALITIES AND THE SECURITY SYSTEM IN THE SOUTH CAUCASUS ............................................................................................................ 41
***Aloyeva K.T.***
THE ROLE OF GEOPOLITICAL FACTORS IN THE FORMATION AND IMPLEMENTATION OF NATIONAL-STATE INTERESTS ……………………….. 49
***Bashirova A.N.***
THE MAIN FEATURES AFFECTING THE FORMATION OF THE BREXIT PROCESS …………………………………………………………........................... 62
***Karimov Z.H.***
FATHERLAND – ALAKBAR BEY RAFIBEYOV .................................................... 70
***Gasimli H.H.***
ORGANZATION AND DEVELOPMENT OF LIBRARY INFORMATION PROVISION OF TOURISM ACTIVITIES IN THE REPUBLIC OF AZERBAIJAN: HISTORICAL OVERVIEW …………………………………………………..…. 76
***Gasimova A.E.***
VIEWS OF CULTURAL INTERACTION AND DEVELOPMENT TRENDS OF INTERNATIONAL CULTURAL RELATIONS: A COMPARATIVE ANALYSIS 88
***Mammadov N.R.***
THE CARE OF NATIONAL LEADER HEYDAR ALIYEV ABOUT REFUGEES AND FORCED RESETTLEMENTS (1993-2003) ……………………………………. 98
***Mamedova (Suleymanova) E.K.***
THE TRADITIONS OF AZERBAIJANI FEUDAL-FRAGMENTED STATEHOOD DURING THE PERIOD OF KHANATES) …………..…………………………………. 108
***Mirabdullayev A.M., Hajıyeva S.M.***
RUSSIA'S POLICY IN CENTRAL ASIA AT THE MODERN STAGE: PRESENT SITUATION AND THE MAIN RESULTS ……………..………………………….. 120
***Rashidov Z.F.***
PROBLEMS OF EASTERN PHILOSOPHY IN THE STUDIES OF A.O.MAKOVELSKY ………………………………………………………………. 127

## *Pedagogical-psychological sciences*

***Aghayeva E.A.***
PEDAGOGICAL CONDITIONS OF AESTHETIC EDUCATION OF YOUNG SCHOOLCHILDREN THROUGH LITERARY COMPOSITIONS .......................... 142
***Ahmadova N.E.***
THE CONCEPT OF THE DEVELOPMENT OF EDUCATION IN THE PROGRAM OF THE UNO SUSTAINABLE DEVELOPMENT GOALS ................ 148
***Gurbanova L.M.***
POST-TRAUMATIC STRESS DISORDERS OF WAR VETERANS AND WAYS TO OVERCOME THEM …………………………………………………………. 156
***Rizayeva G.S.***
CHILDHOOD AND IDENTITY FORMATION ……………………………………. 166
***Rzayeva P.H.***
ABOUT MORAL EDUCATION OF YOUNG CHILDREN IN "SHARG GADINI" JOURNAL ........................................................................................................ 177

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2022, C.70, №3, s. 9-17
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2022, V.70, №3, pp. 9-17

# Humanitar elmlər

*UOT 82-09*

***N.Ə.Abdullazadə***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*nazile.s.m.d@mail.ru*

## "ŞUŞA" XALQ ƏDƏBİYYATI NÜMUNƏLƏRİ VƏ YAZILI ƏDƏBİYYATDA

***Açar sözlər:*** *folklor, Şuşa, bədii tərənnüm, bayatı, atalar sözləri, xalq mahnıları, yazılı ədəbiyyat*

Azərbaycan folklorunun regional kontekstdə bir qolu da Qarabağ folklorudur. Qarabağ folklorunda üç əsrə yaxın yaşı olan "Şuşa" adlı taleyi viran olmuş, dağılmış bir nəslin, bir məkanın, bir yurdun adı yanıqlı-yanıqlı xatırlanır.

Şuşanın regional özəlliyi − füsunkar təbiəti, alınmaz qalaları ilə yanaşı, tarixi faciəsi də xalq ədəbiyyatı nümunələrində mövzu və ideya əlvanlığı baxımından rəngarəng çalarlarda əksini tapmışdır. Xüsusilə 1992-ci il erməni təcavüzü və Şuşanın alınması ilə bağlı yaranan poetik nümunələr bu gün Qarabağ folklorunun tarixi yaddaşına çevrilib.

Yazılı ədəbiyyatda M.M.Nəvvab, Y.V.Çəmənzəminli, X.Natəvan, Ü.Hacıbəyov, S.Vurğun, Elçin, İ.Əfəndiyev, Z.Yaqub və bir çox sənətkarların əsərlərində "Şuşa" onomastik vahidi geniş şəkildə işlənmişdir.

***Н.А.Абдуллазаде***

## «ШУША» НА ПРИМЕРАХ НАРОДНОЙ И ПИСЬМЕННОЙ ЛИТЕРАТУРЫ

***Ключевые слова***: *фольклор, Шуша, художественное воспевание, баяты, пословицы, народные песни, письменная литература*

Ответвлением азербайджанского фольклора в региональном контексте является карабахский фольклор. Еще в XVIII веке известный азербайджанский поэт Молла Панах Вагиф особо подчеркивал значение баяты в карабахском фольклоре. В карабахском фольклоре с горечью упоминается название разрушенных мест, уничтоженных поколений под названием «Шуша», которому почти три века.

Помимо регионального своеобразия Шуши − ее чарующей природы, неприступных крепостей, ее историческая трагедия отразилась в образцах народной литературы в красочных оттенках по богатству тем и идей. В частности, исторической памятью карабахского фольклора сегодня стали поэтические примеры, связанные с армянской агрессией 1992 года и взятием Шуши.

В письменной литературе ономастическая единица «Шуша» широко используется в творчестве М.М.Нavваба, Ю.В.Чаманзаминли, Х.Натаван, У.Гаджибекова, С.Вургуна, Эльчина, И.Эфендиева, З.Ягуба и многих других мастеров.

***N.A.Abdullazade***

## SHUSHA IN THE EXAMPLES OF FOLK AND WRITTEN LITERATURE

***Keywords:*** *folklore, Shusha, artistic hymns, bayats, proverbs, folk songs, written literature*

One of the branches of Azerbaijani folklore in the regional context is Karabakh folklore. Back in the 18th century, the well-known Azerbaijani poet Molla Panah Vagif emphasized the importance of bayata in Karabakh folklore. Karabakh folklore bitterly mentions the name of the destroyed places, the destroyed generations under the name "Shusha", which is almost three centuries old.

In addition to the regional identity of Shushi - its enchanting nature, impregnable fortresses, its historical tragedy is reflected in samples of folk literature in colorful shades of richness of themes and ideas. In particular, poetic examples related to the Armenian aggression in 1992 and the capture of Shushi have become the historical memory of Karabakh folklore today.

In the written literature, the onomastic unit "Shusha" is widely used in the works of M.M.Navvab, Y.V.Chamenzaminli, X.Natavan, U Hajibeyov, S.Vurgun, Elchin, I.Efendiyev, Z.Yagub and many other artists.

Ədəbiyyatşünaslıqda hər bir xalqın folklor nümunələrini onun yaşadığı torpaqla, təbiətlə müqayisə edir, bir bənzərlik axtarırlar. Torpaq və təbiət saf, dəyişməz olduğu qədər, folklor da məzmunca saf, cilasız və dəyişməz olur. Zaman dəyişdikcə folklor nümunələri də zamanın sərhədlərini aşır, özündə tarixin izini daşıyaraq mənsub olduğu xalqın mənəviyyatına, tarixi yaddaşına körpü olur. Təsadüfi deyil ki, folklorun ümumbəşəri əhəmiyyəti beynəlxalq səviyyədə təsbit olunmuş, qorunması üçün BMT və YUNESKO xətti ilə proqram qəbul edilmişdir.

Azərbaycan şifahi xalq ədəbiyyatının bir qolu da Qarabağ folklorudur. “Külli-Qarabağın abi-həyatı” sayılan Şuşa tarix boyu yalnız zəngin təbiəti, maddi nemətləri, başı dumanlı dağları, cənnət meşələri ilə deyil, milli-mənəvi irsi, mədəniyyəti, ədəbiyyatı, incəsənəti ilə də məşhur olmuşdur. Mir Möhsün Nəvvab, Xurşidbanu Natəvan, Ağabəyim ağa, Firudin bəy Köçərli, Üzeyir Hacıbəyov, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Cabbar Qaryağdıoğlu, Bülbül bu torpağın yetişdirdiyi tarixi şəxsiyyətlərdir. Cıdır düzünün ab-havası, İsa bulağının, Daşaltının, Turşsunun, Murovun əzəməti zaman-zaman xalqın bədii təfəkküründə, tarixi yaddaşında iz

salmış, bu iz nəğmələrdən, deyim-duyumlardan yavaş-yavaş yazılı ədəbiyyata da yol almış, bədii nümunələrdə Qarabağın, Şuşanın sevgisini, ağrısını yaşatmışdır. İlk insan məskəninin də Qarabağ ərazisində mövcudluğu Qarabağ, Şuşa folklorunun tarixən qədimliyindən xəbər verir.

XIX əsrdə Şuşanın Qafqazın mədəniyyət mərkəzinə çevrilməsilə Qarabağ ədəbiyyatı çiçəklənmə dövrünü yaşayır. Şuşa ədəbi mühiti təkcə yazılı ədəbiyyat nümunələri ilə deyil, xalq yaradıcılığı nümunələri ilə də Azərbaycan mədəniyyətində və ədəbiyyatında aparıcı rol oynayır, yeni ideya istiqamətləri və meyilləri, ədəbi məclisləri ilə Şərq ədəbiyyatında qabaqcıl yerlərdən birini tutur. Şuşada dünyaya göz açan Yusif Vəzir Çəmənzəminli Qarabağ folklorunun zənginliyi ilə bağlı yazırdı: "Mühit təbiətcə zəngin olursa, dil də genişlənir, çeşməli yerin xalqı daha incə, daha şairanə tərkiblərə malik olur". Qarabağ folklorunda "Şuşa" toponiminin geniş işlənməsi də bu bədii örnəklərin tarixi zənginliyinə dəlalət edir.

"Şuşa" toponiminin mənşəyi ilə bağlı ən geniş yayılmış fikir onun "şiş" sözündən törəmiş olmasıdır. "Şiş" − dik, iti uclu zirvə deməkdir. Get-gedə söz fonetik transformasiyaya uğrayaraq "Şuşa" formasını almışdır. Bu mülahizənin tərəfdarları Şuşa şəhərinin bu cür adlandırılmasını onun coğrafi xüsusiyyətləri ilə əlaqələndirirlər. Belə ki, Şuşa şəhəri coğrafi baxımdan Kiçik Qafqaz dağlarının ətəklərində dəniz səviyyəsindən ortalama 1420 metr yüksəklikdə yerləşir.

"Şuşa"nın bir mənası da qədim sak tayfaları və türk tayfası dondarların adı ilə bağlanır. Toponimin etimologiyası haqqında folklora, xalq əfsanəsinə nəzər yetirdikdə isə şəhərin bu cür adlandırılmasının səbəbi kimi bu yerlərin havasının büllur, şüşə kimi saf olmasından qaynaqlanması göstərilmiş, şüşə kimi havası olan şəhər mənasında zamanla "Şüşə" – "Şuşa" formasını almışdır. Əsası Pənahəli xan tərəfindən qoyulan şəhər yarandığı vaxtdan Pənahabad, Qala, Şəhri-Şişə, Şişə və Şuşa adlandırılmışdır. XVIII əsrin sonlarında Şuşa İran şahı Ağa Məhəmməd şahın hücumlarına məruz qalmış, qala sakinləri mərdliklə mübarizə apardıqlarını, bu tarixi-coğrafi fakta, Şuşa qalasının alınmasına ağı demişlər:

*Kərbəlam vay, qalam vay!*
*Kərbəlamda qalam vay!*
*Çəkilirdi kərpici,*
*Alınırdı qalam, vay.*

Şifahi ədəbiyyatın ən geniş yayılmış, məzmunca zəngin və qədim janrı bayatılardır. Xalq ağrı-acısını, sevincini, adət-ənənəsini, düşmənə nifrətini, dosta etibarını, sədaqətini dörd misrada söyləmiş, nəsillərdən nəsillərə, ərənlərdən ərənlərə bu bayatıları ötürərək tarixini, varlığını yaşatmışdır. Bayatılar özündə məhəbbət, inam, etiqad, əxlaq, zəhmət, öyüd-nəsihət, ictimai məzmun ifadə

etməklə yanaşı, yer-yurd, tayfa, nəsil, dağ-dəniz, gül-çiçək və s. adların poetik daşıyıcısı olmuş, bədii-estetik qayəsinə görə digər janrlardan fərqlənmişdir. Azərbaycan bayatılarında işlənən toponimlər sırasında "Şuşa" adını yerli camaat öz aralarında çox vaxt "Qala" kimi işlətmişdir. Bayatılarda şuşalıların başlarına gətirilən zülm, işgəncə, xarici işğalçılara qarşı apardıqları mübarizə, toy-düyünlərinin qara gəldiyi poetik dillə ifadə olunur:

*Ay gedən, haralısan?*
*Köylüsən, Qalalısan?*
*Gözlərindən tanıram*
*Bizim dağ maralısan.*

Yaxud:

*Qaladan yendirdilər,*
*Ağ donun geydirdilər.*
*Nə dərdim var, nə odum,*
*Məcburca öldürdülər* [2, s.162].

*Qalanın yastı yolu,*
*Sel gəldi basdı yolu.*
*İstədim toy eyləyim,*
*Əzrayıl kəsdi yolu.*

Şuşanın Cıdır düzündə bitən, məhəbbət və sədaqət simvolu "Xarıbülbül"ün vəfası İbrahimxəlil xanın qızı Ağabəyim ağanın Şuşadan didərgin düşməsi ilə bağlı rəvayətdə əksini tapmışdır. Xarıbülbül bitdiyi torpağa, "Vətən bağı"na o qədər etibarlıdır ki, qürbətdə qərib el qızının könlünü açmaq üçün belə bitmir. Şuşanın dağlarından, daşlarından gətirilən güllər çiçək açır, xarıbülbül bitmir ki, bitmir, sübut edir ki, yalnız vətən torpağında yaşaya bilər. Xarıbülbülün nisgili, yanğısı nəğməyə çevrilir:

*Vətən bağı al-əlvandır,*
*Yox içində xarıbülbül.*

Lakin xarıbülbül bilmədi ki, iki əsr sonra özü didərgin düşəcək, Cıdır düzünə həsrət qalacaq. Al-əlvan vətən bağında xarıbülbül bu dəfə qana bələnəcək − igidlərin, qız-gəlinlərin, körpələrin qanına. Ağabəyim ağanın kədərinə şəhid analarının naləsi şərik olacaq:

*Mən aşıq sarı bülbül,*
*Oxuma, zarı bülbül.*
*Qürbətdə bir bağ saldım,*
*Bitmədi xarı bülbül.*

Şuşanın Turşsu yaylağı, Cıdır düzü, Daşaltısının əsrarəngiz təbiətinə, cənnət guşələrinə vurğunluq xalqın sevgisini bayatılara köçürmüş, dillər əzbəri etmişdir.

*Əzizim, gəl yuxarı,*
*Cıdıra gəl yuxarı.*
*Turşsu cənnətə dönüb,*
*Daşaltı gəl yuxarı* [2, s.31].

*Qalamız qızıl qala,*
*Tikilmiş qızıl qala.*
*Qardaş, gəl qonağım ol,*
*İstərəm yüz il qala* [2, s.151].

*Əzizim Maralyana,*
*Sən də gəl Maralyana.*
*Necəsən bir ah çəkim,*
*Dağlarda maral yana* [1, s.35].

“Şuşa” sözünün işləndiyi məşhur folklor nümunələrindən biri də “Şuşanın dağları başı dumanlı” xalq mahnısıdır. Xanəndə Xan Şuşinski tərəfindən bəstələnmiş mahnı o qədər sevilir və sürətlə yayılır ki, xalq mahnısı kimi məşhurlaşır. Mahnıda Şuşa şəhərinin gözəlliyi vəsf olunur, Şuşa gözəl qızla müqayisə edilir. Dağlar dumana büründüyü kimi, gözəl də örtüyə bürünmüşdür. Dağın qırmızı lalələrlə örtülməsi gözəlin qırmızı köynəyinə, yaşıl örtüyü gözəlin yaşıl ətəyinə işarə edir. Şuşa − başında dumanlar, çənlər oynayan qırmızı qoftalı, yaşıl tumanlı, ismətli, abır-həyalı bir gəlindir. Bu gəlinin – Şuşanın paltarını təbiət özü qırmızı, yaşıl rənglərdən biçmişdir. Bəlkə də xanəndə cümhuriyyət dövründə bu rənglər ilə Azərbaycan bayrağının rənglərinə işarə etmiş, bunu açıq deyə bilmədiyindən mətnaltı mənada vermişdir.

*Şuşanın dağları başı dumanlı,*
*Şuşanın dağları başı dumanlı,*
*Qırmızı qoftalı, yaşıl tumanlı,*
*Dərdindən ölməyə çoxdu gümanım.*

Şuşanın uca dağlarının başı həmişə dumanlı olduğundan mahnının ilk misrasında "duman" sözü işlənir. Sovet senzurası “dumanlı” sözünə don geydirərək “sovetlərdə Şuşanın dağları dumanlı olmaz” iddiası ilə ilk misranın dəyişdirilməsini tələb etdikdə xanəndə bu misranı "Şuşanın dağları deyil dumanlı"ya dəyişdirərək ifa etmişdir. Lakin mahnı bu gün öz ilkin variantında ifa olunur.

“Şuşanın dağları” xalq mahnısında şuşalı qız-gəlinlərin yol üstə oturub sevgililərini gözləmələri ilə şəhər uğrunda daim mübarizə aparıldığı, Şuşa igidlərinin bu mübarizədən çəkinmədiyi, Şuşanın sorağının el-aləmə yayıldığı tərənnüm olunur.

*Şuşada axşamlar yanar ulduzlar,*
*Onlardan gözəldi gəlinlər, qızlar,*
*Oturub yol üstə yarını gözlər.*
*Şuşanın hər yandan gəlir sorağı,*
*Tərifə layiqdir İsa bulağı,*
*Dağları, bağları, qızlar oylağı.*

“Şuşa” adına xalq ədəbiyyatı janrlarından rəvayət və lətifələrdə də rast gəlinir. “Həyat dərsi” adlanan bir rəvayətdə Şuşada Hacı Qulu adlı bir nəfərin xəsisliyindən danışılır. Ev tikdirən ustalarla qiymət sövdələşməsində razılaşmayan Hacı onlara bazara gedən oğluna tapşırığı ilə “həyat dərsi” verir. Cibindən bir halqa çıxarıb “hansı yumurta halqadan keçməsə, onu alarsan” deyən Hacının xəsisliyini görüncə ustalar dərslərini almış olurlar [2, s.66].

Bəzi lətifələrdə Şuşa şəhərinin adı “Qala” deyə işlənir. “Mən nə bilim sən necə gedirsən”, “Sənin qardaşın” lətifələrində şəhər ilk salındığı vaxtlarda olduğu kimi “Qala” adlandırılır.

“Şuşa” toponiminə yazılı ədəbiyyatda da geniş şəkildə rast gəlinir. Ədiblərimiz cənnətməkan Şuşanı vəsf etmiş, onun gözəlliyindən danışdıqca doymamışlar. Hələ XVIII əsrdə əslən Qazaxdan olan, lakin Qarabağ şairlərindən söz düşəndə adı birinci çəkilən Molla Pənah Vaqif Şişə (Şuşa) dağlarında məskən saldığından məmnunluğunu bildirir

*Məkan tutdisə Vaqif, yox əcəb, bu Şişə dağında,*
*Məqami ləli-gülrəngin miyani-səngi-xaradır* [9,s.152].

XIX əsrin əvvəllərində satirik şairlər Qasım bəy Zakirin, Baba bəy Şakirin şeirlərində “Şuşa” toponiminin “Şişə” şəklində işləndiyinə rast gəlirik. Zakir “şəhri-Şişə”nin başına gələn qəzanı, bu şəhər uğrunda şişə çəkilməyin belə xoşluğundan məmnunluğunu gizlətmir:

*Şişəyə dəsti-qəza səngi-cəfa yağdırdı,*
*Şişəvəş sındı bu gün rövnəqi islam yenə* [11, s.53]

*Bu şəhri-Şişədə gər bizi şişə taxsalar xoşdur,*
*Ki, həmsöhbət bizə ol növi-qövmi-bihesab olsun* [11, s.269].

Müasiri Baba bəy Şakir isə Zakirə ünvanladığı şeirlərinin birində Şuşanı "Qala" kimi təqdim edir:

*Zakira, eşitdim tazə bir xəbər,*
*Həqiqətdə qoydu məni xeyli mat.*
*Zahirən ki, seçirlərmiş Qalada,*
*Tərəf-tərəf olub bəylər deputat.*

XIX əsr Azərbaycan elmi-ədəbi və Qarabağ ədəbi mühitinin yetişdirdiyi simalardan biri – çoxşaxəli yaradıcılığa malik, dövrün poeziya, musiqi, rəssamlıq, astronomiya, xəttatlıq, nəqqaşlıq sahələri üzrə əsərlər müəllifi Mir Möhsün Nəvvab olmuşdur. O, özünün "Şuşa qalasında baş vermiş erməni-müsəlman münaqişəsi münasibətilə" adlı mürəbbe janrında olan şeirində Şuşanı Qala kimi təqdim edir:

*Müsəlmana ermənilər durdu sataşmağa,*
*Qarınca tək Qalada qatışıb qaynaşmağa,*
*Qırallığın yolların üzlərinə aşmağa,*
*Başlarına böyüklük ciqqəsini saşmağa.*

Şuşada dünyaya göz açıb orada təhsil alan, savadlı olduğundan "Mirzə" deyə çağırılan "Kaşif" təxəllüslü şair Həsən Qarabaği Xan qızı Xurşidbanu Natəvana yazdığı şeirdə "Şişə" şəhərini onsuz təsəvvür etmir; onsuz Şuşanı ümidsiz, vücudunu bir heç sayır:

*Sən Şişə içində türfə cansan,*
*Həm cismilə can üçün təvansan.*
*Sənsiz nədi Şişənin nəmudi?*
*Gəlməz nəzərə onun vücudi.*

Bədii nəsrdə də "Şuşa" toponiminin Şuşa-Şişə şəklində işləndiyini görürük. Y.V.Çəmənzəminli "Qan içində" romanında yazırdı: "..İbrahim xan Qarabağa qayıdanda qardaşı Mehralı bəylə arasında səltənət davası düşmüşdü. İbrahim xan qaynı Avar xanın köməyi ilə qardaşını *Şişədən* çıxarıb, Qarabağ xanı olmuşdu [3, s.132].

Elçinin "Qarabağ şikəstəsi", "Şuşaya duman gəlib" əsərlərində toponim – şəhər insan duyğularının ifadəçisi, insanın yaşadıqlarını dağında-daşında, hayında-harayında, şikəstəsində yaşadan bir obrazdır: "Onda Cümüyə elə gəlirdi ki, o dəmir çarxların səsini sədası *Şuşa* dağlarından gələn bir "Qarabağ şikəstəsi" müşayiət edir və o şikəstə müşayiətli tuqqa-tuk Cümünü təkcə universitet imtahanlarına yox, başqa bir dünyaya aparırdı" [5, s.357].

*Şuşaya duman gəlib,*
*Ürəyimə güman gəlib.*
*Hər dərdimi-sərimi*
*Sinəmdən qovan gəlib* [6, s.49].

Xalq şairi Səməd Vurğun Şuşanın bənzərsiz gözəlliyini “Şuşa” şeirində vəsf etmiş, bu diyarın torpağının, daşının belə müalicəvi əhəmiyyətli olduğunu vurğulamışdır.

*Bir əcəb gülşəndir torpağın, daşın,*
*Dumanlı dağlardır həyat yoldaşın.*
*Bir ağrı gördümü ömründə başın,*
*Ey fitrən xəlq olmuş təbabət, Şuşa!*

Müasir Azərbaycan ədəbiyyatında Rəsul Rza, Xəlil Rza Ulutürk, Zəlimxan Yaqub və bir çox şairlər “Şuşa” toponiminin poetik obrazını yaratmışlar. R.Rza bircə dəfə görməklə bir könüldən min könülə bənd olduğu Qarabağın yaraşığı Şuşanın döyüşkənliyi, sədaqəti, mətanəti ilə qürur duyur.

Z.Yaqubun yuxularının qonağı olan Şuşa qanadları qırılmış quşa bənzəyir; Şuşa əlini Bakıya uzadıb hayqırır, Qarabağı satan xainlərə nifrin deyir. Şuşanın ahu-zarından dağlar da inləyir, Pənah xanın goru od tutub yanır, Natəvan ağı deyir, Vidadi Qazaxdan Vaqifin qəbrinə üz tutub “milləti qurtarın dardan” deyir. Şuşa başabaş qan içindədir, Üzeyirin belə nitqi tutulmuş, Bülbülün səsi batmışdır. Şair Şuşanın ermənilər tərəfindən 1992-ci il işğalının sözlə bədii obrazını oxucunun yaddaşına köçürür:

*Bu gecə yuxuma girmişdi Şuşa,*
*Pənah xan qəzəbdən tir-tir əsirdi.*
*Şuşanı satanlar verib baş-başa,*
*Şəhərin üstündə qiymət kəsirdi.*
*Od tutub yanırdı Vaqifin goru,*
*Natəvan ah çəkib, ağı deyirdi.*
*Gözündə yaş gördüm, yanağında nəm,*
*Cıdır düzündəki "Xarı bülbül"ün.*
*Dərdin sinəsində dağlandı sinəm,*
*Didərgin olmuşdu yarı bülbülün.*
*Ocaq yerlərində qalanırdı kül,*
*İsa bulağından qan fışqırırdı.*
*Susmuşdu Üzeyir, susmuşdu Bülbül,*
*Düşmən "mənəm" deyib, boğaz cırırdı.*
*Bu gecə yuxuma girmişdi Şuşa,*
*Cabbar ağlayırdı, Xan ağlayırdı.*

*Dönmüşdü qanadı qırılmış quşa,*
*Qarabağ başabaş qan ağlayırdı...* [10, s.89].

Bu gün Qafqazın mirvarisi Şuşa erməni işğalından azaddır. Şuşanın ədəbiyyatdakı statusu, mövqeyi bu gün də ədəbiyyatın əsas mövzusudur. "Şuşa" bu gün ədəbiyyata ağrı-acılarına, faciəsinə, içim-içim göynəyən qubarına Azərbaycan əsgərinin iradəsi, zəfər müjdəsi, qana boyanmış üçrəngli bayrağı ilə boya-boy daxil olur. Çünki... "Şuşa" yalnız Azərbaycan ədəbiyyatında var. Çünki... "Şuşa" – Qarabağ, Qarabağ isə Azərbaycandır.

## ƏDƏBİYYAT

1. Azərbaycan bayatıları. Bakı: "XXI-Yeni Nəşrlər Evi", 2004, 304 s.
2. Azərbaycan folkloru antologiyası. V kitab (Qarabağ folkloru). Bakı: Səda, 2000, 417 s.
3. *Çəmənzəminli Y.V.* Əsərləri: 3 cilddə, II c., Bakı, 1978, 489 s.
4. El çələngi. Xalq şeirindən seçmələr. Bakı: Şərq-Qərb, 2004, 248 s.
5. Elçin. Seçilmiş əsərləri: 10 cilddə, I c., Bakı: Çinar çap, 2005, 428 s.
6. Elçin. Şuşaya duman gəlib // Azərbaycan, № 8, s.44-64
7. *Rza R.* Seçilmiş əsərləri: 5 cilddə, III c., Bakı: Öndər nəşriyyatı, 2005, 256 s.
8. *Ulutürk X.R.* Seçilmiş əsərləri: 2 cilddə, II c., Bakı: Şərq-Qərb, 2005, 247 s.
9. *Vaqif M.P.* Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 269 s.
10. *Yaqub Z.* Seçilmiş əsərləri: 2 cilddə, II c., Bakı: Şərq-Qərb, 2006, 288 s.
11. *Zakir Q.* Seçilmiş əsərləri. Bakı: Avrasiya Press, 2005, 398 s.

Redaksiyaya daxil olub 28.07.2022

*УДК 81*

***М.Ч.Агазаде***
*Азербайджанский университета языков*
*maleyka91@gmail.com*

# СПОСОБЫ РЕАЛИЗАЦИИ КОНЦЕПТА «КРАСОТА» ВО ФРАНЦУЗСКИХ РЕКЛАМНЫХ ТЕКСТАХ ПАРФЮМЕРНО-КОСМЕТИЧЕСКОЙ ПРОДУКЦИИ

***Ключевые слова**: концепт, рекламные тексты, красота, лингвистика*

Статья посвящена лингвистическим способам выражения концепта «красота» во французских рекламных текстах. Проведенное исследование позволяет сделать вывод о том, что концепт «красота» является одним из базовых концептов, который реализуется во французских рекламных текстах косметической продукции. Этот концепт служит для того, чтобы создать положительный образ товара, способствующий его продаже. В рекламных текстах парфюмерно-косметической продукции основным способом выражения концепта «красота» является использование существительных и прилагательных, которые направлены на создание образа, включающего такие элементы как здоровье, забота, женственность. Концепт «красота» в рекламных текстах может быть выражен эксплицитно – через ключевые слова, либо имплицитно – указывая на результат или основания для применения того или иного товара.

***M.Ç.Ağazadə***

# FRANSIZ ƏTRİYYAT VƏ KOSMETİKA MƏHSULLARININ REKLAM MƏTNLƏRİNDƏ “GÖZƏLLİK” KONSEPTİNİN İFADƏ VASİTƏLƏRİ

***Açar sözlər:** konsept, reklam mətnləri, gözəllik, dilçilik*

Məqalə fransız reklam mətnlərində “gözəllik” konseptinin linqvistik ifadə vasitələrinə həsr edilmişdir. Aparılmış tədqiqata əsasən nəticəyə gəlmək olar ki, “gözəllik” konsepti fransız ətriyyat və kosmetika reklam mətnlərində ifadəsini tapan əsas konseptlərdən biridir. Bu konsept məhsulun müsbət şəklini yaradaraq, onun satışına kömək edir. Ətriyyat və kosmetika məhsullarının reklam mətnlərində “gözəllik” konseptinin əsas ifadə üsulu sağlamlıq, qulluq, qadınlıq kimi elementləri özündə birləşdirən obraz yaratmaq məqsədi daşıyan isim və sifətlərdən ibarətdir. Reklam mətnlərində “gözəllik” konsepti açıq şəkildə – açar sözlər vasitəsilə və ya dolayısı ilə – müəyyən bir məhsuldan istifadənin nəticəsini və ya səbəblərini göstərməklə ifadə edilə bilər.

***M.Ch.Aghazade***

# WAYS TO REALIZE THE CONCEPT OF "BEAUTY" IN FRENCH ADVERTISING TEXTS OF PERFUME AND COSMETIC PRODUCTS

***Keywords**: concept, advertising texts, beauty, linguistics*

The article is devoted to the linguistic ways of expressing the concept of "beauty" in French advertising texts. The study allows us to conclude that the concept of "beauty" is one of the basic concepts that is implemented in the French advertising texts of cosmetic products. This concept serves to create a positive image of the product that promotes its sale. In the advertising texts of perfumery and cosmetic products, the main way of expressing the concept of "beauty" is the use of nouns and adjectives, which are aimed at creating an image that includes such elements as health, care, femininity. The concept of "beauty" in advertising texts can be expressed explicitly - through keywords, or implicitly - indicating the result or reasons for using a particular product.

**Введение.** В современном мире реклама занимает все более заметное место. Центром внимания лингвистического изучения рекламы является структура текста, его описание компонентов печатного рекламного сообщения.

Главной чертой, характерной для французской рекламы, является простота текста.

Посредством рекламного текста реализуется воздействие на реципиента, то есть осуществляется формирование массового сознания, распространяются идеалы, установки, знания, внедряемые адресантом [2, с.128].

Концепт «красота» является одним из базовых концептов, реализующихся во французских рекламных текстах косметической продукции. Задача данного исследования – выявить, как реализуется концепт «красота» в рекламных текстах. Материалом для исследования послужили рекламные тексты, в которых используются лексемы, выражающие данный концепт.

**Концепт «красота».** Согласно определению энциклопедического словаря Ларусс, существенным признаком красоты выступает ее способность «доставлять удовольствие», в этом смысле, красота может выражаться как чувственно, так и эстетически. *(«Le beau est communément défini comme la caractéristique d'une chose qui au travers d'une expérience sensorielle (perception) procure une sensation de plaisir ou un sentiment de satisfaction ; en ce sens, la beauté provient par exemple de manifestations telles que la forme, l'aspect visuel, le mouvement, le son* ») [10].

Словарь Le Petit Robert выделяет еще один важный компонент концепта «красота»: красивая, привлекательная наружность, а также приводит примеры таких синонимов, как «сияние» и «величие» (*qualité d'une pesonne; majesté, splendeur)* [1, с.172].

Таким образом, анализ французских словарей показал, что данный концепт рассматривается, прежде всего, с позиций созерцателя (дарит удовольствие, является качеством человека).

**Средства выражения концепта «красота».** Основным лексическим средством выражения рассматриваемого концепта во французском языке является существительное «красота»:

*Révélez votre **beauté** depuis chez vous. Simplement. Efficacement. (Néolyst Cosmétique)*

*Пробудите Вашу красоту, не выходя из дома. Просто. Эффективно.*

*Soulignez votre **beauté**. (Guerlain)*

*Подчеркните Вашу **красоту.***

Семантика существительного в рекламном тексте позволяет говорить о следующих разновидностях его лексем. В первую очередь можно выделить лексические единицы, обозначающие прямое наименование рекламируемого товара, чтобы реципиент понял, что именно предлагает ему рекламное сообщение, и у него не возникало трудностей с расшифровкой рекламного текста, т.е. рекламном тексте могут употребляться слова, **прямо называющий товар:**

Eau de parfum Elevator Music BYREDO. Un parfum unique aux effluves de violette, de jasmine et de bamboo (Туалетная вода Elevator Music BYREDO. Уникальный аромат с ароматами фиалки, жасмина и бамбука); Avec la crème Blossom gagnez 10 ans d'âge (С кремом Blossom, помолодейте на 10 лет); а также лексические единицы, описывающие контекст его употребления. Это, например, лексемы, называющие **объект применения товара** (предмет, на который направлено его действие):

Les lèvres semblent plus douces - délicatement teintées d'un éclat mat. («Givenchy» rouge à lèvres) (Губы кажутся более чувственные – мягко окрашенные матовым блеском);

**результат применения**: Une peau protégée et sublimée (BB crème VICHY) (Великолепная и защищенная кожа);

**основания для применения**: En général, les pellicules sont provoquées par un

organisme microscopique, le pytiriasis. Ce champignon, généralement inactif, peut se mettre à proliférer sur certains cuirs chevelus. Lavez-vous les cheveux avec LOGONA, un shampooing bio et naturel anti-pelliculaire (LOGONA Shampooing Anti-Pelliculaire Genévrier) (Обычно перхоть

вызывается микроскопическим организмом, питириазом. Этот грибок, обычно неактивный, может начать размножаться на некоторых участках кожи головы. Вымойте волосы LOGONA, органическим и натуральным шампунем против перхоти); Hydrance optimale riche (AVENE EAU THERMALE) (Оптимально насыщенное увлажнение);

**целевую аудиторию**: «La masculinité dans sa forme la plus pure» (Calvin Klein) («Мужественность в чистом виде»); «Pour l'homme qui sait où il va» (Philéas) (Для мужчины, который знает куда идет).

**Ключевые слова, выражающие концепт красоты**. Слова, наиболее часто встречающиеся в рекламе и характеризующие объект рекламы, адресата и его действия являются ключевыми словами. Так, для рекламы косметических средств, ключевыми словами являются «здоровье», «забота», «красота»:

La beauté sans artifices. (Timotei)
Красота без обмана;

Le soin du corps passe à la vitesse supérieure! (Neutrogena)
Мгновенный уход за кожей тела!;

La santé passe aussi par la peau (Vichy)
Здоровье касается также и кожи.

Для рекламы парфюмерии ключевыми словами являются «аромат», «чувственность», «энергия»:

De l'Art de la Danse à l'Art du parfum il n'y a qu'un pas. (Repetto)
От искусства танца к искусству парфюмерии всего один шаг;

L'innommable sensualité que je contiens est trop parlante. (Serge Luthense)
Моя невыразимая чувственность говорит сама за себя;

Концепт «красота» является наиболее частотным в текстах реклам парфюмерной продукции. Использование этого концепта служит для передачи идеи о том, что покупка парфюма сделает его обладательницу более привлекательной для противоположного пола. Данный концепт реализуется главным образом через субконцепты, выражающие женственность, нежность, женщина.

Laissez-vous envoûter par Hypnôse eau de parfum, une fragrance énigmatique, captivante et mystérieuse. Hypnôse est le parfum d'une **féminité** qui fascine et attire irrésistiblement, et ne laisse personne indifférent. (Lancôme)

Позвольте себе быть очарованным парфюмированной водой Hypnôse, загадочным, чарующим и таинственным ароматом. Hypnôse — это аромат

**женственности,** который неотразимо очаровывает, притягивает и никого не оставляет равнодушным.

Un bouquet de **tendresse** unique. (Givenchy)

Букет уникальной **нежности.**

Pour une **femme** forte et audacieuse. (Yves Saint Laurent)

Для сильной и смелой **женщины.**

Часто во французских рекламных текстах употребляются разные формы прилагательного «красивый»: "C'est prouvé. Clairins rend la vie plus belle" (Clarins) («Это доказано. Clarins делает кожу красивее») ; « C'est super efficace pour rendre mes cheveux beau » (Forcapil Cheveux et ongles) («Это очень эффективно для того, чтобы мои волосы выглядели красиво»).

Прилагательные во французских рекламных текстах косметической продукции используются для характеристики внешности: magnifiques cheveux (великолепные волосы), yeux expressifs (выразительные глаза). За счет прилагательных в рекламах создается идеальный женский образ.

**Выводы.** В результате проведенного анализа было выявлено, что концепт «красота» является одним из основных концептов в рекламах. Этот концепт может быть выражен такими субконцептами, как чувственность, здоровье, забота. Концепт «красота» представляет собой образ, включающий такие элементы как здоровье, нежность, женственность. Концепт «красота» создаёт положительный образ товара, способствующий его продаже.

## ЛИТЕРАТУРА

1. *Le Petit Robert*. Dictionnaire de la langue française. Paris: Le Robert, 2003, 2949 p.
2. *Шангаева Н.К.* Проявление гендерного фактора во французских рекламных текстах // Вестник Бурятского государственного университета, вып. 11, Улан-Уде, 2012, с.128-131
3. https://www.calvinklein.fr/
4. https://www.clarins.fr/
5. https://www.givenchy.com/
6. https://www.lancome.fr/
7. https://www.sergelutens.com/fr/
8. https://www.vichy.fr/
9. https://www.yslbeauty.fr/
10. https://www.larousse.fr/index/dictionnaires/ang_esp/a/2

Redaksiyaya daxil olub 29.07.2022

***UOT 821.512.161***

***Ə.Ş.Baxşəliyev***
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*ehmedova_1984@bk.ru*

# SƏMƏD VURĞUNUN BƏDİİ OBRAZI ÖZBƏK DRAMATURGİYASINDA

***Açar sözlər:*** *pyes, süjet, mövzu, ideya, üslub*

Məqalədə özbək şairi Rəzzaq Əbdülrəşidin Səməd Vurğuna həsr etdiyi "Şeirə dönmüş ürək" adlı pyesi tədqiqata cəlb edir. Alim bu pyesi haqlı olaraq mövzu baxımından aktual, məzmunca dəyərli olduğunu göstərir.

Məqalədə göstərilir ki, pyesdə yaradılmış obrazlar qalereyasının hər bir surəti müəyyən fantaziya ilə bağlıdır. Yəni real adlar deyil, müəllifin əsərdəki adları (Səməd və Mehdixandan başqa) hamısı uydurma adlardır. Məqalə müəllifi qeyd edir ki, özbək şairi Azərbaycanın, xüsusilə Vurğunun doğulduğu Qazax rayonunun etnoqrafik xüsusiyyətlərini, milli adət-ənənələrini çox dərindən bilmiş və bu əsəri yazarkən həmin adət-ənənələrdən yerli yerində lazımı qədər istifadə etmişdir.

Məqalə müəllifi onu da qeyd edir ki, S.Vurğunun gəncliyinin sevda dolu səhifələri əsərdə tam dolğunluğu ilə canlandırılır. Tədqiqatçı həm də qeyd edir ki, belə romantik səhnələrdə pyesin müəllifi Rəzzaq Əbdürrəşid fantaziyası mühüm rol oynayır. Məqalə müəllifi eyni zamanda əsərin bədii nailiyyətlərindən, sənətin ecazkar qüdrətiylə ovsunlanmaqdan, sözün sehri ilə könülləri fəth etməkdən söz açır.

***А.Ш.Бахшалиев***

# ХУДОЖЕСТВЕННЫЙ ОБРАЗ САМЕДА ВУРГУНА В УЗБЕКСКОЙ ДРАМАТУРГИИ

***Ключевые слова:*** *пьеса, сюжет, тема, идея, стиль*

В статье анализируется пьеса узбекского поэта Раззака Абдулрашида «Душа, воплотившаяся в стихотворение», посвящённая Самеду Вургуну. Исследователь справедливо отмечает, что эта пьеса актуальна по теме и ценна по содержанию.

В статье показано, что каждый персонаж, входящий в галерею образов этой пьесы является плодом фантазии. То есть это не настоящие имена, имена авторов (кроме Самеда и Мехдихана) в произведении вымышленные. Автор статьи отмечает, что узбекский поэт очень глубоко знал этнографические особенности и национальные традиции Азербайджана, особенно Газахского района, где родился Вургун, и при создании этого произведения руководствовался этими знаниями.

Автор статьи также отмечает, что в произведении полностью оживлены страницы юности С.Вургуна, наполненные любовью. Исследователь также

отмечает, что в подобных романтических сценах важную роль играет фантазия автора пьесы Раззака Абдуррашида. При этом автор статьи рассказывает о художественных достижениях произведения, будучи очарован чудесной силой искусства, и покоряя сердца волшебством слова.

***A.Sh.Bakhshaliyev***

**LITERARY IMAGE OF SAMAD VURGUN IN THE UZBEK DRAMATURGY**

***Keywords:*** *play, plot, theme, idea, style*

The article analyzes the play of the Uzbek poet Razzak Abdulrashid "The soul, embodied in verse", dedicated to Samedu Vurgun. The researcher rightly notes that this play is relevant in terms of topic and valuable in terms of content.

The article shows that every character included in the gallery of images of this play is a product of fantasy. That is, these are not real names, the names of the authors (except Sameda and Mehdikhan) are fictional in the work. The author of the article notes that the Uzbek poet very deeply knew the ethnographic features and national traditions of Azerbaijan, especially the Gazakh region, where Vurgun was born, and was guided by this knowledge when creating this work.

The author of the article also notes that the pages of S.Vurgun's youth, filled with love, are fully animated in the work. The researcher also notes that the fantasy of the author of the play, Razzak Abdurrashid, plays an important role in such romantic scenes. At the same time, the author of the article talks about the artistic achievements of the work, being fascinated by the wonderful power of art, and conquering hearts with the magic of words.

## Giriş

XIX-XX əsrlərdə tarixi, siyasi, iqtisadi inkişaf yoluna daha tez qədəm qoyan Azərbaycan mədəniyyət sahəsində də böyük uğurlar qazanmışdır. Azərbaycan müasir teatr axtarışlarında bir qədər qabağa düşmüş və əldə etdiyi səmərəli təcrübəni türkdilli xalqlarla, o cümlədən, özbək xalqı ilə bölüşmüşdür. Əsrin başlanğıcında Özbəkistanda müasir teatr həvəskarları fəaliyyətə başladığı illərdə milli dramaturgiya yoxluğu, qıtlığı məqamında onlar azərbaycanlı müəlliflərin pyeslərini tərcümə edərək tamaşaya qoymuşdular.

Doğrudan da əsrin əvvəllərində bu ab-hava özbək ədəbi mühitində özünü göstərirdi. Təsadüfi deyildir ki, Özbəkistanın sevimli şairi Rəzzaq Əbdürrəşid böyük Azərbaycan şairini həmişə bir yaxın dost kimi, doğma qardaş kimi xatırlamış, hətta onun haqqında “Şeirə dönmüş ürək” adlı sanballı və orijinal bir pyes də qələmə almışdır. Özbək şairi Rəzzaq Əbdürrəşid bu pyesdə Səməd Vurğunun həyat və yaradıcılığının bir neçə maraqlı cəhətlərinə toxunmuşdur.

**Əsas hissə**

Səməd Vurğunun bədii obrazı dramaturgiya janrında da özünəməxsus bir yerə malikdir. Türk xalqları ədəbiyyatı içərisində Səməd Vurğuna həsr olunmuş bu janrda yaranan əsərlər də mövcuddur. Özbək müəlliflərindən Rəzzaq Əbdülrəşid öz pyeslərinin birində Səməd Vurğuna həsr etdiyi "Şeirə dönmüş ürək" adlı radio-pyesini qələmə almışdır. Böyük Azərbaycan şairi Səməd Vurğun haqqında yazılmış bu sənədli radio-pyes xalq şairi Xəlil Rza Ulutürk tərəfindən Azərbaycan dilinə tərcümə edilərək oxuculara çatdırılmışdır. Bu pyesdəki hadisələr Səməd, Mehdi, Aşıq Şəmşir, Leyla, Nənə, Təbib və digər obrazların dili ilə nəql olunur. Müəllif əvvəlcə Azərbaycan şairi Səməd Vurğunun poeziyadakı uğurlarından, şan-şöhrətindən danışır. Şairin xəstəliyi ilə apardığı gərgin mübarizəsindən, dönməz iradəsindən pyesdə bəhs olunur. Pyesdə eyni zamanda qardaşı Mehdixan Vəkilovun onun yanına gəlməsi, xəstə yatdığı günlərdə ona ürək-dirək verməsi, ona dayaq olması, kənddən-kəsəkdən, eldən-obadan ona xəbər gətirməsi, şairin xəyalən gənclik illərinə, sevdalı çağlara qayıtmasından söhbət açır. Nənəsi ilə görüşləri, Dədə Şəmşirlə dostluq əlaqələri saz tutub, söz qoşması bu pyesin leytmotivini təşkil edir. Rəzzaq Əbdürrəşidin bu pyesdəki üstünlüyü ondan ibarət idi ki, o, əsərin gedişatında Səməd Vurğunun əsərlərindən yeri gəldikcə istifadə edir ki, bu da hər şeydən əvvəl əsərin daha canlı, daha dolğun alınmasına xidmət etmişdir. Əlbəttə, bu nəcib yaradıcılıq keyfiyyətləri oxucuda yüksək zövq, xoş ovqat aşılayır. Onu mənən və ruhən yeniləşdirir və onda yüksək mənəvi zənginlik yaradır. Bu pyesdə həmçinin M.P.Vaqifin, Aşıq Ələsgərin, Aşıq Şəmşirin qoşmalarından da yeri gəldikcə istifadə edilmişdir. Bu da onu göstərir ki, özbək şairi Rəzzaq Əbdürrəşid Azərbaycan ədəbiyyatına, xüsusilə onun poeziyasına və folkloruna yaxından bələd imiş. Səməd Vurğunun poeziyasını isə daha çox sevmiş, bu poeziyaya yüksək rəğbət və ehtiram bəsləmişdir.

Rəzzaq Əbdürrəşidin qələmə aldığı bu pyes aftoqrafik bir mahiyyət kəsb edir. Bu pyesi oxuyan hər kəs də şairin həyat və yaradıcılığı haqqında bütöv bir məlumat yaranır. Oxucuda onun poeziyasından gətirilən nümunələr şairin xoş ovqat, səmimi şeirləri ilə oxucusunu tanış edir.

Pyes Mehdinin (Mehtixan Vəkilovun bədii obrazı) Səmədgilin evinə gəlişinin təsviri ilə başlanır. Mehdinin səsinə bir qadın cavab verir. O qadın Mehdini içəri mənzilə dəvət edir. Mehdi qadınla söhbətində şəhərə gəlişindən, işlərinin çoxluğundan söz açır və onu da bildirir ki, işi nə qədər çox olsa da, Səmədi görmədən getməyəcəyini qadına söyləyir. Qadın Səmədin bir az kefsiz olduğunu Mehdiyə bildirdikdə, o, pəjmürdəhal olur. Səməd olan otağa keçir. Bu zaman Səməd zəif bir səslə təzə yazacağı şeirlərdən birinin misralarını dodağı ucunda pıçıldayırdı. Pyesdə Mehdi ilə Səmədin uzun-uzadı etdikləri söhbət təsvir edilmişdir. Bu söhbət əsasında Səmədin kənd-kəsəklə, el-oba ilə, qohum-əqraba ilə, cocuqlarla maraqlanması təsvir olunur. Onlar da öz uşaqlıq illərinə

qayıdaraq, o unudulmaz, şirin çağları bir də yada salır, bir də xatırlayırlar. Söhbətin bu məqamında Mehdi ona daha da əzimli və iradəli olmağı, xəstəliyin əlinə yaxa verməməsini tövsiyə edir. Ona bir şair kimi səcdə etdiyini və onun şöhrətinin bütün dünyaya yayıldığını Səməd Vurğuna bildirir. Hətta onun bir qəzəlini də sazın müşayiəti ilə söyləyərək Vurğunun könlünü şad edir: "Bu gün şeirimizin pələngisən.

Vurğun: – Qoy görək, küyə basma! (gülümsəyir).

Mehdi: – Mən zarafat eləmirəm. Sənin kimi Arslana xəstəlik, sayruluq neyləyə bilər? Dərdə təslim olmaq şairə yaraşmaz!

Vurğun: – Düz deyirsən, dostum, həyat bizə öyrədib ki, səngər tutaq, cəbhəni əldən verməyək. Bəli, Mehdi bəy, hələ təslim olmaq fikrində deyiləm. Ancaq fikrə dalanda görürəm ki, dünya ilə əlaqəm, söhbətim indi yalnız bu pəncərə sayəsindədir. Otaq bir az sıxır məni.

Mehdi: – Bunlar keçib gedəcək.

Vurğun: – Bəlkə də. Ötüb keçəcək, amma haçan? Həkimlərin nəzarətindən haçan qurtula biləcəm? Özün dediyin kimi, mən insanlara qaynayıb-qarışmağa öyrənmişəm. Ova, səyahətə eşqim böyükdür. Kənd-kənd, oba-oba gəzmək, yurddaşlarımı görmək, bir-iki ağır şirin söhbət eşitmək həsrətindəyəm. Lakin çıxa bilmirəm.

Mehdi: – İnşallah, tezliklə çıxarsan.

Vurğun: – Bəlkə də.... Amma bu sözlərimi şikayət bilmə. Mən hələ əllərimi qoynuma qoymamışam. Nəğmələrim var, hələ könlümdəki şeir nəhrləri qurumayıb. Onun dalğalarında əl-qol atıram hələ. İlhamın köməyi ilə bu dalğaları kağıza köçürürəm. Özün görürsən ki, başqa bir aləmə tələsmirəm.

Mehdi: – Çox gözəl!

Vurğun (fikirli): – Gördüyün arslana bənzəyirəmmi!

Mehdi: – Bənzəmək az olar, arslanımızsan.

Dostlar, badələri qaldırın içək,
Gecə ulduzludur, hava da sərin.
Demirəm məst olub dünyadan köçək,
Deyirəm mehriban düşüncələrin,
İsti qucağında qızınaq bir az.
Qoy uzansın gecə, geciksin səhər,
Yuxuya getməsin məclisdəkilər.
Mənim söhbətimdən yorulmaq olmaz.
Hələ yer üzündə insan yanında,
Deyib danışmaqdan doymamışam mən.
Uzadaq ömrünü hər bir anın da,
Yel kimi keçməsin vaxt üstümüzdən,
Bu aylı gecədə, bu dağ döşündə,
Bu sazlı söhbətli bulaq başında

Bu saat, bu dəm,
Heç yerə, heç yana, mən tələsmirəm (7, s.141).

Rəzzaq Əbdürrəşidin bu pyesindəki Səməd Vurğun yaradıcılığından götürdüyü bu say-seçmə şeirlər pyesə xüsusi bir dərinlik və poetik siqlət gətirir. Həm də özbək müəllifinin Vurğun yaradıcılığına necə də dərindən bələd olduğunu göstərir. Şairin ən məşhur və dillər əzbəri olan şeirlərini pyesin gözünə qatmaqla əsərlərin poetikasını, oradakı xəlqilik ruhunu bir daha artırır, ona xüsusi ahəngdarlıq, harmoniya, yüksək şeiriyyət bəxş edir. Məhz pyesin sambalı və kamilliyi də buradadır. Əsərdə Vurğunla Mehdi arasındakı digər dialoqlar da maraqlıdır. Bu hissədə Mehdi şairin böyüklüyündən, dünya şöhrətindən danışsa da, Səməd ömründən ötən 50 ildə xalqı üçün nə etdiyindən, xalqın ulu tarixinə nə verdiyindən söhbət açır. Təşnəsi olduğu gənclik illərinə xəyalən bir də qayıdır. Mehdiyə deyir ki, o illərə dönək, o çağları bir də yaddaşımızda çözələyək. Bir xatirəyə dönmüş o günlərimizi bir daha vərəqləyək. Şair hətta qəzəlindən son beytləri də sazın üstündə söyləyir. Mehdi isə məhz elə bu qəzəlin bütün toylarda oxunduğunu, bu qəzəlsiz bir toy da ötüşmədiyini böyük fəxarət hissi ilə qeyd edir.

Mehdi: – Sərraflar düz deyiblər ki, böyük şairlərin şeirlərində dəniz dərinliyi var. Doğrudan da bu cür əsərlərin şeiriyyəti o qədər pakdır ki, hər oxuyanda yeni-yeni məna cilvələri tapırsan.

Vurğun: – Çoxdan bəri xəyalların hökmündəyəm. Bu gün əlyazmalarımı qarşıma qoyub xeyli fikirləşdim, ömrün dərslərini düşündüm.

Mehdi: – Nə düşündün söylə, biz də bilək.

Vurğun: – El dilində məsəl var: “Hesablı dost ayrılmaz”. Düzdürmü? İndi bax, yaşım əlliyə yaxınlaşır, saçlarıma qırov düşür. Çox gəzmişəm. Çox görmüşəm. Yaxşı, bu əlli il içində həyatdan nə aldım, əvəzində nə verdim, xatirəyə, nağıla çevrilən çağında adımı yaşatmağa nəyin qalacaq? Elə bilmə mən xəyal düşgünüyəm, biz realist kişilərik. Bu gün olmasa da, sabah tarixə dönəcəyik. O zaman ortada layiqli nəyimiz qalacaq? Bu barədə düşünürəm. Bu işıqlı dünyaya gəlişimin bütün səbəbkarlarına borcluyam. Atam Yusif ağa Hacıməmməd oğluna, Anam Məhbubə xanım Mehdixan qızına, məni yetimlik çəkməyə qoymayan dövrümüzə, məni şair eyləyib gözü üstündə yer verən elimizə borcluyam. Çox borcluyam bu dünyaya.

Mehdi: – Sən borcunu yeyib üstündən su içənlərdən deyilsən, Səməd! Bütün yaradıcılığın bunu sübut edir.

Vurğun: – Bayaqkı qəzəlimi oxuyub həyəcanımı artırdım, çox şeyləri yadıma saldım (gülümsəyir). Gəl, bu gün eyni mövzuda konuşaq. Ömrün cığırlarıyla qayıdaq gəncliyimizə, yaxşımı?

Mehdi: – Yaxşı. (Vurğun xəyallı, həyəcanlı sazı götürür, bayaqkı qəzəlin ardını oxuyur).

Sus, ey bülbül, kəs ey tufan,
Məramım istirahətdir.
Bu yerlərdə payım yoxmuş,
Əlacım bir səyahətdir.
Ölüm! Eyvah, o neymətdir,
O bir canlı səadətdir,
Əgər vaxtsız ölər isəm,
Rəqibim bəxtiyar olsun.

Mehdi: – Oxumamışam, oxuyanların dilindən eşidib yadımda saxlamışam. Elə bir toyumuz məclisimiz olurmu ki, bu qəzəlsiz sovuşsun?

Vurğun: – Deyilən söz atılan oxa bənzər. Xalqın müdrikliyinə mən bir daha iman gətirirəm (7, s.151).

Onu da qeyd etmək yerinə düşər ki, Rəzzaq Əbürrəşid bu pyesdə "əsl şair necə olmalıdır" ideyasını öz güclü fantaziyasına qovuşduraraq təqdim etmişdir. Şair təvazökarlığı, vətənə bağlılığı, şairin tarixə nə verməsi və s. müddəalar pyesdə yer almışdır.

Pyesin əsas süjet xətti Səmədlə Mehdi arasındakı dialoqdan ibarətdir. Bu söhbətin axarında Səmədin saz və skripkanı gözəl bir şəkildə dinləndirməsindən söhbət açılır. Səməd saz sənətinə belə qəlbən bağlandığını, atasının saz çalmaq məharətindən pərvəriş tapdığını, qanadlandığını etiraf edir. Xəyallar qanadında o günlərə geri dönür. Eləcə də şair illərin axarına qoşularaq ötən çağlarına – gənclik çağlarına, sevdalı məqamlara səyahət edir. Pyesdə təsvir olunan bu detallar, onu göstərir ki, pyes müəllifi şair Səməd Vurğunun həyatındakı ən incə məqamları öyrənərək onu pyesin məzmununa daxil etmişdir. Pyesin daha bir maraqlı cəhəti də ondan ibarətdir ki, bu xatirələr içərisində o, hələ 11 yaşında olarkən 28 may Cümhuriyyət gününü xatırlaması idi. Milli dövlətçiliyimizin, Cümhuriyyətin qurulduğu günü nəzərindən keçirir. Xalqın azadlığa qovuşma səadətini yad etməsindən ibarət idi. Təsvir edib göstərdiyimiz bu mənzərəni özündə yaşadan, canlandıran bir parçanı nəzərdən keçirmək təqdirəlayiqdir: "Vurğun: – Bu saz mənim 50 illik könüldaşımdır, atamdan qalıb. Atam bunu bağrına basıb həzin-həzin çalardı, bir küncdə dayanıb dinləməyi mən neçə xoşlayırdım. Rəhmətliyin qiyafəsi hələ də gözümün önündədir. Gözlərini azca yumar, boynunu bükər dodaqlarını dişi ilə azca sıxarmış kimi çalardı. Ürəyindən nələr keçdiyi təkcə özünə əyan idi. Ancaq onun çaldıqlarını dinlərkən hönkürüb ağlamaq istərdim. Axşamlar onu dinləyərkən xəyal qanadlarında uzaqlara uçardım. Bəzən varlığıma bir asimanlıq işıq doğar, bəzən də başımın üstündə qara buludlar oynaşardı. Atamın həsrətini çəkəndə bu saz dadıma yetir.

Və ya başqa bir parçanı göz önündən keçirək.

Vurğun: – Vurğunluğu təkcə sazla bağlama. Vurğunluğumun tarixi özgədir. Sazdan başqa çox şeylərə aşiq oldum. Səni bilmirəm, Mehdi bəy,

amma mən yeniyetməlik çağımızı tez-tez anıram. Gəncliyimiz qızğın alovlu illərə düşdü. On-on bir yaşında ikən üzümüzə 28 may günəşi doğdu. Yoxsulların komasına işıq doldu, bəylər, ağalar dünyasına od vuruldu. Min illər boyu mürgüləyən yorğun, yeknəsək dünya təzə həyat görmək eşqi ilə yenidən canlandı, nəğmələr üstündə qanadlandı. Adamlar öz gələcəyini aydın görməyə başladılar. Cəbhələrdə döyüş marşı gurladı. Həmin illərin öz cingiltisi, öz atəşi ilə dolu türküləri vardır.

Əlbəttə, bu, özbək şairinin nəinki Azərbaycanın söz-sənət sərraflarına, eləcə də onun möhtəşəm tarixinə bələdçiliyi bu pyesin ictimai-siyasi ruhunu ortaya çəkir, müəllifin yaradıcılığının ideya-bədii istiqamətlərini bir daha müəyyənləşdirməyə xidmət edir, pyesin sambalını nümayiş etdirərək, oxucuda yüksək ruh aşılayır.

Pyesdə başqa bir səhnəni nəzərdən keçirək. Əsərin bu yerində səhnədə Bəsti nənə görünür, öz nəvəsinə dua edərək, ona dinclik və rahatlıq verməyən fələyin gərdişinə küfr oxuyur. Allahdan nəvəsinə xoş gün, xoş güzəran diləyir. Səmədin ayaq səslərini eşidən Bəsti nənə ona müraciət edərək özünün sevgi dolu hisslərini nənəsinə bildirir:

“Bəsti nənə: – Ey pərvərdigar, sən bir yetimin başına nə qədər bəla gətirirsən. Bu ölkədə gör nə qədər yaman adamlar var. Fırıldaqçılar, əqrəblər, başkəsənlər var! Nə üçün qəzəbini onların üstünə tökmürsən? Gəlib yumruq boyda uşağa gücünü göstərirsən. Vay, küfrə batdım. Mən başı batmış gör nələr deyirəm. Dilim-ağzım qurusun. Özün keç suçumdan, Xudaya! Nəvəmə rəhmin gəlsin, Səmədimə səbir ver, onu şeytan vəsvəsəsindən gözlə. Özün ona ağıl, kamal əta qıl. Səməd, əziz balam gəldinmi? Yarı canım yanında idi, quzu balam.

Səməd: – Çox gəzmişəm, nənə, çox gəzmişəm.”

Səmədin məyusluğu nənəni narahat edir. Onun saz çalmasını, oxumasını qınayır. Səməd nənəsinin giley-güzarına cavab olaraq saz çalmağına görə onu tənbeh etdiyinə görə saz çalmağın nə vaxtdan günah sayılır, dedikdə nənəsi ona saza görə yox, el içində qızlar arasında onun barədə söz-söhbət yayıldığını bildirir. Nənə Səmədə Araz bəyin qızı Leylaya şeir, qəzəl qoşub, onun arxasınca düşdüyünü bildirdikdə, Səməd Leylanın ağıllı qız olduğunu nənəsinə söyləyir. Araz bəy buna heç bir vəchlə razı olmayacağını nəvəsinə desə də, Səməd öz fikrində israr edir, öz fikrindən dönmür:

Səməd: – Məgər xəyala dalmaq, saz çalmaq yaman işdir?

Bəsti nənə: – Saz çalmağını yamanlamıram. Qızların, gəlinlərin dilindən xoşagəlməz sözlər eşidirəm. (Səməd heyrət içində) – O nə sözdür, nənə?

– Deyirlər sən Araz bəyin qızı Leyla xanıma aşiq olmusan. Ona şeir, qəzəl qoşub ardınca deyirsən, düzmü?

– Səməd sıxılaraq: Nənə, özün bilirsən ki, qadınlar zarafatcıl olublar. Leyla yaxşı qızdır nənə. Görsəniz özünüz də aşiq olacaqsınız.

– Bəsti nənə ayılmış kimi: – Yaxşı qız olmağına sözüm yox. Axı sənin ağzından süd iyi gəlir. Nə üçün evdə, çöldə haqqında bu cür söhbətlər getsin. Səməd: – Dünyanın gözəlliyi uşağa da halaldır, böyüyə də.

Ondan zövq ala bilmək səadətdir, ay nənə. Mən heç bir yaman söz deməmişəm. Leyla doğrudan da gözəldir.

Bəsti nənə: – Sən böyüyü kəsib kiçik eləmək istəyirsən bala. Axırı xeyir olsun, Ancaq bu sözümü yadda saxla, Araz bəy dövləti başından aşan bir cahangir kişidir. Qətiyyən razı olmaz ki, qızının adı sənin adınla qoşa çəkilsin. Bu söhbətlər onun qulağına çatmamış ağlını başına yığ. Sən biçarə yetimsən, balasan. O, dünyaya sıxmaz havalı bir dövlətli. Yorğanına görə ayağını uzat, başımıza bəla gətirmə.

Səməd: – Qorxma nənə, səni bəlaya salmaram” (7, s.153).

Pyesdə göstərilir ki, hətta Mehdi də bu söhbətə müdaxilə edərək, bu sevdanın sonu ilə maraqlanır. Pyesdə yaradılmış obrazlar qalereyasının hər bir surəti müəyyən fantaziya ilə göstərilir, yəni real adlar deyil, müəllifin əsərdəki adları (Səməd və Mehdidən başqa) hamısı uydurma adlardır. Bu pyes avtobioqrafik bir əsər adlandırıla bilər. Maraqlı cəhət burasındadır ki, özbək müəllifi Azərbaycanın, xüsusilə Vurğunun doğulduğu Qazax rayonunun etnoqrafik xüsusiyyətlərini, milli adət-ənənələrini çox dərindən bilmiş və bu əsəri yazarkən həmin adət-ənənələrdən yerli-yerində lazımi qədər istifadə etmişdir. Bu da, əlbəttə, əsərin daha real alınmasına dəlalət edir. Pyesin bir hissəsi isə romantik duyğularla daha zəngindir. Vurğunun gəncliyinin sevda dolu səhifələri tam dolğunluğu ilə canlandırılır. Şairin xəyali söhbətləri əks olunur. Əlbəttə, bu səhnədə özbək şairi Rəzzaq Əbdürrəşidin fantaziyası da mühüm rol oynayır. Eyni zamanda burada sənətin ecazkar qüdrəti ilə ürəkləri ovsunlamaqdan, sözün sehri ilə könülləri fəth etməkdən söz açılır. Şairanə duyğuların təntənəli, şəhanə bir qələbəsinin möhtəşəmliyindən danışılır. Vurğunun sevgilisi Leyla ilə zəngin romantika ilə dolu söhbəti əsərdə xüsusi önəmli bir məzmun daşıyır. Belə ki, pyesdə iki sevgilinin romantik dialoqu bu qarşılıqlı məhəbbətin böyüklüyü və əzəmətini bir könül təranəsinə çevirərək şaqraq ahəngi ilə şair qəlbini ehtirasa gətirir. Bu təranəyə Vurğunun şeirləri qoşularaq daha möcüzələr yaradır və könülləri diqqətə gətirir. Tamaşaçı duyğularını təlatümlü bir dənizə çevirir. Lirik bir mənzərə yaradan bu səhnələr pyesin şirinliyini birə-beş artırır:

“Leyla: – Yaşa, Səməd! Sən sazı dinləndirəndə bütün aləm diqqət kəsilir.

Səməd: – Sənsənmi Leyla?

Leyla: – Mənəm Səməd. Sən axşamlar hamımızı əfsunlayırsan.

Səməd: – Səni də mi Leyla?

Leyla: – Bəli, məni də. Türküləri, şərqiləri çox sevirəm mən. Bayatıları dinləməkdən doymuram, amma sən qəmli havaları çox çalırsan. Sənin sazın

məni yandırıb yaxır. Oxuduğun şeir gözəldir. Özünmü yazmısan?

Səməd: – Yox, Leyla oxuduğum şeir M.P.Vaqifin qoşmasıdır.

Leyla: – Aha bildim. Sən mənə öz şeirlərindən oxu. (Səməd nazlanaraq) – Səni eşitmək istəyirəm:—

Yenə qılıncını çəkdi üstümə,
Qurbanı olduğum o ala gözlər
Yenə cəllad olub durdu qəsdimə,
Qələm qaş altından piyalə gözlər.

Leyla: – Şeirin gözəldir Səməd! Deyirlər özünə Vurğun ləqəbi seçmisən hə Səməd! (Gülümsəyir). Nədən doğdu bu yeni ad.

Sən kimin aşiqisən, kimin vurğunusan Səməd?

Səməd: – Bu sirdir Leyla.

Leyla (gülümsəyərək): doğrudanmı, düzünü de görək, bu adla ovsunlu şeirləri kimə qoşmusan?

Səməd: – Desəm, inciməzsən ki, Leyla.

Leyla (heyrətlə): – Yox. Niyə inciyirəm ki, lirik axarda təsvir olunan bu hadisələr tamaşaçını bir anda belə böyük heyrətə salır, onları əsərə – səhnəyə daha möhkəm bağlayır. Bu səhnə əsəri özbək müəllifinin S.Vurğunun romantik, lirik düşüncələrini sanki özü yaşayır. Bu təbiilik səhnədə nümayiş etdirilən əsərə xüsusi gözəllik və canlılıq gətirir. Özbək şairinin Səməd Vurğunun məxfi dünyasına bələdçiliyi bir daha nümayiş olunur. Bu, eyni zamanda Özbək şairinin böyük məharəti idi ki, belə bir səhnə əsəri qələmə almış xalqına çatdırmış. Bu əsər pyes janrında qələmə alınsa da belə bu janrda olan gərginlik dramatizm gözə çarpmır, əksinə dərin lirizm, axıcılıq, romantik əhval-ruhiyyə bu əsərin əsas qayəsini təşkil edir. Özbək müəllifi səhnədə lirik səhnələr bolluğu yaradır. Əsərin lirik ovqatını daha da zənginləşdirir. Səmədlə Leyla arasındakı lirik mükalimə buna canlı sübutdur:

Səməd: – Bu şeirləri sənə qoşmuşam Leyla! Mən sənin Vurğununam Leyla!

Leyla: – Vay (öncə tərəddüd edir sonra köks dolusu qəhqəhələr içində uğunub gedir, qaçır. Ardınca "Leyla!", – deyə Səməd baxa-baxa qalır, Səməd sazı sinəsinə basaraq) (7, s.155).

Xumar-xumar baxmaq göz qaydasıdır,
Lalə tək qızarmaq üz qaydasıdır.
Pərişanlıq zülfün öz qaydasıdır
Nə badi, Səbadan, Nə şanədəndir.

Ah, Leyla, niyə qaçıb getdin? Heç bilmədin ürəyimdə sənə deyiləsi nələr var. Kimin Vurğunusan? Doğrudanmı, bilmir kimin Vurğunuyam. Ya bəlkə sınayır? Niyə gülüb qaçdı? Niyə bir ağız söz ilə cavab vermədi? Bəlkə həyəcanlandı? Bəlkə incidi? Kimin vurğunu ola bilərdim ki? Gözümü açdım, səni gördüm. Səni görən gündən gözüm açıldı. Saz çaldım, kökü, pərdələri sən

oldun. Şeir yazdım, vəzni ruhi sən oldun, beynimə qəlbimə ömrümə doldun. Könlümə doğulan türkilərin anası Leyla!"

Bu əsərdə güclü şair təxəyyülündən, sənətkar fantaziyasından istifadə edilməsi oxucuya və dinləyiciyə açıq-aydın görünməkdədir. Əlbəttə, bu da əsərin xeyrinədir. Bu radio pyesində Səməd Vurğunun anaya olan tükənməz sevgi və istəyi də yer alır. Onun anasının ziyarətinə getməsi, nənəsi ilə anası haqqındakı söhbətlərində bu, bir daha üzə çıxır. Bu səhnədə eyni zamanda nənənin Vurğuna tövsiyə və nəsihətləri mühüm yer alır. Bununla da nəvəyə olan təəssübkeşliyi üzə çıxır. Bu tövsiyələr əlbəttə, Vurğun üçün onun yollarına işıq saçan bir çıraq idi. Nənə eləcə də Vurğunun Leylaya olan sevgisini də tənbeh edir. Səmədi atıb başqasına ərə getdiyi üçün onu danlayır.

Leylanın bu hərəkəti nə üçün bir qınağa çevrilir: "Bəsti nənə: – bir halda ki, sənə ana əvəziyəm deməsən də, dərdin mənə ayandır. Sən Leylanı düşünürsən gecə-gündüz, onun fikriylə çırpınırsan.

Beləliklə, deyə bilərik ki, türk xalqları ədəbiyyatında Rəzzaq Əbdürrəşidin "Şeirə dönmüş ürək" pyesi S.Vurğun haqqında yazılan ən məşhur bir sənət nümunəsidir.

**Nəticə**

Rəzzaq Əbdürrəşidin qələmə aldığı bu pyes avtobioqrafik bir mahiyyət kəsb edir. Bu əsəri oxuyan hər kəsdə şairin – Səməd Vurğunun həyat və yaradıcılığı haqqında zəngin bir məlumat yaranır. Bu da onu göstərir ki, Rəzzaq Əbdürrəşid Azərbaycan ədəbiyyatına, xüsusilə onun poeziyasına və folkloruna yaxından bələd imiş. Səməd Vurğun poeziyasını isə daha çox sevmiş, bu poeziyaya yüksək rəğbət və ehtiramını bəsləmişdir.

## ƏDƏBİYYAT


1. *Arzumanlı V.* Ədəbiyyata qovuşan sənət. Bakı: Gənclik, 1976, 112 s.
2. *Aripov A.* Qardaşlıq əlaqələri bayramı. "Kommunist" qəz., Bakı, 1975, 2 oktyabr
3. Cəfərzadə Ə. Ustad Qafur Qulamla görüş. "Ədəbiyyat və incəsənət" qəz., Bakı, 1979, may
4. *Qulam Q.* Ömrün baharında. Bakı: Yazıçı, 1979, 96 s.
5. *Muxtar Ə.* Qardaşlıq əlaqələri. "Ədəbiyyat və incəsənət" qəz., Bakı, 1980, 30 may
6. *Nəzrullayev N.* Dost sözü, qardaş sözü // Ulduz, 1975, №10, s.47-48
7. *Rəzzaq Ə.* Şeirə dönmüş ürək. Bakı: Yazıçı, 1979, 155 s.
8. *Ulutürk X.R.* Turan çələngi. Bakı: Elm, 1992, 792 s.


Redaksiyaya daxil olub 29.07.2022

*UOT 82-09*

***S.B.Quliyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*sevinc0610@mail.ru*

# NATƏVANIN QƏZƏLLƏRİNDƏ BƏZİ POETİK FİQURLARIN İŞLƏNMƏ TEXNİKASI

***Açar sözlər:*** *Qarabağ ədəbi mühiti, poeziya, klassik şeir, ənənə, Natəvan, bədii fiqurlar, təşbih, tosif*

Azərbaycan klassik poeziyasının, bədii düşüncənin, xalq ruhunun, şeir dilinin ən səciyyəvi cəhətlərini yaradıcılığında yaşadan sənətkarlarımızdan biri də qadın şairəmiz Xudşidbanu Natəvandır. Poetik duyğularını əsasən qəzəl janrında qələmə alan Natəvan Füzuli ədəbi məktəbinin yeni bədii zövqün formalaşmağa başladığı XIX əsrdəki davamçılarındandır. Ədəbiyyat və sənət bilicilərinin böyük əhəmiyyət verdikləri və şeir yaradıcılığının əsas keyfiyyəti hesab olunan poetika sənətinin incəliklərinə dərindən yiyələnmiş şairənin əsərləri maraqlı örnəklərlə zəngindir. Onun qəzəllərində ənənəvi poetik obrazlarla yanaşı, özünün yaradıcı təfəkkürünün məhsulu olan, həm məna, həm də söz baxımından maraqlı, diqqəti çəkən, orijinal sənət gözəllikləri vardır.

Məqalədə daha çox Natəvanın şeirə gətirdiyi yeni poetik obrazlar, bənzətmə və bədii təyinlərdən, eləcə də digər təsvir və ifadə vasitələrinin işlənmə texnikasından bəhs edilmişdir.

***С.Б.Гулиева***

# ТЕХНИКА ОБРАБОТКИ НЕКОТОРЫХ ПОЭТИЧЕСКИХ ФИГУР В ГАЗЕЛЯХ НАТАВАНА

***Ключевые слова:*** *Литературная среда Карабаха, поэзия, классическое стихотворение, традиция, Натаван, художественные фигуры, ташбих (сравнение), тосиф (описание)*

Одним из мастеров, олицетворяющих в своем творчестве самые характерные черты азербайджанской классической поэзии, художественной мысли, духа народа, языка стихотворения, является наша поэтесса Хуршудбану Натаван. Свои поэтические чувства Натаван, в основном, написала в жанре газеля, и является продолжателем литературной школы Физули в XIX веке, в которой формировался новый художественный стиль. Произведения поэтессы, овладевшей всеми тонкостями искусства поэзии, богаты интересными примерами, которые высоко ценятся знатоками литературы и искусства и считаются основным качеством творчества стихов. В ее газелях наряду с традиционными поэтическими образами, имеется оригинальная художественная

красота, являющаяся продуктом ее творческого мышления, привлекающая внимание, как в смысловом, так и словесном плане.

**S.B.Guliyeva**

## DEVELOPMENT TECHNOLOGY OF SOME POETIC FIGURES IN NATAVAN'S GHAZAL

***Keywords:*** *Garadagh literary environment poesy, classic poem, tradition, Natavan, artistic figures, allusion, tosif*

Khurshudbanu Natavan is a woman poet who keeps alive in he creative the most characteristic features of the classical poetry, artistic thinking, spirit of the people of Azerbaijan. Natavan who writes her poetic feelings in ghazal genre is a follower in XIX century when a new artistic taste of Fuzuli's literary school began to be formed. The works of the poet that is considered the main quality of the poetry creation and that is given importance by the connoisseurs of literature and art is reach with an interesting patterns. There are interesting both in meaning and from word view point, the attractive, original art beauties that are the product of her creative thought along with the traditional poetic images in her ghazals.

XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Xan qızı Xurşidbanu Natəvan müqtədir nümayəndələri və örnəkləri olan klassik poeziyanın zəngin ənənələrini yeni dövrdə yaşadan və davam etdirən, yeni çalarlarla təravətləndirən ən səciyyəvi sənətkarlarımızdandır. Natəvanın yaradıcılığından qalmış nümunələr şairənin klassik Şərq ədəbiyyatına, onun elmi-nəzəri incəliklərinə, poetika qanunlarına dərindən bələd olduğunu, doğma ana dili ilə yanaşı, fars dilini (Natəvan üç dildə – Azərbaycan, fars və fransız dillərində sərbəst danışa bilirdi) də zərif, məntiqi baxımdan cəlbedici bədii fiqurlar yarada biləcək qədər mükəmməl bildiyini göstərir. Təbii ki, Xudşidbanu Natəvanın bir şairə kimi yetişməsində, dünyagörüşünün formalaşmasında Qarabağ ədəbi mühitinin və onun görkəmli nümayəndələrinin, səfər etdiyi vilayət və şəhərlərdə görüşdüyü, ünsiyyətdə olduğu sənətkarların da böyük rolu olmuşdur. Şairə "Məclisi-üns"ün yığıncaqlarında fəal iştirak etmiş, dövrünün şeir bilicilərinin sənətə dair fikirləri ilə tanış olmuşdur.

Azərbaycan ədəbiyyatının əsas aparıcı qollarından olan Qarabağ ədəbi mühitinin ədəbiyyat tariximizdəki yerindən, rolundan, təsir dairəsindən və görkəmli nümayəndələrindən bəhs edən filologiya elmləri doktoru Qurban Bayramov onun qədim tarixindən də bəhs edir: *"Azərbaycan-türk mədəniyyətində, ədəbiyyatında bir sıra faktların ilkinliyi, ilk başlanğıcı, bünövrəsi etibarilə Qarabağ əbədi mühiti ilə bağlı olduğunu müşahidə edirik. Yazılı ədəbiyyatda hələlik elmə məlum olan ilk azərbaycanlı şair, qarabağlı söz ustadı, VII əsrdə yaşayıb-yaratmış Dəvdəkdir, ilk Qarabağ-Alban tarixçisi və*

*Dəvdək haqqında məlumat verən də Bərdəli Musa Kalankatukludur (Kolanqatlı, VII əsr)"* (6, s.125).

Qeyd edək ki, zəngin keçmişi olan Qarabağ ədəbi mühiti Vaqifdən sonra daha da çiçəklənmiş və ümumiyyətlə, şairin yaradıcılığı ilə Azərbaycan ədəbiyyatına yeni ruh gəlmiş, yeni poetik zövq formalaşmışdır. Təsadüfi deyil ki, Azərbaycan ədəbiyyatında Məhsəti Gəncəvidən (XII əsr) sonra ilk qüdrətli qadın şairə Xurşidbanu Natəvan da məhz Qarabağ ədəbi mühitində yetişmişdir.

Azərbaycan tarixində həm də bir ictimai xadim, gözəl tikmələri və rəsmləri olan sənətkar kimi iz qoymuş Natəvanın lirik şeirləri onun poetik istedadı ilə yanaşı, dövrü üçün mütərəqqi, maarifçi ideyalara sahib olduğunu göstərir.

Lakin təbii ki, çox vaxt onu qələmə sarılmağa, nicatı şeirdə tapmağa sövq edən qəlbini riqqətə gətirən duyğular, vətən həsrəti, övlad nisgili, nakam qalmış sevgi dastanı, müasirləri tərəfindən anlaşılmamasıdır. Bunu şairənin lirik şeirlərinin kökləndiyi motivlər də açıq-aydın göstərir.

Təxminən XIX əsrin 50-ci illərindən bədii yaradıcılığa başlayan və indi çox az bir hissəsi bizə məlum olan ilk şeirlərini "Xurşid" imzası ilə qələmə alan Natəvanın ədəbi irsi hələ öz zamanında yayılmış və dövrünün söz-sənət ustadlarının diqqətini cəlb etmiş, ədəbiyyat, şeir bilicilərinin qiymətini almışdır. Natəvanın şeirlərinin sevildiyini və yüksək sənət nümunəsi kimi dəyərləndirildiyini şairənin qəzəllərinə yazılan nəzirələr də sübut edir. XIX əsrin ikinci yarısı və XX yüzilliyin birinci yarısında Qarabağ ədəbi mühitini, onun aparıcı nümayəndələrinin yaradıcılığını araşdıran dosent Səbinə Əhmədova yazır ki, *"...Natəvanın qəzəllərinə zəmanəsinin ən tanınmış şairi Seyid Əzim Şirvani və digər görkəmli şairlər – Fəna, nakam, Nəvvab, Pirai, Vəfa Bixud, Xəyali, Asi və başqaları da nəzirələr yazmışlar"* (2, s.87).

Xurşidbanu Natəvanın qəzəlləri əsasən aşiqanə məzmunludur. Klassik poeziyanın başlıca motivləri, aşiq-məşuqə sevgisi, aşiq-məşuqə-əğyar münasibətləri, həsrət, ayrılıq iztirabı, vüsal həsrəti və s. şairənin özünəməxsus üslubunda qələmə alınmışdır. Onun da qəzəllərinin əsas qəhrəmanı aşiqdir. Natəvan eşqin fəlsəfəsini davamçısı olduğu Füzuli ədəbi məktəbinin ənənələri nöqteyi-nəzərindən izah etmişdir, o da ustadları kimi eşqin gətirdiyi "bəlaları" aşiq üçün nemət bilmiş və bunu bildiyi halda "yolundan" geri çəkilməmişdir.

*Şuri-eşqin başıma axırı sövda gətirir,*
*Bu müşəxxəsdi ki, eşq aşiqə qovğa gətirir.* (4, s.19)

Natəvanın oğluna yazdığı şeirləri daha təsirlidir. Övladını itirmiş ananın sözlərə, misralara çevrilmiş fəryadı, ağrı-acısı bu şeirləri fərqli notlara kökləmişdir.

*Yıxıb bu könlüm evin, eyləyib viran getmə,*
*Yoxumdu tabu təvan firqətə, cavan, getmə* (4, s.29).

- deyən şairənin qəzəllərində taleyə etiraz, dövrandan, taledən şikayət, keçmiş xoş günlərin həsrəti motivləri onun daxili əhvali-ruhiyyəsindəki ziddiyyətlərdən, faciələr, ayrılıqlarla keçən həyatından xəbər verir. Natəvanın qəzəllərini geniş ön sözlə kitab halında nəşrə hazırlayan filologiya elmləri namizədi Bəylər Məmmədov şairənin yaradıcılığının bu xüsusiyyətlərindən bəhs edərkən yazır: *"...Xurşidbanu şeirimizə narahat bir ilhamla, şikayətçi bir ruhla gəlmişdir. Füzulidə olduğu kimi onun lirikasında da sevinclə kədər vəhdət yaratmışdır. Şair bu təzadların arxasında dayanaraq ictimai ziddiyyətlərin dərin fəlsəfi mənasını axtarmış, ədalətlə haqsızlığı, səadətlə bədbəxtliyi törədən səbəblərin mahiyyətini açmağa çalışmışdır"* (4, s.4-5).

Bəs şeirlərində klassik poeziyanın əsas mövzularını qələmə alan şairənin yaradıcılığını fərqli edən, səciyyələndirən nədir? Təbii ki, hər bir söz ustadı kimi, Xurşidbanu Natəvanı da bir şairə kimi bu günədək yaşadan, ədəbiyyat tariximizin önəmli siması səviyyəsinə yüksəldən onun şeir sənətkarlığı, qəzəllərinin poetikasıdır. Elə sənətkarın istedadının əsas göstəricisi də məhz sözə yanaşma tərzi, onun alt qatlarına, çoxmənalılıq ümmanına dalma, onu fikrinə, qayəsinə uyğun istifadə bacarığı, formanı məzmuna tabe etdirmək qabiliyyəti və bunu olduqca təbii şəkildə oxucuya təqdim etmək ustalığıdır. Natəvan da "Söz can qiymətinə satılan ürək meyvəsidir" (Nizami Gəncəvi), "Söz candır, əgər bilirsə insan..." (Məhəmməd Füzuli), "Əlfazi-Nəsimi gör nə candır" (İmadəddin Nəsimi), - deyən sələfləri kimi sözü "can" olaraq dərk edir. Natəvanın şeirləri onun klassik poetikanın qanun-qaydalarına, şeirin nəzəri-texniki cəhətlərinə də dərindən bələd olduğunu göstərir. AMEA-nın müxbir üzvü Nüşabə Araslının Nizami Gəncəvinin poetikasından danışarkən şairin məzmunu bədii təqdim etmə bacarığı haqqındakı fikirlərini hər bir sənətkara şamil etmək olar: *"...şairi düşündürən başlıca problemlər onun varlığa fərdi sənətkar münasibətindən ayrılmazdır. ... Həyati həqiqətlərin bədii əksi, hadisə, yaxud predmeti mənalandırmaq hünəri, tarixi fakt, təbii və ictimai qanunauyğunluqlardan məharətlə faydalanmaq, bəşəri arzu və humanist meyillərin poetik təcəssümünü elmi-ədəbi nailiyyətlərlə birləşdirmək istedadı şairin yaradıcılığına sənət baxımından da təsir göstərmişdir"* (1, s.98).

Qeyd edək ki, orta əsrlərdən başlayaraq həm ədəbiyyat nəzəriyyəçiləri, həm də şairlər şeirin nəzəri məsələlərinə, şeir deyərkən (yazarkən) poetik qanun-qaydalarına riayət olunmasına çox böyük önəm verirdilər və artıq sabitləşmiş ədəbi normanı pozmaq zövqsüzlük, bacarıqsızlıq hesab olunurdu, bu isə öz növbəsində oxucu (dinləyici) auditoriyasından məhrum olmaq demək idi.

Şeir sənəti aləmində söz dənizindən mətn üçün lazım olanını axtarıb tapa bilmək, onu beyt, misra daxilində uyğun biçimdə işlədə bilmək və üstəlik bütün

bunların həm də mənanın gözəlliyinə xidmət etməsi şairliyin, sənətkarlığın ölçüsü idi. Sənətkarın divan şeirinə töhfəsinin dəyəri, ədəbiyyatdakı yeri və rolu da əsasən bədii` sənətindən faydalanaraq yeni, orijinal ifadə, fiqur və obraz yaratmasına görə müəyyən olunurdu. Professor Tofiq Hacıyev Məhəmməd Füzulinin dil sənətkarlığından danışarkən dahi söz ustadının yaradıcılığı timsalında dilin, sözün sənətdə işlənmə texnikası haqqında yazır: *“...sənətdə sənətkarlığın tərkibi kimi dilin kamilliyi, dəqiqliyi Füzuli üçün müqəddəs tələblərdən idi. Və bu dəqiqliyə seçim sərrastlığı, məna dərinliyi, mətni hazırcavablıqla yanaşı, sözün ana dilindəki norma deyilişi, nəfəs həcmi, milli səs amplitudası da düşür – qoşmada, gəraylıda, bayatıda olan kimi”* (3, s.8).

Natəvanın şeir dilinin xüsusiyyətlərindən biri obrazlı olması qədər də xəlqi, anlaşılan olmasıdır. Onun şeirlərində tez-tez xalq arasında geniş yayılmış və yazılı ədəbiyyatda da artıq məşhurlaşmış əfsanə və rəvayət qəhrəmanlarına müraciətlər, istinadlar vardır. Müəllif fikirlərini isbatlamaq üçün klassik aşiqlərin məşhur sevgi hekayətlərinə əsaslanır: şairəyə görə, Leylinin mindiyi dəvəni Məcnunun yanına gətirən məhz Leylinin ona olan eşqidir, yoxsa şüursuz bir dəvə aşiqinin yerini haradan, necə tapa bilər?! Bu beytdə hüsni-təlilin, gözəl əsaslandırmanın elementləri də vardır.

*Naqənin varmı şüuru bula aşiq kuyin*
*Onu Məcnunə tərəf cəzbeyi-Leyla gətirir* (4, s.19).

Şairə bir tərəfdən ustadının “Qəzəl de ki, məşhuri-cahan ola, Oxumaq da, yazmaq da asan ola” (Məhəmməd Füzuli) tövsiyəsinə riayət etmiş, digər tərəfdən nisbətən yaxın sələfi və ona doğma olan Qarabağ ədəbi mühitinin ən görkəmli nümayəndəsi Molla Pənah Vaqifin xalq dili ilə süslənmiş şeirlərindən təsirlənmişdir.

Xurşidbanu Natəvanın qəzəl yaradıcılığında şairənin sənətin sirlərinə bələdliyini göstərən nəfis söz örnəkləri, “nəzmi-nazik” nümunələri vardır. Onun qəzəllərində bədii` sənətinə misal olacaq zəngin təsvir və ifadə vasitələri özünəməxsusluğu, təravəti ilə seçilir. Şairənin misralarını orijinal bədii təyinlər, təşbih, istiarə, təkrir və touzilər bəzəyir.

*Tari-zülfündü məni böylə giriftar eləyib,*
*Nə gələ başıma ol zülfi-mütərra gətirir* (4, s.19).

Məşuqənin zülfünün, saçının teli aşiqi dustaq edib, əsir alıb və aşiq başına gələn bəlaları məhz sevgilisinin təptəzə, təravətli zülfündən bilir. Şairə əcnəbi qəlib – izafət tərkibi daxilində “mütərra” sözünü “zülf”ün bədii təyini kimi işlətmiş, bununla da təsvirin emosionallığını artırmışdır.

Şeirdə poetik vasitələrin bir-birinin daxilində işlənməsi, bəzən fiqurları fərqləndirmədə çətinlik yaratsa da, bu özü divan şeirinin gözəlliklərindən və özəl cəhətlərindəndir. Yuxarıdakı beytdə də şairə birinci misrada "tari-zülfün məni giriftar (dustaq) edib" deməklə həm də sevgilisinin saçının telini insanı əsir tutarkən ona bağlanan zəncirə bənzədir. Sevgilinin saçının zəncirə bənzədilməsi şeirimizdə işlənən təşbihlərdəndir. Natəvanın bu beytində bənzətmə örtülü olsa da, hazırlıqlı oxucu üçün anlaşılır.

*Gül üzün görmək əgər görmək olaydı bir dəm,*
*Hər zaman görmək onu nuri-mücəlla gətirir* (4, s.19).

Beyti oxuyarkən diqqəti cəlb edən ilk cəhət "g" səslərinin yaratdığı ahəng, touzi (alliterasiya) sənəti və təkrirdir: beytdə "görmək" sözü məqsədli şəkildə üç dəfə təkrar edilmişdir. Bundan başqa, kiçik bir parçada gözəl tosif və təşbih örnəyi də vardır. Şairə birinci misrada sevgilinin üzünü gülə bənzədir və bu zaman bənzətmə qoşmasından istifadə etmir, yəni şeirin lakonikliyini və vəznin ölçüsünü gözləyərək "gül kimi üzün" deyil, "gül üzün" deyir və ikinci beytdə yarın üzünü parlaq işıqla (nuri-mücəlla) müqayisə edir: sevgilinin gül üzünü hər zaman görmək sanki parlaq işığı (burada Günəş də assosiasiya edilir) görmək kimidir. İzafətdəki "mücəlla" sözü isə "nur" sözünün bədii təyinidir. Göründüyü kimi, Natəvan bir beytdə poetika sənətinin iki məna və iki söz gözəlliyini yaradan fiqurdan məharətlə, yerli-yerində istifadə etmişdir.

*Dövrü dönmüş dövr dövran etmədi kamimcə, ah!*
*Düşmənimdir, bilməzəm kim, netmişəm dövran ilə?* (4, s.21)

Yenə poetik fiqurlarla süslənmiş bir beyt: Natəvan touzi və təkrirdən çox məharətlə istifadə etmişdir. "D" səslərinin yaratdığı ahəng beytin ritminə, vəznə xüsusi fonematik gözəllik vermişdir. "Dövr", "dövran" sözləri ilə yaradılan təkrir isə alliterasiyanın təsirini daha da gücləndirmişdir. "Dövrü dönmüş" ifadəsi isə zaman mənasındakı "dövr" sözünün bədii təyini yerində işlənərək olduqca maraqlı birləşmə əmələ gətirmişdir. Natəvan beytin ikinci misrasını isə Məhəmməd Füzulinin

*Məhvəşimdən, dustlar, dövran cüda istər məni,*
*Düşmənimdir, hiç bilmən netmişəm dövran ilə?* (5, s.65)

- beytindən təzmin etmişdir.

Gördüyümüz kimi, istedadlı şairə bir beyt daxilində təkrir, tosif, touzi və təzminin gözəl nümunəsini yaratmışdır.

Ümumiyyətlə, Natəvan şeirlərində touzi və təkrirlərdən tez-tez istifadə etmişdir. Şairənin yaradıcılığından buna istənilən qədər maraqlı nümunələr

göstərmək olar (məsələn: Dilbəra, dərdi-dilimdən belə ünvan etdim / Ki, qəmi-hicrdə dil mülkünü viran etdim... və s.) Aşağıdakı beytdə "q" səslərinin alliterasiyası, "qəm" sözünün təkrarından yaranmış təkrirlər həm beyti oxunaqlı etmiş, həm də mənanın təsir gücünü artırmışdır. Beytdə Füzuli qəzəllərinin ruhu duyulur: könlünə qəzavü-qədərin hökmünə etiraz etməməyi, kədərli anlarda təsəlli verən yoldaşın nəsihətlərinə şad olmağı tövsiyə edir, çünki adətən "qəm günü qəmdən başqa qəmxar" olmur.

*Qəmdən səvayi qəm günü qəmxar yox, könül!*
*Şad ol qəzayə, hər nə yetə qəmgüsardən* (4, s.23).

Şairə orijinal təşbihlərlə maraqlı obrazlar yarada bilmişdir. Bu təşbihlər görüntü yaratma xüsusiyyəti, təsvirin canlılığı ilə də yadda qalır.

*Cismimdəki bimar könül naləsi, guya*
*Bir qəmzədə məhmildən asılmış cərəsimdir* (4, s.20).

Şair burada vücudundakı yaralı qəlbinin ah-fəğanını qəm çəkən (qəm+zədə) kəcavədən asılmış zınqırovun səsi ilə müqayisə etmişdir. Beytdə maraqlı, həm də mürəkkəb və ya mərtəbəli epitetlər işlənmişdir. Birinci misrada bimar→könül→naləsi – birləşməsində "könül" nalənin, "bimar" isə könülün bədii təyinləridir. İkinci misrada isə qəmzədə→məhmildən asılmış→cərəsim ifadəsində "məhmildən asılmış" cərəsimi, "qəmzədə" isə "məhmildən asılmış"ı bədii cəhətdən təyin edir.

Maraqlıdır ki, sairə bəzən obrazı yalnız epitetlə ifadə etmişdir. Məsələn, aşiqə zülm edən, onu həsrətdə qoyan məşuqəni "daşürəkli sevgili" deyil, sadəcə, "daşürəkli" deyə adlandırmışdır: Natəvan, gecə-gündüz nə qədər ah-nalə çəksəm də, fəğanım o daşürəkliyə təsir etmədi –

*Natəvan, etmədi ol səngdilə naləm əsər,*
*Gecə-gündüz nə qədər naləvü əfğan etdim* (4, s.22).

Xurşidbanu Natəvanın istiarələri də maraqlıdır. Bəzən təşxislə eyniləşdirilə bilən istiarələrə də rast gəlinir.

*Şaxi-gül üzrə əylənib ol şahmari-gur,*
*Əmr eyləyir ki, çək əlini zülfi-yardən* (4, s.23).

Şairə burada "şaxi-gül" (gül budağı) ifadəsi ilə sevgilini, "şahmari-gur" (gor (qəbir) ilanı) deyərkən əğyarı nəzərdə tutur və necə ki, ilan gül budağına sarılır, əğyar da məşuqəyə hakim olaraq aşiqə əmr edir ki, əlini yarının saçlarından çəksin. Beytdəki fikir poetik lövhələrlə məharətlə əks olunmuşdur.

Natəvanın şeirindəki bədii fiqurlardan danışarkən mübaliğələrdən də bəhs etmək lazımdır: aşiq yarının hicranı ilə o qədər ağlayıb ki, göz yaşı bütün dünyanı tutub və o bu halı Nuhun tufanı ilə müqayisə edir.

*Dərdi-hicrində gözüm yaşı tutub dünyanı*
*Nuh tufanı kimi gör ki, nə tufan etdim* (4, s.22).

Azərbaycan klassik poeziyasının yeni mərhələyə qədəm qoyduğu dövrdə ədəbiyyata gələn və özündən əvvəlki irsin ən yaxşı ənənələrini davam və inkişaf etdirən, eyni zamanda poeziyadakı yeni ab-havanı yaxından duyaraq şeirinə zamanının motivlərini də qataraq incə, zərif duyğulu divan ədəbiyyatı nümunələri yaradan Xudşidbanu Natəvanın qəzəlləri bu janrın ən gözəl nümunələridir.

## ƏDƏBİYYAT


1. *Araslı N.* Nizaminin poetikası (ədəbi qaynaqlar və bədii təsvir vasitələri), Bakı: Elm, 2004, 454 s.
2. *Əhmədova S.* Qarabağ ədəbi-mədəni mühiti (XIX əsrin ikinci yarısı – XX əsrin əvvəlləri). Bakı: Ecoprint, 2020, 220 s.
3. *Hacıyev T.* Füzuli: dil sənətkarlığı. Bakı: Gənclik, 1994, 72 s.
4. *Xurşidbanu N.* Əsərləri / Tərtib edəni və ön sözün müəllifi Bəylər Məmmədov. Bakı: Lider, 2004, 88 s.
5. *Məhəmməd Füzuli.* Əsərləri: 6 cilddə, II c. / Tərtib edən Həmid Araslı. Bakı: Şərq-Qərb, 2005, 336 s.
6. *Bayramov Q.* Qarabağ-Şuşa ədəbi-mədəni mühiti – uzaq keçmişdən bu günümüzə qədər. // "Azərbaycan dili və ədəbiyyat tədrisi", 2021, N 2 (268), s.121-135 / http://lib.az/users/1/upload/files/%E2%84%96_2_-_Meqale_10.pdf


Redaksiyaya daxil olub 05.08.2022

# İctimai elmlər

*UOT 327*

***V.C.Abulova***
*Bakı Dövlət Universiteti*
*vefa.celilqizi@mail.ru*

## CƏNUBİ QAFQAZDA GEOSİYASİ REALLIQLAR VƏ TƏHLÜKƏSİZLİK SİSTEMİ FONUNDA AZƏRBAYCANIN LİDER ROLU

***Açar sözlər:*** *Azərbaycan, Cənubi Qafqaz, təhlükəsizlik, ABŞ, Rusiya*

Cənubi Qafqaz həmişə dünya adlı orqanizmin həyati orqanlarından biri olub və bu gün də bu əhəmiyyətini qoruyub saxlayır. Bu region uzun müddət SSRİ-nin tərkibində kənardan təcrid olunmuş və belə demək mümkünsə, planetdə öz rolunu oynamaq imkanından məhrum olmuşdu. SSRİ-nin süqutundan sonra postsovet məkanında yaranmış yeni müstəqil dövlətlər beynəlxalq münasibətlər sistemində bilavasitə iştirak edərək öz maraqlarını ifadə edən xarici siyasət kursunu həyata keçirməyə başladılar ki, bu da dünyada yeni dövlətlərarası münasibətlər nizamının formalaşmasına səbəb oldu.

***В.Дж.Абулова***

## ЛИДИРУЮЩАЯ РОЛЬ АЗЕРБАЙДЖАНА НА ФОНЕ ГЕОПОЛИТИЧЕСКИХ РЕАЛИЙ И СИСТЕМЫ БЕЗОПАСНОСТИ НА ЮЖНОМ КАВКАЗЕ

***Ключевые слова:*** *Азербайджан, Южный Кавказ, безопасность, США, Россия*

Южный Кавказ всегда был одним из жизненно важных органов организма, называемого миром, и сохраняет это значение и сейчас. Долгое время этот регион оставался изолированным извне в составе СССР и, так сказать, был лишен возможности играть свою роль на планете. После распада СССР новые независимые государства, возникшие на постсоветском пространстве, непосредственно включились в систему международных отношений и стали осуществлять внешнеполитический курс, выражая свои интересы, что привело к формированию нового порядка межгосударственных отношений в мире.

**V.J.Abulova**

# THE LEADER ROLE OF AZERBAIJAN IN THE BACKGROUND OF GEO-POLITICAL REALITIES AND THE SECURITY SYSTEM IN THE SOUTH CAUCASUS

***Keywords:*** *Azerbaijan, South Caucasus, security, USA, Russia*

The South Caucasus has always been one of the vitally important organs of the organism called the world, and it maintains this importance even now. For a long time, this region remained isolated from the outside as part of the USSR and, so to speak, was deprived of the opportunity to play its role on the planet. After the collapse of the USSR, the new independent states that emerged in the post-Soviet space directly joined the system of international relations and began to implement a foreign policy course expressing their interests, which led to the formation of a new order of interstate relations in the world.

Yeni dövrün ən mühüm geosiyasi regionlarından biri Avrasiya, xüsusilə Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz regionu idi. Bu və bu kimi məsələlər Ulu öndər Heydər Əliyevin və İlham Əliyevin fəaliyyətində, çıxışlarında, diplomatik danışıqlarında mühüm yer tuturdu. Ekspertlər hesab edirlər ki, XX əsrin sonu və XXI əsrin əvvəllərində Cənubi Qafqaz regionunun zəngin enerji ehtiyatları, Şərq-Qərb münasibətlərində iki qitəni birləşdirən birləşdirici coğrafi mövqeyi, ən yaxın, əlverişli və geosiyasi baxımdan ən etibarlı nəqliyyat-kommunikasiya və enerji ixrac dəhlizləri üzərində yerləşməsi onu dünya siyasətinin mərkəzinə çevirir. Sovet İttifaqının dağılması beynəlxalq aləmdən təcrid olunmuş, SSRİ-nin tərkibində unudulmuş, xüsusi strateji və geosiyasi əhəmiyyət kəsb edən keçid yollarına malik bu ərazilərdən biri olan ərazilər ətrafında yeni siyasi və geosiyasi mübarizənin başlanması ilə müşayiət olundu. Belə ki, Cənubi Qafqaz regionu "dünyanın dörd yolu" rolunu oynayır. Cənubi Qafqazın Şimalla Cənub, Şərqlə Qərb arasında dəhliz rolunu oynaması bunu deməyə əsas verir. Beləliklə, Cənubi Qafqaz iki fərqli qitəni – Avropa və Asiyanı, iki fərqli qütbü və iki fərqli sivilizasiyanı birləşdirən regiondur.

Şərq-Qərb münasibətləri kontekstində Cənubi Qafqaz hələ də diqqət mərkəzindədir. Demək olar ki, Cənubi Qafqaz Aralıq dənizi, Qara dəniz və Xəzər dənizi regionlarında böyük geosiyasi əhəmiyyət kəsb edən ərazidir. SSRİ-nin dağılması dünya sosialist sisteminin dağılması ilə yanaşı, beynəlxalq münasibətlər sistemində də böyük dəyişikliklərə səbəb oldu. Tarixi şəraitdən istifadə edərək müstəqillik əldə etmiş keçmiş sovet dövlətlərinin hamısı beynəlxalq münasibətlər sistemində tam müstəqil subyekt kimi çıxış etməyə başladılar. Rəsmi olaraq SSRİ-yə daxil olan 15 sovet respublikası suveren dövlətlər kimi tanındı. SSRİ-nin 1936 və 1977-ci il Konstitusiyalarında bu ittifaqdan çıxmaq hüququ var idi. Əslində Konstitusiyanın bu maddəsi ona görə

o qədər də əhəmiyyət kəsb etmirdi ki, bu prosesin mexanizmi 1990-cı ilə qədər qeyd olunmurdu [14, s.7]. Ayrı-ayrı ittifaq respublikaları öz daxili işlərində müəyyən dərəcədə muxtariyyət əldə etsələr də, onların hamısı beynəlxalq aləmdə müstəqil fəaliyyət göstərmək imkanından tamamilə məhrum idilər. 1991-ci ilin sentyabr-dekabr ayları arasında bütün on dörd keçmiş ittifaq respublikası Rusiya Federasiyası tərəfindən əvvəlcə keçmiş SSRİ-nin varisi kimi müstəqil dövlətlər kimi rəsmən tanındı. Tezliklə bu dövlətlər bütün dünya birliyi tərəfindən hüquqi cəhətdən tanındı.

Müxtəlif səviyyələrdə təsnif edilməsinə baxmayaraq, müasir dünya sisteminin ümumi arxitekturası və planetar geosiyasi maraqların mövcudluğu və davamlılığı qlobal miqyasda vahid iyerarxik kommunikasiya sisteminin fəaliyyət göstərməsini tələb edir. Milli, regional və ya beynəlxalq olmasından asılı olmayaraq, bu sistemin etibarlılığını və funksionallığını təmin etmək üçün hər bir səviyyənin özünəməxsus xüsusiyyətlərini, təhlükə mənbələrini, alətlərini və mexanizmlərini nəzərə almaq lazımdır. Məhz həmin dövrdə Xəzər-Qara dəniz hövzəsində yeni müstəqil dövlətlərin Avrasiya, Mərkəzi Asiya və Cənubi Qafqazda milli inkişaf və təhlükəsizlik sahəsində həyata keçirdikləri geosiyasət geosiyasi reallıqlara və təhlükəsizliyə ən çox təsir edən amillərdən biri kimi qiymətləndirilirdi.

Müstəqil dövlət kimi hər bir ölkənin dünya birliyində tutduğu mövqe və nüfuzu onun beynəlxalq, regional və milli səviyyədə reallaşdıracağı milli inkişaf xəttindən, geosiyasətinin çevikliyindən və səmərəliliyindən, ətraf aləmlə birlikdə yaratdığı səmərəli geosiyasi əlaqələrindən asılıdır.

Cənubi Qafqaz regionunun təhlükəsizlik problemləri müxtəlif məsələləri əks etdirir. Təhlükəsizlik məsələlərinə təsir edən amillər sırasında geostrateji yerləşmə, geosiyasi məsələlər, enerji təhlükəsizliyi, etnomədəni amillər var. Ümumiyyətlə, təhlükəsizlik anlayışı dar və geniş mənada başa düşülür. Regionun təhlükəsizlik problemləri araşdırılarkən ilk növbədə region ölkələrinin təhlükəsizliyinə real təhdidlər müəyyən edilməlidir."Təhlükəsizlik" və "təhdid" və ya "təhlükəsizlik" və "real təhdidlər" bir-biri ilə əlaqəli anlayışlardır və birlikdə təhlil edilməlidir [15, s.73]. Təhdidlər mövcud və gözlənilən problemlərlə bağlı ola bilər. Hər bir ölkə üçün təhlükələr yerli, regional və qlobal olaraq qruplaşdırıla bilər. Çox vaxt bir çox yerli problemlər regional və qlobal problemlərin yerli və ya regional təzahürləridir. İctimaiyyətin böyük bir hissəsi yerli və regional problemləri qlobal problemlərdən daha tez qavrayır.

Qeyd etdiyimiz kimi, Cənubi Qafqazın geosiyasi əhəmiyyəti potensialına və geostrateji mövqeyinə görə çox mühümdür. Bu region həm xammal mənbəyi kimi, həm də Xəzər dənizinin enerji ehtiyatlarının Avropaya ixracında mühüm rol oynayır [11, s.91]. Cənubi Qafqazda təhlükəsizliyin və sabitliyin təmin edilməsində mühüm amillərdən biri də ondan ibarətdir ki, təkcə

region dövlətləri deyil, fövqəldövlətlər və böyük dövlətlər özlərinin iqtisadi, hərbi təhlükəsizliyini və siyasi maraqlarını təmin etmək üçün təhlükəsizlik mexanizmlərinin yaradılması təşəbbüsü ilə çıxış edirlər. Belə ki, ABŞ, Rusiya və Avropa Birliyi ölkələri öz maraqlarına uyğun regionda təhlükəsizlik sistemi yaratmağa çalışırlar [17, s.40].

Gürcüstanın siyasəti NATO-nun təhlükəsizlik sisteminə inteqrasiyanı hədəflədiyi halda, Azərbaycan NATO ilə münasibətlərini gücləndirməyə çalışır və Rusiya ilə bağlı balanslaşdırılmış siyasət yürüdür, Ermənistan isə açıq şəkildə Rusiyanın rəhbərlik etdiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının təhlükəsizlik sisteminə daxil olub. Regionda təhlükəsizliyin təmin edilməsi istiqamətində əməkdaşlıq davam edərkən, Azərbaycan və Gürcüstan region və beynəlxalq sistemlə siyasi və iqtisadi əlaqələrini daha da genişləndirməyə çalışır. Tərəflər Bakı-Tbilisi-Ceyhan layihəsində əməkdaşlıq edərək münasibətlərini daha da inkişaf etdirirlər. Ermənilər isə siyasi və iqtisadi siyasətlərində bu prosesdən kənarda qalaraq Rusiyanın öz üzərlərində suverenliyini qəbul edərək Rusiyaya üstünlük verirlər.

Cənubi Qafqazın, eləcə də postsovet məkanının geosiyasi vəziyyətini, region ölkələrinin inkişaf xüsusiyyətlərini və perspektivlərini araşdıran ekspertlərin əksəriyyəti geosiyasi nöqteyi-nəzərdən Azərbaycan Respublikasını regionun ən mühüm ölkəsi hesab edirlər. Onların fikrincə, ölkəmizin coğrafi, geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqeyi, daxili və xarici siyasəti və Şərq-Qərb alternativ nəqliyyat-kommunikasiya dəhlizlərinin yaradılması istiqamətində həyata keçirdiyi transmilli siyasət ölkəmizin əhəmiyyətini artırır. Respublikamız ərazisinin böyüklüyü, qonşuları ilə münasibətləri, sərhədlərinin vəziyyəti, maddi-mənəvi sərvətlərdən istifadə əmsalı kimi digər cəhətlərinə görə Cənubi Qafqazın ən böyük və perspektivli ölkəsidir. Ölkəmizin geosiyasi dəyərinin artmasına müsbət təsir göstərən amillərdən biri də əlverişli coğrafi mövqedə yerləşməsidir. Burada əsas məqam ondan ibarətdir ki, Avrasiyanın ortasında yerləşən Azərbaycan Respublikası Xəzər-Qara dəniz hövzəsində və Cənubi Qafqazda baş verən proseslərə təsir etmək imkanına malikdir:

- Azərbaycan və Gürcüstan arasında, Xəzər və Qara dəniz arasında mühüm geosiyasi məkan;
- Rusiya və İranla Şimal-Cənub dəhlizi;
- Türkmənistan və Qazaxıstanla birlikdə Avropa - Cənub-Şərqi Asiya;
- Şərqlə Qərb arasında əksər transmilli nəqliyyat və kommunikasiya layihələrinin hərəkətverici qüvvəsidir.

Əsası 1994-cü ildə Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş yeni neft strategiyasının və digər transmilli nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsi ilə Azərbaycanın geoiqtisadi əhəmiyyəti daha da artmışdır. Eyni zamanda ölkənin geoiqtisadi dəyəri təkcə neft-qaz sektoru ilə məhdudlaşmır, Azərbaycan iqtisadi, siyasi və sosial-mədəni baxımdan dinamik

inkişaf edən Avrasiya ölkəsinə çevrilib. Azərbaycan neft-qaz sektorundan düzgün istifadə strategiyasını müəyyən etməklə, ölkənin milli maraqlarını Avropanın artan enerji tələbatı ilə uzlaşdıra bildi. Bu, eyni zamanda ölkənin iqtisadi-maliyyə imkanlarının gücləndirilməsi, xarici aləmlə əlaqələrinin intensivləşməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi.

Hazırda Azərbaycan Xəzər dənizinin digər ölkələri, Qazaxıstan və Türkmənistanla birlikdə Avropanın artan enerji tələbatının ödənilməsində və dünyada enerji təhlükəsizliyinin təmin edilməsində "ən etibarlı alternativ tərəfdaş" rolunu oynayır. Dünyanın ən zəngin enerji ehtiyatlarından biri hesab edilən Xəzər regionunda əsas risklərdən biri istehsal olunan məhsulların xarici bazarlara təhlükəsiz və pulsuz çatdırılmasıdır. Bu mənada Azərbaycan özünün və tərəfdaşlarının hasil etdiyi neft və qaz ehtiyatlarını xarici bazarlara çıxarmaq, ixrac marşrutlarını şaxələndirmək baxımından Qazaxıstan və Türkmənistanla müqayisədə əlverişli vəziyyətdədir. Bu ölkələrlə müqayisədə Azərbaycanın enerji riskləri çox aşağıdır. "Əsrin müqaviləsi" imzalandıqdan sonra Azərbaycan regionun karbohidrogen ehtiyatlarının Avropaya nəqli üçün alternativ marşrut müəyyənləşdirərək çox məsuliyyətli və uzaqgörən strateji seçim etdi. Nəticədə Xəzər dənizinin neft və qaz ehtiyatlarının Avropaya müstəqil və alternativ daşınması üçün yeni marşrut dövriyyəyə buraxıldı.

Xəzər dənizindəki enerji ehtiyatlarının dünya bazarlarına nəqlini nəzərdə tutan layihələri həyata keçirmək asan deyildi. Burada müxtəlif regional və beynəlxalq maraqlar toqquşurdu. Lakin maneələrə baxmayaraq, Azərbaycan özünün tam müstəqil geoiqtisadi və təhlükəsizlik siyasəti və prinsipial mövqeyi ilə Asiya ilə Avropanı birləşdirən nəhəng enerji və nəqliyyat layihələrini həyata keçirməyə müvəffəq olmuşdur.

Hazırda Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk kimi milyonlarla ton ötürmə qabiliyyətinə malik üç neft kəməri, Bakı-Tbilisi-Ərzurum, Bakı-Astara-İran qaz kəmərlərinin mövcudluğu Azərbaycanın və onun tərəfdaşlarının enerji ixracı sahəsində risklərini sıfıra endirmişdir. Xəzər dənizinin karbohidrogen ehtiyatlarının boru kəməri ilə Gürcüstan limanlarına, oradan isə tankerlərlə Rumıniyaya, oradan isə Avropa İttifaqı ölkələrinə ixracına dair dövlətlərarası sazişin imzalanması təkcə Azərbaycanın deyil, həm də Xəzər hövzəsi ölkələrinin ixracla əlaqəli risklərini azaltmış və geoiqtisadi etibarlılığını artırmışdır. Bundan əlavə "Şahdəniz-2" layihəsinin reallaşması ilə Azərbaycan qazının yeni boru kəmərləri – TANAP və TAP vasitəsilə Avropa bazarlarına çıxarılacağı gözləntilərinin 2019-cu ilin aprel ayında sınaq qaz tədarükünün başlanması ilə özünü doğrultması bu etibarlılığı gücləndirdi.

Azərbaycan geosiyasi və geoiqtisadi baxımdan Şərq-Qərb nəqliyyat, kommunikasiya və enerji dəhlizlərinin mərkəzi dövləti olan Avrasiyanın qapısı hesab olunur. Azərbaycan strateji Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin, Avropa və Asiya ölkələri arasında birləşdirici körpü rolunu oynayan Trans-

Qafqaz nəqliyyat-enerji dəhlizinin (TRASEKA) təşəbbüskarlarından və əsas təminatçılarından biridir.

Bu tədbirlərin məqsədi Azərbaycan Respublikasının regionda tranzit mərkəzi statusunu gücləndirmək və onu nəqliyyat-logistika mərkəzinə çevirməkdir. Bu o deməkdir ki, Almaniya, İngiltərə, Çin, Cənubi Koreya, İran və digər ölkələrdə olduğu kimi, Azərbaycanda da Nəqliyyat Logistika Mərkəzinin yaradılacağı gün uzaqda deyil. Beləliklə, Avrasiyanın əsas tranzit ölkələrindən biri olan Azərbaycan Şərq-Qərb ticarətinin, enerji-yanacaq və nəqliyyat-kommunikasiya əlaqələrinin mərkəzindədir. Azərbaycanın tranzit imkanlarının artması nəticəsində onun planetar geosiyasi dəyəri də yüksəlir ki, bu da onun xarici dövlətlərlə tərəfdaşlığını şərtləndirən əsas amil hesab olunur [9, s.95].

Azərbaycanın regional və qlobal geosiyasi çəkisini artıran digər əsas amil onun bir dövlət kimi tam formalaşması, özünü təmin edən iqtisadiyyatı, maddi, mənəvi və insan resursları, milli-vətəndaş birliyi, güclü ordu və müdafiə potensialı və s. lazımi qurumlara sahib olmaq və bütün bunlara əsaslanaraq müstəqil daxili və xarici siyasət aparmasıdır.

Azərbaycan keçmiş postsovet məkanına və Cənubi Qafqazdakı ümumi iqtisadi potensialına görə beynəlxalq aləmin diqqətini cəlb edir. Hazırda Azərbaycanın geoiqtisadi potensialı – iqtisadi inkişaf üçün resurslar, maddi və insan resursları, ölkə rəhbərliyinin bu sahələrdə həyata keçirdiyi praqmatik siyasət Avrasiya müstəvisində və dünyada yüksək qiymətləndirilir. Ekspertlərin fikrincə, region ölkələrinin içərisində geoiqtisadiyyatını, beynəlxalq əlaqələrini, reallaşdırdığı daxili və xarici layihələri və s. Xəzər dənizinin karbohidrogen məhsullarının istehsalı və satışı ilə ən sıx əlaqələndirən ölkə məhz Azərbaycandır.

Azərbaycanın geosiyasi xüsusiyyətlərinin əsas göstəricilərindən biri onun zəngin kadr potensialıdır. Azərbaycan insan resurslarının kəmiyyət və keyfiyyət baxımından Cənubi Qafqazın digər ölkələri ilə müqayisədə üstün və perspektivlidir. Burada ümumi demoqrafik göstəricilər (əhalinin artım tempi, ümumi əhalidə gənclərin sayı və s.) müsbət inkişaf edir. Ölkənin əhalisi 10 milyondan çoxdur. Respublikada hər kvadrat kilometrə təxminən 96 nəfər düşür.

Beləliklə, Azərbaycan özünün praqmatik xarici siyasəti sayəsində regionun lider dövlətinə çevrildi və regionun təhlükəsizliyinə öz töhfəsini verdi. Azərbaycan Respublikası NATO ilə əməkdaşlıq edərək regionun təhlükəsizliyinin təmin edilməsində aktor kimi çıxış edir. Azərbaycan müstəqilliyini əldə etdiyi ilk gündən əlverişli geostrateji mövqeyinə görə regionun lider dövlətinə çevrilib. Cənubi Qafqazın yeni və köhnə geosiyasi reallıqlarını müqayisə etməklə bunu daha aydın başa düşə bilərik. Rusiya Cənubi Qafqazda nəzarəti saxlamaq üçün Qarabağ münaqişəsindən maksimum

istifadə edibsə, bu gün Azərbaycan bütün faktları öz xeyrinə dəyişib. Azərbaycan geostrateji və eyni zamanda geosiyasi baxımdan əlverişli mövqedə yerləşir.

Regionda həyata keçirilən beynəlxalq layihələr və Azərbaycanın bu layihələrdə əsas çıxış edənlərdən biri olması ölkəmizin iqtisadi qüdrətini artırmaqla yanaşı, beynəlxalq aləmdə nüfuzunun artmasında mühüm rol oynayır. Təbii ki, Cənubi Qafqaz regionunun karbohidrogen ehtiyatlarının inkişafı üzrə qlobal layihələri Azərbaycansız təsəvvür etmək mümkün deyil. Azərbaycanın unikallığı ondadır ki, o, təkcə istehsalçı deyil, həm də öz məhsullarını və Mərkəzi Asiya respublikalarının məhsullarını Avropaya ixrac edən tranzit ölkə və tranzit dəhlizi kimi çıxış edir [10, s.55]. Avropa ölkələri də bunu başa düşürlər. Prezident İlham Əliyevin həmişə qeyd etdiyi kimi, Azərbaycan artıq mühüm regional amildir: sabitlik, təhlükəsizlik və inkişaf amilidir. Sözün əsl mənasında Azərbaycan Respublikası bunları özündə əks etdirir, ikinci Qarabağ müharibəsini buna misal gətirə bilərik.

Dövlətimizin başçısı cənab İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, heç kim Azərbaycanla zülm dili ilə danışa bilməz. O, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün yaradılmış ATƏT-in Minsk Qrupunun fəaliyyətsizliyindən də ciddi narazılığını hər zaman bəyan edib. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasının vacibliyi qeyd edilsə də, bütün dünya birliyi Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanısa da, lakin ermənilər Azərbaycan torpaqları üçün hər cür şərəfsizlik etməkdən, qan tökməkdən əl çəkmirdilər. Xalqımız bu problemi beynəlxalq ictimaiyyətin həll edəcəyi ümidi ilə otuz il yaşadı. İnanırdıq ki, bu problemin həllində maraqlı olan beynəlxalq təşkilatlar öz sözünü deyəcəklər, dünyanın ən ali beynəlxalq qurumu olan BMT Təhlükəsizlik Şurası öz qətnamələrinin həyata keçirilməsi üçün hər cür səy göstərəcək. Təəssüf ki, BMT-nin qətnamələri məcburi deyildi və 27 il kağız üzərində qaldı. İkinci Qarabağ müharibəsi Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək uğrunda gedən mübarizə idi. Vətənimiz üçün şərəf məsələsi olan bu müharibə əsgər və zabitlərimizin qəhrəmanlığı, düşmənə sarsıdıcı zərbələr endirməsi, düşməni canları bahasına torpaqlarımızdan qovması ilə həll olunub. Qəhrəman oğullarımız tarixi ədaləti bərpa etdilər. Çünki Qarabağ torpaqları bizim qədim tarixi torpaqlarımızdır. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri yeni torpaqlarımızı işğal etmək üçün Azərbaycana hücum edərək hərbi obyektləri və mülki əhalini hədəfə alarkən Azərbaycan Ordusu beynəlxalq hüquq və ədalət prinsipləri əsasında torpaqlarımızın ərazi bütövlüyünü qorumaq üçün ölkəmiz adından düşmənə sarsıdıcı zərbələr endirməklə əks-hücuma keçib. İşğalçı Ermənistan qalib ordumuzun, Azərbaycan Silahlı Qüvvələrinin sarsıdıcı zərbələrinə tab gətirə bilməyib xeyli canlı qüvvə və texnika itirmişdir. Lakin işğalçı Ermənistan ənənələrinə sadiq qalaraq, öz uğursuzluqlarını ciddi şəkildə minimuma

endirir və Azərbaycan tərəfinin mütləq qələbələrini gizlədirdi. Ermənistan hakimiyyətinin bilərəkdən yaydığı dezinformasiyanın məqsədi qorxu və panikaya düşmüş erməni xalqını yalan məlumatlarla həqiqətdən yayındırmaq olub. Qarabağ qələbəsində eyni zamanda Azərbaycan Respublikasının güclü ordusunun, aparılan sosial-iqtisadi islahatların və gedən informasiya müharibəsinin rolunu xüsusi qeyd etmək lazımdır. 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusunun parlaq qələbəsi ölkəmizin regionda və beynəlxalq aləmdə nüfuzuna əhəmiyyətli dərəcədə müsbət təsir göstərmişdir. Eyni zamanda Qarabağ qələbəsi işğalçı Ermənistan üçün çox mühüm tarixi dərsdir. Ermənistan bu məğlubiyyətdən və tarixi dərsdən lazımi nəticə çıxarmalı və gələcəkdə yeni təxribatlara yol verməməlidir.

**ƏDƏBİYYAT**

1. *Abbasbəyli A.N.* Dünya siyasəti. Bakı: Nurlar, 2011, 582 s.
2. *Araslı C.E.* Erməni-Azərbaycan konflikti: hərbi aspekt. Bakı: Ergün, 1995, 88 s.
3. *Bjezinskiy Z.K.* Böyük Şahmat taxtası. Bakı: Azərnəşr, 2005, 328 s.
4. *Əhmədov E.İ.* Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika: 1987-2011: monoqrafiya. Bakı: Letterpress, 2012, 912 s.
5. *Əhmədov E.İ.* Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı: Tuna, 1998, 138 s.
6. *Əliyev H.Ə.* Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 2013, 448 s.
7. *Əliyev İ.H.* İnkişaf-məqsədimizdir. Bakı: Azərnəşr, 2015, 400 s.
8. *Həsənov Ə.M.* Geosiyasət. Bakı: Aypara-3, 2010, 602 s.
9. *Həsənov Ə.M.* Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru *Həsənov Ə.M.*. Bakı: Azərbaycan Universiteti, 1997, 101 s.
10. *Həsənov Ə.M.* Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın Xarici Siyasəti. Bakı: Azərbaycan, 2005, 752 s.
11. *Məmmədov N.İ.* Geosiyasətə giriş: 2 cilddə, II c., Bakı: Azərbaycan, 2011, 416 s.
12. *Musa İ.M.* Azərbaycanın Xarici Siyasəti. Bakı : BDU, 2011, 775 s.
13. Qasımov M.C. Azərbaycanın xarici siyasəti. Bakı: Mütərcim, 1997, 124 s.
14. *Ogan S.H., Ağacan K.İ.* Güney Kafkasya'da Yeniden Baslayan veya Bitmeyen Soguk Savas // Stratejik Analiz, İstanbul: Disqus, 2001, №13, 25 s.
15. *Buzan B.G.* Barry People, State and Fear: An Agenda for lntcrnational Security Studies in the Post Cold War Era Harvester Wheatsheaf Publiaction, London, 1991
16. *Thomas de Waal.* The Caucasus, Oxford University, Press: London, 2010
17. *Brzezinski Z.K.* The Grand Chessboard, Basic Books publishing, USA, 1997

Redaksiyaya daxil olub 26.08.2022

*UOT 32*

***K.T.Aloyeva***
*Bakı Dövlət Universiteti*
*aloyeva_kemale@mail.ru*

# MİLLİ DÖVLƏT MARAQLARININ FORMALAŞMASI VƏ REALLAŞMASINDA GEOSİYASİ AMİLLƏRİN ROLU

***Açar sözlər:*** *milli maraq, dövlət maraqları, geosiyasi amillər, dövlətlərarası münasibətlər*

Məqalədə milli maraqlar anlayışı, onun təşəkkülü və ona təsir edən geosiyasi amillərin rolu araşdırılıb üzə çıxarılmışdır. Burada əsas məqsəd milli maraqlar arasında daha həyati olanları, prioritetlik təşkil edənləri müəyyən etmək, dəyişkən və nisbi sabit geosiyasi aspektlərin təsiri ilə bütöv sistemdə yaranan dəyişiklikləri əvvəlcədən təxmin etməkdən ibarətdir. Milli maraqların bütün fazalarının müəyyənləşdirilməsi heç də axırıncı məqsəd olmayıb, başlıca vəzifə onların müdafiəsi və yerinə yetirilməsində əsas vəzifələrin reallaşdırılmasıdır. Bu prosesdə geosiyasi amillərin daha aktiv olan elementləri əhəmiyyətli yer tutur. Belə ki, burada təhlilin əsas vəzifəsi həm prioritet, həm də onun reallaşdırılmasının əsas üsul və vasitələrinin müəyyənləşdirilməsidir. Bütün bunları nəzərə alaraq təhlili ümumiləşdirsək, ilk öncə milli maraqların formalaşdırılması və qiymətləndirilməsi, sonra milli maraqların reallaşmasında geosiyasi amillərin rolu və onun üsul, vasitələrinin müəyyənləşdirilməsini ehtiva edir.

***К.Т.Алоева***

## РОЛЬ ГЕОПОЛИТИЧЕСКИХ ФАКТОРОВ В ФОРМИРОВАНИИ И РЕАЛИЗАЦИИ НАЦИОНАЛЬНО-ГОСУДАРСТВЕННЫХ ИНТЕРЕСОВ

***Ключевые слова:*** *национальный интерес, государственные интересы, геополитические факторы, межгосударственные отношения*

В статье исследуется и раскрывается понятие национальных интересов, его организация и роль влияющих на него геополитических факторов. Здесь главная цель – определить наиболее насущные и приоритетные национальные интересы, предвидеть изменения во всей системе за счет влияния переменных и относительно стабильных геополитических аспектов. Определение всех фаз национальных интересов не является конечной целью, главной задачей является реализация основных задач по их защите и реализации. В этом процессе важную роль играют более активные элементы геополитических факторов. Таким образом, основной задачей анализа здесь является определение как приоритета, так и основных методов и средств его реализации. Принимая все это во внимание, если подытожить анализ, то он включает сначала формирование и оценку национальных интересов, а затем роль геополитических факторов в реализации национальных интересов и определение ее методов и средств.

***K.T.Aloyeva***

# THE ROLE OF GEOPOLITICAL FACTORS IN THE FORMATION AND IMPLEMENTATION OF NATIONAL-STATE INTERESTS

***Keywords:*** *national interest, state interests, geopolitical factors, interstate relations*

The article explores and reveals the concept of national interests, its organization and the role of geopolitical factors influencing it. Here the main goal is to determine the most pressing and priority national interests, to anticipate changes in the entire system due to the influence of variables and relatively stable geopolitical aspects. The definition of all phases of national interests is not the ultimate goal, the main task is to implement the main tasks for their protection and implementation. More active elements of geopolitical factors play an important role in this process. Thus, the main task of the analysis here is to determine both the priority and the main methods and means of its implementation. Taking all this into account, if we summarize the analysis, it first includes the formation and assessment of national interests, and then the role of geopolitical factors in the implementation of national interests and the definition of its methods and means.

“Milli maraqlar” anlayışı siyasi elmdə ilk dəfə olaraq 1935-ci ildə Oksfordun sosial elmlər ensiklopediyasına daxil edilmiş, buna baxmayaraq, tez zamanda siyasi elmdə əsaslı kateqoriya kimi çıxış etməyə başlamışdır. Habelə bunu da qeyd etmək lazımdır ki, araşdırma-tədqiqatçıların əksəriyyəti ilk dəfə olaraq milli maraq anlayışının mövcudluğunu Avropada milli dövlətlərin bərqərar olduğu dövrə, yəni XVI əsrə aid hesab edirlər. Bu baxışı əsaslandıran aspekt bu dövrdən başlayaraq Avropanın bir çox qabaqcıl ölkələrində burjua-əmtəə münasibətlərinin peyda olması, vahid daxili bazarın yavaş-yavaş təşəkkül tapması kimi səciyyələnir [2, s.172].

Buna baxmayaq, milli maraq anlayışının təkamül dövrünü müxtəlif tədqiqatçılar fərqli nöqteyi-nəzərdən fərqləndirmişlər ki, bu da özünü tarixi dövrlərdə göstərmişdir. Tədqiqatda bu məsələyə tarixilik aspektindən toxunulacaqdır. Sistemli-məntiqi aspektdən isə mövcud konsepsiyalara görə ayrım veriləcəkdir.

Bununla da, milli maraq anlayışının siyasi elmdə əsaslı kateqoriya kimi müvafiq yer tutması və tez-tez rast gəlinən terminə çevrilməsi müxtəlif etnik-sosial birliklərin və dövlətlərin mövcud olduğu dövrlərinə əsaslanan milli dövlət maraqları arasında münasibətləri nəzərə almaq lazımdır. Hələ sosial və ya siyasi mənafelərin milli maraq adlandırılmaması o demək deyil ki, nə cəmiyyətdaxili, nə də cəmiyyətlərarası münasibətlərdə bu müəyyənedici rola malikdir. Bunu inkar etməyə heç bir əsas yoxdur. Hər bir ictimai-siyasi qurumun və cəmiyyətin özünün mənafe və maraqları mövcuddur ki, bu da normal hal kimi qiymətləndirilir. Hər bir

dövlətin mənafe və maraqlarına yönəlmiş təhdidlərdən qorunması uğrunda baş verən mübarizələr isə hələ qədim zamanlardan məlumdur. Xüsusilə də dövlətlərin yaranması, sonradan siyasi təsisat olaraq inkişafı nəticəsində idarəçilikdə təmsil olunan cəmiyyətin mənafe və maraqlarına istiqamətlənmiş, onların müdafiəsi isə dövlətlərim daxili və xarici funksiyalarını yerinə yetirən başlıca vəzifəsi kimi çıxış etməyə başlamışdır. Siyasi rejimin müxtəlif tiplərinin təşəkkül tapması (demokratik və qeyri-demokratik rejimlər) ilə həmin mənafe və maraqlar müxtəlif formalarda və aspektlərdə cəmiyyət və dövlətin idarəetmə sistemini öz təsir dairəsinə almışdır.

Bununla yanaşı, milli dövlət maraqları problemi siyasi elmin predmetinə çevrilənədək bir çox ideologiya və konsepsiyalarda öz əksini taparaq mövcud olmuşdur. Hər bir xalqın və millətin ta qədim zamanlarda, yəni mifoloji, dini şüurunda birlikdəliklərin, icmaların, daha sonralar isə meydana gəlməkdə olan dövlətlərin milli maraq və mənafeləri ilə əlaqədar olaraq lazımi ölçüdə konkretabstrakt təsəvvürləri olmuşdur.

Stabil və obyektiv milli maraqlar ideyasının formalaşmasını XIX əsrin sonu, XX əsrin əvvəllərinə aid hesab edirlər. Bu dövrə aid siyasi nəzəriyyələrdə dövlət başlıca olaraq coğrafi yerləşmə vəziyyətinə görə nəzərdən keçirilirdi. Milli maraqlara yanaşmalar Rudolf Çellenin, Helford Con Makkinderin və s. kimi mütəfəkkirlərin əsərlərində əksini tapmışdır [13, s.162]. Bu yanaşma dövlətin bir çox sahələrdə, yəni hərbi, siyasi və iqtisadi gücünün təkmilləşdirilərək artırılması istiqamətində fəaliyyətindən ibarət idi.

Milli maraqların tədqiqinə maraq, əsasən, İkinci Dünya müharibəsindən sonra daha da artmışdır. Bu dövrdə yaşamış görkəmli siyasətşünaslardan olan Hans Morgentau milli dövlət maraqları ilə əlaqədar müxtəlif ideyaların irəli sürülməsini və onun tərəfdarları arasında nəzəri baxımdan mübarizəni "yeni böyük debat" adlandırırdı. Morgentaunun "Millətlər arasında siyasət. Hakimiyyət və sülh uğrunda mübarizə" əsərində və "Milli maraqların müdafiəsi" kitabında milli dövlət maraqları və mənafeləri nəzəriyyəsi daha sistematik formada öz əksini tapmışdır [14].

Onun ideologiyası bundan ibarət idi: milli maraq konkret-subyektiv olmayıb, obyektiv termin kimi səciyyələnir, milli maraqlar ictimai maraqlardan əsaslı surətdə fərqlənir, siyasətin mahiyyəti hakimiyyətin köməyilə əxlaqi dəyərlərin təşəkkül tapması səylərindən ibarətdir, milli maraqlar, əsasən, dövlət idarəçilərinin rasional düşüncəsinin təsiri altına düşür və s. Morgentaunun milli maraq konsepsiyasında irəli sürdüyü yenilik onun milli maraq anlayışı ilə güc anlayışını eyniləşdirməsindən ibarətdir. Bununla da o, siyasi realizm nəzəriyyəsinin əsasını qoymuş oldu [14].

Morgentaunun yaratmış olduğu bu konsepsiyanın tərəfdarları olan Pyer Renuven, Raymon Aron, Jan Batist Durozel və s. milli maraq probleminin tədqiqində əhəmiyyətli rol oynamışlar [8, s.350]. Buna misal kimi, R.Aron yazmış olduğu "Millətlərarası sülh və müharibə" əsərində milli marağın amilləri qismində

güc və təhlükəsizliyi göstərir. Onun fikrincə, dövlətin əsas vəzifəsi əhalinin təhlükəsiz yaşayışını təmin etməkdən ibarətdir [7]. J.B.Durozelə görə, milli maraqların dərki o qədər də mümkün bir proses deyil, lakin o, milli maraqların şüurda özünü tapmasının obyektlivliyini inkar etmir. Bu da onu göstərir ki, siyasi realizm nəzəriyyəsi əslində obyektlivliyə əsaslansa da, subyektivizmin xüsusiyyətləri gözə çarpır [10, s. 292].

XX əsrin sonu – XXI əsrin əvvəllərində amerikalı siyasətşünaslar İvo Daalder, Robert Keoheyn, Ceyms Lindsey və başqaları milli maraqların formalaşması və reallaşmasını, əsasən, xarici siyasətlə əlaqələndirirdilər. Onların siyasi konsepsiyasında xarici siyasət milli maraqların reallaşmasında əsas vasitə hesab edilir [11].

Kanadanın siyasi nəzəriyyəçisi K.Holsti "Beynəlxalq siyasət" əsərində milli maraqları iki mühüm yerə – perspektiv və operativ dövlət maraqlarına ayırır, onlar arasında vəhdət münasibət olduğunu vurğulayırdı [12].

Rusiya və onun tərkibindəki milli bölgələrin ictimai şüurunda da milli maraqlar özünə yer tapmışdır. Bu, əsasən, XIX əsrin sonları – XX əsrin əvvəllərinə təsadüf etmişdir ki, bunun əsas səbəbi kimi Rusiyada milli burjuaziyanın formalaşması hadisəsidir. Buna baxmayaraq, çar hakimiyyəti şəraitində milli maraq anlayışı subyektiv formada inkişaf edirdi. Həmçinin dini amillər nəzərə çarpırdı. Bununla da Rusiyanın rəsmi siyasətində milli marağa deyil, imperiyanın bütövlükdə dövlət maraqlarına, həmçinin pravoslav-xristian dini amillərə daha çox rast gəlinirdi. Katolik dinin mövcud olduğu Avropa dövlətləri ilə pravoslav dini Rusiya dövlətləri arasında mübarizədə regional maraqlar, fərqlər qabardılırdı. Etnik fərqlilik və birlik məsələsi ön planda öz əksini tapır, slavyanyönümlülük bir ideoloji konsepsiya kimi formalaşırdı. Bu baxışın nümayəndələrindən olan Vladmir Sergyeviç Solovyov, Nikolay Yakovlviç Danilevski və başqaları elmi əsərlərində Rusiyanın mədəniyyətini Avropa dəyərlərinə qarşı qoyur, Avropa mədəniyyətinin zamanla məhvə məhkum olacağı, gələcəkdə əsas yeri slavyan mədəniyyəti tutacağı qənaətində idi [9].

Tarixin müxtəlif dövrlərində milli maraq anlayışının təhlili aparılsa da, onun mahiyyətinin anlamı üçün millət məhfumunu araşdırmaq məqsədəuyğundur. Bunun səbəbi isə milli dövlət maraqları dedikdə aydın olur ki, millət və maraq terminlərindən yaranmışdır. Maraq anlayışı kimi millət anlayışının da birmənalı, mübahisə yaratmayan izahını tapmaq çətin məsələdir. Ədəbiyyatlarda göstərilənlərə əsasən demək olar ki, millət daha çox iki məna baxımından izah olunur. Bunlar onun etnik və siyasi amilləridir. Etnik baxımdan millət haqqında ideologiyaya daha çox marksist yönümlü mütəfəkkirlərin əsərlərində diqqət yetirilmişdir. Bunlardan əsas yer tutanı İ.V.Stalinin yazmış olduğu "Marksizm və milli məsələ"dir. Burada millət anlayışına istinad olaraq bu cür tərif vermişdir: ilk öncə "millət nədir?" sualını vermiş, daha sonra isə açıqlamada millətin insanların yaranmış birliyi olduğunu vurğulamış, onun elə bir mənəviyyat birliyi

müstəvisində əmələ gəldiyini demişdir ki, bu da ərazi, dil, mədəniyyət, iqtisadi həyat birliyi kimi və əlamətlərin birlikdə olduğu müddətdə mövcud olacaqdır. Siyasi baxımdan isə milli maraqlar qeyri-marksist ədəbiyyatlarda nəzərdən keçirilmişdir. Fransa və Amerika burjua inqilablarına uyğun olaraq bir çox hallarda millət məfhumu xalq və dövlət anlayışları ilə eyniləşdirilir. Millət dedikdə, ümumi qanunlara tabe olan bir sistem altındakı fərdlərin məcmusu başa düşülür. Burada fərdlərin siyasi ümumiliyi millətin formalaşması ilə başlayır. Buna uyğun olaraq alman sosioloqu Marks Veber milləti öz dövlətində formalaşdırılan ümumi cəmiyyət olduğu qənaətində idi, millət isə öz identikliyini təkcə dövlətin müdafiəsi ilə saxlamaq ixtiyarında olduğunu qeyd edirdi [12, s.35].

Məlum olduğu kimi, sosial cəmiyyətin formalaşması, əsasən, üç mərhələdən ibarətdir; bunlardan birincisi insanların ilk tarixi toplumları olan qəbilə-tayfa, ikincisi dövlətin ilk formaları olan – quldarlıq və feodalizm sivilizasiyası dövründə meydana gələn xalq, üçüncüsü isə milli dövlətin və vətəndaş cəmiyyətinin formalaşması ilə səciyyələnən mərhələdə – kapitalizm dövründə yaranan millətdir. Buradan göründüyü kimi, milləti formalaşdıran əsas siyasi aspekt milli dövlətdir. Onun isə ən əsas vəzifəsi milli maraqların reallaşdırılması mexanizmidir.

Reallığa əsaslanaraq deyə bilərik ki, maraqlar tələbatların ödənilməsinə istiqamətlənir. Tələbat subyektin fərdi, sosial və bioloji təbiəti ilə bağlı ehtiyacıdır. Bu baxımdan isə milli maraqların tədqiqatında dövlətin tələbatı deyilən bir anlayış mövcuddur, dövlət siyasi təsisat olmaqla bir deyil, tələbatlar sistemini özündə ehtiva edir.

Müasir elmi ədəbiyyatlarda maraq anlayışı iki məna baxımından izah olunur ki, bunlar da sosioloji və psixoloji olaraq qruplaşdırılır. Sosioloji baxımdan tədqiqatın tərəfdarları marağın yaranmasına səbəb kimi subyektlərin tətəbatlarının yerinə yetirilməsinə istiqamətlənən, ictimai sistemdə onların rolu və vəziyyəti ilə səciyyələnən fəaliyyəti göstərirlər. Maraq bu fəaliyyət prosesində bir sıra şərtlərlə bağlıdır ki, bunlardan ən başlıcası maddiyyatdır. Psixoloji yanaşmanın tərəfdarları marağı fərd və ya cəmiyyətin şüurunda arzular, istəklər, hisslər, ehtiyac və s. ödəmək üçün cəhd kimi xarakterizə edirlər, toplumun xüsusiyyətlərindən asılı olaraq dəyişməklə subyektiv şəkildə xarakterizə olunur.

Milli maraqlar terminindən siyasi ədəbiyyatda, həmçinin diplomatiyada geniş istifadə olunmasına baxmayaraq, onun strukturu, məzmunu barədə ideyalar, mülahizələr birmənalı deyil və bunun barəsində mübahisələr daima mövcuddur. Bəziləri milli maraq anlayışını siyasi alət kimi çıxış edən başlıca siyasi anlayış kimi əsaslandırsa da, heç də o biri qrupdan geri qalmayan qisim isə bu anlayışı siyasi elmin tərkib hissəsinə aid hesab etməyib, ümumiyyətlə qeyri-müəyyən olmaqla inkar edirlər. Bu baxışın tərəfdarları qeyd edirlər ki, milli maraq anlayışı XVIII-XIX əsrlərdə dövlətlər arasında güc amilinin əsas mövqe daşıdığı dövrdə əhəmiyyət kəsb etmişdir. Artıq onlar həm iqtisadi, həm də siyasi münasibətlərdə

qloballaşma dövründə mövcud deyillər və əhəmiyyətliliyini itirirlər. Beynəlxalq münasibətlər sistemində dövlətlər siyasi və iqtisadi inteqrasiyanın dərinləşməsi şəraitində ümumi maraqlar üçün xüsusi maraqlarını güzəştə gedirlər. Beləliklə də, milli dövlətin suverenliyi ilə yanaşı, milli maraqlar da yox olmağa başlayır. Lakin bu mülahizə özündə reallığı əks etdirmir. Müasir beynəlxalq arenada mühüm dəyişikliklər baş vermişdir və hələ də davam etməkdədir. Amma bu günə qədər qloballaşma, qarşılıqlı asılılığın artması, inteqrasiya prosesi nəticəsində heç bir milli dövlət mövcudluğunu itirməmişdir. Əksinə, müasir dövlətlər qarşılıqlı surətdə faydalı münasibətlər quraraq inteqrasiya və qloballaşma prosesindəki fəaliyyətində aktivlik göstərir, beynəlxalq əlaqələrini milli maraqlarına uyğun olaraq reallaşdırırlar. Bundan əlavə qeyd etmək lazımdır ki, müasir dövrdə milli maraqlar öz dəyərini itirmir, əksinə, XX əsrdən başlayaraq beynəlxalq münasibətlər sistemində daha da əhəmiyyətli mövqe almışdır. Həmçinin bu proses böyük dövlətlərdən əlavə kiçik dövlətlərə də öz təsirini göstərməkdədir. Buna misal olaraq, sovet ittifaqının dağılmasından sonra milli dövlət siyasətinin milli dövlət maraqları üzərində qurulmasını göstərmək olar.

Bu dövr üçün mövcud olan milli dövlət maraqları dövlətin siyasi idarəçiliyinin bütün sahələrini özündə ehtiva edir. Bu, dövlətin təhlükəsizliyinin müdafiəsi, geosiyasi vəziyyəti, daxili və xarici siyasətinin vəhdət halında aparılması, iqtisadi və siyasi inkişaf prioritetliyi, dünyada beynəlxalq münasibətlər sistemində və ayrı-ayrı bölgələrdə qüvvələr nisbəti, məqsədlər milli dövlət maraqlarının strukturunu əhatə edir.

Reallığa əsaslanaraq qeyd edə bilərik ki, müasir dövr üçün millətin əsas və ümumi maraqlarını reallaşdıran, həyata keçirən, onun təhdidlərdən müdafiəsini təşkil edən vahid siyasi institut dövlətdir. Ümumilikdə dövlətin mənfi cəhətlərini və bəzi çatışmazlıqlarına baxmayaraq, siyasi institut kimi ona başqa alternativ irəli sürmək mümkünsüzdür. Bu nöqteyi-nəzərdən çıxış edərək diqqətə çatdırmaq lazımdır ki, dövlətin milli marağının əsas strajeti məqsədi daxili və xarici təhlükəsizliyi müdafiə etmək naminə təhdidləri aradan qaldırmaq, milləti mədəni bir toplum formasında qorumaq və beynəlxalq arenada təmsil etməkdən ibarətdir. Milli maraqların güvənilir və sabit təminatının təşkil edilməsi yalnız o zaman mümkündür ki, millətin öz mövcudluğunu qoruyub saxlaya bildiyi bir vəziyyət olsun. Buna görə də milli maraqların məqsədlərinin bütün istiqamətləri öz mövcudluğunun qorunması və özünün inkişafını təmin etmək prinsipi üzrə səciyyələnir.

Milli maraqlar dedikdə, müstəqil, suveren bir dövlətin vətəndaş cəmiyyəti ilə birlikdə vəhdətlik təşkil edən marağı başa düşülür. Belə ki, həm dövlət maraqları, həm də vətəndaş cəmiyyətinin maraqları milli maraqları formalaşdıran əsas amillərdir. Bununla əlaqədar olaraq, siyasi ədəbiyyatda "milli dövlət maraqları" terminindən istifadə olunur.

Məlumdur ki, beynəlxalq sferada dövlət milləti təmsil edir. Buna görə də siyasi leksikonda milli maraq anlayışı dedikdə, dövlət maraqları anlayışı və əksinə olaraq dövlət maraqları məfhumu dedikdə, milli maraq məfhumu nəzərdə tutulur. Bunu əsaslandırmaq üçün Birləşmiş Millətlər Təşkilatı, Millətlər Cəmiyyəti və s. kimi ümumdünya qurumların adında da "millət" anlayışının yer almasını diqqətə çatdırmaq olar. Baxmayaraq ki, adında millət məfhumu var, bu tipli beynəlxalq təsisatlar beynəlxalq münasibətlər sisteminin əsas subyekti kimi fəaliyyət göstərən dövlətlərin yaratmış olduğu siyasi təşkilatdır.

Milli dövlət maraqları müasir dövrdə beynəlxalq münasibətlər sferasında əhəmiyyəti və rolu kimi problemlərə toxunan başlıca konsepsiyalar vasitəsilə inkişaf etdirilir. Bunlar arasında əsas möqve tutan konsepsiyalar siyasi realizm və idealizm konsepsiyalarıdır.

Siyasi realizm konsepsiyası, əsasən, fəlsəfi praqmatizm prizmasından çıxış edərək dövlət xadimlərinin, xüsusilə də ABŞ liderlərinin reallığa əsaslanan praktikasına uyğun siyasi qərarlar vermək prinsipinə istiqamətlənməklə təşəkkül tapmışdır. Siyasi realizmin ilkin xüsusiyyətlərinə hələ e.ə. V əsrdə Fukididin, daha sonrakı dövrlərdə yeni dövr mütəfəkkirlərindən T.Hobbsun, Karl Fon Klauzevitsin, N.Makiavellinin ideologiyalarında rast gəlmək olar. Buna baxmayaraq, siyasi realizm konsepsiyası müasir dövr üçün səciyyəvidir. Bu konsepsiyanın 3 əsas cəhətini diqqətə çatdıraq: 1) dövlət rəhbəri millətin maraqlarından çıxış edir; 2) hər bir millətin milli maraqları onun təsir dairəsinin genişlənməsi, siyasi, iqtisadi və mədəni maraqlarının dünyada yayılaraq tanınması deməkdir: 3) dövlət o məqsədlə hakimiyyətdən istifadə edir ki, öz maraqlarını qorumuş olsun.

Siyasi realizmin nəzəriyyəçiləri kimi Hans Morgentau, Ranhold Nibur, Corc Kennan, Corc Şvarsenberger, Raymon Aron, Henri Kissincer və s. kimi mütəfəkkirləri göstərmək olar. Onlar dövlət siyasətinin formalaşmasında milli maraq rolunu tədqiq etmiş və siyasi realizm konsepsiyasını inkişaf etdirmişlər. Siyasi realizm konsepsiyasının nümayəndələri milli maraqları dövlətlərin xarici siyasətinin əsası hesab edirlər. Onların ideyasına görə, maraqlar nəzəriyyəsinin əsas mövqeyi beynəlxalq və ya xarici siyasətin problemlərdən baş çıxarmaqda yardımçı olmasıdır. Həmçinin milli dövlət maraqlarının daimi, həmişə mövcud olan bir amil kimi səciyyələndirilməsinin tərəfdarı kimi çıxış edirlər. Siyasi realizmin ən məşhur nümayəndələrindən olan H.Morgentau milli maraqlar anlayışını izah edərkən dövlətin müxtəlif resurslarını təşkil edən gücü və siyasi hakimiyyət anlayışlarını bununla vəhdətdə izah edir və belə qənaətə gəlir ki, milli dövlət maraqları dövlətin xarici və daxili siyasətinə anlam verməyə şərait yaradır. Morgentau öz araşdırmalarında milli maraqları uzunmüddətli, olduqca vacib olan maraqlar sisteminin məcmusu kimi səciyyələndirmişdir. Siyasi realizm nəzəriyyəsinin çatışmayan cəhəti də məhz budur. Düzdür, Morgentau güc amilini izah edərkən resurslar, əxlaq və digər amilləri qeyd etsə də, onun ideologiyasının əsas cəhəti milli maraqların beynəlxalaq arenada təhlükəsizliyinin təmin olunması təşkil edir.

Başqa sözlə ifadə etsək, bu konsepsiyanın tərəfdarları bu nəzəriyyədə daxili amilə əsaslanırlar və həmin amillərin milli yox, ictimai maraqlarda ehtiva olunduğu qənaətindədirlər.

Tədqiqata əsaslanaraq qeyd edə bilərik ki, daxili amilləri siyasi realizm konsepsiyasındakı kimi milli maraqlardan kənarda saxlamaq olmaz. Daxili amillərin mill maraqlara aid edilməməsi dövlətin xarici və daxili siyasətinin sistemliliyi və vəhdətinə mənfi hal kimi təsir göstərər, milli maraqların birmənalı təhrif olunmuş, daxili və xarici faktorların isə əlaqələrinin mənfi dərkinə gətirib çıxarar. Xarici və daxili siyasi fəaliyyət bir-birilə vəhdət təşkil edib birlikdə fəaliyyət göstərdiyi kimi, milli maraqlar da siyasi təsisatın xarici və daxili tələbatlarından əmələ gələn sistemli maraqlar birləşməsidir.

Ümumilikdə milli dövlət maraqları struktur cəhətdən mürəkkəb xararter daşıyır. Yəni dövlət maraqları bir sıra sahələri: iqtisadi, ictimai, geosiyasi, sosial, mədəni, hüquqi və s. maraqları özündə ehtiva edir. Milli maraqlar yalnız o zaman reallığı əks etdirər ki, yuxarıda qeyd olunduğu kimi dərk olunsun. Milli maraqların bu cür dərki isə dövlətin müxtəlif strukturlarında, eləcə də müxtəlif idarələrdə və nazirliklərdə bürokratik məmurluq tərəfindən hazırlanmış adi məfhuma çevrilməsinin qarşısını alır. Milli maraqlar xalqın identikliyini, milli adət-ənənələrini, etnik xüsusiyyətlərini, coğrafi-siyasi mövqeyini, mentaliteti və psixi vəziyyətini əhatə edir, bununla da dövlətin həm daxili, həm də xarici siyasətini formalaşdıraraq təkrarsız üslubda çıxış etməsini təmin edir.

Qeyd olunduğu kimi, milli maraqlar konsepsiyalarından biri də idealizm konsepsiyasıdır ki, adından da göründüyü kimi, bir növ realizm konsepsiyasına əks mövqe tutur. Bu konsepsiya cəmiyyətin və dövlətin maraq və mənafelərini üstün tutmaqdansa, ideal mövqe tutan əxlaqi-siyasi normalara, dəyərlərə əsaslanan baxış kimi səciyyələnir. Bu baxışın ən görkəmli nümayəndəsi kimi ABŞ prezidenti Vudro Vilsonu göstərə bilərik ki, o, XX əsrin əvvəllərində dövlətlər və xalqlar üçün nəzərdə tutulmuş əxlaqi normaların siyasətdə üstünlük təşkil etdiyi qənaətində idi. Buna görə də bu konsepsiya çox zaman "Vilson idealizmi" və yaxud "vilonizm" adlandırılır. Siyasi idealizm dövlətin daxili və xarici maraqlarını vəhdət halında ifadə edir, sosial-siyasi tərəqqinin mövcudluğuna isə inanır. Buna baxmayaraq II Dünya müharibəsi ərəfəsi və bu müharibənin qarşısının alınması zamanı siyasi idealizm konsepsiyasının ideal-utopik səciyyə daşımasınınn təsdiqinə şahid oluruq. Həm II Dünya müharibəsi, həm də müharibə bitdikdən sonra baş verən bir çox münaqişələr bu baxışın iflasına gətirib çıxarmışdır.

Milli maraq anlayışının təşəkkülü, onun mahiyyətinin səciyyələndirilməsi, milli maraqların prioritetlərinin araşdırılması və onların tədqiqi siyasi elmdə əhəmiyyətli rola malikdir. Siyasətşünasların ümumi rəyinə görə, milli dövlət maraqlarının təkamülü və reallaşdırılması çox zaman alan və olduqca mürəkkəb proses formasında özünü göstərir. Bu istiqamətdə müxtəlif mülahizələri ümumiləşdirsək, bu prosesi üç mərhələdə göstərə bilərik: 1) milli maraqların tədqiq

edilib formalaşdırılması; 2) milli maraqların dövlətin əsas qanunvericiliyində təsbit edilməsi; 3) milli maraqların təminatının üsul və vasitələrinin tədqiq edilib təcrübədə yerinə yetirilməsi [1, s.139]. Bu mərhələlərin birinci və ikinci hissəsi milli maraqların tarixi təşəkkülü və konseptual-hüquqi səviyyədə təsbiti ilə bağlıdır.

Dövlətin milli maraqlarının təşəkkülü prosesini başa düşmək, onu formalaşdıran aspektləri və komponentləri üzə çıxarmaq onun strukturunun daha dərindən başa düşülməsi ilə əlaqədardır. Ona görə də maraqların formalaşma məsələsi siyasi elmin predmeti kateqoriyasında başlıca yer tutur. Ümumilikdə fikir belədir ki, milli maraqlar obyektiv faktorların vasitəsilə fərdin, dövlətin və cəmiyyətin tələbatlarına görə səciyyələnir. Bu prosesdə, əsasən, geosiyasi amillər təsir obyeki kimi ehtiva olunur ki, onları iki qrupda birləşdirmək olar: 1) subyektiv geosiyasi amillər – siyasi rəhbərlik və hakimiyyət strukturu, siyasi rejimlər, dövlət xadimlərinin idarəetmə bacarığı, ictimai, hüquqi və siyasi şüurun inkişaf səviyyəsi; 2) obyektiv geosiyasi amillər – dövlətin ərazi baxmından yerləşməsinə görə coğrafi mövqeyi, təbii sərvətləri, iqtisadi baxımdan inkişaf səviyyəsi, dövlət ərazisində yaşayan əhali sayı, siyasi stabillik dərəcəsi, tarixən formalaşma mədəniyyəti, hərbi silahlı qüvvələri, elm və texnologiyanın inkişaf göstəricisi, beynəlxalq-siyasi vəziyyət. Bununla da qeyd edə bilərik ki, milli maraqların formalaşması və təkmilləşdirilməsi, obyektiv geoiyasi amillərin əhəmiyyəti və rolu diqqətdən kənar məsələ deyil. Yəni hər bir amilin milli maraq və mənafe forması kəsb etməsi üçün dərkedilən amillər hökmən insanların şüur səviyyəsindən keçərək formalaşmalı və özünü ictimai şüur aspekti kimi göstərməlidir.

Dövlətin milli gücünü müəyyənləşdirmək üçün ilk növbədə gücün hansı elementlərdən ibarət olduğunu, yəni onun strukturunu dəqiqləşdirmək məqsədəuyğundur. Ümumiyyətlə, milli güc amili dövlətlərin yarandığı vaxtlardan öz mövcudluğunu göstərməyə başlamış, həmin dövrlərdən isə mütəfəkkirlər arasında mübahisə olunan məsələlərdən birinə çevrilmişdir. Müasir dövrün tədqiqatçıları milli güc amilinin strukturundan danışarkən ona daxil olan elementlərin təqribi olaraq oxşarlıq təşkil etdikləri qənaətindədirlər. Əsas fərqlər isə həmin tədqiqatçıların yaşadıqları dövlətin fərqli coğrafi-geosiyasi vəziyyətindən, inkişaf dinamikasından çıxış etmələri ilə bağlıdır. Məsələn: T.Dəyərli milli güc amilini beş elementlə təsnif etmişdir: iqtisadi güc, siyasi güc, hərbi güc, psixi-sosial və elmi-mədəni güc, coğrafi güc [4, s.36]. A.A.Proxojev isə güc strukturundan danışarkən onun üç əsas hissəsindən bəhs edir: cəmiyyətin gücü, dövlətin gücü və silahlı qüvvələr, yəni hərbi güc [2, s.166-174].

Qeyd olunan bu göstəricilərlə ümumilikdə dövlətin gücünü müəyyən etmək olar. Həmçinin bu göstəricilər siyasi proseslərdə milli maraqların qiymətlədirilməsinin əsası kimi çıxış edir. Buna baxmayaraq milli gücün formalaşmasında hansının əsas rol oynadığını ayırd etmək çətindir. Soyuq müharibədən sonrakı dövrdə beynəlxalq sferada baş verən proseslər göstərdi ki,

dövlətin gücü sadəcə hərbi gücdən ibarət deyil, dövlətin gücü özündə bir sıra komponentləri ehtiva edir. Dövlətin gücü milli dövlət maraqlarının formalaşmasına təsir göstərən əsas faktorlardan hesab olunur. Belə ki, böyük gücə malik dövlətin milli maraqları daha geniş və əhatəli olur. Müasir dövrdə kiçik dövlətlərin milli maraqlarının böyük və super dövlətlərin maraqları ilə müqayisəsini etsək, bu amilin gerçəkliyindən əmin olarıq. Böyük dövlətlərin beynəlxalq arenada baş verən proseslərə təsiri onların milli maraqlarının istiqamətində, fazasında öz əksini tapır. Məsələn, ABŞ-nin prinsipial maraqlarına diqqət etsək, belə bir nəticəyə gəlmiş olarıq ki, onlardan ikisi daha çox beynəlxalq səciyyə daşıyır: 1) səmərəli beynəlxalq vəziyyətin (yəni təhlükəsizlik yönümlü) yaradılması; 2) demokratiya, sülh və əməkdaşlıq, insan hüquqları kimi dəyərlərin beynəlxlaq sferada yayılmasında vasitəçi olmaq. Bu qeyd olunan məsələlər zəif və kiçik dövlətlər üçün milli maraq problemində prioritet ola bilməz, çünki onların xarici siyasətə yönəlmiş beynəlxalq siyasi proseslərdə dominantlıq imkanları çox zəif, hətta yox dərəcəsindədir.

Bütün bunları nəzərə alaraq qeyd edə bilərik ki, milli gücün strukturunun elementləri, əsasən, iki qrupda öz əksini tapır: 1) dəyişən güc elementləri – siyasi stabillik, iqtisadi inkişaf dinamikası, hərbi qüvvələr və güc, elm, texnologiyanın inkişafı; 2) nisbi sabit güc elementləri – tarixən yaşayan əhali, tarixi aspektlər, geosiyasi güc, maddi və mənəvi mədəniyyət.

Yuxarıda qeyd olunan daxili struktur elementlərindən başqa ona təsir göstərən xarici geosiyasi amilləri də diqqət mərkəzinə çatdırmağı vacib hesab edirik. Çünki məhz geosiyasi amillər daxili struktur elementlərini gücləndirə və yaxud zəiflədə bilər. Milli maraqlara təsirini göstərən milli gücün bu struktur elementləri xarakterik xüsusiyyətinə görə obyektiv səciyyələnir. Bundan başqa subyektiv amillər də vardır ki, buraya siyasi iradə və dövlət strategiyası daxildir. Strategiyanın milli maraqlara, beynəlxalq arenaya, geosiyasi-coğrafi amillərə uyğunlaşdırılması olduqca əhəmiyyətli məsələdir. Dövlətin siyasi strategiyası və siyasi iradə həm milli gücün subyektiv amili kimi, həm də milli gücün təsir dairəsi imkanlarına təsir edən əsas aspekt kimi xarakterizə olunur.

Beləliklə, milli dövlət marağı və milli gücün müəyyənləşdirilməsi və ya qiymətləndirilməsi vahid, bütöv bir prosesin mühüm vəhdətlik təşkil edən iki tərəfi kimi dəyərləndirilir. Milli maraqların necə və hansı şəraitdə müəyyənləşdirildiyi, hansı amillərinin prioritetliliyinin daha doğru aşkara çıxarıldığını o zaman təmin etmək olar ki, milli maraqlar müvafiq şəkildə qiymətləndirilsin.

Milli maraqların təşəkkülü, formalaşması və reallaşması prosesi üç mərhələni əhatə edir. Bunlardan birinci və ikinci mərhələ milli maraqların formalaşması və əsas qanunvericilikdə xarakterizə olunması məsələləri ilə bağlıdır. Üçüncü mərhələ isə müəyyən olunmuş milli maraqların reallaşdırılmasından ibarətdir. Milli maraqların reallaşdırılmasının vasitə və üsulları mürəkkəb xarakter daşıyır və ən məsuliyyətli və vacib əməli fəaliyyətdir. Dövlətin konseptual-qanuni,

rəsmi səviyyədə müəyyənləşdirilməsi siyasi, iqtisadi, hərbi, sosial-humanitar, elmi və s. çərçivəsində milli maraqlarının təmin olunması vasitə və üsullarının müəyyənləşdirilməsi və həyata keçirilmə mərhələsi kimi səciyyələnir.

Milli dövlət maraqlarının reallaşdırılmasının üsul və vasitələrini tədqiq edərkən burada əsasən üç prinsipial müddəanı diqqətə çatdıraq: 1) milli maraqlar dövlətin yerinə yetirdiyi xarici və daxili funksiyaların əsasını təşkil edir; 2) milli maraqlar ümumi mıənafe naminə dövlətin, cəmiyyətin, eləcə də şəxsiyyətin bir sistem altında birliyini təmin edir; 3) milli maraqlar milli təhlükəsizlik siyasəti ilə bilavasitə bağlıdır, milli maraqların reallaşdırılması prosesi milli təhlükəsizliyin vacib şərti kimi xarakterizə olunur [5, s.165].

Yuxarıda qeyd olunan müddəalar milli maraqların reallaşdırılmasında son məqsəd deyildir, burada əsas problem milli maraqların təmin olunması, real və potensial təhdidlərdən qorunmasıdır. Bu da dövlətin milli güc səviyyəsi və geosiyasi amillərdən asılıdır. Dövlət də vətəndaş cəmiyyəti ilə dövlətin səlahiyyətli siyasi institutları arasında qarşılıqlı əlaqə, milli maraqların reallaşdırılmasının üsul və vasitələrini aydınlaşdırır və aşkar edir. Bu vəzifənin yerinə yetirilməsi dedikdə isə, müxtəlif vasitələrlə, yəni xarici siyasət və diplomatiya, daxili siyasət, hərbi güc nəzərdə tutulur. Siyasi elmdə bu üç istiqamət, əsasən, bu cür səciyyələnir: iqtisadi, siyasi, sosial, mədəniyyət, elm və s. sahələrdəki milli maraqlar daxili siyasətin ehtiva etdiyi milli dövlət maraqlarıdır; milli maraqların xarici siyasət və ya diplomatik yolla reallaşdırılmasını danışıqlar aparmaq, dövlətlərarası əməkdaşlıq münasibətlərini genişləndirmək, güzəştli üsullar axtarıb tapmaq və digər vasitələr təşkil edir. Hal-hazırda Azərbaycan Respublikası milli maraqların həyata keçirilməsi metodlarından diplomatiya, əməkdaşlıq, balanslaşdırılmış siyasət və başqalarından istifadə edir. Dövlətin ərazi bütövlüyü, suverenliyi, müstəqilliyi, ümumilikdə təhlükəsizliyi üçün hər hansı bir real və ya potensial təhdid aşkar edilərsə, bu zaman dövlətin qanuni sərəncamında olan bütün güc qüvvələri və vasitələri fəaliyyətə keçir.

Azərbaycan Respublikasının milli dövlət maraqlarının əsas məqsədi məhz ərazi bütövlüyünün təmin edilməsi və müdafiəsidir. Bu mövzuda isə güzəşt mübahisə obyekti belə ola bilməz. Azərbaycan Respublikasının, qeyd olunduğu kimi, milli maraqlarının reallaşdırılması üsulu kimi diplomatiya seçilib, buna baxmayaraq, bu metodun uğursuzluğu hiss olunduğu vaxt güc tətbiqi qaçılmaz olacaqdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu vəzifəyə ilk dəfə seçildikdə andiçmə mərasimində nitqində səsləndirmişdir ki, Azərbaycan xalqı nə qədər tolerant olsa da, bizim də səbrimiz tükənməz deyildir [3, s.2-10].

Milli maraqların təmin olunması və reallaşdırılmasına təsir edən əsas amillərdən biri geosiyasi amillərin müəyyənləşdirilməsidir. Buna əsasən milli maraqlar formaşdırılır, dövlətin hazırladığı normativ-hüquqi və konseptual sənədlərdə öz əksini tapır və geostrateji nəzəriyyə müəyyən olunur. Geostrateji konsepsiya milli maraqların müdafiə perspektivlərini özündə əks etdirir. Bu xəttin

reallaşdırılması isə geosiyasət adlanır. Geosiyasət dövlətin siyasi maraqlarını bütöv halda reallaşdırma fəaliyyətinin nəzəri sistemi kimi özünü göstərir.

Toxunduğumuz məsələ, yəni geosiyasi yanaşma geosiyasi amillərin reallaşmasında rolu və yeri, onun milli maraqlara təsir səviyyəsi və istiqamətini müəyyən etmək, milli maraqların reallaşmasının gedişatını izləməklə qanunauyğunluqları müəyyənləşdirməkdən ibarətdir. Ümumiyyətlə, milli maraqların həyata keçirilməsi prosesi dedikdə, milli maraqların təmin edilməsi, onun real və potensial təhdidlərdən qorunması, müdafiəsi sahəsində aparıla tədbirlər sistemi nəzərdə tutulur. Bu vəzifənin yerinə yetirilməsində geosiyasi amilin nə kimi rolu var? sualına cavab olaraq isə deyə bilərik ki, həmin vəzifə məhz dövlətin bəşəri və coğrafi gücündən, onların qarşılıqlı münasibətindən yaranan milli gücün səviyyəsindən asılı səciyyələnir. Qeyd etdiyimiz kimi, təhdidlərdən müdafiə olunma əsas məqsədlərdən biridir. İlk öncə bu təhdidlərin müəyyənləşdirilməsi vacibdir ki, dövlətin, cəmiyyətin, ümumilikdə şəxsiyyətin maraqlarının hansı, nə kimi təhlükə altında olduğu aşkarlansın. Təhdid fərdin, cəmiyyətin, dövlətin həyati xarakterli maraqlarına təhlükə yaradan amillərin ssitemi kimi xarakterizə olunur. Geosiyasi baxımdan təhdid ölkə daxilində və beynəlxalq arenada təhlükəli vəziyyətin yaranması deməkdir.

Tədqiqatın nəticəsində qeyd edə bilərik ki, milli maraqlar dövlətin geosiyasi amillərinə uyğunlaşdırılmalıdır. Əgər dövlətin milli maraqlarının formalaşması prosesində geosiyasətin hər hansı bir amili diqqət mərkəzində olmazsa, milli maraqlar dövlətin reallığını özündə ehtiva etməz. Reallığı əks etdirməyən milli maraqlar nəinki dövlətin inkişafına əngəl olar, həmçinin onu tənəzzülə doğru aparar. Buna yol verilməməsi üçün isə geosiyasi aspektlər dəqiq təhlil olunmalı, milli maraqlar geosiyasətin hər bir elementinə uyğun istiqamətləndirilməli, dövlət tərəfindən qəbul olunmuş, strateji və qanuni sənədlərdə öz əksini tapmalıdır. Həmin bu prosesi milli maraqların formalaşmasının ikinci mərhələsi kimi qeyd etmişdik. Bu mərhələdə dövlətin milli maraqlarının bir çox mühüm sənədlərdə öz əksini tapdığını, məsələn: Xarici siyasət strategiyası, Milli təhlükəsizlik haqqında qanun, Milli təhlükəsizlik konsepsiyası və s. göstərə bilərik.

## ƏDƏBİYYAT


1. *Abbasbəyli A.N., Darabadi P.G., İbrahimov Ə.Q.* Konfliktologiya. Bakı: BDU, 2006, 251 s
2. *Abbasbəyli A.N.* Müasir dünyanın siyasi mənzərəsi, Bakı: Təhsil NPM, 2008, 276 s.
3. *Əliyev İ.H.* İnkişaf məqsədimizdir. 1-24-cü cildlər. Bakı: Azərnəşr, 2009-2015
4. *Xəlilov C.M.* Milli Təhlükəsizlik strategiyası. Bakı: ARPDİA, 2016, 456 s.
5. Milli Təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik toplusu: Azərbaycan

Respublikası Prezidentinin nəşri, 2004, № 8, s. 2235-2250
6. *Şəfi Üzeyir*. Konfliktologiya. Siyasi – sosioloji təhlil. Bakı: Adiloğlu, 2002, 180 s.
7. *İlhan S.T.* Geopolitik duyarlılık. İstanbul: Özener Matbaası, 2003, 164 s.
8. *Гаджиев К.С.* Введение в геополитику. М.: Логос, 1998, 416 с.
9. *Запрудский Ю.Г.* Социальный конфликт (политический анализ). Р.: Ростовский Университет, 1992, 426 с.
10. *Цыганков П.А.* Международные отношения: Учебное пособие. М: Гардарики, 2002, 590 с
11. *Daalder I.J., Lindsay J.C.* America Unbound: The Bush Revolution in foreign policy. Washington: Brookings Institution Press, 2003, 245 p.
12. *Holtsi K.M.* International Politics: A Framework for Analysis Prentice, Seventh edition, New Jersey: Prentice Hall, 1994, 432 p.
13. *Mackinder H.F.* Democtratic ideals and reality: A study in the Politics of Reconstruction. L.: Forgotten Books, 2015, 292 p.
14. *Morgenthau H.D.* Politics Among Nations: The Struggle for Power and Peace. Seventh edition, New York: Alfred A. Knopf, 1968, 416 p.

Redaksiyaya daxil olub 03.08.2022

***UOT 321***

***A.N.Bəşirova***
*Azərbaycan Dillər Universiteti*
*bashirovaaida@mail.ru*

# BREXİT PROSESİNİN MEYDANA GƏLMƏSİNƏ TƏSİR EDƏN AMİLLƏR

***Açar sözlər:*** *Avropa İttifaqı, Britaniya, Brexit, inteqrasiya*

Müasir dövrdə Avropa İttifaqı daxilində ən mühüm məsələ Böyük Britaniyanın ittifaqdan çıxması məsələsidir. Beynəlxalq münasibətlərdə bu proses Brexit adlanır. Brexit prosesi birdən-birə yaranmamışdır. Bu prosesin yaranmasının müxtəlif sosial-iqtisadi, siyasi və s. səbəbləri vardır. Məqalədə Brexit prosesinin meydana gəlməsinə təsir edən amillər araşdırılmışdır.

***А.Н.Баширова***

## ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ФОРМИРОВАНИЕ ПРОЦЕССА БРЕХИТА

***Ключевые слова:*** *Европейский Союз, Британия, Брехит, интеграция*

В настоящее время самым важным вопросом в Европейском союзе является вопрос о выходе Великобритании из союза. В международных отношениях этот процесс называется Брехит. Процесс Брехита сформировался не внезапно. Возникновение этого процесса обусловлено различными социально-экономическими, политическими и другими причинами. В статье исследованы факторы, влияющие на формирование процесса Брехит.

***A.N.Bashirova***

## THE MAIN FEATURES AFFECTING THE FORMATION OF THE BREXIT PROCESS

***Keywords:*** *European Union, British, Brexit, integration*

At present, the most important issue in the European Union is the issue of the UK's withdrawal from the union. In international relations, this process is called Brekhit. The Brechit process did not emerge suddenly. The emergence of this process is due to various socio-economic, political and other reasons. The article explores the factors influencing the formation of the Brechit process.

İkinci dünya müharibəsindən sonra aparıcı Avropa dövlətlərinin iqtisadi inreqrasiyası nəticəsində yaranan Avropa İqtisadi Birliyi tez bir zamanda iqtisadi güc mərkəzinə çevrilərək tədricən siyasi müstəvidə də beynəlxalq münasibətlər sisteminə təsir etməyə başladı. Avropa İttifaqının təşəkkülünə

aparan yolu bütövlükdə dünya tarixinin fenomenal hadisəsi hesab etmək olar. İnsanların, əmtəə və xidmətlərin, kapitalın azad hərəkəti ideyasını İttifaqın təməl prinsipləri kimi qəbul etməklə, Aİ regional əməkdaşlıq və inteqrasiyanın nümunəvi modelini yaratmağa nail oldu. 1993-cü ildə Maastrix müqaviləsinin imzalanması ilə artıq iqtisadi, ticari münasibətlərin dərin kök saldığı Avropa məkanında həm də regional siyasi birliyin əsası qoyuldu. Avropa İttifaqının baş tutması digər regionların ölkələrinə də beynəlxalq münasibətlər sistemində yeni inteqrativ proseslərin örnəyini təqdim etmək baxımından tarixi hadisəyə çevrildi. Təsadüfi deyildir ki, Avropa İttifaqının təsis olunmasından sonra Şərqi Asiyada, Afrikada, Cənubi Amerikada, eləcə də türk dövlətləri coğrafiyasında regional əməkdaşlığın dərinləşdirilməsinə yönələn regional birlik modelləri üzərində diskussiya və təşəbbüslər müntəzəm hal aldı. Lakin bu gün Avropa İttifaqına daxil olan dövlətlər və onların xalqları əvvəllər çox nikbinliklə təşviq edilən İttifaq coğrafiyasının genişlənməsinə, xüsusilə mövcud iqtisadi durumun perspektivinə skeptik yanaşmağa başlamışlar.

Bu gün İttifaqa üzv olan dövlətlərdə cərəyan edən hadisələrin, hərdənbir təzahür edən radikallaşma meyillərinin, bütövlükdə regionda baş verən proseslərin Avropa İttifaqı kimi nümunəvi regional birliyin dayaqlarını sarsıda biləcək qədər təhlükəli xarakter alması da diqqətdən yayına bilməz. Demək olar ki, istisnasız olaraq bütün Avropa ölkələrində vaxtaşırı baş verən etiraz nümayişləri, Avropa parlamentinə son seçkilərdə bəzi ölkələrdə ifrat sağçı qüvvələrin çox səs toplaması bütövlükdə Avropa cəmiyyətində inamsızlıq sindromunun mövcudluğunu əks etdirir. Avropa İttifaqı kimi unikal və konstruktiv bir qurumun belə bir durumla üzləşməsinin bir sıra siyasi, iqtisadi və sosial səbəbləri vardır. Avropa İttifaqı Maastrix müqaviləsinin imzalanmasından sonra üzv dövlətlərin bir çox suveren hüquqlarının Avropa İttifaqı təsisatlarına ötürülməsi prosesi başlandı. Avropa Parlamenti, Avropa Komissiyası, Avropa İttifaqı Şurası, Avropa Ədalət Məhkəməsi, Avropa Mərkəzi Bankı kimi dövlətüstü təsisatlar üzv dövlətlərin icra, qanunverici və məhkəmə səlahiyyətlərinin əhəmiyyətli bir qismini öz üzərinə götürdü [8, s.39].

Avropa İttifaqının coğrafi sərhədlərini genişləndirməyə başladığı 2004-cü ilə qədər qeyd olunan təsisatların fəaliyyəti ilə üzv dövlətlərin hakimiyyətləri arasında hər hansı ciddi fikir ayrılığı olmamışdır. Hətta Böyük Britaniyanın baş naziri T.Bleyer 1998-ci ildə "Müasir Britaniyanın xarici siyasətinin prinsipləri" adlanan proqram çıxışında qeyd edirdi ki, "Britaniya Avropanın mərkəzinə qayıdacaq və orada lider mövqe tutacaq" [4]. Göründüyü kimi, Britaniya rəsmi dairələri nəinki Avropa İttifaqından çıxmaq barədə düşünmürdülər, onlar hətta inteqrasiyanı daha da dərinləşdirmək və Avropada Britaniyanın mövqelərini gücləndirmək siyasətinə üstünlük verirdilər. Leyborist hökumətinin 1998-ci ildə qəbul etdiyi "Strateji Müdafiə Proqramında" Böyük Britaniyanın təhlükəsizlik və müdafiə siyasətinin bir sıra müddəalarına yenidən baxılırdı [1, s.82]. Lakin

məhz 2004-cü ildən sonrakı dövrdə Avropa İttifaqında baş verən siyasi proseslər fərqli istiqamətə yönəlməyə başladı. Üzv dövlətlərin Avropa İttifaqından ayrılmasına yönəlmiş ilk cəhd 2004-cü ildə Fransa və Hollandiya tərəfindən edilsə də, keçirilən referendumların nəticəsində hər iki dövlətin əhalisi ittifaqda qalmağa səs vermişdi [3].

2008-ci ildən başlayan ümumdünya maliyyə böhranı və böhranın Avropa İttifaqına daxil olan ölkələrdə özünü kəskin şəkildə büruzə verməsi İttifaq tərkibində ciddi fikir ayrılıqlarının və ziddiyyətlərin yaranmasına səbəb olmuşdu. Avropa İttifaqının genişlənməsi zahirən sistemli proses kimi görünsə də, yeni üzv dövlətlərin İttifaq daxilindəki siyasi və iqtisadi rolu qısa zaman kəsiyindən sonra müzakirə obyektinə çevrildi. Avropa İttifaqı üzv olmaq istəyən dövlətlər üçün nə qədər ilkin tələblər irəli sürsə də, həmin dövlətlər üzvlük statusu qazandıqdan az sonra onların bu tələbləri lazımınca yerinə yetirmədiyi üzə çıxmağa başladı. Macarıstan, Kipr, Bolqarıstan, Rumıniya kimi dövlətlərin üzvlüyü İttifaqın Almaniya, Böyük Britaniya, Fransa kimi həlledici üzv dövlətləri və onların vergi ödəyiciləri üçün artıq yük kimi qiymətləndirilir. Bu proses Avropa İttifaqının coğrafıyasının genişlənməsinə qarşı çıxışların, hətta İttifaqı tərk etmək barədə çağırışların ortaya çıxmasına səbəb olur. Avropanın iqtisadi cəhətdən güclü dövlətləri öz büdcə kəsirlərinin sürətlə artdığı bir məqamda iqtisadiyyatı zəif olan üzv dövlətlərə maliyyə yardımının ayrılmasına qəti şəkildə etiraz edirlər. Həm də belə bir vəziyyətin davamlı olub ənənəyə çevriləcəyi ehtimalları güclü dövlətlərin etirazçılıq ruhunu daha da artırır. Bu amil iki əsas ziddiyyətli məqamı ortaya çıxarır:

- Avropa İttifaqına yeni üzv olmuş dövlətlər gözləntilərinin əksinə olaraq regional inteqrasiyanın gətirdiyi üstünlüklərdən yararlanmaq imkanından tam istifadə edə bilmirlər.
- Həmin dövlətlər Avropa İttifaqının bir parçası olaraq iqtisadiyyatlarını stimullaşdırmaq üçün İttifaqın dayanıqlı iqtisadiyyata malik olan üzv dövlətlərindən lazım olan siyasi, iqtisadi, maliyyə dəstəyini almaqda çətinlik çəkirlər. Bu da öz növbəsində yeni üzv dövlətlərin hakim elitasında, eləcə də bütövlükdə cəmiyyətdə Avropa İttifaqına münasibətdə puç olmuş xəyallar effektini yaradır. Bununla yanaşı, bir zamanlar Avropa İttifaqının genişlənməsinə hər cür dəstək verəcəklərini bəyan edən əsas İttifaq üzvlərinin yeni üzv dövlətlərin problemlərinə soyuq münasibət göstərmələri bu məkanda qarşılıqlı etimad mühitinin zədələnməsinə gətirib çıxarır. Avropa İttifaqı regional iqtisadi inteqrasiya proseslərinin intensiv getdiyi məkan olduğuna görə İttifaqa daxil olan ölkələrin iqtisadiyyatları bu inteqrasiya modelinin tərkib hissəsinə çevrilmişdir. Bu hal avrozonaya daxil olan ölkələrdə daha aydın şəkildə özünü büruzə verir [2]. Belə ki, bir üzv ölkədə baş verən iqtisadi və maliyyə təlatümlərinin digər üzv dövlətlərə təsiri qaçılmazdır. Yalnız Avropa İttifaqına yeni üzv olmuş dövlətlər deyil, eyni zamanda İtaliya, Yunanıstan,

İspaniya kimi avrozonaya daxil olan dövlətlər də ciddi iqtisadi və maliyyə böhranı ilə üzləşdilər. Belə bir vəziyyət İttifaq daxilində onsuz da kövrək olan münasibətlərin zədələnməsi ilə nəticələndi. Avropa Mərkəzi Bankı İtaliya, İspaniya və Yunanıstana maliyyə yardımının göstərilməsinin ilkin şərti kimi sərt qənaət və büdcə restrukturizasiya tədbirlərini həyata keçirməyi təklif etmişdi. İtaliya, İspaniya və Yunanıstan hökumətləri tərəfindən büdcə islahatları adı altında həyata keçirilən tədbirlər isə cəmiyyət daxilində kəskin ziddiyyətlərin, narazılıqların yaranmasına səbəb oldu. Yunanıstan və İtaliya kimi dövlətlərin vətəndaşları düşdükləri ağır vəziyyətin əsas səbəbkarları kimi Avropa İttifaqının baza institutlarını və İttifaqın əsas idarəedici dövlətlərini günahlandırırlar. Həmçinin Avropa İttifaqının institutları, Almaniya və Böyük Britaniya mövcud iqtisadi-maliyyə problemlərini vaxtında aşkar etmədiklərinə və lazımlı tədbirlər görmədiklərinə görə Yunanıstan, İspaniya və İtaliya hökumətlərini günahlandırırlar. Üzv dövlətlər və Avropa İttifaqının institutları qarşılarına çıxan problemlərin həlli yollarını tapmaqdansa, qarşılıqlı ittihamlarla vəziyyəti daha da kəskinləşdirən təhlükəli siyasi xətt yürüdürlər. İqtisadi-maliyyə böhranının təsirlərini maksimum dərəcədə azaltmağa cəhd edən üzv dövlətlərdə artıq iqtisadi milliyətçilik anlayışı meydana gəlmişdi [7].

Böyük Britaniya və Almaniya dərin iqtisadi problemlərlə üzləşən üzv dövlətlərdən gələ biləcək təhlükənin qarşısını almaq üçün proteksionist siyasət həyata keçirməkdə maraqlı idilər. Bu dövlətlərdə hətta böhranlı ölkələrin vətəndaşlarına qarşı immiqrasiya qaydalarının sərtləşdirilməsi məsələsi gündəmə gətirilir. Avropa İttifaqının təməl prinsiplərindən olan insanların azad hərəkəti ideyası ilə açıq şəkildə təzad yaranırdı. Bir başqa səbəb Avropa İttifaqının genişlənməsini özlərinin prioritet istiqamətləri kimi qəbul edən dövlətlər bu gün tamamilə əksinə olaraq İttifaqın dayaqlarını sarsıtmağa meyilli siyasət yürüdürlər. Böyük Britaniya, Fransa, Almaniya kimi dövlətlərin hökumətləri öz siyasi hakimiyyətlərinin birtərəfli fəaliyyətlərini və nöqsanlarını örtmək üçün bütün məsuliyyəti bir təsisat olaraq Avropa İttifaqının üzərinə yıxmağa çalışırlar. Belə bir siyasətin yürüdülməsi qısamüddətli siyasi divident qazanmağa kömək edə bilər. 2013-cü ilin yanvar ayında Böyük Britaniyanın baş naziri David Kemeron tərəfindən mühafizəkarların növbəti seçkilərdə qələbə qazanacağı təqdirdə İttifaqı tərk etmək və ya onun tərkibində qalmaq barədə referendum keçirəcəyini bəyan etməsi ölkəsinin uzunmüddətli maraqlarını təmin etməkdən daha çox Avropa İttifaqından narazı olan elektoratın səsini qazanmağa xidmət edirdi. Belə ki, Avropa İttifaqının qarşısına çıxan problemləri inkar etmək mümkünsüz idi. Ancaq bu problemləri əməkdaşlıq əsasında aradan qaldırmaq, siyasi həlli yolları axtarmaq əvəzinə Birliyi tərk etmək çağırışları Avropa dəyərlərinə qarşı edilən xəyanətdən başqa bir şey deyildi. Belə siyasi xətt uzunmüddətli perspektivdə uğurlu hesab oluna bilməz. Əksinə, İttifaq daxilində münasibətlərin gərginləşməsi Avropa

İttifaqının təməl prinsiplərinin sarsıdılması deməkdir. Bu prosesin separatçılığa aparıb çıxarmayacağına isə heç kim təminat verə bilməz.

Avropa Parlamentinə keçirilən seçkilər də Avropada radikallaşma tendensiyasının nə qədər təhlükəli xarakter aldığını tam aydınlığı ilə göstərir. Bu seçkilərdə Avropanın millətçi partiyalarının Avropa Parlamentində müəyyən həddə təmsilçilik əldə edəcəyi proqnozlaşdırılsa da, parlament yerlərinin əksəriyyətinin ultra-millətçi partiyaların nümayəndələri tərəfindən tutulacağını çoxları gözləmirdi. Lakin Avropa İttifaqına üzv olan dövlətlər və Avropa İttifaqi institutları sanki gözləmədikləri nəticə ilə üz-üzə qaldı. Artıq bu gün Avropa Parlamentində 9 ultra-sağçı partiya təmsil olunmaqdadır. Neo-nasistlərdən tutmuş özlərini milli cəbhənin fədakar üzvləri adlandıranlara qədər Avropa üçün böyük təhlükə vəd edən bütün qüvvələrin Avropa Parlamentində təmsilçilik qazanması Avropa İttifaqının qayəsini təşkil edən regional inteqrasiya, bərabərhüquqlu tərəfdaşlıq, demokratiya, tolerantlıq kimi dəyərlərin aşınma mərhələsinə daxil olduğunu deməyə əsas verir [6, s.15]. Düşündürücü məqam isə Avropa vətəndaşlarının seçkilərdə məhz bu partiyalara həvəslə səs vermələridir. Belə ki, bir sıra üzv dövlətlərlə Avropa İttifaqı arasında qarşılıqlı münasibətlərdə dərinləşməkdə olan etimadsızlıq mühiti millətçi partiyaların daha çox səs toplamalarının başlıca səbəbi kimi göstərilə bilər. Üzv dövlətlərin vətəndaşları həm öz hakimiyyətlərini, həm də bütövlükdə İttifaq strukturlarını getdikcə ağırlaşmaqda olan sosial-iqtisadi problemlərin əsas səbəbkarı hesab edirlər. Nəticədə, millətçi qüvvələr hakimiyyətə olan inamlarını itirdikləri üçün xalqın milli kimlik hisslərindən məharətlə istifadə edərək öz mövqelərini möhkəmləndirməyə nail olurlar. Proseslər bu formada cərəyan etməyə davam etdiyi təqdirdə millətçi partiyaların üzv dövlətlərdə şəriksiz aparıcı siyasi qüvvələrə çevriləcəyi aydın görünürdü. Bu isə həm Avropa İttifaqının, həm də uzun illər ərzində formalaşmış Avropa dəyərlərinin sonu demək idi.

Avropa İttifaqının Şurası tərəfindən qəbul edilmiş, Avropa İttifaqının 2020-ci ilə qədər əsas inkişaf istiqamətlərini müəyyən edən Avropa 2020 inkişaf strategiyası güclənməkdə olan radikallaşma, millətçilik, dezinteqrasiya meyillərinin qarşısının alınmasına yönələn tədbirlərin həyata keçirilməsini nəzərdə tutmur. Son zamanlar Avropanın şərqində baş verən proseslər Avropa İttifaqının həm də siyasi təsisat kimi regionda tutduğu mövqeyi yenidən gündəmə gətirmişdi. Siyasi tənqidçilər Avropa İttifaqının Ukrayna ətrafında cərəyan edən hadisələrə yanaşma mövqeyinin yetərincə qətiyyətli olmaması və münasibətləri nizama salınması üçün malik olduğu siyasi təsir vasitələrindən səmərəli şəkildə istifadə etmədiyi qənaətindədirlər. Ukrayna hadisələri Avropa İttifaqının vahid xarici siyasət xəttinin formalaşmadığının bariz nümunəsidir. Güclü hesab etdiyimiz üzv dövlətlər tərəfindən faktiki olaraq Avropada bir dövlətin coğrafi sərhədlərinin dəyişdirilməsinə qarşı kağız üzərində qalan bəyanatlardan və məhdud təsirə sahib sansksiyalardan başqa heç bir ciddi

addımlar atılmadı. Avropaya ən yaxın coğrafi məkanda baş verən və qlobal dünya düzəninə təsir edən hadisələrə qarşı Avropa İttifaqının vahid mövqe ortaya qoya bilməməsi bu regional birliyin kənar və qəfil təhdidlərə qarşı hazırlıqsız olduğunu sübut etdi. Belə bir dramatik vəziyyətdə Avropa İttifaqının təhlükəsizliyinin qarantı kimi çıxış edən NATO-nun hərbi blokdan daha çox siyasi təşkilat kimi davranması kənar təhdidlərə qarşı real müdafiə mexanizminin kifayət qədər təsirli olduğunu şübhə altına alır. Rusiyanın suveren Avropa dövlətinə – Ukraynaya qarşı açıq hərbi müdaxiləsi sanki sarsıntı keçirən və çaşqınlığa düşən Avropa İttifaqının Şərqi Avropaya və Rusiyaya münasibətdə bir-biri ilə uzlaşmayan ikili siyasətini üzə çıxardı. Krım hadisələrindən ruhlanan etnik azlıqların, eləcə də İtaliyada, İspaniyada, Böyük Britaniyada qatı millətçi qüvvələrin bu proseslərdən istifadə edərək Avropanın müxtəlif yerlərində qeyri-sabitlik yaratmaq təhlükəsi artıq reallığa çevrilə bilər. Nəticədə, separatçılıq meyilləri Avropanın mərkəzinə doğru irəliləyə bilər. Belə ki, Avropa İttifaqına üzv olan dövlətlər İkinci Dünya müharibəsindən sonrakı dövrdə olduğu kimi, yaranmış problemləri aradan qaldırmaq məqsədi ilə səylərini birləşdirməkdənsə, hər biri ayrı-ayrılıqda özlərini düşünür və tək xilas olmağa çalışırlar. Müasir dövrdə Avropa İttifaqı vahid siyasi sistem kimi özünün nə əsas müttəfiqi olan ABŞ-yə, nə Avrasiya dövlətlərinə, nə daimi müharibə şəraitində olan İslam Şərqinə, nə də ümumiyyətlə, beynəlxalq birliyə münasibətində Vahid Avropa siyasətinin mövcud olduğunu iddia etmək mümkündür [9]. Baxmayara ki, Avropa siyasətində belə bir sistemli yanaşma, təxminən on il bundan qabaq daha aydın sezilirdi. Avropa İttifaqına üzv dövlətlər arasında İttifaqdaxili ziddiyyətlərin aradan qaldırılmasına, getdikcə genişlənməkdə olan radikallaşma meyillərinin qarşısının alınmasına yönəlmiş vahid siyasət konsepsiyasını hazırlayaraq onun gerçəkləşdirilməsinə ciddi ehtiyac hiss olunmaqdadır.

Bütün bu proseslər sonda Britaniya hakim dairələrini daha ehtiyatlı siyasət aparmağa və Avropa İttifaqı ilə münasibətlərə yenidən baxmağa məcbur etdi.

Buna aşağıdakı amillər də təsir göstərdi:

1. Suverenlik. Hesablamalara görə, Aİ üzv müddətində Britaniya qanunlarının 14-17%-i Aİ-yə üzv olmasından irəli gəlirdi. Eyni zamanda hökumətin təxminlərinə görə, Britaniyanın qəbul etdiyi böyük iqtisadi təsirə malik olan qanunların 50%-nin mənşəyi Aİ-nin qanunvericiliyinə dayanırdı. Bu növ qanunlar isə kənd təsərrüfatı və balıqçılıq üçün subsidiyalar, ətraf mühit, nəqliyyat sövdələşmələri və digər bu kimi sahələri əhatə edir. Səlahiyyətlərin azalmasına baxmayaraq, Britaniya hökumətinin Aİ Nazirlər Şurasının təkliflərinə qarşı səs vermək və hətta onları veto etmək hüququ var idi. Ancaq bütün üzv dövlətlər kimi Britaniya da Avropa Ədalət Məhkəməsinə tabe olmaq məcburiyyətində idi. Breksit tərəfdarları verilmiş

bütün səlahiyyətlərin ölkəyə qaytarılmasını tələb edirdilər. Onların fikrincə, yalnız belə olan təqdirdə, ada dövləti əzəmətini qoruyub saxlaya bilər.

2. Miqrasiya. Aİ-nin fundamental müddəalarından biri olan azad hərəkət etmə İttifaq daxilində yaşayan insanların hər hansı bir ölkəyə sərbəst daxil olmasına və orada işçi kimi qalmasına icazə verir. Britaniya Avropanın vahid bazarına daxil olmaq üçün azad hərəkət haqqında qanuna tabe olmaq məcburiyyətində idi. 1995-2015-ci illər ərzində Krallığa gəlmiş miqrantların sayında 3 dəfə artım qeydə alınmışdı. 2015, 2016-cı illərdə Britaniyada digər Aİ ölkələrindən gəlmiş miqrantların sayısı 3 milyon olub. Digər ölkələrdən fərqli olaraq Krallığa gəlmiş miqrantlar yüksəktəhsilli və ixtisaslı olması ilə seçilir. Bu onlara həm dövlət, həm də özəl sektorda təmsil olunmağa imkan verir. Təbii ki, miqrantların həm ölkə iqtisadiyyatına, həm də dövlət xərclərinə təsiri çoxdur. Bəzi Breksit tərəfdarları yaranan təsirlərin neqativ olduğunun və gəlmələrin iş yerlərini ələ keçirməsinin ölkə ərazisində əmək haqlarının azalmasına və təhsil, səhiyyə kimi vacib ictimai xidmətlərin artan tələb qarşısında yüklənməsinə səbəb olduğu qənaətində idilər.

3. Təhlükəsizlik. Şengen sisteminin fəaliyyət göstərməsi son illərdə digər ölkələrdə olduğu kimi, Britaniyada da təhlükəsizliklə bağlı narahatlıqları artırmışdır. İŞİD terror qruplaşmasının son vaxtlarda Avropada həyata keçirdiyi silsilə terror hadisələri və Avropa vətəndaşlığını daşıyan minlərlə şəxslərin İraq və Suriyada terrorçu qruplar daxilində müharibələrdə iştirak etməsi ciddi problemdir. Digər tərəfdən, 2011-ci ildən etibarən Suriyada başlayan vətəndaş müharibəsinə görə yaşayış yerlərini tərk edən və bu günədək Avropaya üz tutan qaçqınlar Şengen zonası ölkələrinin təhlükəsizliyinə mənfi təsir göstərmiş və hətta bəzi üzv dövlətlər Avropa Komissiyasının təklifi ilə müvəqqəti sərhəd nəzarəti məntəqələri yaratmışdılar.

Bütün bu amillərin Britaniya cəmiyyətində yaratdığı rezonansın nəticəsi olaraq 2015-ci ilin may ayında keçirilən parlament seçkilərində Brexit tərəfdarı olan siyasi partiyalar – Böyük Britaniyanın İstiqlal Partiyası, Britaniya Milli Cəbhəsi, Britaniya Milli Partiyası və digər sağçı millətçi təşkilatlar qalib gəldi. 23 iyun 2016-cı il tarixində keçirilən referendumda Şotlandiya və Şimali İrlandiya əhalisinin 62 %-i Avropa İttifaqının tərkibində qalmağa səs versələr də, səsvermənin ümumi nəticələrinə əhalinin 48,1 %-i Avropa İttifaqı tərkibində qalmağa, 51,9 %-i isə İttifaqı tərk etməyə səs verdi [9].

Bütün bu amillərin yekunu olaraq, Avropa İttifaqı daxilində sosial-iqtisadi və siyasi ziddiyyətlərin dərinləşməsi və millətçilik meyillərinin inkişafı sonda Böyük Britaniyanın Avropa İttifaqından ayrılması ilə nəticələndi.

## ƏDƏBİYYAT


1. *Həmidov S.S.* Avropa İttifaqında siyasi inteqrasiya prosesləri və Azərbaycan. Bakı, 2009, 271 s.
2. Brexit: Ekonomide 'şok senaryosu' devrede. https://www.bbc.com/turkce/ekonomi/2016/06/160624_brexit_ekonomi
3. *Topaloğlu Gökçe.* Avrupa Birliginden ayrılma hakkı ve brexit süreci. https://dergipark.org.tr/en/download/article-file/980865
4. *Громко А.А.* Внешняя и оборонная политика Великобритании в свете иракского кризиса. https://cyberleninka.ru/article/n/vneshnyaya-i-oboronnaya-politika-velikobritanii-v-svete-irakskogo-krizisa
5. Brexit: Six months on, The UK in a Changing Europe, s. 18, http://ukandeu.ac.uk/wp-content/uploads/2016/12/Brexit-Six-months-
6. Brexit: voter turnout by age. https://www.ft.com/content/1ce1a720-ce94-3c32-a689-8d2356388a1f
7. Let THREE MILLION MORE into the UK:George Osborne admits to migrant surge if we stay in EU. /18 April 2016/ - https://www/thesun.co.uk/archives/politics/1134369/let-three-million-more-the-uk-george-osborne-admits-to-migrant-surge-if-we-stay-in-eu
8. *Nicola Sturgeon*: Skottish parliament could block Brexit. / 26 June 2016 / http://www.theguardian.com/politics/2016/jun/26/Nicola-sturgeon-new-scottish-referendum-brexit
9. Scotland could be at heart of Brexit negotiations, says Scottish secretary. https://www.bbc.com/news/uk-scotland-scotland-politics-36784529


Redaksiyaya daxil olub 16.08.2022

*UOT 94(479.24)*

***Z.H.Kərimov***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*zakir.kerimov.1955@mail.ru*

# VƏTƏN ATASI – ƏLƏKBƏR BƏY RƏFİBƏYOV

***Açar sözlər:*** *Vətən atası, Gəncə şəhəri, maarifçi, ziyalı, vətənpərvər, Yelisavetpol Xeyriyyə Cəmiyyəti, Gəncə şəhər bələdiyyəsi*

Xalqların tarixini yalnız ayrı-ayrı fərdlərin böyük əməlləri deyil, həm də ayrı-ayrı nəsillərin fəaliyyəti, şərəfli əməlləri yaradır. Tariximizdə izini qoyan belə nəsillərdən biri də qədim Gəncə şəhərində məskunlaşmış Rəfibəyovlar nəslidir. Bu nəslin payına Azərbaycanın neçə-neçə şanlı nəsilləri kimi, yalnız öz ailələri, öz əqrəbaları üçün deyil, millətindən ötrü ömür sürmək missiyası da düşmüşdü. Bu nəsil dünyaya xeyirxahlıq, mərhəmət, nəciblik üçün gəlmişdi. Göstərilən məqalədə bu nəslin görkəmli nümayəndəsi Ələkbər bəy Rəfibəyovun Gəncə şəhər müsəlmanlarının mənafeyinə yönəlmiş xeyriyyəçilik fəaliyyətindən bəhs olunur. Ələkbər bəy çar Rusiyasının polis sistemində xidmət etmiş, dəfələrlə mükafatlandırılmış, xidməti başa vurduqdan sonra Vətəninin, millətinin faydasına geniş ictimai-siyasi işlə məşğul olmuşdur. O, 1919-cu ildə vəfat etmişdir. Bu fədakar şəxs Azərbaycan Xalq Cümhuriyyətinin ilk səhiyyə naziri Xudadat Rəfibəyovun atası, Xalq şairi Nigar Rəfibəylinin babası, Xalq yazıçısı Anarın ulu babasıdır.

***З.Х.Каримов***

# ОТЕЧЕСТВО – АЛЕКПЕР БЕК РАФИБЕКОВ

***Ключевые слова:*** *отечество, город Гянджа, просветитель, интеллигент, патриот, Елизаветпольское благотворительное общество, муниципалитет Гянджи*

История народов создается не только великими делами отдельных личностей, но и деятельностью и благородными подвигами отдельных поколений. Одним из таких поколений, оставивших свой след в нашей истории, является поколение Рафибековых, поселившихся в древнем городе Гянджа. У этого поколения, как и у многих славных поколений Азербайджана, была миссия жить не только для своих семей и близких, но и для своего народа. Это поколение пришло в мир за добротой, милосердием и благородством. В упомянутой статье рассказывается о благотворительной деятельности видного представителя этого поколения Алекпер бека Рафибекова, направленной на интересы мусульман города Гянджи. Алекпер-бей служил в полицейской системе царской России, был неоднократно награжден, а по окончании службы вел большую общественно-политическую работу на благо своей Родины и народа. Он умер в 1919 году. Этот самоотверженный человек является отцом

первого министра здравоохранения Азербайджанской Демократической Республики Худадата Рафибекова, дедом народной поэтессы Нигяр Рафибейли и прадедом народного писателя Анара.

***Z.H.Karimov***

**FATHERLAND – ALAKBAR BEY RAFIBEYOV**

***Keywords:*** *Fatherland, Ganja city, educator, intellectual, patriot, Yelisavetpol Charity Society, Ganja city municipality*

The history of the peoples is created not only by the great deeds of individuals, but also by the activities and honorable deeds of different generations. , his mission was to live not for his relatives, but for his nation. This generation was born for kindness, mercy and nobility. The article discusses the charitable activities of Alakbar bey Rafibeyov, a prominent representative of this generation, for the benefit of the Muslims of Ganja. Alakbar Bey served in the police system of Tsarist Russia, was repeatedly awarded, and after completing his service was engaged in extensive socio-political work for the benefit of his homeland and nation. He died in 1919. This selfless person is the father of the first Minister of Health of the Azerbaijan Democratic Republic Khudadat Rafibeyov, the grandfather of the People's Poet Nigar Rafibeyli, the great-grandfather of the People's Writer Anar.

## Giriş

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində xalqı üçün yanan, xalqı dirçəltməyi qarşılarına məqsəd qoyan böyük ziyalılar dəstəsinin yetişməsi Azərbaycan üçün Uca Yaradanın hədiyyəsi idi. Azərbaycanın yaxın tarixi keçmişini Bakıxanovlarsız, Hacıbəylilərsiz, Şıxzamanovlarsız, Şıxlınskilərsiz, Xoyskilərsiz, Vəkilovlarsız, Talışinskilərsiz, Topçubaşovlarsız, Şahtaxtinskilərsiz təsəvvür etmək çətindir.

Azərbaycan milli burjuaziyasının görkəmli nümayəndələri-H.Z.Tağıyev, M.Muxtarov, M.Nağıyev, Ş.Əsədulayev, A.Aşurov, İ.Aşurbəyov, Ə.Əhmədov və başqaları xalqımızın maariflənməsini maliyyə cəhətdən dəstəkləyirdilərsə, Ə.Ağayev, H.Zərdabi, Üzeyir və Ceyhun Hacıbəyli qardaşları, Ə.Topçubaşov və s. bu prosesdə mənəvi dayaq rolunu oynayırdılar.

Maarifçi adlanan aydınları anarkən onların nə qədər uzaqgörən olduqlarını, qarşıya qoyduqları hədəflərə müəyyən zaman keçdikdən sonra çatdıqlarını görürük. Belə görkəmli maarifçi şəxslərdən biri də gəncəli Ələkbər bəy Rəfibəyov (1839-1919) idi.

Yazıçı R.Hüseynovun ədəbi-tarixi aspektdə yazdığı əsərdə onunla bağlı maraqlı bir faktla rastlaşdım. Orada deyilirdi ki, Gəncə Mütəəlimlər Cəmiyyətinin "Əfkari mütəllimim" jurnalının üçüncü nömrəsində Ələkbər bəy Rəfibəyovun vəfatına (1919) həsr olunmuş məqalədə o, "Vətən atası" adlandırılrmışdı [3, s.62]. Bu yazıda qeyd olunurdu ki, Ələkbər bəy xalqın

yolunda elə faydalı əməllər göstərmişdir ki, indi onun ölümündən sonra hər kəsin həsəd apardığı belə müstəsna qiymətə layiq görülmüşdür. Onun vəfatı bütün gəncəlilərin matəminə çevrilmişdi.

Gəncə bələdiyyəsi Ələkbər bəy Rəfibəyovun vəfatından sonra şəhər Dumasına müraciət edib bu unudulmaz millət xadiminin şəhərdə Şah Abbas məscidi yanında abidəsinin qoyulmasını, Gəncədəki Mixaylovski küçəsinin adının dəyişdirilib Rəfibəyov adlandırılmasını, şəhər Dumasının zalında Ələkbər bəyin portretinin daimi asılmasını, mərhumun adına yerli tədris müəssisələrində on nəfərlik təqaüd təyin edilməsini, Afanasyev adına şəhər xəstəxanasında onun şərəfinə iki pulsuz çarpayı ayrılmasını, Gəncədə Rəfibəyov adına məktəbin açılmasını təklif etmişdi.

Ələkbər bəy vətənpərvər, sadiq bir millətpərəst, kimsədən qorxmayan, çəkinməyən, gecə və gündüz istirahət bilmədən çalışan alovlu bir millət müdafiəçisi idi.

Ələkbər bəy anlayırdı ki, xalqı üçün qəlbində tutduğu niyyətləri həyata keçirmək üçün ona arxa lazımdır. Belə bir arxa isə ən əvvəl, öz doğma nəsli, qohum-əqrəbası ola bilərdi. Ona görə də ilk növbədə özününkülərə qayğı göstərməyə başlayır.

Bircə-bircə bütün imkanlı, babat dolanışığı olan qohumlarına kağız yazıb buyurarmış ki, filan qohumun vəziyyəti çətindir, güzəranı sıxıntılıdır, köməyinizi əsirgəməyin. Bu qayda ilə tədricən bütün qohumlarını ayaq üstə qoyur. Sonra başlayır qohumları vasitəsilə digər kasıb-kusuba yardım etməyə.

Ələkbər bəy Gəncədə ərzaq dükanı açdırmışdır. Kasıb adamların siyahısını çıxartdıraraq onların hər birinə xüsusi kitabça paylatdırmışdır. Həmin mağazadan ərzaq belə kitabçanı təqdim edənlərə iki dəfə ucuz qiymətə buraxılırdı. Qohumlarının birisinin yası düşəndə Rəfibəyovlar nəslinin ağsaqqalı kimi o, məsləhət görərmiş ki, xeyrat verməyək. Ehsana çəkilən xərci yetimxanalara verək. Ən savadlı xeyrat budur.

Ələkbər bəy canını tapşırmazdan əvvəl vəsiyyət edir ki, xalqın ağır maddi vəziyyətini nəzərə alıb onun vəfatından sonra əza verilməsin. Vəsiyyət etdi ki, ona ehsan vermək üçün pul toplasınlar. Xeyriyyə işləri üçün 10 min manat pul qoyub gedir. Vəsiyyət edir kı, oğlu Xudadat bəy buna 20, qalan qohumlar da 10 min əlavə etsin [3, s.66].

Ə. Rəfibəyov xalqın yüksəlişini maarifdə görən şəxslərdən idi. Hər vasitə ilə buna çalışırdı. Bəzən küçədən yanında uşaqla gedən bir şəxslə rastlaşanda soruşarmış: "balaca oxuyurmu?". "Yox" cavabı alanda uşağı da, o uşağın böyüyünü də yanına salıb birbaşa apararmış məktəbə.

Yelizavetpol (Gəncə) şəhər Dumasına qlasnılarının (deputatlarının) əksəriyyəti özgə xalqların nümayəndələri idi. 1909-1913-cü illər arasında fəaliyyət göstərən qlasnıların tərkibinə baxdıqda bunu aydın görmək olar: Nikolay Mamironov, Ağacan Ner-Saakov, Pavel Ter-Martirosov, Aleksandr

Qabuzov, Manvel Ter-Abramov, Mejlum Kirakosov, Stepan Melkumov, Arsen Ter-Arutyunov, Leonard Kovalyov, Ambarsum Saakov, Semyon Lazaryans, Aleksandr Fyodorov və b.

Yelizavetpol Dumasının Bələdiyyə İdarəsində olan tək-tük Azərbaycan türklərinin də əksəriyyəti savadsız idi. Onları da iclaslarda çıxış etmir, ya uyuyur, ya da hansısa məsələdən bəhs edildiyindən bir şey anlamayaraq gurultuya barmaq qaldırırdılar. Ələkbər bəy buna dözmədi. Çox zəhmət, əsəb xərcləməklə, höcətləşməklə bu vəziyyəti dəyişdi, uğur qazandı. Xeyli gənc, istedadlı Azərbaycan türkü bələdiyyə idarəsinə daxil edildi. Ə.Rəfibəyov dövlət idarələrində azərbaycanlıların yerləşməsinə, çalışmasına xüsusi önəm verirdi.

Gəncə şəhər Dumasının 60 üzvündən yeddisi Rəfibəyov idi. Ələkbər bəy, Xudadat bəy, Məşədi Əli Rəfiyev, Hacı Məmməd Hüseyn Rəfiyev və b. Dumanın qalan azərbaycanlı üzvlərinin də əksəriyyəti Ələkbər bəyin qohumu, ya dostu, ya da həmkarı idi.

Ələkbər bəy anlayırdı ki, nə qədər ki, Gəncədə milli məktəb olmayacaq, öz ana dilində mükəmməl təhsil almış azərbaycanlı balaları yetişməyəcək, əhalinin vəziyyəti də yaxşılaşmayacaq. Ona görə də Tiflisə gedir, valini çox dil tökərək Gəncəyə gətirir. Şəhər əhalisinə də başa salır ki, hamınız Gəncə çayın qırağına yığışın, Dəmirkörpüdə cərgə ilə düzülün. Biz oradan vali ilə keçəndə hündürdən qışqırın ki, biz məktəb istəyirik. Belə də olur. Vali onların nə üçün hay-küy etdiklərini soruşanda Ələkbər bəy: "Ana dilində məktəb istəyirlər,"-deyir. Beləliklə, 1902-ci ildə Gəncədə valinin iştirakı ilə Yelizavetpol quberniyasında qəzaların nümayəndələri, qazilərin iştirakı ilə şura toplanır. Vali "Nə istəyirsiniz" soruşur. Ə.Rəfibəyov sizdən rica edirik ki, həm öz işlərimizə əncam çəkmək, həm də hökumət tədbirlərini həyata keçirməkdən ötrü bilikli adamlar hazırlamaq üçün bizə milli məktəb açmağa icazə verəsiniz".

Xalq məktəblər naziri, Qafqazda ruslaşdırma siyasətinə rəvac verən fəallardan Xalq təhsil naziri Levitskinin etirazına baxmayaraq, Ə.Rəfibəyov istədiyinə nail olur.

Ələkbər bəy Gəncədə böyük Nizamiyə abidə qoyulmasının da ilk təşəbbüsçülərindən idi. Bu məqsədlə 28 may 1909-cu ildə "Елизаветпольские губернские ведомости" Ələkbər bəyin kiçik yazısı çap olunmuşdu. Ələkbər bəy redaksiyaya məktubla müraciət etməklə hamıya elan etmişdi ki, Nizami məqbərəsi üçün pul toplayırıq, imkanı olan köməyini əsirgəməsin və bir də dolayısı ilə sətiraltı mənada Gəncədə ədəbi cəmiyyətin yaranması zərurəti barədə arzusunu da faş etmişdi.

XX əsrin əvvəlində Gəncədə türklər əleyhinə başlanan erməni-rus hцcumlarına qarşı mübarizənin ön sıralarında Difai partiyasının fəallarından olan Ələkbər dayanmışdı. Gəncədə yerləşən "Cəmiyyəti-xeyriyyə" və "Nəşrı-maarif" cəmiyyətlərinin binaları qərargaha çevrilmişdi. Şəhərdə ən mötəbər,

tədbirli, xalq arasında sözü keçən adamlardan biri olan Ələkbər bəy bu hərəkata rəhbər seçilmişdi.

Ələkbər bəy Yelizavetpol (sənəddə belə göstərilmişdir - Z.K.). Xeyriyyə Cəmiyyətinin yaradılmasında və fəaliyyətində fədakarcasına iştirak etmişdir. O, və oğlu Xudadat bəy cəmiyyətin həqiqi üzvi idi və hər ay hər biri cəmiyyətə 5 rubl üzvlük haqqı ödəyirdilər. Bundan başqa o dövrün arxiv sənədlərindən birində Ələkbər bəyin ianə kimi cəmiyyətin xəzinəsinə 50 rubl ödədiyi göstərilir [2, s.28]

Yelizavetpol Xeyriyyə Cəmiyyətini yaşatmaq, gücləndirmək, maddi imkanlarını artırmaq üçün Ə.Rəfibəyov teatra böyük qüvvə kimi baxırdı. Teatr bir neçə nöqteyi-nəzərdən əhəmiyyətli idi. Birinci, camaat tamaşaya baxacaq, heç yazı-pozu bilməyən də maariflənəcək, gözü açılacaq; ikincisi, şəhərin mədəni həyatı bir az da yüksələcəkdi; üçüncüsü, xalq teatra öyrənəndən sonra ondan əl çəkməyəcək. Bu da Xeyriyyə Cəmiyyətinin maliyyə vəsaitinin artması üçün mühüm bir qaynaq olardı.

Ələkbər bəyin təşəbbüsü ilə 1906-ci ilin iyulunda Gəncədə Müsəlman Dram Məclisi adlı dəstə təşkil olunur [3, s.80]. "Azərbaycan tarixi" yeddicildliyinin beşinçi cildində bu dram cəmiyyətinin Ələsgər bəy Xasməmmədovun təşəbbüsü ilə 1906-cı ilin avqustunda yaradıldığı göstərilir; təəssüf ki, bu işdə böyük zəhməti olan Ələkbər bəyin adı unudulmuşdur [1, s.250-251]. Ə.Rəfibəyovun Gəncədə teatr tamaşalarının təşkilindəki əvəzsiz xidmətləri tədqiqatçı P.Kərimzadənin də diqqətindən yayınmışdır [4, s.68-78].

Ələkbər bəyin dəvəti ilə teatr tamaşalarının göstərilməsi üçün Bakıdan Gəncəyə rejissor və aktyorlar dəvət olunurdu. Məsələn, onun dəvəti ilə məşhur aktyor Sidqi Ruhulla Gəncəyə gəlib yerli dram cəmiyyətinin rəhbəri olmuşdur. O, bu vəzifəni pulsuz icra edirdi.

Tarixən Gəncədə hər məhəllənin öz adı olmuşdur. Oradakı məhəllələrdən biri də Şah I Abbas zamanından Şahsevənlər adlanırdı. Lakin Ələkbər bəyin səyi ilə məhəllə Aşıqlar adlandı. Bunun öz səbəbi var. Bir dəfə beh almış, lakin toya gəlməmiş erməni zurnaçılarının günahı üzündən Şahsevən məhəlləsində oğlan toyu baş tutmur. Ələkbər bəy bundan əsəbiləşir. Gələcəkdə də bu halın təkrarlana biləcəyini bildirir. Bunun qarşısını almaq üçün azərbaycanlılardan musiqiçilər yetişdirmək zərurətini irəli sürür. Məsələ onda idi ki, şəhər əhalisi musiqi ilə məşğul olmağı islama zidd, günah əməl hesab edirdilər. Ələkbər bəy nüfuzlu din xadimlərindən xahiş etdi ki, məscidlərdə musiqinin islama zidd olmaması barədə söhbətlər aparsınlar, bunu dini dəlil-sübutlarla əsaslandırsınlar. Digər tərəfdən ətraf bölgələrdəki musiqi qabiliyyəti olan ifaçıları Gəncəyə topladı, şəhərdə onlardan ibarət xüsusi məhəllə (Aşıqlar) yarandı. Mənfur ermənilərin bu sahədə monopoliyasına son qoyuldu.

Nəticə

Azərbaycan cəmiyyətinin, mədəniyyətinin müasir inkişaf səviyyəsinə çatmasında Ə.Rəfibəyov kimi maarifpərvər şəxsiyyətlərin böyük xidməti olmuşdur. R.Hüseynovun təbirincə desək, Ələkbər bəy evinin kişisi idi, elinin kışisi oldu, milli tarixin nadir kişilərindən birinə çevrilərək hafizələrdə örnək kişi kimi qaldı.

Tarixi görkəmli nəsillər, insanlar yaradir. Rəfibəyovlar da belə nəsillərdəndir. Ə.Rəfibəyovun oğlu Xudadat Rəfibəyov AXC-nin ikinci hökumət kabinetində səhiyyə naziri vəzifəsini tutmuş, bir həkim xalqına layiqincə xidmət etmişdir. Vətəninin istiqlalına bağlı olduğu üçün 1920-ci ildə rus istilaçıları tərəfindən güllələnmişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi: 7 cilddə, V c., Bakı: Elm, 2001, 672 s.
2. Azərbaycan Respublikası Mərkəzi Dövlət Tarix Arxivi, f.421,op.1,ed.xr 17
3. *Hüseynov R.* Yurdun adındakı can. Bakı: Elm, 2010, 904 s.
4. *Керимзаде П.О.* Меценатство в Северном Азербайджане на рубеже (XIX-XX веков): Дис. ...канд. ист. наук. Баку, 2003, 139 s.


Redaksiyaya daxil olub 05.08.2022

*UOT 379.85*

***H.H.Qasımlı***
*Bakı Dövlət Universiteti*
*haci_qasimli@list.ru*

# AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZM FƏALİYYƏTİNİN KİTABXANA İNFORMASİYA TƏMİNATININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI: TARİXİ İCMAL

***Açar sözlər:*** *Azərbaycan, fəaliyyət, tarixi icmal, turizm, potensial, təşəkkül*

Məqalədə Azərbaycan Respublikasında turizm fəaliyyətinin kitabxana informasiya təminatının təşəkkülü və inkişafı konkret mənbələrə istinad olunaraq xroonoloji aspektdə sistemli şəkildə tədqiq edilmişdir. Məqalədə qeyd edilmişdir ki, Qafqaz dağları, Kür-Araz çayları, yaylalar, meşələr; Vulkanik dağlar, püskürən palçıq vulkanları Azərbaycanın turizm potensialını artırır. Bundan əlavə Azərbaycanın tarixi şəhər, köhnə incəsənət strukturları, çox qiymətli əsərlərin nümayiş olunduğu muzeyləri, rəngarəng folkloru və dünya şöhrətli mətbəxi ilə unikal ölkə olduğu göstərilir.

***Г.Г.Гасымлы***

# ОРГАНИЗАЦИЯ И РАЗВИТИЕ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОГО ОБЕСПЕЧЕНИЯ ТУРИСТИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ: ИСТОРИЧЕСКИЙ ОБЗОР

***Ключевые слова:*** *Азербайджан, деятельность, исторический обзор, туризм, потенциал, формирование*

В статье хронологически, систематически, со ссылкой на конкретные источники рассматривается становление и развитие туризма в Азербайджанской Республике. В статье отмечается, что Кавказские горы, реки Кура-Арас, плоскогорья, леса; вулканические горы и извергающиеся грязевые вулканы увеличивают туристический потенциал Азербайджана. Кроме того, Азербайджан – уникальная страна с историческим городом, старинными художественными сооружениями, музеями с ценными произведениями искусства, колоритным фольклором и всемирно известной кухней.

***H.H.Gasimli***

# ORGANZATION AND DEVELOPMENT OF LIBRARY INFORMATION PROVISION OF TOURISM ACTIVITIES IN THE REPUBLIC OF AZERBAIJAN: HISTORICAL OVERVIEW

***Keywords:*** *Azerbaijan, activity, historical review, tourism, potential, formation*

The article examines the formation and development of tourism in the

Republic of Azerbaijan in a chonological, systematic way, with reference to specific sources. The article notes that the Caucasus Mountains, Kur-Aras rivers, Blue Lake, plateaus, forests; volcanic mountains and erupting mud volcanoes increase Azerbaijan's tourism potential. In addition, Azerbaijan is a unique country with a historic city, old art structures, museums with valuable works, colorful folklore and world-famous cuisine.

## Giriş

Azərbaycanda turizmin inkişafı birbaşa iqtisadi inkişafla bağlıdır. Neft və təbii qaz ehtiyatlarından istifadə iqtisadi artım baxımından qiymətləndirildikdə, 21-ci əsrdə turizm sahəsində nəzərəçarpacaq inkişaf müşahidə olunur. Azərbaycan zəngin tarixi, mədəni və təbii sərvətləri, attraksionları, müxtəlif milli mətbəxi, müxtəlif iqlim qurşaqları və digər xüsusiyyətləri ilə turistləri özünə cəlb edib. Azərbaycanın Çin və Hindistandan gələn və Avropanın Aralıq dənizi sahillərinə qədər uzanan “Böyük İpək Yolu” adlı quru yolunda yerləşməsi Azərbaycanın turizm imkanlarını artırıb. Bu dövrdə xüsusilə Şərqlə Qərb arasında mühüm ticarət kəsişməsi idi. Azərbaycanın Təbriz, Marağa, Ərdəbil, Gəncə, Naxçıvan, Ordubad, Nuxa (indiki Şəki) şəhərləri beynəlxalq ticarətdə öz yerini tuturdu. Azərbaycana ilk səfərlər coğrafi kəşfiyyat və hərbi məqsədlərlə edilmiş, hətta qədim dövrlərdə yaşamış Herodot, Eratosten, Strabon kimi filosof və coğrafiyaşünaslar da bu bölgənin coğrafiyası haqqında məlumat vermişlər. Daha sonra 9-cu əsrdə İbn Hürdəzbih, Kudame bin Cafer, 10-cu əsrdə İstəhri, İbn Havgel, El-Mesudi, 11-ci əsrdə əl-Biruni öz yazılarında Azərbaycan şəhərləri haqqında məlumat paylaşıblar. Azərbaycan həm də tarixi-coğrafi xüsusiyyətləri və mədəni zənginliyi ilə avropalı səyahətçilərin diqqətini cəlb etmişdir. XV əsrdə rus səyyahı Afanasi Nikitin, 19-cu əsrdə fransız yazıçısı Aleksandr Düma Azərbaycana səfər etmişlər [2, s.81-87]. Turizm 19-cu əsrdən etibarən sosial-iqtisadi baxımdan həyatımıza daxil edilməyə başlamışdır. Bu dövrə qədər turizm şəxsi xarakter daşıyırdı və müxtəlif bölgələrə, ölkələrə qeydiyyatdan keçmədən səyahət edən insanlara “turist” deyirdilər. Bu dövrdə Azərbaycan turizmi yeni addımlar atmağa başladı. 19-cu əsrdə Bakıda ilk dəfə olaraq karvansaray tipli binalar səyahət edənlərin daha rahat qalması üçün təmir edilərək mehmanxana tipli yerlərə çevrilmişdir. Müxtəlif vaxtlarda Azərbaycanda olmuş səyahətçilər, tacirlər və siyasətçilər (Marko Polo, Ryui Qonzales Klaxvio, Afanasi Nikitin, İosafat Barbaro, Ambrocco Kontarini, Antoni Cenkinson, Vincensi Aleksandr, Sadko, Evliya Çələbi, Fedor Kotov) ölkədə böyük işlər görüldüyünü söyləyirdilər.

Azərbaycanda turizmin formalaşması və inkişafının ilk əlaməti 1908-ci ildə Krım-Qafqaz alpinizm klubunun filiallarından birinin Bakıda yaradılması olmuşdur. Bu klub uzaq və yaxın səfərlərin təşkili ilə məşğul olurdu. 19-cu əsrin sonu və 20-ci əsrə qədər elmi və həvəskar cəmiyyətlər (Coğrafiya cəmiyyəti, Təbiətsevərlər cəmiyyəti, Dövlət universitetləri cəmiyyəti) Azərbaycan turizminə

öz töhfələrini verməyə başladılar. Aleksandr Düma (1802-1870) 1858-ci ildə Azərbaycana səfər etmiş, ölkənin dünyaya çıxmasında və inteqrasiyasında böyük rol oynamışdır. Müəllifin səyahətlərindən bəhs edən "Qafqaz" kitabında ölkə böyük heyranlıqla təsvir olunur. Kitab bu dövrdə Azərbaycan turizmini araşdırmaq üçün ən yaxşı mənbə kimi qiymətləndirilir. Azərbaycan xalqının səmimiyyəti, qonaqpərvərliyi və istiqanlılığı bu fransızda böyük heyrətə səbəb olub. Xüsusilə, müəllif ölkənin gözəl təbiət mədəniyyətindən, Bakının tarixindən və memarlığından səmimi danışır [2, s.87].

Dümanın Azərbaycanla ilk görüşü Dərbənddən başlayır. Onu qarşılayan Azərbaycan xalqı müəllifi təəccübləndirdi. Dərbəndin onu yüksək səviyyədə qarşılamasından yaranan xoş hisslər onu bütün ekspedisiya boyu izlədi. Onu Azərbaycanın Quba, Bakı, Şamaxı, Şəki və digər əsrarəngiz gözəllikləri gözləyirdi. Düma Bakıya gəlməzdən əvvəl Sumqayıt yaxınlığındakı Şah Abbas karvansarasının xarabalıqlarını gəzmiş və burada azərbaycanlıların qonağı olmuşdur. "Dörd qazax çadırlarımızı qarşı tərəfdə qurana qədər ən yaxın çadırda qonaq idik. Divar qalıqlarına söykənmiş bu çadır, yəqin ki, azərbaycanlıların başçılarının çadırı idi. Onlara yaxınlaşanda bir nəfər (deyəsən, bu qrup rəhbəri idi) bizi qarşıladı. Qonaqpərvərlik əlaməti olaraq bizə duz-çörək təklif etdi. Tələ tutmağa razılaşdıq və un kisələrinin üstündə oturduq. Çörək bişirməklə məşğul idilər. Təzə yoğrulmuş xəmirdən tikələri kəsib yaydılar və közlə qızdırılan təbəqələrə atdılar. Əvvəlcə bir tərəfini qızardıb sonra digər tərəfini çevirib bişəndən sonra isti yeyərdilər. Daha sonra qrup üzvü divardan asılmış ət parçasını kəsib, üzərinə duz töküb və əti xırda-xırda doğrayıb, çörəyi qızartdıqları boşqabın üzərinə ət tikələrini qoydular. Ət qaynamağa başladı. Sonra anladım ki, bunlar bizim üçündür. "Budur, çörək yeyin", - deyə işarə etdilər. Yaxşı qızardılmış əti çörəklə, bıçaqla yeməyə başladıq. Bu, çox təmtəraqlı xidmətlərlə verilən ziyafətlərdən qat-qat dadlı bir mühit idi. Düma yerli Qafqaz xalqları ilə qaynayıb-qarışan Azərbaycan xalqı haqqında yazarkən onların döyüşkən olduğunu, daha çox atçılıq, heyvandarlıq, qoyunçuluqla məşğul olduğunu, bura köçüb getdiyini qeyd edir [2].

Qadınların yun əyirməklə xalça əyirdiyini qeyd edən yazıçı Quba, Şamaxı və Nuxa xalçalarının fars xalçalarından geri qalmadığını xatırladıb. Əksinə, bu xalçalar fars xalçalarından üstün idi. Bu xalçalar fars xalçalarının yarı qiymətinə satılırdı. Eyni zamanda azərbaycanlılar ülgüc, iti bıçaqlar da hazırlaya biliblər. Qını bahalı daşlardan, dequstatoru fil sümüyü və gümüşdən olan bu bıçaqlara sürü başçılarının 4 at verdiyi yazılıb. Dümanın səyahətlərindən yüz əlli il keçsə də, onun Azərbaycan mətbəxi, xüsusilə kabab haqqında yazıları fransızlara tövsiyə xarakterini hələ də qoruyub saxlayır. O, bildirib ki, kabab səfər zamanı rast gəldiyi ən dadlı yeməkdir. Dümanın Bakı ilə bağlı fikirləri də diqqət çəkir. O, yazırdı ki, "Bakı küləklər şəhəri deməkdir. Avropada belə bir şəhər yoxdur. Torpağına, dənizinə, memarlığına, balıqlarına və sürünənlərinə görə bura Asiya şəhəridir...". Onun tarixi memarlığına nəzər salaraq, o, Bakıdakı "Xan Sarayı" və "Qurd qapısı"

haqqında danışır.

Gendeharini (Qəndaharı) fəth etdikdən sonra 36 yaşında öldü. Şarden və Taverniye onun haqqında yazmasaydı, II Abbasdan heç kimin xəbəri olmazdı. İndi tərk edilmiş bu sarayın heyrətamiz dəhlizləri və izahat tələb edən zalı var. Bu yer "Divanxana" adlanırdı. Onun tam mərkəzində gizli həbsxana girişi var. Burada siyasi səbəblərdən gizli ölüm hökmləri verilirdi. Şayiələrə görə, bu zindandan "Fatimə" məscidinə qədər yeraltı yol var.." [3, s.6].

Yaxın keçmişdə yaşamış Hacı Zeynalabdin Şirvani (1780-1838), Abbasqulu ağa Bakıxanov (1794-1847) kimi səyyahlar da Azərbaycanın bu dövrdə dünyanın ən görməli yerlərindən biri olduğunu təsdiqləyirlər. Bu dövrdə yaşamış səyahətçilər Azərbaycanda istirahət üçün zəngin təbiətin, bənzərsiz iqlimin, fauna və floranın olduğunu xüsusilə vurğulayırlar. Azərbaycan tarixinin bu dövrü özünün yeni tarixi şəraiti ilə fərqləndiyindən rəsmi turizmin formalaşması üçün əlverişli ictimai məkan yaradılmışdır. Bu dövr ölkənin iqtisadi həyatındakı fərqliliklərlə diqqət çəkdi. Xüsusilə neft ehtiyatları baxımından ölkənin nüfuzunun dünyaya yayılması regiona marağı 29-dan 5-ə yüksəldib [2].

Azərbaycana marağın əsas səbəblərindən biri neft şəhəri kimi tanınan Bakının abadlaşdırılması, şəhərin mərkəzi hissələrində klassik və müasir üslublarla zəngin neftin müxtəlif məqsədyönlü memarlıq layihələri və salınmış parkları olmuşdur. Bakı memarlığında Avropa üslubunun formalaşması ilə eksteryer memarlığında yeni inkişaflar yaranmağa başladı. Məsələn, ustalar bu dövrə qədər şəhər binalarını qərb xüsusiyyətləri ilə bəzəyərkən müxtəlif fiqurlar, hətta insan-mələk fiqurları tikməyə başlamışlar. Xüsusən də bütün müsəlman memarlığında olduğu kimi, Azərbaycan memarlığında da uzun illər insan fiqurları qadağan edilmişdi. Amma bu dövrdə neft zənginlərinin rəqabəti bu tabunu sındırdı. Bu dövrdə İtaliyadan olan memarlar yerli memarlara belə fiqurlar hazırlamağı öyrədirdilər. Azərbaycan memarlığında böyük yeri olan Adolf Eyksler, Ferdinand Lemkul, Nikolay fon der None, Pyotr Ştern, İosif Qoslavski, Kazmir Skureviç, Yozef Ploşko, Yevgeni Skibinski, Konstantin Borisoglebski kimi memarları misal çəkə bilərik [6, s.12]. Bakı şəhəri istirahət və ya işgüzar səfərlər üçün ən münasib mərkəzlərdən birinə çevrilirdi. Xüsusən də köhnə karvansaraların bərpa olunaraq mehmanxana tipli yerlərə çevrilməsi də bu inkişafın tərkib hissəsi idi. Bu mənada "Astoriya" strukturlar arasında ən qabaqcıl hesab olunurdu. Göründüyü kimi, turizmin əsası kimi tanınan səyahət səyahətlərinin Azərbaycanda yayılması öz təsdiqinə və məqsədinə görə formalaşmağa başladı. İndi turizm ünvanı dairəsi genişləndiyindən bunun sistemli və mütəşəkkil şəkildə aparılması məcburi xarakter alıb. 19-cu əsrin sonu 20-ci əsrin əvvəllərini əhatə edən dövrdə geniş yayılmış turizmin təşkili üçün rəsmi qurumlar olmasa da, bu işə başlamaq üçün ilk addımlar atılmışdır. Xüsusən də səfərlər və səyahətlərlə Azərbaycanda yaradılmış ilk könüllü və elmi cəmiyyətlərdə özünü göstərmişdir. Göründüyü kimi, Azərbaycanda turizmin inkişafı və formalaşması prosesi səyahət formasını tərk edərək mütəşəkkil

bir prosesə çevrilirdi [2, s.89].

Müstəqil Azərbaycan Xalq Cümhuriyyəti dövründə Avropa və Asiyanın bir çox dövlətləri ilə diplomatik əlaqələrin qurulması, ilk dəmir yolunun Bakıda çəkilməsi digər dövlətlərlə əlaqələri daha da artırmış, ölkəyə gələn əcnəbilərin sayı artmışdır.

Sovet İttifaqı qurulduqdan sonra 1927-1928-ci illərdə Azərbaycanda turizmin inkişafı çərçivəsində ekskursiyaların təşkili və inkişafı tələbləri irəli sürüldü. Sovet dövründə Azərbaycanda turizm-səyahət biznesinin təşkili ümumilikdə Rusiyanın təsiri altında idi. 1922-ci ildə Azərbaycanda ilk dəfə olaraq səyahət assosiasiyaları yaradıldı. Bu birliklərin yaratdığı səfərlər, bir qayda olaraq, fabrikdə və neft mədənlərində çalışan işçiləri digər istehsal sahələri ilə tanış etmək məqsədi daşıyırdı. Yay aylarında Xəzər sahillərində Zığ, Mərdəkan, Şüvəlan, Buzovna, Türkan kəndlərində, Artyom adasında və Şıx zolağında istirahət səfərləri təşkil olunmağa başladı. Bu dövrdə Sovet İttifaqı ölkələrindən kənarda Azərbaycana ilk xarici turist qruplarının gəlişi ölkə üçün yeni turizm dövrünü başlatdı. 1927-ci ildə Nürnberq-Vyana-Buxarest-İstanbul-Batumi-Tbilisi-Bakı-Ənzəli-Tehran-Mumbay marşrutları ilə Bakıya gələn ilk turistlər arasında 10 alman tələbə də olub. Həmin il Amerika turist qrupu Azərbaycana gəldi. 1927-ci ildə bu yolla 450-dən çox səfər həyata keçirilib. Bu illərdə “Həmkarlar Alyansı” adı altında işçilərin istirahətini təşkil edən təşkilat Azərbaycanda ən çox turistik səfərlər edib. 1929-cu ildə “Proletar Turizm və Səyahət (Ekskursiya) Cəmiyyəti (PTEC)”nin şöbəsi kimi fəaliyyətə başlayan AzPTEK 1935-ci ildən Azərbaycan SSR MK-nın rəhbərliyi altında fəaliyyətə başlayıb. Lakin SSRİ Xalq Komissarları Sovetinin 11 may 1935-ci il tarixli 476 saylı qərarı ilə Azərbaycanda turizm işini daha da irəli aparmaq üçün işlərə başlanıldı. 1937-ci ildə Turistik Səyahət Agentliyi, həmin ildə isə Kirovabad (indiki Gəncə) şəhərində Az.PTEC Kirovabad raysovetinin filialı yaradıldı. Hacıkənddə turizm məqsədi ilə 3 ev tikilib. Göygöl sahilində 20 nəfərlik çadır şəhərcikləri salınıb. Eyni zamanda Bakı Turizm Bazası, Hacıkənd Turizm Evi, Göygöl Turizm Düşərgəsi yaradılmışdır. 1934-cü ildə Azərbaycanda ilk “İnturist” mehmanxanası istifadəyə verilmişdir. Bu otel 1950-60-cı illərə qədər Azərbaycanın bir nömrəli oteli kimi qalırdı. Bu illərdə turist səfərlərində və istirahətində fərq yaratmaq üçün torflu ərazilərdə velosiped və atlı turlar həyata keçirilməyə başlandı.

1936-cı ildə SSRİ Mərkəzi İcraiyyə Komitəsi ölkədə turizmin könüllü təşkilatların işi ilə az və ləng irəlilədiyini nəzərə alaraq, 17 aprel tarixli qərarı ilə “Proletar turizmi və səyahətləri” cəmiyyətini ləğv etdi.

1940-cı ildə turizm sektorunda fəxri adlar verilməyə başlandı. Xüsusi xidmətlərinə görə fərqlənənlər “SSRİ turisti” medalı ilə təltif edilirdilər [4, s.93-94].

Bu illərdə dövlət müəssisələri ölkədə turizmin inkişafında köklü dəyişiklikləri təmin edib. Bu illərdə Sovet İttifaqında insanları turizmə cəlb etmək

üçün müxtəlif plakatlar hazırlanırdı.

1946-cı ildə Mərkəzi Uşaq Turizm Səyahət Stansiyası yaradılmış və bu stansiya müxtəlif şəhərlərdə, xüsusilə II Dünya müharibəsi illərinin mühüm şəhərlərində, Bakı-Moskva-Leninqrad, Bakı-Moskva-Stalinqrad-Kerç-Brest-Leninqrad marşrutları ilə uşaq ekskursiyaları təşkil etdi. Bu səfərlər zamanı 1946-cı ildə 9.000, 1947-ci ildə 10.000, 1948-ci ildə 11.000 uşaq turist kimi qeydə alınmışdır.

Eyni zamanda 1950-ci ilin sentyabrında Bakı turizm "bazası" yaradıldı. Həmin vaxt bu baza Nizami adına istirahət parkında yaradılıb. 1957-ci ildə Mingəçevir və Hacıkənddə, 1958-ci ildə Zaqatalada, 1960-cı ildə Şuşa və Göygöldə turizm bazaları fəaliyyətə başlamışdır. Qeyd edək ki, Azərbaycan Turizm Ekskursiyaları İdarəsi 1962-ci ildə "Azərbaycan Respublikası Turizm Şurası", 1969-cu ildə isə "Azərbaycan Respublikası Turizm Turları Şurası" adlandırılıb. 1962-ci ildən Bakı turizm bazasının Nabranda (Xaçmaz rayonu) filialı kimi Bakı işçilərinin yay istirahətinin təşkili üçün 150 nəfərlik "Sputnik" turizm çadır düşərgəsi, 1963-cü ildə Bakıda turizm klubu, 1963-cü ildə Bakıda, Nabranda "Kaspi" turizm bazası, 1965-ci ildə iki ildən sonra Gəncədə, 1969-cu ildə Sumqayıtda, Naftalanda və Bakının Mərdəkan qəsəbəsində turizm büroları yaradıldı. 1970-ci ildə Zaqatalada və 1972-ci ildə Şuşada turizm bazalarının yeni əsas binaları, 1971-ci ildə Xankəndində ekskursiya büroları, 1972-ci ildə Mingəçevirdə, 1975-ci ildə Qəbələdə Qafqazın Nabran və Xaçmaz rayonlarında "Dostluq" turizm bazası yaradılıb. Həmin ildə Bakıda "Qarabağ" oteli və yerləşdirmə obyektləri yaradılmışdır [1, s.9].

"Azərbaycan" mehmanxanası (1972), "Moskva" mehmanxanası (1978) bu obyektlərin qabaqcıllarındandır. Xarici ölkələrdə fəaliyyət göstərən gənclər klubları ilə daha çox turist mübadiləsi məqsədilə yaradılan "Sputnik" düşərgəsi qısa müddət sonra 1961-ci ildə Bakının Zağulba rayonunda yaradılmış "Gənclik" düşərgəsi ilə birləşdirilib. Rayonlara xarici turistlərin qəbulu istiqamətində aparılan tədbirlər çərçivəsində 1978-ci ildə Şəki şəhərində XVII əsrə aid karvansaraylarda təmir işlərinə başlanılıb. Burada 100 nəfərlik yaşayış yeri yaradılmışdı. O vaxtlar bu obyektlərdə dincəlmək, təşkil olunan ölkədaxili və beynəlxalq səfərlərdə iştirak tamamilə dövlət tərəfindən qarşılanmış, SSRİ vətəndaşlarının əksəriyyəti bu turistik əyləncələrdə iştirak etmişlər. İlk Turizm təşkilatı 1978-ci ildə Naxçıvanda yaradılıb. 1970-1987-ci illərdə ölkədə turizm yeni inkişaf dövrünə qədəm qoydu. Xarici turizmin maddi-texniki bazasının genişləndirilməsi məqsədi ilə 1973-cü ildə Bakıda Azərbaycanın ən böyük mehmanxana şəbəkəsi olan 1942-ci il üçün "Azərbaycan" mehmanxanası yaradılmışdır. 1978-ci ildə "İnturist" şəbəkəsinə qoşulmuş 200 nəfərlik "Moskva" mehmanxanası şəbəkəyə qoşulmuşdur. Bu illərdə turizmin texniki bazasında nəzərəçarpacaq artım müşahidə olunur.

Bu dövrdə zəhmətkeşlərin bayramlarının təsis edilməsində də yeniləşmələr olub. Turizm ekspertlərinin fikrincə, Azərbaycan turizmi 1987-ci ildə pik həddinə çatmışdır. Həmin il ölkəyə xarici ölkələrdən 50-dən çox, SSRİ-nin müxtəlif

Azərbaycanın müxtəlif rayonlarına səpələnmiş köçkünlər üçün beynəlxalq humanitar təşkilatların yaxından köməyi ilə yaşayış yerləri yaradılmışdır. Avropa Birliyi Humanitar Yardım İdarəsi ESNO 1993-1994-cü illərdə üç məskunlaşdırma proqramı həyata keçirmiş, Sabirabad, Ağcabədi, Dəvəçi, Goranboy, İmişli, Yevlax, Şəki və Saatlıda 20 min köçkün üçün qurma evlər, 1995-ci ildə Beyləqanda iki qəsəbə tikilməsini maliyyələşdirmiş, əhaliyə sosial xidmətlər göstərilməsini, hər ay ərzaq yardımı verilməsini təmin etmişdi [5]. Almaniyanın köməyi ilə 1996-cı ildə Ağcabədi rayonunda Laçın köçkünləri üçün 2 qəsəbə, BMT-nin köməyi ilə Oğuz-Şəki yolu üstə Laçın, Kəlbəcər, Ağdam köçkünləri üçün 2 qəsəbə inşa edilmişdir. ABŞ-ın "Keyə" ("Qayğı") Humanitar Təşkilatı İmişli, Saatlı, Beyləqan, Zərdab, Kürdəmir, Göyçay və Ağsu rayonlarında birtipli layihələr üzrə 1800 köçkün ailəsi üçün evlər inşa etmiş, 6,5 min ton ərzaq paylamışdır. ABŞ-nin qeyri-dövlət təşkilatları 1992-1997-ci illərdə Azərbaycana 125 milyon dollarlıq humanitar yardım etmişdilər. 1996-1997-ci illərdə ABŞ Dövlət Departamentinin sponsorluğu ilə Azərbaycana dava-dərman və tibb preparatlarından ibarət böyük humanitar

yardım göndərilmişdi [23, s.42]. İranın Hilal-i Əhmər, Türkiyənin və Səudiyyə Ərəbistanının Qızıl Aypara cəmiyyətləri köçkünlər üçün 10 çadır şəhərciyi qurmuş, burada yaşayanlara ərzaq yardımı göstərmişdi. ABŞ, Almaniya, Norveç, Yaponiya, Hindistan Milli Qızıl Xaç cəmiyyətləri də Azərbaycanda imkansız adamlara humanitar yardım göstərmişdilər. 1996-cı ilin payızında Böyük Britaniya hökuməti Azərbaycanın şimal-qərb bölgəsində məskunlaşmış 8 min köçkün ailəsinə 156 min dollar məbləğində yardım vermişdir [2, s.54]. Humanitar yardımın paylanmasına nəzarəti gücləndirmək üçün 1995-ci ilin yanvar ayında Ümummilli lider Heydər Əliyevin xüsusi Fərmanı ilə Beynəlxalq Humanitar və Texniki Yardım üzrə Respublika Komissiyası təşkil edildi. Heydər Əliyevin sərəncamı ilə 1998-ci il sentyabrın 17-də "Qaçqınların və Məcburi Köçkünlərin Problemlərinin həlli üzrə Dövlət Proqramı" təsdiq edildi. Bu proqramda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək, məcburi köçkünlərin məişət şəraitini yaxşılaşdırmaq, müvafiq sosial infrastruktur yaratmaq, iş yerləri açmaq məqsədilə 1999-cu ilin dekabr ayında "Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu" təşkil edilmişdir [8, v.79].

Ulu öndər Heydər Əliyevin: "İşğal olunmuş bütün rayonlardan didərgin düşmüş, qaçqın vəziyyətində, köçkün vəziyyətində yaşayan vətəndaşların problemləri bizim üçün və şəxsən mənim üçün bir nömrəli problemdir. Bu, Azərbaycan dövlətinin, hökumətinin və şəxsən Azərbaycanın dövlət başçısı, Prezidenti kimi mənim qarşımda duran ən əsas vəzifədir və daim – hər gün, hər saat mənim diqqət mərkəzindədir. Qaçqınların, köçkünlərin yaşadığı yerlərdə onların yaşayış şəraitini daim yaxşılaşdırmaq lazımdır. Bu, bizim əsas vəzifəmizdir.... Bizim ali vəzifəmiz, məqsədimiz işğal olunmuş torpaqları azad etmək, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək və yerlərindən didərgin düşmüş soydaşlarımızı öz yurdlarına qaytarmaqdır" [25, s.3; 27]. Dərin məzmunlu nitqi dövlətimizin əsas prioritetinə çevrildi və məcburi köçkünlərə diqqət daha da artırıldı. Bütün mənalı həyatını ölkəmizin tərəqqisinə, insanların rifahının yaxşılaşdırılmasına həsr edən Ümummilli lider Heydər Əliyevin böyük arzusu zəbt olunmuş torpaqlarımızın işğaldan azad edilməsi idi. O, bunun üçün var qüvvəsi ilə çalışırdı. Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarına təcavüzü nəticəsində doğma ocaqlarından didərgin salınmış soydaşlarımızın bütün qayğıları, problemləri Azərbaycan dövlətinin, Ümummilli lideri Heydər Əliyevin gündəlik qayğısına çevrilmişdi. Xalqımızın Ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə 1993-2003-cü illərdə bu problemin siyasi yolla həlli istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. BMT Təhlükəsizlik Şurası münaqişənin tezliklə, sülh yolu ilə həlli, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması haqqında 1993-cü ildə 4 qətnamə (1993-cü il 30 aprel tarixli 822 nömrəli, 29 iyul tarixli 853 nömrəli, 14 oktyabr tarixli 874 nömrəli, 11 noyabr tarixli 884 nömrəli) qəbul etdi [15, v.2]. 1994-cü ilin may

ayında atəşkəsə nail olunmaqla ölkədə sabitliyin bərqərar edilməsinə, Azərbaycanın iqtisadi cəhətdən möhkəmlənməsinə, müdafiə qabiliyyətinin artırılmasına imkan yaradıldı. ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon və 1999-cu il İstanbul Sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində tədbirlər görüldü. ABŞ Konqresinin müstəqil Azərbaycana yardım göstərilməsini qadağan edən 907-ci düzəlişin icrası Ulu öndər Heydər Əliyevin gərgin əməyi nəticəsində 2002-ci ilin yanvarından dayandırıldı. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar olaraq Ermənistanın prezidentləri ilə 25, ATƏT rəhbərliyi, Minsk qrupunun təmsilçiləri ilə 200-dən və 80 ölkənin dövlət başçıları ilə 500-dən çox görüş keçirildi [9, v.3]. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1998-ci il 17 sentyabr tarixli 895 nömrəli Sərəncamına əsasən "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə" uzunmüddətli Dövlət Proqramı təsdiq edildi [19]. Təsadüfü deyildir ki, bu problem ölkədə bir nömrəli problem adlandırılmışdı. Ölkədə iqtisadi problemlərin mövcudluğuna baxmayaraq, yaranan hər bir cüzi iqtisadi imkanı Ümummilli lider Heydər Əliyevin daim ilk növbədə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə yönəltmiş, problemin siyasi yolla həlli üçün bütün imkanlarını səfərbər etmişdi. Məhz Ümummilli lider Heydər Əliyevin uğurlu xarici siyasəti sayəsində beynəlxalq ictimaiyyətdə bu problemə olan münasibət Azərbaycan həqiqətlərinə uyğun olaraq dəyişdiyindən problemin əsl mahiyyəti düzgün dərk edilməyə başlandı və tədricən Azərbaycan problemlə əlaqədar öz mövqeyini möhkəmlətdi. Bununla bir daha dünya ictimaiyyətinə sübut etdi ki, bu, Azərbaycan dövlətinin və xalqının bir nömrəli problemidir və buna da uyğun diqqət olmalıdır.

Bütün bunlarla yanaşı, Heydər Əliyevin göstərişləri ilə dövlət işsiz insanların, qaçqın və köçkünlərin xırda, səyyar ticarətlə məşğul olmaları üçün münasib imkanlar yaradır, yeni ticarət mərkəzləri, yarmarkalar açır, satış yerləri təşkil edirdi [29, s.16]. Bütün bunlarla yanaşı, dahi siyasətçinin təşəbbüsü ilə 1996-cı ildə respublikanın "İşğal olunmuş və Ziyan çəkmiş Ərazilərinin Bərpası və Yenidən qurulması üzrə Dövlət Komissiyası" yaradıldı. BMT-nin İnkişaf Proqramı əsasında işğaldan azad olunmuş torpaqlarda bərpa işlərinə yardım göstərilməyə başlandı. Bu məqsədlə Beynəlxalq Şura, Bərpa Agentliyi təsis olundu [1, v.70]. Füzuli rayonunun Horadiz qəsəbəsi və işğaldan azad olunmuş 22 kəndin bərpasına başlandı. Horadizdə 150-dən çox ev bərpa edildi, 640 yerlik məktəb binası tikildi [12]. Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Federasiyası Füzuli rayonunda "Bərpa və Vətənə Qayıdış Proqramı" çərçivəsində 1999-2001-ci illərdə rayonun Şükürbəyli və Arxanlı kəndlərində dağılmış evləri bərpa etmiş və köçkün ailələrin geri qayıtması üçün şərait yaratmışdı. Ağdamın 5 kənd xəstəxanasında əsaslı təmir və bərpa işləri aparılmış, 11 kənddə 5 min yerlik məktəb binaları, 88 artezian quyusu bərpa

olundu [3, v.16]. Dahi siyasətçi Heydər Əliyevin 2001-ci il 22 avqust tarixli Fərmanında Ermənistan ərazisindəki tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli ilə bağlı konkret tədbirlər müəyyən olundu və həyata keçirilməyə başlandı [30]. 2001-ci il 7 sentyabr tarixli Fərmanında Prezident Heydər Əliyev Ağdam və Füzuli rayonlarından olan məcburi köçkünlərin məskunlaşdırılması üçün Ağdam rayonu ərazisində 500, Füzuli rayonu ərazisində isə 800 ailəlik evlər tikilmiş, yeni qəsəbələr salınması haqqında göstərişlər verdi [14, v.2]. Ümummilli lider Heydər Əliyevin göstərişlərinə əsasən Dövlət Neft Fondu hesabına Goranboy, Abşeron, Şəmkir rayonlarında, Naxçıvanda qaçqınlar üçün yeni qəsəbələr salındı. Goranboy rayonunun Aşağı Ağcakənd kəndi yanında qaçqınlar üçün salınan qəsəbə müasirliyi, səliqə-sahmanı ilə diqqəti cəlb edirdi. Ümummilli lider Heydər Əliyevin 13 may 2002-ci il tarixli Fərmanına əsasən Dövlət Neft Fondunun Biləsuvar rayonundakı beş çadır şəhərciyində yaşayan 3719 ailə üçün Füzuli və Biləsuvar rayonlarında 19 yeni qəsəbə salınmasına 192 milyard manat vəsait ayrıldı. Ağdamın Quzanlı kəndində 100 evlik qəsəbə məcburi köçkünlərə təqdim olundu [5, v.10].

Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan neft strategiyası öz bəhrəsini verməyə başladığı andan iqtisadi imkanlar yarandıqca dövlət tərəfindən, digər sahələrdə olduğu kimi, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi ilə də bağlı geniş tədbirlərin həyata keçirilməsinə başlanıldı. 2001-ci il 22 avqust tarixli 562 nömrəli "Erməni millətçilərinin apardığı etnik təmizləmə siyasəti nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında" Fərmana əsasən Dövlət Neft Fondundan ayrılmış 83 milyard manat həcmində vəsait hesabına qaçqın və məcburi köçkünlər üçün bütün kommunikasiyaları ilə birlikdə 1330 ev, 582 yerlik 3 ədəd məktəb binası, 3 tibb müəssisəsi, 1 inzibati bina 22 km uzunluğunda yol, 22 km uzunluğunda su xətti, 3 artezian quyusu, 72 km uzunluğunda elektrik hava xətti, 18 su anbarı və digər sosial obyektlər tikilərək onların istifadəsinə verilmişdir [19]. Bundan əlavə Heydər Əliyevin göstərişləri əsasında Dövlət Neft Fondundan ayrılmış 192 milyard manat həcmində vəsait hesabına məcburi köçkünlər üçün bütün 3781 fərdi yaşayış evindən ibarət 19 qəsəbənin (Füzuli rayonunda 1221 ailəlik 6 qəsəbə və Biləsuvar rayonunda 2560 ailəlik 13 qəsəbə) bütün infrastrukturu ilə birlikdə inşası və məcburi köçkünlərin köçürülməsi 2003-cü ilin noyabr ayında başa çatdırılmışdır [13]. Nəticədə, Biləsuvar rayonu ərazisindəki 5 çadır düşərgəsi ləğv edilmiş, 1330 qaçqın və 5081 məcburi köçkün ailəsinin – ümumilikdə 32 min nəfərin mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır. Ümumiyyətlə, ulu öndər Heydər Əliyevin 3 Fərmanı ilə Dövlət Neft Fondundan ayrılmış 359 milyard manat (74 mln. ABŞ dolları) vəsait hesabına çox qısa bir müddətdə 400 min kvadrat metr mənzil sahəsi olan 6411 fərdi yaşayış evi, 3150

yerlik 18 məktəb, 18 uşaq bağçası, 16 tibb məntəqəsi tikilmiş, 195 km uzunluğunda asfalt yol, 188 km su xətti, 350 km elektrikötürmə xətti, 133 km irriqasiya su kəməri və s. sosial obyektlər istifadəyə verilmişdir. Azərbaycan Prezidenti Heydər Əliyevin "Biləsuvar rayonu ərazisində yerləşən beş çadır düşərgəsində məskunlaşmış məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" 2002-ci il 13 may tarixli 700 nömrəli Fərmanına əsasən Biləsuvar rayonu ərazisindəki 5 çadır düşərgəsi ləğv edilmişdir [14]. Bütün bunlarla yanaşı 1996-cı ildən ABŞ-nin özəl, könüllü AMKOP təşkilatı Abşeronda 8 tibb məntəqəsi açıb minlərlə qaçqın və köçkünə səhiyyə xidməti göstərirdi. 1998-ci ildə isə Böyük Britaniya "Uşaqlara birbaşa yardım" beynəlxalq humanitar təşkilatı məcburi köçkünlər üçün 7 tibb məntəqəsi təşkil etdi [30].

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1989-cu il 19 sentyabr tarixli Fərmanı ilə daimi yaşayış yerlərinin tərk etməyə məcbur olmuş şəxslərin qəbulu, yerləşdirilməsi və güzəranları ilə əlaqədar məsələləri həll etmək və bu sahədə respublikanın sovet, təsərrüfat, inzibati və ictimai təşkilatlarının fəaliyyətlərini əlaqələndirmək məqsədilə "Daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş şəxslərlə iş üzrə Azərbaycan SSR Dövlət Komitəsi" yaradılmış, Azərbaycan Respublikası Prezidentinin 1993-cü il tarixli 396 nömrəli Fərmanı ilə həmin komitənin adı dəyişdirilərək "Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi" adlandırılmışdır. Komitənin yeni Əsasnaməsi Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 fevral tarixli 187 nömrəli Fərmanı ilə təsdiq edilmişdir [12]. Qaçqınlara və məcburi köçkünlərə sosial müdafiəsi ilə əlaqədar beynəlxalq normalara uyğun tam hüquqi baza yaradılmış, ölkə Prezidenti tərəfindən 44 Fərman və Sərəncam imzalanmış, Milli Məclis 23 Qanun, Nazirlər Kabineti isə 194 qərar və sərəncam qəbul etmişdir. Qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin operativ həlli və problemin vahid mərkəzdən idarə olunması məqsədi ilə Ümummilli lider Heydər Əliyevin müvafiq Fərmanı ilə 1998-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin strukturunda baş Nazirin müavini, Qaçqınlar və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri vəzifələri təsis olunmuşdur. Nazirlər Kabineti Aparatının strukturunda qaçqınların, məcburi köçkünlərin problemləri, miqrasiya və beynəlxalq təşkilatlarla iş şöbəsi yaradılmışdır [5, v.72]. Azərbaycan Respublikası 1992-ci ildə BMT-nin 1951-ci il "Qaçqınların statusuna dair Cenevrə Konvensiyası"na və ona əlavə 1967-ci il Protokoluna qoşulmuşdur. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin" qəbul edilmiş, ölkə Prezidentinin müvafiq Fərmanı ilə "Qaçqın statusu verilməsi haqqında vəsatətə baxılması qaydası" təsdiq edilmiş, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə "Qaçqın və məcburi

köçkün (ölkə daxilində köçürülmüş şəxslərin) statusu almış, ayrılmış yerlərdə yaşamaq" və "Qaçqın statusu verilməsi haqqında ərizə təqdim etmiş şəxslərin qaçqın statusu verilməsi məsələsi həll edilənədək müvəqqəti yerləşdirmə məntəqəsində verilmiş yaşayış yerindən istifadə etmək" qaydaları təsdiq edilmişdir [26, s.9].

Bütün bunlarla yanaşı, Heydər Əliyevin 1998-ci il 17 sentyabr tarixli və 2004-cü il 1 iyul tarixli sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarına uyğun olaraq məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları şəhər və rayonlara 76 nazirlik, komitə, şirkət, konsern və digər mərkəzi təşkilatlar təhkim edilmişdir. 1998-2004-cü illər ərzində bu dövlət orqanları tərəfindən məcburi köçkünlərə 55,1 mlrd. manat həcmində ərzaq, maddi və s. yardım göstərilmişdir [4, v.2].

Bundan əlavə Ümummilli lider Heydər Əliyevin göstərişləri əsasında Azərbaycan Respublikasının İşğaldan Azad Olunmuş Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlik tərəfindən 2001-ci il 22 avqust tarixli 562 nömrəli Fərmana əsasən Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində 364 evdən, Şəmkir rayonunda 126 evdən, Yevlax şəhərində 65 evdən, Abşeron rayonu Mehdiabad qəsəbəsində 108 evdən, Sabunçu rayonu Ramana qəsəbəsində 160 evdən ibarət qəsəbələr salınmış, Naxçıvan MR-də 4 mərtəbəli 48 mənzilli yaşayış binası və 53 ədəd fərdi ev, Sumqayıt şəhərində 2 mərtəbəli 14 mənzilli yaşayış binası və 2 fərdi ev, Ağstafa rayonunda 17 fərdi ev, İsmayıllı rayonunda 45 fərdi ev, Bakı şəhərində 3, Oğuz rayonunda 3, Şəki şəhərində 2 və Gədəbəy rayonunda 1 fərdi ev (ümumilikdə 1011 ev – 949 fərdi və 62 mənzilli 2 yaşayış binası) tikilmiş, qaçqınlar yeni qəsəbələrə və evlərə köçürülmüşlər [8, v.107]. Eyni zamanda Naxçıvan Muxtar Respublikasında əlavə 100 qaçqın ailəsi üçün evlər tikilmişdir. 1995-ci ildən respublikanın 18 rayonunda tikintisi yarımçıq qalmış 319 evdə tikinti işləri sona yetirilərək qaçqınların istifadəsinə verilmişdir. Həmçinin Ermənistandan qaçqın düşmüş, oradakı ev və mənzillərini Bakı şəhərindəki özbaşına tikilmiş evlərə dəyişərək daimi məskunlaşmış 793 nəfərdən ibarət 170 qaçqın ailəsinin yaşadığı evlərə qeydiyyata alınması, 24385 nəfərdən ibarət 3823 ailənin daimi məskunlaşdıqları evlər üçün qeydiyyat vəsiqəsinin verilməsi, 1988-1992-ci illərdə Ermənistandan çıxarılan, hazırda respublikamızın ərazisində daimi məskunlaşmış qaçqınların yaşadıqları tikililərin altında yerləşən və dövlət mülkiyyətində olan torpaq sahələrinin əvəzsiz olaraq onların mülkiyyətinə verilməsi təmin edilmişdir [22, s.21]. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2001-ci il 7 sentyabr tarixli "Azərbaycan torpaqlarının Ermənistan Silahlı Qüvvələri tərəfindən işğalı nəticəsində Ağdam və Füzuli rayonlarından didərgin düşmüş və çadır düşərgələrində müvəqqəti yerləşdirilmiş məcburi köçkünlərin bir qisminin həmin rayonların ərazisində məskunlaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanına əsasən Dövlət

Neft Fondundan ayrılmış 84 milyard manat həcmində vəsaitlə məcburi köçkünlərin müvəqqəti yerləşdirilməsi məqsədilə Ağdam rayonunda 500 ailəlik 4, Füzuli rayonunda isə 800 ailəlik 4 qəsəbənin tikintisi 2003-cü ilin noyabr ayında başa çatdırılmış, Dövlət Komissiyası tərəfindən qəbul edilərək məcburi köçkünlərin köçürülməsi həyata keçirilmişdir [7].

Qeyd edək ki, 1993-cü ildə məcburi köçkünlərə adambaşına aylıq yemək xərcləri üçün verilən müavinətin miqdarı 500 manat olmuş, bu rəqəm son 11 ildə 25 min manata çatdırılmışdır. Bu dövrdə ümumi kommunal xərclərin miqdarı 120 dəfə çoxalaraq 1,1 milyon manatdan 132,5 milyon manata yüksəlmişdir. Azərbaycan Respublikası Qaçqınlar və Məcburi Köçkünlərin Dövlət Komitəsinin büdcəsi 90 dəfə artmışdır [23, s.39]. Bütün bunlar ulu öndər Heydər Əliyevin məcburi köçkün və qaçqınlara göstərdiyi böyük atalıq qayğısının nəticəsi idi.

Bu gün Dövlət başçımızla şanlı ordumuzun, xalqımızın sarsılmaz iradəsi, birliyi və qardaş Türkiyənin böyük mənəvi dəstəyi ilə 44 günlük vətən müharibəsi Azərbaycanın böyük qələbəsi ilə sona çatmış, işğal altında olan bütün torpaqlarımız erməni terrorçularından təmizlənmiş, Ermənistan dövləti kapitulyasiya aktını imzalamağa məcbur olmuşdur. Həmin aktın 7-ci bəndində göstərilir: Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır" [23, s.39]. Biz inanırıq ki, xalqımız Ali Baş Komandanın ətrafında sıx birləşəcək, qaçqınlarımız öz doğma yurdlarına qayıdacaqlar.

## ƏDƏBİYYAT

1. ADNŞA. Kollegiyanın materialları. 2002-ci il, v.25-26
2. ADNŞA. Kollegiyanın materialları. 2003-cü il, v.79
3. AMEA Tarix İnstitutunun Elmi Arxivi [TİEA], f.1, s.19, i.8953, v.92
4. ARKTNA. Kollegiyanın materialları. 2003-cü il, v.21
5. Azərbaycan Dövlət Neft Şirkətinin Arxivi [ADNŞA]. Kollegiyanın materialları. 1994-cü il, v.74.
6. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi – TİEA, f.1, s.19, i.8961, v.126
7. Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsinin Arxivi [ARDƏKA]. Komitənin 2003-cü il hesabat materialları, v.31-32
8. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin Arxivi [ARƏƏSMNA]. Nazirliyin hesabat materialları, 2002-ci il, v.16
9. Azərbaycan Respublikası Gənclər İdman və Turizm Nazirliyinin Arxivi [ARGİTNA]. İllik hesabat materialları. 2002-ci il materialları, v.27.
10. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Arxivi [ARİNA]. İqtisadi təhlillər. 2002-ci il hesabatı, 17-ci qovluq, v.16, 17
11. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Arxivi [ARKTNA].

2002-ci il üçün hesabat. I hissə, v. 71
12. Azərbaycan Respublikası Milli Məclisinin Arxivi [ARMMA], f.2941, s.1, 4, 49, v.78
13. Azərbaycan Respublikası Milli Məclisinin Arxivi, f.2941, s.1, i.312, v.106
14. Azərbaycan Respublikası. 1991-2001. Bakı, 2001, 390 s.
15. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Bəyanatı. "Xalq" qəz., Bakı, 2001, 14 avqust
16. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin qaçqınların və məcburi köçkünlərin məsələlərinə həsr olunmuş ümumrespublika müşavirəsində nitqi Respublika sarayı, 27 iyun 1998-ci il / https://lib.aliyev-heritage.org/az/8296056.html
17. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı. 10 noyabr 2020 / https://president.az/az/articles/view/45923
18. Azərbaycanda ümumdünya qaçqınlar günü qeyd edilmişdir. 19 iyun 2009 / http://idp.gov.az/az/news/23
19. Bakı Şəhəri İcra Hakimiyyəti Arxivi [BŞİHA]. Abadlaşdırma və Park-Bağ İdarəsinin materialları, 2001-ci il, v.126-127
20. *Əliyev H.* Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə xalqına müraciət. "Respublika" qəz., Bakı, 2000, 30 dekabr
21. *Əliyev H.* Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciət. "Respublika" qəzeti, 30 dekabr 2000-ci il.
22. Heydər Əliyev işığı. Bakı, 2000, 385 s.
23. İlham Əliyev böyük siyasətdə: reallıqlar və perspektivləri. Bakı, 1999, 396 s.
24. Qayıdış. 1990-1993. Sənədlər toplusu. Bakı, 1996, 396 s.
25. *Məmmədov R.F., Süleymanlı S.A., Abbasov X.R.* Azərbaycanlı qaçqm və məcburi köçkünlərin problemləri beynəlxalq təşkilatlar müstəvisində. Bakı: Səda, 2016, 232 s.
26. *Məmmədova H.* Dövlətçiliyin və xalqın mənafeyi naminə. "Xalq" qəz., Bakı, 2009, 21 iyun, s.3
27. Müstəqil Azərbaycan 10 il: Statistika külliyyatı. Bakı, 2001, 418 s.
28. *Nəcəfxanlı Ə.* Azərbaycan qaçqınlar probleminin həllində dünyaya nümunə göstərir. "Xalq" qəz., Bakı, 2022, 21 iyun
29. *Nərimanoğlu M.* Ulu Öndər ölkənin qaçqın-köçkün probleminin həllini bir nömrəli məsələ hesab edirdi. "Azərbaycan" qəz., 2021, 12 dekabr / https://www.azerbaijan-news.az/index.php/az/posts/detail/ulu-onder-olkenin-qacqin-kockun-probleminin-hellini-bir-nomreli-mesele-hesab-edirdi-1639255125
30. TİEA, f.1, s.19, i.8961, v.111.
31. TİEA, f.1, s.19, i.8961, v.115
32. *Ülki İ.* Qızıl ulduzun hilala doğru: Heydər Əliyevin fırtınalı həyatı. Bakı, 1994, 550 s.

Redaksiyaya daxil olub 13.07.2022

*УДК 94(479.24)*

***Э.К.Мамедова (Сулейманова)***
*Азербайджанский государственный педагогический университет*
*suleymanova.elmira1954@mail.ru*

# АДМИНИСТРАТИВНОЕ УСТРОЙСТВО И СИСТЕМА УПРАВЛЕНИЯ АЗЕРБАЙДЖАНСКИХ ХАНСТВ ВО ВТОРОЙ ПОЛОВИНЕ XVIII ВЕКА

***Ключевые слова:*** *период ханств, административная система, центральный и местный аппарат управления ханств, султанства, карабахские меликства*

В статье исследуются традиции феодально-раздельной государственности ханского периода. В научный оборот вводится понятие «ханский Азербайджан»

Изучена свойственная самобытному азербайджанскому этническому самосознанию система ханского административного устройства и управления, названия и функции должностных лиц, административные обязанности чиновников в центральном и местном аппарате ханств, судопроизводство, вооруженные силы ханских государственных образований, что позволило указать на консолидацию азербайджанцев в пределах совокупной территории ханств. Анализ материалов показал, что в период ханств во второй половине XVIII века азербайджанцы компактно жили на исторической территории, где были объединены общим тюркским языком, общими законами шариата, обычаями, традициями, исламской религией. В силу определенных закономерностей в системе административного управления азербайджанских ханств продолжали существовать традиции албанского христианского управления в форме карабахских меликств.

***E.K.Məmmədova (Süleymanova)***

# XVIII ƏSRİN İKİNCİ YARISINDA AZƏRBAYCAN XANLIQLARININ İNZİBATİ QURULUŞU VƏ İDARƏÇİLİK SİSTEMİ

***Açar sözlər:*** *xanlıqlar dövrü, inzibati sistem, xanlıqların mərkəzi və yerli idarəetmə aparatı, sultanlıqlar, Qarabağ məliklikləri*

Məqalədə xanlıqlar dövrünün feodal-parçalanmış dövlətçiliyinin ənənələri müəyyən edilmişdir. “Xan Azərbaycanı” anlayışı elmi dövriyyəyə daxil edilmişdir.

Azərbaycanlıların özünəməxsus etnik özünüdərk xüsusiyyətlərinə məxsus xanlıqların inzibati quruluşu və idarə olunması sistemi, məmurların adları və funksiyaları, xanlıqların mərkəzi və yerli aparatında məmurların inzibati vəzifələri, məhkəmə icraatı, xan dövlət birləşmələrinin silahlı qüvvələri təhlil olunur. Azərbaycanlıların etnik kimliyi tədqiq edilmişdir ki, bu da azərbaycanlıların xanlıqların

ümumi ərazisi daxilində cəmləşməsini göstərməyə imkan vermişdir. Materialların təhlili göstərdi ki, XVIII əsrin ikinci yarısında xanlıqlar dövründə azərbaycanlılar ortaq türk dili, ortaq şəriət qanunları, adət-ənənələr, islam dininin birləşdiyi tarixi ərazidə kompakt yaşamışlar. Müəyyən qanunauyğunluqlara görə Azərbaycan xanlıqlarının inzibati sistemində Qarabağ məliklikləri şəklində alban xristian idarəçiliyi ənənələri mövcud olmaqda davam edirdi.

***E.K.Mamedova (Suleymanova)***

**ADMINISTRATIVE STRUCTURE AND SYSTEM OF AZERBAIJAN KHANATES IN THE SECOND HALF OF THE 18th CENTURY**

***Keywords:*** *the independent khanates, the administrative system, the central and local apparatus of the khanates, Sultanate, Karabakh khanates*

The article examines the administrative system of the independent khanates that existed on the historical territory of Azerbaijan in the second half of the 18th century.

Based on the analysis of patterns of feudal political fragmentation, the traditions of Azerbaijani feudal-fragmented statehood during the period of khanates were determined. The concept of "khan's Azerbaijan" was introduced into scientific circulation. The system of the khan's administrative structure and management, the names and functions of officials, the administrative duties of officials in the central and local apparatus of the khanates, legal proceedings, the armed forces of the khan's state formations, which is characteristic of the original Azerbaijani ethnic identity, have been studied, which made it possible to indicate the consolidation of Azerbaijanis within the territory of the khanates. Analysis of the materials showed that during the period of the khanates in the second half of the 18th century, Azerbaijanis lived compactly in the historical territory, where they were united by a common Turkic language, common Sharia laws, customs, traditions, and the Islamic religion. Due to certain regularities, the traditions of Albanian Christian administration in the form of Karabakh melikdoms continued to exist in the administrative system of the Azerbaijani khanates.

## Введение

После смерти Надир шаха Афшара в 1747 году выделялись крупные наследственные феодальные владения: Дербентское, Кубинское, Шемахинское, Шекинское, Бакинское, Сальянское, Джавадское, Талышское, Карабахское, Гянджинское, Нахичеванское, Иреванское, Карадагское, Хойское, Марагинское, Ардебильское, Макинское, Серабское, Урмийское, Тебризское ханства. Наряду с ханствами существовали более мелкие феодальные наследственные владения: Арешское, Илисуйское, Кабалинское, Казахское, Шамшадильское, Борчалинское, Памбекское, Шорагельское султанства, а также Варандинское, Джерабертское, Гюлистанское, Дизакское, Хаченское

меликства. Кроме них существовали объединенные в Джаро-Балаканский союз Белоканский, Катехский, Джарский, Тальский, Мухахский, Джинихский, Илисуйский, Карадулагский, Башсувагильский, Цахурский джамааты.

В феодальной иерархии наследственных владений самыми крупными были ханства, поэтому вторая половина XVIII века именуется периодом ханского Азербайджана.

**Основная часть**

Азербайджанские феодальные монархии сложились с абсолютной властью хана. Он издавал законы, назначал чиновников, собирал и расходовал налоги без всякого контроля за управлением. Выражением такой власти явился ханский абсолютизм. Титул «хан» являются тюркским словом (13, с.509). Впервые был применен к гунским племенным вождям. Его более древней формой считается «хакан» - «хан ханов» (8, с.54). Титул «хан» становится известным европейцам после появления сельджуков в 1037 году. В начале XIII века после образования государства Чингиз хана слово титул «хан» получают тюрко-монгольскую этимологию, по которой этот титул принадлежал вождям крупных монгольских объединений – орд, а затем царствовавшему государю и членам его фамилии. (9, с.15). По А.А.Бакиханову «хан» – слово монгольское, значит «государь», «царствующая особа» (4, с.137).

В Азербайджане титул «хан» утвердился при династии Сефевидов. До принятия титула «хан» сефевидские шахи, как духовные главы мусульман-шиитов, назначали привилигированную феодальную кланово-племенную знать на высшие административно-военные должности, присваивая им светское звание «эмира» (15, с.92-94).

Различают две категории эмиров: эмиры при шахском дворе и эмиры пограничных административно-территориальных областей – беглярбегств и олькэ (15, с.118; 5, с.9). Всего в административно-территориальной системе Сефевидского государства имелось четыре валийства, 13 беглярбегств и многочисленные олькэ – территория пожалованная на разных основаниях во временное или пожизненное наследственное владение с правом полного иммунитета. Из этого числа территориальной администрации четыре беглярбегства – Ширванское, Карабахское, Чухурсаадское, Тебризское и 24 олькэ – Урмия, Марага, Маку, Карадаг, Ардебиль, Союджбулаг, Тебриз и Хой, Салмас, Маранд, Баргушат, Нахчыван, Капан, Казах, Шамшадинли, Икирмидорт, Отузики, Шеки, Цахур, Кабала, Ареш, Баку, Дербенд, Куба располагались на исторических землях Азербайджана. Эмиры пограничных областей именовались беглярбеками, позднее им стал присваиваться титул «хан» или «султан». Многочисленные наследственные олькэ управлялись хакимами,

являвшиеся одновременно вождями племен, которым тоже присваивался титул «хан» или «султан». Это подчеркивало царское происхождение беглярбеков и хакимов, так как на эти должности обычно назначались вожди крупных племенных объединений. (5, с.10). В начале правления Сефевидов титул «хан» употреблялся наравне с титулом «султан», а в середине царствования шаха Тахмасиба I (1524-1576) титул «хан» стал выше титула «султан».

В период ханств титул «хан» принимает свое первоначальное значение, как «государь», «царствующая особа». По этому поводу А.Бакиханов пишет, что «...бывшие до тех пор потомственные правители, зависевшие от шахов, преобразовались в независимых владетелей, а в Шеки, Ширване, Карабахе – достигли этой степени люди, даже невысокого происхождения, но сильные влиянием...» (3).

Одним из основных факторов, в значительной степени стимулирующим складывание абсолютной ханской власти явилось наличие в Азербайджане местных административно-должностных наследственных династий еще со времен Сефевидов. Система наследственности должностей, как военных, так и гражданских была для Сефевидов хотя формально и неузаконенным, но довольно твердо укоренившимся в практике обычаем. (15, с.120; 12, с.97). Согласно приведенному в «Тазкират-ал-мюлюк» административному перечню власть азербайджанских беглярбеков и хакимов, была наследственной (16, д. 3678).

На исторической территории Азербайджана сложились три вида монархических династий. Прежде всего, это потомственные правители из представителей крупной военно-феодальной знати, наследственно владевшие титулом «хан» или «султан». Следующую группу представляли правители из числа крупной и средней местной феодальной знати, захватившие власть с учетом реальной обстновки. И, наконец, правители средней феодальной местной знати, сумевшие утвердиться у власти, возглавив массовые выступления.

Ханские монархии имели строго централизованную административную систему центрального, городского и сельского управления с прямым подчинением неограниченной ханской власти, передаваемой по наследству.

Центральный государственный аппарат управления азербайджанских ханств назывался **«Диванхана».** Только ханы наиболее крупных и влиятельных азербайджанских ханств, как кубинский, щекинский, карабахский, гянджинский, иреванский, тебризский, урмийский, держали при себе «Диван». Ханы остальных ханств сами управляли своими ханствами и временами были вассалами

вышеуказанных ханств. Так, например, ханства северо-восточного Азербайджана подчинялись кубинскому хану, южные ханства попеременно подчинялись карабахскому, гянджинскому, ireванскому, тебризскому, урмийскому ханам.

Следует отметить, среди влиятельных азербайджанских ханов кубинский и иреванский совсем не считались с мнением «Дивана». В некоторых ханствах, как Шекинском, Карабахском, Гянджинском, Тебризском, Урмийском, в определенной степени «Диваны» влияли на своих ханов. Определенное влияние «Дивана» в Шекинском ханстве объясняется тем, что его основатель Гаджи Челеби пришел к власти в результате освободительного движения и не без помощи наиболее влиятельных беков-участников этого движения. В Гянджинском ханстве наследственная династия Зиядоглы, урезанная в правах в период правления Надир шаха, установила свою власть также при помощи влиятельных беков. Однако, вышесказанное совсем не означает, что шекинские, карабахские, тебризские, гянджинские, урмийские ханы были зависимы от своих «Диванов». Они лишь в определенной степени прислушивались к мнению «Дивана». Совсем иная картина взаимоотношения хана и «Дивана» была в Шемахинском ханстве. Диван Шемахинского ханства полностью управлял своим ханом.

Ханская «Диванхана» была совещательным учреждением, где обсуждались важные государственные вопросы: о войне и мире, о раскладке и взимании податей, расправа ханов с непокорными беками, конфискация их имущества, рассматривались особо важные уголовные дела и иные вопросы, имевшие государственное значение. Однако, хан мог принимать решение и без «Дивана», особенно, если речь шла о смертной казни или конфискации имущества.

Должностные лица в ханской «Диванхане» делились на духовных и светских. В состав ханской «Диванханы» входили члены ханской фамилии и ближайшие доверенные хана. Количество должностных лиц ханской «Диванханы» зависело от воли хана.

Самым высокопоставленным должностным лицом в «Диванхане» после хана был **визирь** (от персидского слова «бузург» - «большой», «великий»), считающийся вторым лицом после хана. Должность визиря пользовалась в ханском государстве большим уважением. На эту должность обычно хан назначал наиболее ему верного и преданного человека, который был грамотен, образован и с расширенным кругозором. Он считался главой всего бюрократического аппарата и был первым советником хана. Должностными знаками визира были чернильница и чалма из определенного сукна (18, с.457).

Будучи высшим государственным чиновником в ханском государстве, визирь был главой чиновников «Дивана», обладал правом назначать и увольнять чиновников, устанавливать и контролировать налоговое управление и казну, нес ответственность только перед своим повелителем. Он постоянно находился при своем хане, сопровождая его в поездках и походах, мог сам посылать войска и возглавлять их, был полномочным представителем хана на всякого рода официальных церемониях, в дипломатических акциях и при контакте с вассалами.

Власть визира в ханском государстве зависела от его положения и соотношения политических сил при дворе хана. Например, при дворе Фатали хана кубинского визирь не обладал какой-либо политической властью, тогда как, визиры карабахского Панах Али хана Молла Панах Вагиф и тебризского Худадад хана Абдурразаг Дунбули в силу своего ума, широкого мировозрения, гибкой политики смогли завоевать доверие своих правителей и значительно влияли на политическую жизнь в этих государствах.

**Диванбеги,** также как и визирь считался вторым лицом в администрации ханского государства и первым советником хана. Они одновременно назывались «газиями». Если визирь был главой всего бюрократического аппарата, то диванбеги был духовным главой «Дивана», визирь был главным советником хана по административно-политическим и дипломатическим вопросам, диванбеги как духовный член «Дивана», был главным советником по правовым вопросам в ханстве.

Награждение или вынесение приговора лиц в ханстве зависели от фитвы диванбеги, которые основывались на мусульманском шариате и адатах. Диванбеги подчинялись магальные и городские газии. Недовольные приговорами магальных и городских газиев обитатели ханств могли обращаться с жалобой к диванбеги. В некоторых случаях функции диванбеги и главы духовенства шейх-уль-ислама где-то совпадали. Приговоры магальных и городских газиев могли быть обжалованы и у диванбеги и у шейх-уль-ислама.

Между тем диванбеги был духовным главой «Дивана», который в случае опасности мог поднять на защиту ханства все население, объявив «джихад» – священную войну. А шейх-уль-ислам был лишь главой духовенства, то есть главой всех мусульман ханства.

Одной из значительных и ответственных должностей в ханской «Диванхане» была должность **мирзы**, который руководил и вел личное хозяйство хана, вел регистрацию доходов и расходов в особой книге. Личным хозяйством хана занимался и другой важный сановник, как

эшикагаси. Но он не входил в состав ханской «Диванханы» и вполне вероятно находился в подчинении мирзы.

Кроме вышеназванных обязанностей в функции мирзы входили: оформление ханских фирманов, переписка хана с соседними ханствами и иностранными государствами, чтение хану писем, подготовка их ответов и т.д. На должность мирзы назначались лица грамотные, с хорошим почерком, владеющие несколькими языками, так как письма ханам писались на персидском, русском, английском языках.

В ханской «Диванхане» по значимости с должностью мирзы была должность **гошунновис** или **мирза гошун**. Это были ханские войсковые писцы-секретари на правах начальников у войсковой канцелярии. Они составляли списки ханского войска и и следили за установлением дисциплины в ханском войске. Гошунновис, хотя и был значительным лицом в ханской «Диванхане», однако, он подчинялся юзбаши, и считался главою ханского войска после юзбаши.

В ханской «Диванхане» значительной была должность главы ханского войска. Эта должность в «Диванхане» именовалась по-разному. В одних ханствах она называлась **«наиб»**, в других - **«юзбаши».** Носители этой должности были влиятельными лицами, так как при отсутствии хана они заменяли его как главнокомандующие войском. Они удостаивались высоким титулом «султан» и ни перед кем, кроме хана, не несли ответственности.

Должность **хазинадарбаши** в ханской «Диванхане» была важной и ответственной. На эту должность ханы назначали членов своей фамилии или наиболее доверенных лиц. Он был прямо и непосредственно подотчетен самому хану.

Все высокодолжностные лица в ханской «Диванхане» имели своих помощников в лице **второстепенных должностных лиц,** через которых они выполняли свои функциональные обязанности. Эти второстепенные должностные лица прямо не входили в состав «Диванханы», но по своим функциональным обязанностям играли значительную роль в управлении ханств. Они имели общее название **нукеры.** К этим второстепенным должностям относились: **чапарбаши** – должностное лицо, возглавляющее конных гонцов в ханстве; **шатырбаши** – должностное лицо, возглавляющее пеших гонцов в ханстве, или как их еще называют – почтовые вестники; **миргяззаб** – должностное лицо, выполняющее функцию старшего исполнителя смертных приговоров; **мехмандар** – должностное лицо, выполняющее функцию главы гостевого двора; **дефтерхана мудири** – глава ханской канцелярии и «Диванханы»; **серкер али** возглавлял финансовое ведомство; **эшикагасы** управлял личным хозяйством хана и был прямо подотчетен хану; **сандухтар агасы** ведал

расходами ханской казны (10, с.353); **амбардар агасы** осуществлял надзор за хлебными амбарами и другими запасами провизии и являлся содержателем ханских складов (19, с.69); **амирахур** – главный конюший, ведавший пастбищами и запасами корма (19, с.81). Авторитет Дивана зависел от воли хана и той роли, которую играли в ханстве должностные лица ханской «Диванханы».

Важнейшей составной частью государственного механизма азербайджанских ханств являлся **административный аппарат управления на местах**. Наиболее значимой в ханстве среди местной администрации была должность **наибов** или магальных **беков**. Правители магалов назначались самим ханом из числа крупных феодалов. Должность магального наиба была наследственной, но при переходе по наследству требовалось подтверждение самого хана. Магальные наибы были важной опорой ханам, на эту должность ханы назначали наиболее приближенных и доверенных лиц. Чаще всего это были сыновья, ближайшие родственники ханов. В должностные функции магальных наибов входили: финансово-управленческая, полицейская и судебная власти. Они ведали распределением податей и повинностей, надзирали за их своевременным отбыванием, обеспечивали охрану границ магала, осуществляли разбор не подлежащих судебному разбирательству тяжб и споров, исполняли приговоры суда. Это позволило наибам чувствовать себя полновластными хозяевами в управляемых магалах, что часто сопровождалось всяческими злоупотреблениями своим положением и нещадным обиранием подвластного населения. Должностные функции магальных наибов различных ханств не были одинаковыми. В некоторых ханствах магальные наибы имели наряду с финансово-управленческой и полицейской властью судебные функции. Например, наибы Гянджинского, Нахичеванского, Шекинского, Карабахского ханств, Кубинского, ханства, имели титулы «султан» или «мелик». Особым положением пользовались также магальные наибы пограничных округов ханств, так как они обеспечивали охрану границ ханств. Оплата за население службу наиба в каждом ханстве была своя. Но в основном магальные наибы пользовались системой кормления, получали в пользу свою десятую часть со всех доходов, прислугу по надобности, жизненные припасы для семейства и самые кунаки (гости) угощались за счет жителей. Должность магального наиба в Иреванском ханстве именовалась мирболюком. В подчинении у наибов были даруги, юзбаши, кетхуда и другие должностные лица.

Города управлялись городскими **наибами**, власть которых была более упрощенной по сравнению с магальными наибами. В системе местной администрации ему подчинялась вся городская администрация.

За время отсутствия хана (в случае охоты, путешествия, войны и т.д.) все городское управление поручалось наибу, который становился полным хозяином города.

Наместником хана в городе также было лицо, исполняющее должность **калантара**. Калантар избирался из среды средней местной знати или купцов. Он был ответственным и перед ханом, и перед магальным и городским наибами. Одновременно, калантары считались главой купцов города. В кругу обязанностей калантара большее место занимало рассмотрение всяких финансовых споров, распределение городского размера подати для каждого сословия в городе и контроль над ее сбором, назначение старост как махалле, так и цеховых. Функции коменданта крепости в городе исполнял **галабеги**, который прямо подчинялся хану и отвечал перед ним за спокойствие и безопасность города. В его распоряжении находились специальные караульные отряды, охраняющие в основном ханский дворей и городские ворота, ключи от которого находились у галабеги.

В подчинении у галабеги были лица, исполняющие должность **даруги и эссасбаши**, которые являлись чиновниками полиции и отвечали перед галабеги за спокойствие и безопасность тех участков, которые возглавляли. Должность даруги занимали сразу несколько лиц, в зависимости от количества махалле-кварталов в городе. Были также даруги-управители имений хана или крупных феодальных владетелей. Поскольку хозяйство хана или крупного феодала было невелико, то функции даруги сводились главным образом, к собиранию ренты с райятов. За несение службы даруги получали жалование, чаще всего натурой, который назывался даргалык. Даруге было предоставлено неограниченное право для защиты законов шариата. За отступления от норм шариата даруге было дано право наказывать преступника или оштрафовывать его по своему усмотрению. Это зачастую приводило к злоупотреблению даругами своей должности.

Если даруги числились по количеству кварталов в городе и были чиновниками полиции, то **эсасбаши** был начальником полиции в городе и главой ночной полиции и потому имел более сильную власть, чем даруга. Ночная полиция или еще ее называют ночная стража являясь специальным отрядом – эссас, который отвечал за ночную безопасность города. Эссасы несли ночную службу по кварталам – махалле. Базары и ремесленные ряды также имели своих эссасов и несли ответственность перед эссасбаши за каждый выделенный им для охраны квартал. Формирование эссасов и назначение их главы производилось галабеги, что вытекало непосредственно из его функциональных обязанностей. За несение службы в ночное время эссасы получали плату.

Определенную роль в городской администрации выполнял **юзбаши** (сотник). Отличались ханские юзбаши, которые выполняли административные должностные функции в войсках хана, и представители местной администрации. Юзбаши назначались галабеги по количеству городских кварталов – махалле и получали за службу определенную плату. В функции юзбаши входили некоторые полицейские обязанности, а также необходимость присутствовать и следить за сбором городских налогов в своем квартале.

В системе городской администрации были и **старосты махалле** и **цеховые**, назначаемые калантарами. Цеховые старосты были главами ремесленных организаций – амкарств и назывались **устбаши**. Они обладали некоторой административной, финансовой и судебной властью в цеховых ремесленных организациях. В их обязанности входило следить за нарушением устава цехов, сбор различных ремесленных податей, определение за ремесленниками различных повинностей, а также разбор споров и тяжб в амкарских городских судах. Городские квартальные старосты оказывали помощь в своевременном сборе многочисленных налогов с городского населения в пределах вверенного им махалле, составляли списки городских жителей махалле для определения размера податей и определения повинностей и т.д. Квартальные старосты назначались из числа городских беков.

Количество должностей в городской администрации определялось территориальными размерами городов, экономическими возможностями ханов. Поэтому количество должностей в городской администрации в различных городах была не одинаковой, не исключалась возможность соединений двух, трех городских должностей в одну.

Наряду с городским существовал и сельский административный аппарат, где главой был **сельский старшина** или **кетхуда,** обладавший наследственную власть и почетный титул «юзбаши». Сельские старшины избирались сельским сходом и утверждались магальным наибом, хотя позднее кетхуды стали назначаться на эту должность ханами. Это явилось основанием для всяких злоупотреблением своими должностными обязанностями со стороны сельских старшин. Они переставали считать себя управителями деревень и вели себя как их владельцы. В подчинении у сельского юзбаши были **есаулы**, выполняющие функции сельских полицейских и различных нукеров.

**Заключение.** В период ханств историческая территория Азербайджана охватывала земли от Большого Кавказского хребта с Южным Дагестаном на севере, до Зенджана на юге, на востоке от Дербента до Гиляна ее границы омывались берегами Каспийского моря, на западе – доходили до Алазанской долины и реки Ганых включительно.

На этой территории компактно проживали азербайджанцы, в феодальных владениях – ханствах, султанствах, меликствах, джаматах официальным языком был тюркский язык абсолютного большинства населения, в ханских монархиях была установлена единая по форме система административного управления, судопроизводство и право было основано на шариате и адатах.

В ханствах достаточно отчетливо фиксируются соответствующие элементы из тюркского языка в форме социальных, административных и территориальных терминов на территории Передней и Центральной Азии.

## ЛИТЕРАТУРА

1. Архив РФ, ф.3, д.41, л.5
2. *Ализаде А.А.* Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, 1956, с.62-80
3. *Байрамов З.Х.* Местное и городское управление Азербайджана в системе государства Сефевидов: автореф. дис. …канд истор. наук. Баку, 1985, 23 с.
4. *Бакиханов А.* Докладная записка об определении прав высшего сословия в мусульманских странах Закавказского края // Колониальная политика российского царизма в Азербайджане в 20-60 гг. XIX века. М.-Л: АН СССР, 1936, т. I, с.134-137
5. *Бакиханов А.* Происхождение племен, населявших нынешние Закавказские провинции / Газ. «Кавказ», 1848, №1
6. *Березин И.* Путешествие по Востоку. Казань, 1850, ч.2, 45 с.
7. Большая советская энциклопедия: в 30 томах, т. 28 / Гл. ред. А.М.Прохоров, М.: Советская Энциклопедия, 1969-1978
8. *Вернадский Г.В.* Исследования и материалы по истории России и Востока. Брюссель, 1939, т. 1, 54 с.
9. *Владимирцев Б.Я.* Общественный строй монголов. Монгольский кочевой феодализм. Л., 1934, 224 с.
10. Обозрение российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношениях, произведенное и изданное по высочайшему соизволению. Санкт-Петербург, 1836, Ч. 3, 392 с.
11. *Петрушевский И.П.* Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – XIX вв. Ленинград, 1949, 380 с.
12. *Рахмани А.А.* Азербайджан в конце XVI и в XVII вв. Баку, 1981 97 с.
13. Советская историческая энциклопедия в 16 т-х, Т. 15 / Под ред. Е.М.Жукова. М.: Советская энциклопедия, 1974, 509 с.
14. *Кафаров М.А.* Полный персидско-русский словарь / Под ред. Корша. М., 1914, 432 с.
15. *Кретаци А.* Повествование. Перевод Н.К.Корганяна. Ереван: Издательство АН АрмССР, 1973, 312 с.

16. Тазкират ал-мулюк. Перевод с английского Сеидова Т.А. // НАИИ НАН АР, ф. , оп.7, д. 3678
17. Толковый словарь живого великорусского языка: в 4 т., Т. 4, Составитель В.И.Даль. 2-е изд. СПб.: Типография М.О.Вольфа, 1882 [4], 704 с.
18. *Шопен И.* Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852, 457 с.
19. Указы кубинских ханов. Тбилиси,1937, 81 с.
20. Энциклопедический словарь Брокгауза и Ефрона: в 86 т., Т. I, СПб.: Семеновская Типолитография (И.А.Ефрона), 1890, 495 с.

Redaksiyaya daxil olub 23.08.2022

*UOT 339.924*

***A.M.Mirabdullayev, S.M.Hacıyeva***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*mirabdullaev.adil@mail.ru*
*saida.haciyeva53@mail.ru*

# MÜASİR MƏRHƏLƏDƏ RUSİYANIN MƏRKƏZİ ASİYA SİYASƏTİ: MÖVCUD VƏZİYYƏT VƏ ƏSAS NƏTİCƏLƏR

***Açar sözlər:*** *Mərkəzi Asiya, Rusiyanın siyasəti, beynəlxalq təşkilatlar, regional maraqlar, MDB ölkələri*

Rusiya Federasiyasının Mərkəzi Asiyadakı maraqları Moskvanın xarici siyasətinin mühüm istiqamətlərindən biridir. Sovet məkanı ölkələrində liderliyə iddia edən Rusiya ona loyal münasibət bəsləyən rejimlərə dəstək verməyə çalışır. Lakin regiona Çin və ABŞ kimi güclü dövlətlərin də maraq göstərməsi məsələnin həllini getdikcə çətinləşdirir, belə ki, bu vəziyyət Kremlin nüfuzunu aşağı salır. Rusiyanın cəhdləri nəticəsində yaradılan beynəlxalq təşkilatlar da onun Mərkəzi Asiyada rolunun zəifləməsinə mane ola bilmir.

***А.М.Мирабдуллаев, С.М.Гаджиева***

# ПОЛИТИКА РОССИИ В ЦЕНТРАЛЬНОЙ АЗИИ НА СОВРЕМЕННОМ ЭТАПЕ: НЫНЕШНЯЯ СИТУАЦИЯ И ОСНОВНЫЕ ВЫВОДЫ

***Ключевые слова:*** *Центральная Азия, политика России, международные организации, региональные интересы, страны СНГ*

Интересы России в Центральной Азии являются одной из основных тенденций внешней политики Москвы. Претендуя на лидерство в странах Советского Союза, Россия пытается поддерживать лояльные ей режимы. Однако интерес к региону таких могущественных стран, как Китай и США, все больше затрудняет решение вопроса, поскольку такая ситуация снижает влияние Кремля. Международные организации, созданные благодаря усилиям России, не могут предотвратить ослабление ее роли в Центральной Азии.

***A.M.Mirabdullayev, S.M.Hajiyeva***

# RUSSIA'S POLICY IN CENTRAL ASIA AT THE MODERN STAGE: PRESENT SITUATION AND THE MAIN RESULTS

***Keywords:*** *Central Asia, Russian politics, international organizations, regional interests, CIS countries*

Russia's interests in Central Asia are one of the main trends in Moscow's

foreign policy. Claiming leadership in post-Soviet countries, Russia is trying to support regimes that are loyal to it. This task is becoming increasingly difficult, as the presence of the interests of such powerful states as China and the United States in the region undermines the influence of the Kremlin. International organizations created by the efforts of Russia. They cannot stop the decline of Russia's influence in Central Asia

**Giriş**

Rusiyanın Mərkəzi Asiyada maraqları əsrlər boyu mövcud olmuşdur. Sovetlər Birliyinin dağılmasından sonra regionda beş müstəqil dövlət yaransa da, son zamanlar Moskvanın Mərkəzi Asiyaya marağı artmaqdadır. Regionun zəngin təbii sərvətlərə malik olması Rusiya ilə yanaşı, digər güclü dövlətlərin də diqqətini cəlb edir. Dünyanın unikal hissəsində yerləşərək Rusiya, Çin, Hindistan və Pakistan kimi dörd nüvə ölkəsini əlaqələndirən Mərkəzi Asiya 50 milyon insandan çox tələbat bazarına malik olaraq, müxtəlif etnik qrupları özündə birləşdirir. Bu baxımdan regionu çox həssas və qeyri-sabitliyə meyilli kimi qiymətləndirmək olar. Qeyd edək ki, Rusiyanın Mərkəzi Asiya regionu ilə 7 min kilometr sərhədinin mövcudluğu, Rusiya Federasiyasının sənaye baxımından inkişaf etmiş vilayətlərinin daxil olduğu 12 subyektinin bu sərhəd hüdudlarında yerləşməsi istər-istəməz əlaqənin yüksək dərəcəsindən xəbər verir. Beynəlxalq terrorizm, dini ekstremizm, narkosənaye, qanunsuz silah daşınması Mərkəzi Asiya ərazisində üstünlüyə malikdir, bu da Rusiya Federasiyasının xarici siyasətində mərkəzi Asiya istiqamətini mühüm edən amillərdəndir.

**Əsas hissə**

Rusiyanın xarici siyasət kursunda Mərkəzi Asiya yeri iqtisadi səbəblərdən daha çox siyasi səbəblərə əsaslanır. Moskvanın əsas məqsədi burada özünün xüsusi maraqlar zonasını yaratmaq, sovet məkanının qalıqları üzərində hakimliyini bacardıqca qorumaq, xarici qüvvələrin, ilk növbədə Çin və ABŞ-nin təsirini mümkün qədər azaltmaqdır [5, s.14]. Rusiya ekspertləri tez-tez mərkəzi Asiya respublikalarında hakim rejimlərin sabitliyinin müdafiə edilməsi zərurətindən danışırlar ki, bu da Rusiya Federasiyası rəhbərliyinin mövqeyi ilə üst-üstə düşür. Region üçün ən təhlükəli amillərdən biri kimi xarici qüvvələrin bu rejimləri demokratikləşməyə təhrik etmələri qeyd olunur. Buna nümunə kimi Rusiya ekspertləri Gürcüstandakı hakimiyyət dəyişikliyini qeyd edirlər. Rəsmi Moskva açıq etiraf etməsə də, Gürcüstanda Mixeil Saakaşvilinin hakimiyyətə gəlməsi Rusiya xarici siyasətinin aşkar məğlubiyyəti idi. Buna görə də Rusiya ondan xeyli dərəcədə asılı olan və güclü müxalifətin olmadığı Mərkəzi Asiya dövlətlərində təsirini artırmağa çalışır [9, s.136]. Regionda özünün iştirakını fəallaşdırmaq zərurətinə Rusiyanı həmçinin onun cənub sərhədlərinə qarşı təhlükə də təhrik edir. Bununla əlaqədar Rusiya Federasiyası Dövlət Dumasının təhlükəsizlik üzrə komitəsinin sədr müavini,

sabiq Daxili İşlər naziri general Anatoliy Kulikov da Rusiyanı qeyri-sabit vəziyyəti və xarici təsirə açıq müstəqil dövlətlərin əhatə etməsi fikrini ifadə etmişdi [8, s.17].

Rusiya Federasiyasının 2001-ci ildə qəbul edilən Xarici siyasət konsepsiyasında, eləcə də 2016-cı il noyabrın 30-da təsdiq edilən Xarici siyasət konsepsiyasında bütün MDB, həmçinin Mərkəzi Asiya ölkələri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq mühüm regional prioritet olaraq göstərilirdi [2, s.117; 6].

2001-ci ildə (Çin, Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan) Şanxay təşkilatının, həmçinin 2002-ci ildə müştərək "Qazprom" şirkətinin təsis edilməsi Mərkəzi Asiya ölkələri içərisində Rusiyanın daha çox dəstək gördüyü Qazaxıstanla münasibətlərinin yaxşılaşmasına təkan verdi [3, s.66 ; 4, s. 40-55].

Müasir dövrdə Rusiyanın Mərkəzi Asiya regionunda yürütdüyü siyasətin spesifik xüsusiyyətini araşdırarkən belə bir nəticəyə gəlmək olar ki, Kreml regionun ayrı-ayrı ölkələrinə bilavasitə təsir göstərmək imkanlarını əldən vermir və fərdi yanaşma üsulunu tətbiq edir. Məsələn, bu məqsədlə Rusiya Tacikistanda E.Rəhmanovun hakimiyyətini müdafiə etməklə hərbi-siyasi kadrlardan, elə də mühüm sənaye və xammal mənbəyi olmayan Qırğızıstanda iqtisadi, böyük rus diasporasının olduğu Qazaxıstanda isə etnik kadrlardan istifadə edir.

Üçüncü dövlətlərin regiona fəal şəkildə təsiri və burada geosiyasi mübarizənin güclənməsi Rusiyanın həm özü üçün, həm də bütün Mərkəzi Asiya üçün ümumi olan aktual problemlərin həllində fəal iştirak etmək zərurətini daha da gücləndirir. Məsələn, xüsusi geosiyasi və coğrafi mövqeyə malik Özbəkistan etibarlı geosiyasi tərəfdaşlara ehtiyac duyur, çünki bu ölkə yüksək konfliktogen potensiala malik olan regionun mərkəzində yerləşir. Dənizlərə birbaşa çıxışının olmaması Daşkənddə müstəqil xarici siyasət və xarici iqtisadi əlaqələr kursunu gerçəkləşdirməkdə çətinliklər törədir, həmçinin Özbəkistanın xarici siyasət səylərinin effektliliyi onun qonşu dövlətlər ilə birmənalı olmayan münasibətləri səbəbindən azalır.

Nəzərə alsaq ki, Mərkəzi Asiya dövlətlərində mühüm iqtisadi qərarlar prezidentin bilavasitə iştirakı olmadan heç vaxt qəbul edilmir, onda Rusiya ilə strateji əməkdaşlıq və iqtisadi inteqrasiya məsələsinin daha çox siyasi xarakter daşıması aydın olur. Belə ki, Özbəkistan-Rusiya münasibətlərində dəfələrlə baş vermiş soyuqlaşma və istilənmə dövrləri iqtisadi əməkdaşlığın uyğunluğundan daha çox hər iki ölkənin xarici siyasət mövqeləri ilə bağlıdır.

Rusiya Mərkəzi Asiya respublikalarının indiki rəhbərləri ilə əməkdaşlığın inkişaf etdirilməsinə çalışır və onların dövlət hakimiyyət institutlarının fəaliyyətlilik qabiliyyətini müdafiə edir. Lakin eyni zamanda Rusiya yerli rejimlərin Qərb standartları əsasında demokratikləşdirilməsi və liberallaşmasına imkan verməməyə çalışır. Moskva bu səylərini onunla

əsaslandırır ki, regionda qeyri-sabitlik zonalarının mövcudluğu şəraitində Qərb nümunəsində fəal liberal proseslərin başlanması sözügedən ölkələrdə vəziyyətin gərginləşməsinə gətirib çıxara bilər ki, bu da Rusiyanın cənub sərhədləri boyunca geniş qeyri-sabitlilik ocağının yaranmasına səbəb olar.

Müasir mərhələdə Rusiyanın regionda ambisiyalarının reallaşdırılmasına çoxsaylı səbəblər mane olur. Qazaxıstan və Özbəkistan Kremlin diplomatiyasının passiv obyektləri olmaqdan imtina edərək, beynəlxalq proseslərin daha qətiyyətli iştirakçıları kimi çıxış edirlər. ABŞ Əfqanıstandan qoşunların çıxarılmasından sonra da regionun güclü oyunçusu olaraq qalır [5, s.16]. Belə ki, Tacikistan, Özbəkistan və Qırğızıstan Asiya kontinentinin cənubunda stabillyin saxlanılması məqsədilə "müşahidə ərazisi"nə çevrilir. Digər tərəfdən Çinin iqtisadi qüdrəti bu regionda strateji iştirakı ilə əvəz olunur. Avrasiya İqtisadi İttifaqının yaradılması ilə bağlı tədbirlər göz önünə sərilsə də, regionda Moskvanın mövqelərinin zəiflədiyini inkar etmək olmaz. Rusiyanın öz şərtlərini diktə etmək imkanları azalır və Mərkəzi Asiyada nüfuzunu saxlamaq üçün Moskva ciddi tədbirlər görmək məcburiyyətindədir [1, s.5].

Digər Mərkəzi Asiya ölkələrindən fərqli olaraq, Qazaxıstan Rusiya tərəfdən son dərəcə yaxın tərəfdaş (qeyri-bərabər olsa da) olaraq qəbul edilir. Dünya ictimaiyyətinin diqqətinin Ukraynaya yönəldiyini nəzərə alsaq, strateji planlaşdırma, təhlükənin qavranılması baxımından Rusiya üçün Qazaxıstanın həyati əhəmiyyət kəsb etdiyini anlamaq çətin olmaz. Onu da qeyd etmək yerinə düşərdi ki, əhalisinin xeyli hissəsi qeyri-qazax olan ölkədə son illər milli-siyasi ideologiya geniş vüsət almışdır. Qazax etnosunun möhkəmlənməsi, müstəqillik uğrunda mübarizə dövrlərinə aid məsələlər ictimai tələbə çevrilərək, qazax və Rusiya xalqlarının birlik dövrü (200 ildən çox) Qazaxıstanın inkişafına mənfi təsir edən amil kimi qəbul edilir. 2021-ci ilin yanvar ayında parlament və bələdiyyə seçkilərindən sonra hakimiyyət orqanlarında da qeyri-qazax nümayəndələrinin sayının xeyli azaldığı müşahidə olunur. 2022-ci ilin fevralında Rusiyanın Ukraynaya hərbi təcavüzündən sonra Qazaxıstan neytrallığını dilə gətirərək heç bir tərəfi dəstəkləmədiyini bəyan etmişdi. Bununla bağlı Yaponiyanın "Asia Nikkei" jurnalı qeyd edir ki, Q.Tokayev nə Rusiyanı, nə də xalqını əsəbiləşdirmək istəyir. Qazaxıstan Rusiyanı qınamayaraq BMT-də müharibənin dayandırılması və Rusiya qüvvələrinin Ukraynadan çıxarılması barədə qətnamə qəbul edilərkən də neytral qaldı [11].

Rusiya-Ukrayna müharibəsinin Mərkəzi Asiya ölkələrinə təsirinin təhlil edildiyi məqalədə göstərilir ki, Rusiyanın Ukraynada hərbi əməliyyatlara başlaması Mərkəzi Asiyanı son dərəcə mürəkkəb vəziyyətə salıb. Regionun bir hissəsi KTMT-nin, digər hissəsi isə Avrasiya İqtisadi İttifaqının tərkibinə daxildir, bəzi ölkələr isə iqtisadi baxımdan bilavasitə Rusiyadan asılıdır. Qazaxıstanda olduğu kimi, Qırğızıstanda da Ukraynanın müdafiəsi məzmununda şüarlar səslənir, hətta qırğız silahlı qüvvələrinin Rusiyanın hərbi

əməliyyatlarında iştirakının mümkünlüyü barədə məlumatlar dərc edən mətbuat ofisləri nümayişkaranə şəkildə dağıdılır. Qeyri-müəyyən münasibət Özbəkistanda da müşahidə olunur. Fevral ayının sonunda Özbəkistan prezidenti Ş.Mirziyayev Rusiyanın Ukraynadakı fəaliyyətini "anladığını" ifadə etdi, lakin bunun ardından mətbuat katibi Özbəkistanın mövqeyinə rəsmən aydınlıq gətirərək, Özbəkistan neytral olduğunu bildirdi və bəyan etdi ki, bütün münaqişəli durumlar beynəlxalq hüquq normaları çərçivəsində həll edilməlidir. Tacikistan və Türkmənistanda da Ukraynadakı vəziyyətə kütləvi etiraz fəallığı müşahidə olunmur [10].

Bəzi Rusiya ekspertləri Mərkəzi Asiya dövlətlərinin pərakəndəlikləri, onların xarici siyasət fəaliyyətlərinin uzlaşmamasından bəhs edirlər. Buradan belə bir məntiqi fikir yaranır ki, Kreml regionda birləşdirici rol oynamaq və onun inkişafını öz maraqlarına uyğunlaşdırmaq arzusundadır. Rusiyanın bir sıra Qərb ekspertlərinin rəylərinə görə, yaradılan ölkə birlikləri çərçivəsində hərbi siyasi əməkdaşlığı təkmilləşdirmək lazımdır, bu da Rusiya və MDB hərbi standartlarının üstünlüyünü gücləndirməyə imkan verərək açıq-aşkar Qərbin xeyrinə olmayacaqdır.

Mərkəzi Asiyada öz təsirini saxlamaq və gücləndirmək üçün Rusiya nəinki region ölkələri ilə ikitərəfli münasibətləri inkişaf etdirmək istəyir, həm də MDB çərçivəsində çoxtərəfli əməkdaşlıq formatını qoruyub saxlamağa çalışır. Bu məqsədlə MDB məkanına daxil olan dövlətlərdən ibarət birliklərin təşkili Rusiya Federasiyası xarici siyasətində mühüm yer tutur və bunlardan biri də Vahid İqtisadi məkan təşkilatıdır. Dövlətlərarası inteqrasiyanın formalarından biri olan Vahid İqtisadi məkan insanların, məhsulların, xidmətlərin və kapitalların azad yerdəyişməsini nəzərdə tutaraq, Avropa Vahid Bazarı və Avropa İqtisadi Zonası nümunəsində yaradılmış birlikdir. Mərkəzi Asiya ölkələrindən Qazaxıstan və Qırğızıstan bu birliyə daxil olmuş, Tacikistan və Özbəkistanın da qatılması istiqamətində tədbirlər görülür. Rusiya bu cür birliklərin təşkilatçısı kimi çıxış edərək ölkələrin elmi-texniki potensialına daha effektli təsir göstərməyi planlaşdırır [7, s.134]. Belə hesab edilir ki, inteqrasiyanın təsirli fəaliyyət mexanizminin yaradılması üçün atılan real addımlar MDB ölkələrinin qarşılıqlı əməkdaşlığa maraqlarını daha da artıracaq, bu isə mərkəzdənqaçma proseslərinin güclənməsinə səbəb olacaq.

Qeyd etmək lazımdır ki, Rusiyanın maraqları ilə region ölkələrinin maraqları arasında çoxlu təmas nöqtələri, həmçinin Mərkəzi Asiyada öz təsirini reallaşdırmaq üçün Rusiyanın potensialında az xərc tələb edən mexanizmlər vardır. Güman edirik ki, onların arasında ümumi informasiya məkanından istifadə olunması imkanı Moskva tərəfindən düzgün dəyərləndirilmir. Belə ki, Rusiya mətbuatında region ölkələrindəki vəziyyət ilə əlaqədar çap olunan neqativ məlumatlar həmin ölkələrin Rusiyaya mənfi münasibətinin artmasına səbəb olur. Rusiyanın "azad mətbuatı" ölkənin müəyyən iqtisadi və siyasi

dairələrinin maraqlarına xidmət edir ki, bu da heç də həmişə dövlətin maraqları ilə uzlaşmır. Mərkəzi Asiya ölkələrinin milli elitasının Rusiyaya meyilli hissəsinin cəlb olunması istiqamətində tədbirlər də təsirli ola bilərdi. Lakin unutmaq olmaz ki, daha çox Qərbə meyil edən nəsil böyüməkdədir.

Region ölkələrinə texniki və humanitar yardım göstərilməsi Rusiyanın burada təsirini artıra bilərdi. Məsələn, Özbəkistan hələ sovet dövründə inşa olunmuş Su elektrik stansiyalarını və digər xalq təsərrüfatı obyektlərini modernləşdirmək ehtiyacı duyur. Bu vəzifələrin həlli nəinki Mərkəzi Asiya ölkələrində əhalinin məşğulluğunu təmin edərdi, həm də Rusiya müəssisələrinin istehsal gücünü artırardı. Qeyd etmək lazımdır ki, göstərilən istiqamətdə ABŞ, Yaponiya və başqa xarici ölkələr Rusiya ilə rəqabət aparırlar və bu da Rusiyanın regionda nüfuzunun aşağı düşməsinə səbəb olur. Rusiyanın Mərkəzi Asiya respublikaları ilə humanitar sahədə, o cümlədən mədəniyyət sahəsində əməkdaşlığını fəallaşdırması, bu ölkələrin Rusiya tərəfindən təşkil olunan mədəni və iqtisadi tədbirlərə cəlb olunması qarşılıqlı anlaşma, siyasi və iqtisadi əlaqələrin gücləndirilməsi üçün zəmin yarada bilərdi.

Müasir mərhələdə Rusiyanın Mərkəzi Asiya ilə əlaqəli siyasətini təhlil edən Kahramanmaraş universitetinin siyasət və beynəlxalq əlaqələr üzrə mütəxəssisi doktor Toğrul İsmayıl qeyd edir ki, Rusiyanın Mərkəzi Asiyada anti-Türkiyə və anti-qərb siyasəti Çin üçün sərfəlidir. Belə ki, Çin Rusiyanı bütün sahələr üzrə geridə qoyub; xüsusilə iqtisadi layihələrdə Çinin üstünlüyü şübhəsizdir. Bu, Pekinin iqtisadi gücü və coğrafi baxımdan Mərəzi Asiyaya yaxın olması ilə şərtlənir. Xüsusilə, energetika sahəsində Çin yatırımları bu regionda Rusiya inhisarına son verib. Məsələn, əvvəllər Rusiya Türkmənistan qazını ucuz alıb baha satırdısa, indi artıq Aşqabad Pekinlə ticarəti genişləndirməyə çalışır. Bundan başqa Çin regionda bir çox energetika və boru kəmərləri layihələrini maliyyələşdirir [12].

**Nəticə**

Hazırda tədqiq edilən regionda inkişafa yardım xətti ilə nüfuz uğrunda mübarizə aparan, iştirakını təsdiq etməyə çalışan Çin, ABŞ, Türkiyə və Rusiya əsas oyunçular hesab olunur. Aydındır ki, Mərkəzi Asiyanın bir neçə güclü ölkənin maraq dairəsində olması və rəqabət Rusiya üçün əlverişli imkanlar vəd etmir. Regionda maraqlı olan oyunçular məhsullarına satış bazarları axtarır, Mərkəzi Asiya ölkələri ilə hərbi və humanitar əməkdaşlığı nizamlayırlar. Rusiya ekspertləri Mərkəzi Asiyada regional kooperasiya proseslərini izləyirlər, Qazaxıstan, Türkmənistan və Özbəkistanın ticarət-iqtisadi əməkdaşlığının fəallaşması, region ölkələri arasında nəqliyyat mübadiləsinin yaxşılaşması və inkişafı xüsusi maraqla müşayiət olunur. Bir sıra məsələlərdə fikir ayrılığına baxmayaraq, Ankara Moskvanın mühüm siyasi və iqtisadi tərəfdaşı olaraq qalır. Qeyd edək ki, Rusiya, Türkiyə və Mərkəzi Asiyanın maraqlarının üst-üstə düşdüyü məsələlər də var, belə ki, bütün tərəflər regional sabitliyin qorunması

və iqtisadi inkişafda həmrəydirlər. İstənilən halda Rusiyanın və regionda iştirakını qorumağa çalışan digər tərəflərin Mərkəzi Asiya ölkələri ilə münasibətləri maraqlara, suverenlik, ərazi bütövlüyü, tarix və mədəniyyətə qarşılıqlı hörmət əsasında qurulmalıdır. İqtisadi çətinliklər, beynəlxalq situasiyanın gərginləşməsi fonunda beynəlxalq təhlükəsizlik problemlərinin kəskinləşməsi və Rusiyanın qərb ölkələri ilə beynəlxalq məsələlərdə prinsipial fikir ayrılığı Rusiyanın regionda təhlükəsizliyini qorumaq üçün müxtəlif üsullar axtarmaq məcburiyyətində qoyur.

## ƏDƏBİYYAT

1. *Бобо Ло.* Российская политика в Центральной Азии. Russie. Nei.Visions, 2017, №82, с.5-17
2. Внешняя политика и безопасность современной России 1991-2002, т.4, Москва, 2002, 538 с.
3. Выступление И.С.Иванова на совместной пресс-конференции по итогам совещания // Дипломатический вестник, Москва, 2002, №5, с. 66-724
4. ШОС как инструмент поддержания международной безопасности. Екатеринбург, 2018, с.86
5. *Малашенко А*. Интересы и шансы России в Центральной Азии. Pro et Contra, 2013 январь – апрель, с.1-14
6. *Погодин С.Н., Тараканова Т.С.* Внешнеполитические интересы Российской Федерации в Центральной Азии // Евразийская интеграция: экономика, право, политика. 2021, № 2, с.77-85
7. *Прохожев А.А.* Национальная безопасность России и основные проблемы ее обеспечения: Научные доклады. Москва, 1999, с.211
8. Предотвращение региональных конфликтов и продвижение стабильности в Центральной Азии и Афганистане // Материалы международной конференции (Ташкент, 22-23 ноября 2004 года). Ташкент, 2004, с.257
9. *Рашидов Б.* Россия в Центральной Азии: переход к позитивной политике // Центральная Азия и Кавказ, 2005, №2 (38), с.128-137
10. Сообщение пресс-службы президента Узбекистана / Новая газета, 10 марта 2022
11. Токаев между молотом и наковальней. Война в России и Украине как испытание для Казахстана / https://rus.azattyq.org/a/press-review-ukraine-kazakhstans-relationship-with-russia/31749419.html – Müraciət tarixi 20.04.22
12. Новая стратегия России в Центральной Азии. Анкарский центр кризисных и политических исследований (ANKASAM)
13. https://www.ankasam.org – Müraciət tarixi 23.04.22

Redaksiyaya daxil olub 05.08.2022

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2022, C.70, №3, s. 127-141
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2022, V.70, №3, pp. 127-141

*UOT 1(091)*

***Z.F.Rəşidov***
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*zaur20@mail.ru*

# A.O.MAKOVELSKİNİN TƏDQİQATLARINDA ŞƏRQ FƏLSƏFƏSİNİN PROBLEMLƏRİ

***Açar sözlər:*** *qədim Hind fəlsəfəsi, zərdüştilik, İslam, saflıq qardaşları, Şərq peripatetizmi, sufizm, Nizami Gəncəvi*

XX əsr Sovet dönəmində Azərbaycanın ən tanınmış fəlsəfə tarixi tədqiqatçılarından biri də Aleksandr Osipoviç Makovelski olmuşdur. Bir çox Avropa dillərini mükəmməl bilən korifey alimimiz başlıca tədqiqatlarını da əsasən ilkin mənbələr və qaynaqlar əsasında aparmışdır. Əsas tədqiqat sahəsi Qərb mədəniyyət tarixi və Antik dövr yunan fəlsəfəsi olsa da, onun Şərq və Azərbaycan fəsəfə tarixilə bağlı tədqiqat əsərləri də vardır. Ümumilikdə Qərb düşüncəsi və məntiq tarixini mükəmməl bilən fəlsəfə tədqiqatçısı olduğundan o, araşdırdığı Şərq fəlsəfi təlimləri və filosofların irsinə də sistemli şəkildə yanaşmışdır. Eləcə də Şərq dünyagörüşü ilə bağlı məqamları, Qərb fəlsəfi fikrilə komparativistik şəkildə müqayisəli təhlil etmişdir. Makovelski Şərq fəlsəfi təlimlərindən Avesta və Azərbaycanın böyük mütəfəkkiri Nizami Gəncəvi ilə bağlı tədqiqatlarını Kazandan Bakıya ezam olunduqdan sonra qələmə almışdır. Artıq Sovet hakimiyyəti illərində yazdığı Şərq fəlsəfi fikri və filosofları ilə bağlı tədqiqatlarında Sovet dövrünün ideoloji xətti də hiss olunmaqdadır. Bununla belə Makovelskinin olduqca məşəqqətli və məhrumiyyətli bir dövrdə qələmə aldığı bu kitab və məqalələr, Sovetlər dönəmində Şərq və Azərbaycan mədəniyyətinin geniş şəkildə tanıdılmasında da xüsusi önəm kəsb etmişdir.

***З.Ф.Рашидов***

# ПРОБЛЕМЫ ВОСТОЧНОЙ ФИЛОСОФИИ В ИССЛЕДОВАНИЯХ А.О.МАКОВЕЛЬСКОГО

***Ключевые слова:*** *древнеиндийская философия, зороастризм, ислам, братья чистоты, восточный перипатетизм, суфизм, Низами Гянджеви*

Александр Осипович Маковельский был одним из самых известных исследователей истории философии в Азербайджане во времена советской эпохи XX века. Выдающийся ученый, в совершенстве владеющий многими европейскими языками, как правило, свои основные исследования проводил на основе первоисточников. Хотя основной областью его исследований является история западной культуры и древнегреческой философии, у него также есть исследования по истории философии Востока и Азербайджана. Будучи в целом исследователем философии, прекрасно знающий историю

западной мысли и логики, А.О.Маковельский системно подошел к изучению восточных философских учений и наследию изучаемых им философов. Он также провел компаративистский анализ, сопоставив некоторые аспекты восточного мировоззрения с западной философской мыслью. Маковельский после командировки из Казани в Баку, написал свои исследования об Авесте, восточном религиозно-философском учении, и о великом азербайджанском поэте-мыслителе Низами Гянджеви. Идеологическая линия советской эпохи чувствуется в его исследованиях о восточной философской мысли и философах, написанных им в годы советской власти. Тем не менее, эти книги и статьи, написанные Маковельским в очень трудный и обременительный период для общественных наук, имели особое значение в широкой популяризации восточной и азербайджанской культуры в советское время.

***Z.F.Rashidov***

## PROBLEMS OF EASTERN PHILOSOPHY IN THE STUDIES OF A.O.MAKOVELSKY

***Keywords:*** *Ancient Indian philosophy, zoroastrianism, Islam, brethren of purity, Oriental peripatetism, sufism, Nizami Ganjavi*

Alexander Osipovich Makovelsky was one of the most famous researchers in the history of philosophy in Azerbaijan during the Soviet era of the XX century. An outstanding scientist, who is fluent in many European languages, as a rule, conducted his main research on the basis of primary sources. Although his main area of research is the history of Western culture and ancient Greek philosophy, he also has studies on the history of philosophy of the East and Azerbaijan. Being in general a researcher of philosophy, well aware of the history of Western thought and logic, A.O.Makovelsky systematically approached the study of Eastern philosophical teachings and the legacy of the philosophers he studied. He also conducted a comparative analysis, comparing some aspects of the Eastern worldview with Western philosophical thought. Makovelsky, after the assignment from Kazan to Baku, wrote his research on the Avesta, an Eastern religious and philosophical teaching, and on the great Azerbaijani poet and thinker, Nizami Ganjavi. The ideological line of the Soviet era is felt in his views related to Eastern philosophical thought and in studies about some Eastern philosophers, written by him during the years of Soviet power. Nevertheless, these books and articles written by Makovelsky, during a very difficult and burdensome period for the social sciences, were of particular importance in the wide popularization of Eastern and Azerbaijan culture in Soviet times.

**Giriş.** Aleksandr Osipoviç Makovelski (1884-1969) XX əsrdə Azərbaycanın, eləcə də bütövlükdə Sovetlər birliyinin ən görkəmli fəlsəfə tarixçilərindən biri olmuşdur. İctimai-siyasi elmlərə xüsusi önəm verən Sovetlər dönəminin 40-cı illərindən sonra Azərbaycanda fəlsəfə elminin

sahələri üzrə tədqiqatlar aparan və tədris fəaliyyətilə məşğul olan əksər alim və pedaqoqlarımızın yetişməsində də onun əməyi böyükdür. Belə alimlərimizdən Möhbalı Qasımov (1906-1963), Heydər Hüseynov (1908-1950), Firudin Köçərli (1920-2004), Şükufə Mirzəyeva (1925-1980), Solmaz Rzaquluzadə (1931-2020) və digərlərinin sonrakı dövrlərdə Azərbaycanda fəlsəfə elmləri, xüsusən də fəlsəfə tarixinin inkişafında müstəsna xidmətləri olmuşdur. Makovelskinin tədqiqatlarının əsas istiqaməti ümumilikdə Qərb fəlsəfəsi, xüsusilə də Antik yunan fəlsəfəsinin Sokrataqədərki dövrü olsa da, onun Qədim Şərqin dini-fəlsəfi dünyagörüşü sistemləri, bəzi İslam fəlsəfi təlimləri və Azərbaycan fəlsəfə tarixinin müxtəlif dövrlərinə həsr olunmuş sanballı monoqrafiya və çoxsaylı məqalələri də vardır. Makovelskinin bu qəbildən olan, yəni Şərqə yönəlmiş araşdırmaları içərisində Qədim Şərqin düşüncə tarixində xüsusi yerə sahib zərdüştilik və həmçinin bu dinin əsas kitabı olan Avesta haqqında tədqiqat əsəri və dahi Azərbaycan şairi Nizami Gəncəvinin (1141-1209) ictimai-fəlsəfi baxışlarını əks etdirən onlarca məqalələri xüsusi əhəmiyyət kəsb edir.

**Makovelskinin Qədim Şərq fəlsəfəsinə yanaşma metodu**. Fəlsəfə tarixinin araşdırıcısı olaraq Makovelskinin əsas tədqiqat sahəsi, eləcə də birbaşa maraq obyekti Antik dövr fəlsəfəsidir. Bu cəhətdən Makovelskinin Qədim Şərq fəlsəfəsinə ümumi olaraq müraciət etməsində olduqca qədim tarixə malik bu çoxçalarlı fəlsəfənin, Antik dövr və Qərb fəlsəfəsinə təsir göstərmiş bəzi önəmli məqamlarını üzə çıxarmaq məqsədi güddüyünü də müşahidə edirik. Qədim dövrlər fəlsəfəsini araşdıran çoxsaylı tədqiqatçıların da gəldikləri ümumi qənaətlərə görə, Antik dövr fəlsəfəsi, xüsusən də onun formalaşma mərhələlərinə ən çox təsir göstərən məhz elə Qədim Şərq fəlsəfəsi olmuşdur. Bu cəhətdən Makovelskinin Qədim Şərq fəlsəfəsinə və bu fəlsəfədə mövcud olmuş qədim məntiq təlimlərinə müraciəti də Antik fəlsəfənin tədqiqində qaranlıq qalan – ümumilikdə Anrik yunan fəlsəfəsində rast gəlinən və Qərb kökündən olmayan fəlsəfi ideyalar – xüsusi məqamların üzə çıxarılmasına xidmət etdiyini görürük. Makovelski bir növ bu fəlsəfəyə müstəqil tədqiqat obyekti kimi yox, Antik fəlsəfədən asılı olaraq bu fəlsəfəni əsas tutaraq müraciət edir. Makovelski klassik mərhələyədək olan Antik dövr yunan filosoflarının irsinə müraciət etdiyi müddətcə onların əsərlərindəki bəzi müddəaları Qədim Hind və Fars fəlsəfəsilə müqayisə etməyi də unutmur. O cümlədən də bu müddəaların köklərinin haradan qidalandığını da araşdırmağa çalışır. Antik dövr müəlliflərində öz əksini tapmış bəzi fikirlərin Şərq fəlsəfəsindən onların sistemlərinə keçmə olduğuna da toxunur. Bir sözlə, Makovelskinin qədim Şərq fəlsəfi təlimləri və filosoflarına yanaşma metodunun əsasını Qərb və xüsusən də, Antik yunan fəlsəfəsinin ümumi məntiqi təşkil edir. Makovelski Qədim Şərqi Qərb kontekstində tədqiq edərək araşdırır.

**Qədim Hind fəlsəfəsi**. Makovelski "Məntiq tarixi" ("История логики") adlı əsərinin ilk fəslində Qədim Hind fəlsəfəsinə müxtəsər və olduqca ümumi bir formada nəzər salır, həmin dövrün qısa xülasəsini verir. Ümumilikdə, Qədim Hind fəlsəfəsinin meydana gəlməsi, daha sonra onun formalaşması, brahmanizm və buddizm kimi dini-fəlsəfi təlimlər, bu Qədim Hind təlimlərinin sonrakı induizm dininə təsirləri, onların induizm dinin ideoloji bazasına çevirilməsi haqqındakı mülahizələr və s. bu qəbildən olan problemlər ətrafında ümumi xarakterli bir tədqiqat aparır. "Günümüzdə brahmanizm induizm şəklində Hindistanda hakim dindir" [17, s.41].

Eləcə də Makovelski induizmin müxtəlif yönümlü (materialist və idealist) Qədim Hind fəlsəfi təlim və məktəblərinin ideologiyasından bəhrələnərək əxlaqi məsələlərlə də zənginləşib bir din kimi törəməsinə xüsusi diqqət yetirir. Makovelski tədqiqatın bu qismində ümumi şəkildə belə bir qənaətə gəlir ki, ilk əvvəl kortəbii dünyagörüşündən doğaraq formalaşan Qədim Hind təlimləri zaman keçdikcə əxlaqi məsələlərlə bərabər, sosial məsələlərlə də zənginləşmiş oldu. Əxlaqi, sosial məsələlər və onlardan hasil olan problemlərsə, öz növbəsində, induizmin bir din kimi formalaşmasına, onun əsaslı dünya dinlərindən birinə çevrilməsinə səbəb olduğu kimi, onun kortəbii dünyagörüşündən fəlsəfi dünyagörüşü səviyyəsinə gəlib çıxmasını da qaçılmaz etdi.

Qədim Hind fəlsəfi məktəblərin ümumi xarakterik xüsusiyyətlərini təyin edən Makovelski hesab edir ki, bu məktəblər ateistik, mistik və panteistik xarakterə malik olmaları ilə seçilirdilər. Məsələn, mistikaya gəldikdə, Makovelski brahmanizmin əsas təlimi olan maya təliminə qısaca olaraq belə bir tərif verir ki, "maya təliminə görə çoxsaylı və dəyişkən təzahürlər aləmi həqiqi varlığın mahiyyətinə örtük salaraq onu özündən təcrid edib gizlədir" [8, s.11]. "Hər iki dünya bir-birinə bağlıdır, çünki birinci dünya Brahmanın sehrli gücünün məhsuludur. Bu güc mayadır. Mayanın özü isə illüziyadır. Yaradılış da illüziyadır. Bizi əhatə edən reallıq heç də reallıq deyil, Tanrının xəyalıdır. Dünya ilahi bir oyundur" [18, s.83].

Fikrimizcə, Qədim Hind fəlsəfəsinin bu mistik konsepsiyası sufizmin vəhdəti-vücud təlimindəki əsas ideya, yəni vahid varlıq və bu vahid varlığın öz çoxsaylı təcəllilər-görüntüləri arxasında gizlənməsi ideyası ilə yaxından səsləşir [16]. Bəlkə elə bu mənada da Makovelski düşünür ki, ərəb fəlsəfəsinin formalaşmasına da Qədim Hind fəlsəfəsinin böyük təsiri olmuşdur. O, yazır ki, "elə bu cəhətdən də, müsəlman aləmi daha çox Hind və Pifoqor-Platon mistikasına maraq göstərmişdir" [8, s.232]. Düzdür, Makovelski müsəlman aləmindəki bu böyük maraq sahiblərinin adını birbaşa sufilər kimi yazmasa da, fikrimizcə, hər halda məntiqi olaraq onun fikrinin məhz sufizmə, eləcə də ümumi olaraq İslam fəlsəfəsinin digər mistik qollarına ünvanlanması və istiqamətlənməsi tam aydındır.

**Avesta zərdüştüliyin əsası kimi**. Makoveliskinin Qədim Hind fəlsəfəsinə yanaşma bucağının, yəni Antik fəlsəfədən qalıq qalan bir çox qaranlıq məqamların Şərq fəlsəfi fikrilə işıqlandırması onun zərdüştilik dininin müqəddəs kitabı hesab olunan Avesta haqqında apardığı tədqiqatında da eynən davam etdirdiyinin şahidi oluruq. Belə ki, Makovelskini Avestaya gətirən yol birbaşa Şərq yolu yox, dolayı Qərb yoludur. Zərdüştilik fəlsəfəsilə birbaşa deyil, dolayı bağlı olan bu vacib məqam onun "Avesta"dan başqa digər əsərlərində, xüsusən də "Qədim yunan atomistləri" ("Древнегреческие атомисты") adlı fundamental tədqiqat işində də açıq şəkildə hiss olunur. Makovelski bu əsərdə Levkipp (e.ə. 500-440) və Demokritin (e.ə. 460-370) fəlsəfi təlimlərini tədqiq edərək onların fəlsəfi irsindəki bəzi məqamların zərdüştilik fəlsəfəsi, Avesta və qədim fars maqlarının görüşlərilə yaxından səsləşdiyini xüsusi olaraq qeyd edir. O, Avesta mətnləri və Qədim yunan fəlsəfəsinin bu dövrünün nümayəndələrindəki bəzi oxşar fəlsəfi məqamlar arasında müəyyən paralellər də aparır [6, s.190-191]. Eləcə də Aleksandr Osipoviç "Avesta" adlı əsərində tez-tez Qədim yunan filosoflarından Fales (e.ə. 640-562) [3, s.66], Heraklit (e.ə. 540-480) [3, s.39], Demokrit [3, s.99], Platon (e.ə. 427-347) və Aristotelin (e.ə. 384-322) [3, s.126] fəlsəfi görüşlərindəki müəyyən məqamları da Avestanın qatlarındakı fikirlərlə müqayisə edir. Qədim dövrlərin bu fəlsəfi fikirləri arasında müəyyən ümumilik və varislik əlaqələrinin olmasını da xüsusi olaraq qeyd edir. Makovelski yazır ki, "...tədqiqatlar göstərir ki, Falesin rolu əsasən elmi bilikləri Şərqdən Yunan torpağına köçürməkdən ibarət olmuşdur ki, bu da Yunanıstanda fəlsəfi fikrin oyanmasına müəyyən dərəcədə təkan vermiş oldu" [5, s.43].

Digər tərəfdən, Makovelskinin Avesta haqqında apardığı tədqiqat bilavasitə Avestanın özü, Qədim Fars mədəniyyətilə bağlı olan ilkin qaynaqlar və birbaşa mənbələrə yox, artıq Qərb tədqiqatçıları tərəfindən aparılmış olan çoxsaylı araşdırmalara əsaslanır. Makovelski təkcə Avestanın öz yolunu kənar yola dəyişməklə də kifayətlənmir, o, həm də əsasən öz müasirləri olan Qərb tədqiqatçılarının zədrüştlük, Qədim Fars, İran mədəniyyəti, Hind-İran mədəni əlaqələri və eləcə də Avesta barədə yazmış olduqları tədqiqatlara müraciət etməyi araşdırma üçün kafi hesab edir. Tədqiqatında ancaq bu qəbildən olan çoxsaylı ədəbiyyata üstünlük verir. Zərdüştüliyin əsasını təşkil edən bu qədim kitab haqqında gələcəyi qənaət və çıxaracağı nəticələri məhz qeyd etdiyimiz ikinci dərəcəli qaynaqlar – ədəbiyyatlarla məhdudlaşdırır. Bu cəhətdən qətiyyətlə söyləyə bilərik ki, Makovelskinin "Avesta" adlı əsəri, müstəqil bir tədqiqat əsərindən daha çox XVI əsrdən başlayaraq Qərbdə Fars mədəniyyəti haqqında aparılan bəlli xüsusi tədqiqatlar haqqında ümumi bir tədqiqatdır. Eləcə də adı qeyd olunan bu əsərində Makovelski özü də demək olar ki, Avesta, onun fəlsəfi

maiyyətilə bağlı öz tədqiqatçı mövqeyini (məsələn, Antik yunan fəlsəfəsinin araşdırılan istənilən mərhələsində olduğu kimi) ortaya qoymur. Əvəzində Avesta haqqında Qərbdə aparılan bəlli tədqiqatların əsas nəticələrini son dərəcə məharətlə, xırdalıqlarınadək analiz edərək sistemləşdirir. Öz mövqeyini ortaya qoyduğu məqamları isə fəlsəfi yox, daha çox tarixilik bucağından həll edir. Bu da öz növbəsində yazılmış tədqiqata fəlsəfi əsərdən daha çox təfsir, şərh xarakterli bir araşdırma görüntüsü verir. Makovelski burada digər əsərlərində xüsusi məharətlə tədqiq edərək üzə çıxardığı fəlsəfi problemlərdən daha çox əsasən əsərin ədəbi və poetik məqamlarını da önə çəkir. Hətta tədqiqatında "Avesta"dakı bəzi terminlərin semantik izahı, əsərdəki müxtəlif sözlərin digər dillərə (eləcə də əksinə, digər dillərdən) keçərək şəkildəyişməsi, bəzi toponimlər, adlar, etnoqrafik xarakterli məsələləri də fəlsəfi problemlərdən daha çox tədqiq edir.

Artıq qeyd etdiyimiz kimi, Qərbdəki ilkin tədqiqat və ilk tədqiqatçılardan başlayaraq öz müasirlərinədək olan böyük bir dövrün avestaşünaslığını əhatə etməyə çalışan Makovelski B.Brisson (Barnabe Brisson) (1531-1591), Q. de Şinon (Gabriel de Chinon) (1610-1668), T.Hayd (T.Hyde) (XVIII), C.Buçer (George Boucher) (XVIII), A.Düperron (Anquetil Duperron) (1731-1805), A.İ.S de Sasi (Antoine Isaac Silvestre de Sacy) (1758-1838), E.Bürnuf (Eugene Burnouf) (1801-1852), T.Benfey (Theodor Benfey) (1809-1881), Fridrix fon Şpiqel (Friedrich von Spiegel) (1820-1905), M.Müller (Friedrich Max Müller) (1823-1900), M.Hauq (Martin Haug) (1827-1876), C.Darmsteter (James Darmesteter) (1849-1894), Y.Vakkernaqel (Jacob Wackernagel) (1853-1938), X.Bartoleme (Christian Bartholomae) (1855-1925), V.Heyher (Wilhelm Ludwig Geiger) (1856-1943), A.Meye (Paul Jules Antoine Meillet) (1866-1936), A.A.Freyman (1879-1968) və onlarca digər Avesta və qədim İran mədəniyyətinin Qərb araşdırıcılarına istinad edir. Amma tədqiqat boyunca bu qədər tanınmış, eləcə də Anketil Düperron kimi dünyaca məşhur tədqiqatçıların fərqli Avropa dillərindəki sanballı əsərlərinə müraciət etməsinə baxmayaraq, həm də əsərin girişndə olduqca müəmmalı bir şəkildə vurğulayır ki, bu Qərb alimləri marksist-leninist dialektikaya malik olmadıqlarından onların Avesta haqqındakı bilikləri bitkin, apardıqları tədqiqatlarsa kafi deyil. O, yazır ki, "zərdüştüliyin tarixini marksist-leninist dialektikası bucağından işıqlandıran müasir sovet tarixçilərindən V.V.Struve (1889-1965), İ.Dyakonov (1914-1999), B.Qafurov (1908-1977) və İqrar Əliyevin (1924-2004) (*baxmayaraq ki, Makovelski adı gedən tədqiqatında bu alimlərdən V.V.Struveni bir neçə dəfə çıxmaq şərtilə, yerdə qalan heç birinin əsərinə bir dəfə də olsun istinad etmir - Z.R.*) Avesta haqqında apardıqları tədqiqatlar məhz bu cəhətinə görə Qərb tədqiqatlarından daha əsaslıdır. Çünki Avestanı tədqiq edən burjua tədqiqatçıları doğru

metodologiyaya, yəni marksist-leninist metodologiyaya malik olmadıqlarından onlar Avesta ilə bağlı apardıqları tədqiqatlarında tarixi və dini yönümlü problemlərə düzgün şəkildə, yəni tarixi materializm mövqeyindən yanaşa bilməmişdilər" [3, s.21] Qeyd etmək lazımdır ki, sovet dönəmində tədqiqatçılara qarşı yönəlmiş ideoloji təzyiqlərdən törəyən bu kimi iddiaların gerçəkliklə ümumiyyətlə heç bir əlaqəsi yoxdur. Makovelskitək bu və ya digər dərəcədə sovet alimləri olan Y.E.Bertels (1890-1957), V.V.Struve, İ.Dyakonov, B.Qafurov və həmvətənlimiz İ.Əliyev kimi tədqiqatçıların apardığı müxtəlif aspektli tədqiqatların elmiliyinə şübhəmiz olmadığı kimi, Makovelskinin ayrıseçkiliyini ancaq Qərb tədqiqatçılarına istinad etdiyi halda, eyni zamanda onların araşdırmalarını heçə endirməsini şərh etmək də çətindir.

Makovelskinin öz məntiqi, eləcə də yazı tərzi, fəlsəfi düşüncəsi, mühakimə yürütmə qabiliyyəti, seçdiyi ümumi-xüsusi tədqiqat metodları, daim elmi obyektivliyi qorumaq cəhdləri, irəli sürdüyü məntiqi mülahizələr, kifayət qədər əsaslı fərziyyələr, qarşıya qoyduğu aktual suallarla tanış olduqca haradasa düşünürük ki, onun fəlsəfi tədqiqatları zamanı bu kimi əndazəni aşan, elmi tədqiqatdan kənar bəlağətli kəlmələri yersiz olaraq qələmə alması müəyyən anlamda istehsa xarakteri də daşıyır. Özünəməxsus şəkildə alimləri qoz qabığına salmış dövrü də gizlicə tənqid edir. Bu mülahizəni sübut edəcək konkret arqumentlərimiz olmasa da, fəlsəfə və fəlsəfə tarixinə vurğun olan peşəkar bir alimin əsərlərini dəfələrlə mütaliə etdikcə, qeyd olunan bu fərziyyə xarakterli fikrə şübhə yeri qalmır.

Əsərdəki başlıca problemlərlə birbaşa bağlı olmasa da, Makovelskinin Avesta haqqındakı tədqiqatından özünəməxsus incəliklərə malik mühüm elmi nəticələr – fəlsəfə tarixində daim mübahisəli, vacib və olduqca aktual məsələlər də hasil olur. Fikrimizcə, belə məqamlar həm də Makovelskinin bir tədqiqatçı kimi fəlsəfə tarixi naminə istənilən şərtlər daxilində belə mümkün qədər obyektiv məntiqi ümumiləşdirmələrə üstünlük verməyə çalışmasını bir daha əyani şəkildə sübut edir. Qeyd edək ki, elm, fəlsəfə adına bu müsbət cəhət, yəni tədqiqatçı obyektivliyi Qərbdə, xüsusən XIX və XX əsrin əvvəllərində də heç də həmişə gözlənilməmişdir. Məsələn, Şərqin mənəvi mədəniyyətini tədqiq edərkən Qərbin nəhəng alimləri belə heç də Sovet dönəmindəki subyektivlikdən geri qalmayan subyektiv mövqe tutmuşlar. Hətta düşünürük ki, bu subyektivlik də birbaşa olaraq düşünülmüş Qərb ideologiyasının Şərq siyasəti və Şərq mədəniyyətini gözdə kiçiltmək cəhdləri ilə bağlı olmuşdur. Bəzən bilərəkdən və məqsədli olaraq, bəzənsə əksinə, doğru-düzgün elmi məlumatların qıtlığı nəticəsində təhrif olunmuş incə Şərq məsələlərinin ağır izləri bu gün də duyularaq çoxsaylı müasir Qərb tədqiqatlarında eynən köhnə xətt üzrə yenidən davam etdirilir. Fikrimizcə, Makovelskinin fəlsəfə tarixindəki ən böyük xidmətlərindən biri məhz bu

kimi xoşagəlməz məqamlara da kifayət qədər obyektiv şəkildə aydınlıq gətirməsidir.

Belə ki, Makovelskinin "Avesta" adlı əsərində obyektiv tənqid olunan son dərəcə subyektiv düşüncəli filosoflardan biri də G.V.F.Hegeldir (1770-1831). Hegelin Qərbdəki nüfuzu və təsirinin hələ də sarsılmaz qalması, Şərqlə bağlı qeyd edəcəyimiz bəzi məsələlərin bu gün də birmənalı həllinə səbəb olur. Fikrimizcə, Hegelin Şərq fəlsəfəsi haqqında tədqiqatlarında – "Fəlsəfə tarixi haqqında mühazirələr" (1819-1831) adlı iri həcmli əsərindəki Şərq fəlsəfəsilə bağlı son dərəcə subyektiv ümumiləşdirmələrindəki bəzi məqamların Makovelski kimi korifey fəlsəfə tarixçisi tərəfindən elmi tənqidi olduqca vacib məqamdır. Makovelski "Avesta" adlı əsərində Hegelin ümumilikdə bütün Şərq fəlsəfəsinə vurduğu damğaları tənqid atəşinə tutur. O, Hegelin elə Avesta haqqındakı baxışlarından çıxış edərək onun Şərqə, bu məkanın olduqca zəngin mənəvi mədəniyyətinin qədimliyinə olan etinasız münasibətini kəskin tənqid edir. Hegel tərəfindən Şərqdəki hər hansı formalı inkişafın qəti şəkildə inkar edilməsini qətiyyən doğru saymır [3, s.10-11]. Onun zərdüştüliyə qiymət verərərkən ancaq A.Düpperonun[1] araşdırmalarına əsaslanması və bu azmış kimi, həm də təkcə onun apardığı araşdırmalarla tam olaraq kifayətlənməsini də yetərli hesab etmir [3, s.11]. Nəhayət, Hegelin zərdüştüliyi Qədim Fars, kiçik Avesta dinləri və müasir parsizmi (*zərdüştüliyin dualistik əsasları üzərində qurulan atəşpərəstlik dinlərindən biri - Z.R.*) bir-birindən ayıra bilməyərək onları birbaşa eyniləşdirməsini ciddi elmi irad kimi təqdim edir [3, s.97]. Fikrimizcə, Hegel kimi filosof və fəlsəfə tarixi tədqiqatçılarının "böyük əməyi" bölgə mədəniyyətimizin də birbaşa olaraq təmsil olunduğu Şərqin açıq şəkildə təhqirilə nəticələnsə də, Makovelski çətinliklər bahasına olsa da, fəlsəfə tarixində obyektiv fəlsəfə axtaran tədqiqatçıların gərgin səyilə bu təhqirlər şiddətli tənqid atəşinə tutuldu.

Zərdüştilik fəlsəfəsi və bu dini-fəlsəfi təlimdə insan problemi haqqında tədqiqatlar aparan K.Əzimov yazır ki, "zərdüştilik tərəfdarları üçün bu din bolluq və səadət dini hesab olunurdu. Onlar Hind fəlsəfəsi, orta əsr xristian və İslam etikasında təriflənən asketizmi inkar edirdilər" [2, s.55]. Bu cəhətdən "zərdüştüliyin üstün cəhətini həyat eşqi və insanın yaradıcı qüvvəsinin təbliği təşkil edirdi. Zərdüştilikdə asketizm, məhrumiyyət və fəaliyyətsizlik küfr kimi başa düşülürdü" [2, s.58] Əksinə, "zərdüştilikdə insan bu dünyada ədalətin müdafiəçisi kimi nəzərdən keçirilirdi" [2, s.61]. Eləcə də "zərdüştilik düşüncəsində kosmos insan cizgiləri və insan varlığı bəxş edilmiş antropomorf formaya malikdir" [2, s.40]. Zərdüştilik dinində Tanrı sualının qoyuluşu da fərqlidir. "Zərdüştilikdə baş Tanrı Hörmüzd hər

[1] O, həm də Avestanın ilk Qərb tərcüməçisi və sanballı tədqiqatçılarından biri hesab olunur.

şeyə qadir yox, hər şeyi biləndir” [2, s.36]. “Hörmüzd zərdüştilikdə androqin (kişi-qadın) ilahi kimi təqdim olunur. O, yaradılışın həm atası, həm də anasıdır” [2, s.38].

Bəzi tədqiqatçılar digər qədim dinlərlə müqayisədə zərdüştilik dininin məhz bu kimi yumşaq məziyyətlərə malik olması səbəbindən onun geniş yayıla bilmədiyini əsaslandırmağa çalışırlar. Məsələn, məşhur Britaniya iranşünası və nüfuzlu zərdüştilik tədqiqatçısı olan Meri Boys (1920-2006) hesab edir ki, “zərdüştilik ən qədim ehkam, prozelitizm (*təriqətçilik - Z.R.*) hədəfli dünya dinidir. Lakin onun missionerlik fəaliyyəti müxtəlif qüvvələr tərəfindən məhdudlaşdırılmış, nəticədə, zərdüştilik etnik dinə çevirmiş və bir xalqın inancı olmuşdur” [21, s.99-100]. Zərdüştilik dininin geniş yayılmamasının digər bir səbəbi də İslam dinidir. Meydana çıxdığı vaxtdan tez bir zamanda zərdüştilik dininin yayıldığı məkanlarda əsas monoteist inanc sisteminə çevrilən İslam bölgə xalqlarının sonrakı qədərini təyin etmişdir. “Bir çox zərdüştilik inanc və adətlərinin İslam ilə müəyyən yaxınlıqları olduğundan ilk dönəmlərdə bu iki din bir-birinə zidd hesab olunmurdu və dinin dəyişdirilməsi prosesi yüngülləşirdi” [23, s.163-164]. Xüsusilə də “Abbasilər sülaləsi dövründə zərdüştilik dininə qarşı münasibət daha dözümlü olmuşdur” [22, s.109]. “Zərdüştiliyin təsirləri Sənai (1080-1131) və Rumidə (1207-1273) əks olunduğu kimi” [23, s.169], “Sədi (1210-1292) və Hafiz (1325-1390) poeziyasında da hiss olunmaqdadır” [23, s.170].

**İslam fəlsəfəsi**. Əsasən qədim Ellada torpağında meydana gələrək yunan polislərində özünün ən yüksək səviyyəsinə çatıb, sonda Roma dövrünə miras qalan bütün Antik fəlsəfə Şimali Afrika, Kiçik Asiya, Yaxın Şərq, Qafqaz, Orta Asiya kimi qədim məkanların öncədən də ellin mədəniyyətinin təsirinə məruz qalmış xalqları tərəfindən mənimsənilərək daha da inkişaf etdirildi. Bu məkanların yerli mədəniyyətləri də ümumi ellin mədəniyyətinə daxil oldu. Eləcə də bu yerli mədəniyyətlər də ellin mədəniyyətinin bəzi elementlərini əbədi olaraq özlərində həll etdi. İslam dininin meydana gəlməsilə bu proses yenidən fərqli məcraya yönəlməyə başladı. Qeyd etdiyimiz arealda artıq ellin mədəniyyətinin özü də getdikcə sürətli bir şəkildə yeni formalaşmış sivilizasiya müsəlman mədəniyyətində əriməyə başladı [1, s.78-79]. Fəlsəfə tarixinin sonrakı inkişaf mərhələlərinə həlledici təsir göstərəcək bu kimi məsələləri araşdıran Makovelski də yazır ki, “böyük istilalar nəticəsində ərəblər Yunan-Suriya və fars mədəniyyətilə yaxın təmas qurdu” [8, s.229]. Fikrimizcə, bu təmas dünya, o cümlədən də fəlsəfə tarixində yeni bir səhifə olan İslam mədəniyyətinin, fəlsəfəsinin daha da zənginləşməsinə səbəb oldu. Digər tərəfdən, Makovelski yazır ki, “ərəb istilaları nəticəsində sinkretik bir mədəniyyət formalaşdı. Bu ərəbdilli mədəniyyətin formalaşmasında ərəblərin özlərilə yanaşı, onlar tərəfindən

istila olunan digər xalqlar: farslar, taciklər və türklərin (*Makovelski dövrünün tələblərinə uyğun olaraq türklər kəlməsindən istifadə etməsə də, türk xalqlarından: azərbaycanlılar və özbəklərin adını çəkir* - *Z.R.*) də əməyi böyük olmuşdur" [8, s.229].[2] Fikrimizcə, keçmiş Rusiya imperiyası, daha sonra sovet dönəmində yaşamış və Qərb ruhunda təhsil-təlim görmüş digər qərbmeyilli fəlsəfə tarixçilərindən fərqli olaraq, Makovelskinin həmin dövrdə Qərbdə başa düşülən İslam fəlsəfəsini (bu fəlsəfə XIX əsrin sonu, XX əsrin əvvəllərində əsasən sırf ərəb fəlsəfəsi kimi də qəbul olunaraq təbliğ edilirdi. Həmin dövrlərdə qələmə alınmış ədəbiyyatlar və tədqiqat əsərlərində də məhz bu termindən istifadə olunurdu) sözün tam mənasında ümumi İslam fəlsəfəsi edən bu kimi vacib məqamları da nəzərə alması olduqca təqdirəlayiqdir. Makovelski bu mühüm problemə bir qədər də dərindən yanaşaraq yazır ki, "xarici ədəbiyyatda tez-tez rast gəlinən ərəb fəlsəfəsi və elmi, gerçəkdə çoxsaylı Şərq xalqları tərəfindən yaradılan ərəb dilli fəlsəfə və ərəbdilli elmdir" [8, s.229].

Fəlsəfə tarixində hələ də mübahisələrə səbəb olan bu kimi olduqca incə problemlərin təhlilinin ardınca Makovelski orta əsr İslam fəlsəfəsi haqqında da düşüncələrini qələmə alır. Bu fəlsəfəni formalaşdıran bir neçə məktəb, bu məktəbləri təmsil edən bir qisim filosofların düşüncələri haqqında bəzi məqamları qısaca təhlil edir. O, "Məntiq tarixi" əsərində təkcə bir Qərb mənbəsinə [20] əsaslanaraq müsəlman Şərqinə mənsub böyük filosoflardan Əbu İshaq İbrahim ibn Səyyar ən-Nəzzam (775-845), Əbu Yusif əl-Kindi (801-873), Əbu Nəsr əl-Farabi (872-950), Əbülhəsən Əşəri (873-936), İbn Sina (980-1037), Əbu Hamid əl-Qəzali (1058-1111), xüsusən də tanınmış Azərbaycan filosoflarından olan Əbülhəsən Bəhmənyar (993-1066), Nəsirəddin Tusi (1201-1274), müsəlman Qərbinin (Əndəlis) ən görkəmli nümayəndələrindən isə İbn Baccə (1085-1138), İbn Rüşd (1126-1198), eləcə də ensiklopedik alim İbn Xəldunun (1332-1406) fəlsəfi görüşlərinin olduqca qısa və ümumi səciyyə daşıyan kiçik icmalını verir. Makovelski hesab edir ki, "yunan fəlsəfəsini bilən və öz fəlsəfi sistemini qurarkən ondan istifadə edən ilk ərəbdilli filosof İbrahim ən-Nəzzam olmuşdur" [9, s.9]. İbn Rüşdün xüsusən məntiq tarixindəki rolunu yüksək qiymətləndirən Makovelski yazır ki, "onun həqiqətlərin ikiliyi təlimi, yəni din və fəlsəfənin bir-birinə zidd olmaması, əksinə elə eyni bir şey haqqında müxtəlif dillərdə danışması fikri sxolastik elmdən yeni dövrün elminə keçid yaratdı" [8, s.254].

Makovelski İslam fəlsəfəsini dörd əsas qola (daha doğrusu, Makovelskiyə görə, ancaq Yaxın Şərqdə formalaşan ərəbdilli fəlsəfəni)

---

[2] Sinkretizm – birləşmə, müxtəlif fəlsəfi baxışların əlaqəsi, bir-birilə əlaqələnməsi mənasını verir.

ayırır ki, bunlar da saflıq qardaşları, Şərq peripatetikləri, sufizm və müsəlman ortodoksal fəlsəfəsidir. "Yaxın Şərq peripatetizminin əsasını yeni – platonçulaşdırılmış Aristotel təşkil edir" [4, s.32]. Makovelski yuxarıda qeyd olunan İslam filosofları və onların da təmsil olunduqları adları çəkilən fəlsəfi məktəblərin görüşlərində mistikanın önə keçməsini xüsusilə vurğulayır. Qeyd edək ki, Makovelskinin tədqiqatlarında hər hansı bir formalı mistika, eləcə də mistik fəlsəfəyə olan münasibət birmənalı deyil. Makovelskinin fəlsəfə tarixinin öyrənilməsinə həsr olunmuş əsərlərini yazılma tarixləri üzrə xronoloji olaraq bölsək, Oktyabr inqilabınan sonrakı dövrlərdə onun tədqiqatçı mövqeyinin getdikcə kəskin şəkildə dəyişərək sovet ideologiyasının təbliğ etdiyi dialektik materializmə tərəf yönəldiyinin və daha çox subyektiv xarakter aldığının şahidi oluruq. Qeyd edək ki, Makovelski yaradıcılığının Bakı dönəmində (1920-ci ildən başlayaraq ömrünün sonunadək) artıq zəmanənin, tələblərin dəyişməsi, elmi fəaliyyət və azad yaradıcılığın müəyyən çətinliklərlə üzləşməsi məsələsi, Olqa Alekseyevna Yujanina-Makovelskayanın Azərbaycanda fəlsəfə tarixi elminin inkişafında müstəsna xidmətləri olan babasına həsr etdiyi məqaləsində də öz əksini tapır [19, s.61].

Bu cəhətdən də onun İslam fəlsəfəsinin nümayəndələri, onların fəlsəfi irsilə bağlı bir neçə orta həcmli məqalələrini çıxmaq şərtilə, nisbətən əhatəli tədqiqatları Makovelskinin digər tədqiqatlarından daha ümumi və bir qədər də ötəridir. İslam fəlsəfəsinin mistik qolu olan sufizm də Makovelskinin tədqiqat konsepsiyasının çərçivəsində özünə heç bir məntiqi yer tapa bilmədiyindən birmənalı şəkildə məntiqdənkənar (алогический) elan olunaraq, onun bütün tədqiqatlarından da kənar edilir [8, s.250]. Amma düşünürük ki, Makovelskinin bu müxtəsərliyinə bilavasitə təsir göstərən onun israrla rədd etdiyi istənilən mistika və mistik fəlsəfi təlimlərlə İslamın öz mistikası arasında olduqca böyük fərqlər vardır. Çünki İslam mistikası Makovelskinin artıq qeyd olunan məkanların çoxəsrlik fəlsəfi irsini tədqiq edərkən rastlaşdığı hər hansı mistikaya bənzəməyən bir fenomenin təcəllisidir. İslam mistikası İslamın, bilavasitə bu dinin öz ruhundadır. Fikrimizcə, elə İslam fəlsəfəsini təmsil edən fəlsəfi məktəblərin demək olar ki, əksəriyyətinin bu və ya digər dərəcədə mistik dünyagörüşü ilə də örtüklənməsi, ümumilikdə İslam dininin, fəlsəfəsinin özünəməxsus əlamətlərindən biridir. Mistika İslamın bir çox elementlərində də bu və ya digər dərəcədə sezilməkdədir. Bu cəhətdən hesab edirik ki, böyük bir məkanın mənəvi mədəniyyətinin istənilən sahəsində özünü göstərmiş olan İslam mistikası Makovelskinin vurğuladığı məntiqsizlik (алогизм) yox, özünəməxsus və təkrarolunmaz mistik məntiqə əsaslanan tamamilə fərqli bir dünyagörüşünün – fəlsəfənin törəməsidir. Düşünürük ki, bu mistik məntiq

öz nizam və ardıcıllığı ilə heç də Makovelskinin də istinad etdiyi quru Qərb "logic"indən geridə qalmır.

İslam fəlsəfəsilə demək olar ki, eyni əsrlərdə və eyni məkanlarda (Əndəlis, Məqrib, Yaxın Şərq) özünün yüksəliş dövrünü keçirən yəhudi fəlsəfəsi haqqında da düşüncələrini bölüşən Makovelski yazır ki, "bilavasitə ərəb mədəniyyətinin təsiri altında yetişmiş və bu mədəniyyəti dərindən mənimsəmiş yəhudi alimləri ərəbdilli fəlsəfi irsin latın dilinə tərcüməsini gerçəkləşdirməklə həm də Qərbdə ərəb fəlsəfəsinin (*ümumilikdə ərəbdilli fəlsəfə də nəzərdə tutulur - Z.R.*) mənimsənilməsi sahəsində də böyük xidmət göstərmiş oldular" [8, s.255].

**Azərbaycan fəlsəfə tarixi**. Əvvəldə qeyd etdiyimiz kimi, əsasən Qərb fəlsəfi təlimlərinin, xüsusən də Antik dövr yunan fəlsəfəsinin tədqiqatçısı olan Makovelskinin, 1920-ci ildə Bakıya ezam olunduqdan sonrakı dövrlərdə, aktiv bir şəkildə Azərbaycan fəlsəfə tarixilə də, maraqlandığının şahidi oluruq. XX əsrin 40-cı illərindən sonra onun əsas məqalələri məhz Azərbaycan fəlsəfə tarixi və eləcə də, bəzi konkret mütəfəkkirlərimizin irsinə həsr olunmuşdur. Əlbəttə ki, bu dönəmin Makovelski tədqiqatlarında Nizami Gəncəvinin fəlsəfi irsi xüsusi yer tutmaqdadır. "Makovelskinin Nizaminin dünyagörşünə həsr edilmiş iyirmiyədək məqaləsi vardır" [4, s.33]. Qeyd edək ki, Makovelski eynən digər Şərq fəlsəfi təlimləri və filosoflarında olduğu kimi, Nizami irsini də əsasən Antik fəlsəfə bağlamında tədqiq edir. Makovelski yazır ki, "Nizami əksər hallarda feodalizm dövrünün düşüncə çərçivələrinə bağlı qalsa da, onun dünyagörüşündə dialektikanın elementləri metafizika ilə də kəsişir" [14, s.23]. "Nizaminin fəlsəfəsində əsl gizli mahiyyətləri təşkil edən məqamlar, yeni-platonçuluq fəlsəfədən doğan ideyalardır" [13, s.26]. "Pifaqorun rəqəm və hərflərə mistik məna vermə ənənəsi Nizaminin dövründə yayğın olduğu kimi, Nizamiyə də təsir etmişdir" [12, s.53].

Makovelski Nizamiyə bilavasitə onun öz əsərləri kontekstindən də nəzər salaraq böyük şairin fəlsəfi görüşlərini dəyərləndirir. Makovelskiyə görə, "əql kultu büsbütün Nizaminin fəlsəfəsinə nüfuz etmişdir" [7, s.11]. "Nizami böyük humanistdir" [7, s.18]. "Nizaminin yaradıcılığında poeziya və fəlsəfə qırılmaz bir nöqtədə qovuşaraq vəhdətdə birləşir. Onun poeziyası fəlsəfi poeziyadır" [7, s.32]. Makovelski həmçinin Nizami fəlsəfəsinə Azərbaycan mədəniyyəti kontekstində də nəzər salır. O, yazır ki, "Nizami yaradıcılığı sahilsiz bir okean, XII əsrdə Azərbaycan xalqının həyat səhnəsini hərtərəfli əhatə edən bir tablodur" [15, s.21].

Makovelski digər Azərbaycan mütəfəkkirlərinin, xüsusilə də XIX əsr Azərbaycan maarifçilərindən Mirzə Şəfi Vazeh (1794-1852) və Mirzə Fətəli Axundzadənin (1812-1878) yaradıcılıqlarına da müraciət edir. Vazehin dünyagörüşünə ideoloji kontekstdən yanaşan Makovelski yazır ki, "Mirzə

Şəfi Azərbaycanın ilk maarifçi-demorkatı və mütərəqqi rus mədəniyyətinin ilk təbliğatçısı olmuşdur" [10, s.192]. Axundzadə irsinə isə sovet dövrünün fəlsəfi nöqteyi-nəzərindən baxan Makovelskiyə görə, "Axundov fövqəltəbii ilk səbəbin mümkünsüzlüyünü sübut etməyə çalışaraq hesab edirdi ki, təbiətin özü öz qanunauyğunluqları ilə bütün mövcudlar və hadisələrin yaradıcısıdır" [11, s.10].

Didər tərəfdən, Makovelski Azərbaycan mütəfəkkirlərinin əsərlərinə nəzər salaraq bəzi böyük klassiklərimizin irsindəki Avesta və ümumən zərdüştiliklə bağlı Şərq elementlərinin olduğunu da üzə çıxarır. Qədim dinlərdən biri olan zərdüştiliyin bəzi element və ünsürlərinin Azərbaycan elmində, xüsusən də ədəbiyyatında əks olunması probleminə də toxunur. Eləcə də bu hal həm də onun digər Azərbaycan klassiklərinin yaradıcılıqları ilə yaxın tanışlığından da xəbər verir. Məsələn, o, Vazehin qəzəllərində, Abbasqulu ağa Bakıxanovun (1794-1847) "Gülüstani-İrəm" adlı möhtəşəm əsərində öz əksini tapmış tarixi faktlarda, Axundzadənin "Kəmalüddövlə məktubları" adlı bədii-fəlsəfi traktatındakı bəzi polemikalarda, eləcə də Cəfər Cabbarlının (1899-1934) "Od gəlini" adlı faciəsində zərdüştilik motivlərilə bağlı məqamların olmasını da xüsusilə qeyd edir [3, s.21-24].

**Nəticə**. Qeyd edək ki, ümumilikdə Makovelskinin Şərq fəlsəfəsinə həsr edilmiş tədqiqatları, onun araşdırmalarının Qərb fəlsəfəsinə həsr olunmuş qismilə müqayisədə yetərincə əhatəli olmasa da, kifayət qədər orijinaldır. Düşünürük ki, peşəkar bir fəlsəfə tarixi tədqiqatçısı kimi Makovelskinin Şərq fəlsəfəsilə bağlı problemlərə daha əhatəli yanaşmaq istəyərkən hər dəfə subyektiv maneələrin törəməsi, birbaşa onun intellektinin yox, ondan asılı olmadan yaşadığı keşməkeşli dövrün hökmüdür. Bəlkə də bu dönəmdə Makovelskitək araşdırıcılar qarşısında konkret məcburi elmdən kənar, bəzənsə gərəksiz keçilməz əngəllər olmasaydı, Makovelski və onun kimi sovet dönəmində fəaliyyət göstərmiş çoxsaylı poliqlot və korifey tədqiqatçıların tədqiqatlarının keyfiyyəti və eləcə də, elmiliyi, yazacaqları müqabilində güllələnmək qorxusu keçirməyən müasir Qərb tədqiqatçılarında da şübhə yeri qoymazdı. Digər tərəfdən, onların əziyyətlər bahasına ərsəyə gələn əsərləri müxtəlif Qərb dillərinə tərcümə edilərək daha geniş oxucu kütləsinə təqdim olunsaydı, bundan qazanan ancaq ümumdünya fəlsəfə tarixi olacaqdır. Bununla belə, bəlli səbəblər üzündən dünyada olmasa da, keçmiş sovet məkanında Makovelskinin əsərləri bu gün də fəlsəfə tarixinin Antik dövrü və əsasən Sokrataqədərki mərhələsilə bağlı tədqiqatlarda ən əsas və etibarlı mənbələrdən hesab olunur. Onun Şərq və Azəbaycan fəlsəfə tarixinə həsr olunmuş əsərlərindən isə Avesta haqqında tədqiqatı və Nizaminin fəlsəfi irsini araşdıran məqalələri keçmiş Sovet məkanında bu mövzulara aid tədqiqatlarda, istinad olunan ədəbiyyatlar bölməsində mütəmadi olaraq öz əksini tapır.

## ƏDƏBİYYAT

1. *Rəşidov Z.*A. O.Makovelskinin tədqiqatlarında antik fəlsəfənin klassik mərhələsi və ellinizm dövrü // Şərq fəlsəfəsi problemləri, Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Sosiologiya İnstitutu. 2021, № 25, s.78-86
2. *Азимов К.* Проблема человека в религиозно-философских доктринах зороастризма и ислама. Баку: Леттерпресс, 2009, 304 с.
3. *Маковельский А.О.* Авеста. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1960, 144 с.
4. *Маковельский А.О.* Библиография. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1964, 68 с.
5. *Маковельский А.О.* Досократики: Доэлеатовский и Элеатовский периоды. Минск: Харвест, 1999, 784 с.
6. *Маковельский А.О.* Древнегреческие атомисты. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1946, 401 с.
7. *Маковельский А.О.* Философские и общественно-политические взгляды Низами // Труды института истории и философии. Том VIII. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1955, с.5-48
8. *Маковельский А.О.* История логики. Москва: Кучково поле, 2004, 480 с.
9. *Маковельский А.О.* Из истории философии в Азербайджане в IX-XII веках // Труды сектора философии. Том II (VII). Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1960, с.5-25
10. *Маковельский А.О.* К вопросу о мировоззрении Мирза Шафи // Труды института истории и философии. Том VII. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1955, с.192-212
11. *Маковельский А.О.* Категория причинности и законы природы и общества. Москва: Высшая школа, 1961, 59 с.
12. *Маковельский А.О.* Натурфилософские и естественно-научные взгляды Низами // Труды института философии, Т. III. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1948, с. 47-61
13. *Маковельский А.О.* Низами как философ // Труды института философии, Т. II. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1946, с. 20-27
14. *Маковельский А.О.* Nizamiana. Элементы диалектики в мировоззрении Низами // Труды института философии, Т. I. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1945, с.18-36
15. *Маковельский А.О.* Прогрессивные общественно-политические и философские идеи в произведениях великого Азербайджанского поэта-мыслителя Низами Гянджеви // Известия Академии Наук Азербайджанской ССР, №12. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1953, с.21-28
16. *Рашидов З.* Учение о единстве бытия (вахдат ал-вуджуд) как философское выражение исламского единобожия (таухид) //

Исламоведение, Махачкала: Дагестанский государственный университет, № 3 (41), Т. 10, 2019, с.103-116

17. *Чанышев А.Н.* Философия Древнего мира. Москва: Высшая школа, 1999, 703 с.
18. *Чанышев А.Н.* История философии Древнего мира. Москва: Академический Проект, 2005, 608 с.
19. *Южанина-Маковельская О.А.* Портрет ученого // Bakı Slavyan Universiteti. Azərbaycanda rus dili və ədəbiyyatı elmi-metodiki və ictimai-publisistik jurnal, № 3 (557). Bakı: CBS Polygraphic Production, 2004, s. 57-62
20. *Boer T.J.de*. The History of Philosophy in Islam. Translated by Edward R. Jones. London: Luzac & Co., 1903, 224 p.
21. *Boyce M*. Zoroastrians: Their Religious Beliefs and Practices. London: Routledge & Kegan Paul Ltd., 1979, 252 p.
22. *Daryaee T*. Zoroastrianism under Islamic Rule // The Wiley Blackwell Companion to Zoroastrianism. Edited by Michael Stausberg and Yuhan Sohrab-Dinshaw Vevaina with the assistance of Anna Tessmann. Chichester: John Wiley & Sons, Ltd., 2015, pp.103-118
23. *Rose J*. Zoroastrianism: An introduction. London: I.B.Tauris, 2011, 303 p.

Redaksiyaya daxil olub 13.07.2022

# Pedaqoji-psixoloji elmlər

*UOT 37.01*

***E.A.Ağayeva***
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*eaagayeva@gmail.com*

## KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN ƏDƏBİ KOMPOZİSİYALAR VASİTƏSİLƏ ESTETİK TƏRBİYƏSİNİN PEDAQOJİ ŞƏRTLƏRİ

***Açar sözlər:*** *ibtidai təhsil, estetik hiss, yaradıcı potensial*

Müasir ibtidai məktəb təhsili prosesinin optimallaşdırılmasının yeni yollarının axtarışı, habelə təhsil prosesinin yeni, müasir metodlarla həyata keçirilməsini nəzərə alaraq, bu istiqamətdə toplanmış təcrübənin çox böyük əhəmiyyəti vardır. Belə ki, uşağın mənəvi dünyasının formalaşmasının əhəmiyyəti, məqsədəuyğunluğu, məntiqi təfəkkürün inkişafı ilə yanaşı, bu gün şagirdin dünyada emosional dəyər, emosional münasibət təcrübəsi ilə nə dərəcədə uyğun olması əsas amillərdən hesab olunur.

Məktəblilərin daxili dünyasının formalaşması üçün onlara təkcə düşünməyi deyil, həm də hiss etməyi öyrətmək eyni dərəcədə vacibdir. Bu nöqteyi-nəzərdən kiçik yaşlı məktəblilərin estetik tərbiyə olunması, bədii vasitələrlə məktəb yaşlı uşaqlarda xüsusi bacarıqların önə çıxarılması bu gün müasir təhsil sisteminin prioritet istiqamətlərindən biridir.

***Э.А.Агаева***

## ПЕДАГОГИЧЕСКИЕ УСЛОВИЯ ЭСТЕТИЧЕСКОГО ВОСПИТАНИЯ МЛАДШИХ ШКОЛЬНИКОВ ПОСРЕДСТВОМ ХУДОЖЕСТВЕННЫХ КОМПОЗИЦИЙ

***Ключевые слова:*** *начальное образование, эстетическое чувство, творческий потенциал*

Учитывая поиск новых путей оптимизации в начальных классах учебного процесса, а также осуществление учебного процесса новыми, современными методами, опыт, полученный в этом направлении, имеет большое значение. Таким образом, помимо важности, целесообразности и развития логического мышления детского духовного мира, одним из основных факторов сегодня считается степень совместимости учащегося с эмоционально-ценностным, эмоционально-установочным опытом в мире.

Для формирования внутреннего мира школьников не менее важно научить их не только мыслить, но и чувствовать. С этой точки зрения эстетическое воспитание в младших классах, выделение специальных способностей у детей

школьного возраста художественными средствами сегодня является одним из приоритетных направлений современной системы образования.

***E.A.Aghayeva***

**PEDAGOGICAL CONDITIONS OF AESTHETIC EDUCATION OF YOUNG SCHOOLCHILDREN THROUGH LITERARY COMPOSITIONS**

***Keywords:*** *primary education, aesthetic sense, creativity*

Given the search for new ways to optimize the educational process in the primary grades, as well as the implementation of the educational process with new, modern methods, the experience gained in this direction is of great importance. Thus, in addition to the importance, expediency and development of the logical thinking of the children's spiritual world, one of the main factors today is the degree of compatibility of the student with the emotional-value, emotional-setting experience in the world.

To form the inner world of schoolchildren, it is equally important to teach them not only to think, but also to feel. From this point of view, aesthetic education in the lower grades, the allocation of special abilities in school-age children by artistic means today is one of the priority areas of the modern education system.

Tədqiqatın problemi müasir dövrdə kiçik yaşlı şagirdlərin estetik tərbiyəsinin pedaqoji problemlərinin həlli yollarını tapmaq, uşaqların təhsil və tərbiyəsinə yeni yanaşmalar və onların müasir məktəbin tədris prosesinə daxil edilməsi, ibtidai məktəbdə şagirdlərdə yaradıcılıq potensialının maksimum dərəcədə artırılması, estetik tərbiyənin əsas komponentlərindən biri olan şagirdlərin estetikasının formalaşması və inkişafı; ətraf mühitə, təbiətə, sənətə estetik münasibət; incəsənətin müxtəlif növləri ilə innovativ bədii və inteqrativ texnologiyaların korrelyasiya prinsipinin tətbiqidir. Müasir tədris prosesində kiçik yaşlı şagirdlərin estetik tərbiyəsində bədii pedaqogika metodlarının tətbiqi ilə bu metodların tətbiqi nəzəriyyəsinin kifayət qədər inkişaf etdirilməməsi arasında müəyyən ziddiyyətlər müşahidə edilmişdir. Pedaqoji təcrübə onu göstərir ki, estetik tərbiyəyə dair metodiki ədəbiyyatın tədqiqi, məktəbdə estetik tərbiyə metodlarının tətbiq olunması, bu gün də müəllimin pedaqoji fəaliyyətində əsas vəzifə kimi şagirdin nəzəri bilikləri ilə yanaşı, uşaqlarda sənətə olan münasibətin formalaşdırılmasını da ön plana çəkir. Mədəni dəyər, özünütərbiyə stimulu kimi incəsənətə maraq oyatmaq, şagirddə özünüdərk, özünəinam prosesini formalaşdırmaq, estetik hisləri oyatmaq və inkişaf etdirmək – bu gün öz aktuallığını qoruyan əsas istiqamətlərdəndir.

Heç şübhəsiz ki, kiçik şagird şəxsiyyətinin estetik inkişafının aktual problemi, uşaqların tərbiyəsi və inkişafına yeni yanaşmaların axtarışı və onların müasir məktəbin tədris prosesinə tətbiqi, şagirdin təhsil imkanlarından maksimum istifadə edilməsi, ibtidai məktəbdə yaradıcılıq potensialı, estetik

reallıq hissinin formalaşması və inkişafı, ətraf aləmə, təbiətə, sənətə estetik münasibət və müxtəlif korrelyasiya formaları prinsipinin tətbiqi çox mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan kiçik yaşlı şagirdlərdə estetik inkişafın məzmununu və metodikasını inkişaf etdirmək lazımdır. İbtidai məktəbdə uşaqların estetik qavrayışının formalaşması əsas əhəmiyyət kəsb edir. Şagirdin bir şəxsiyyət kimi mənəvi, intellektual və fiziki inkişafı üçün zəmin yaradır. Uşaq ibtidai məktəbdə təhsil almağa başladığı dövrdən etibarən onun incəsənətə, bədii və yaradıcı fəaliyyətə marağı formalaşır. Kiçik yaşlı uşaqlarda təhsil prosesində vahid dünyagörüşü, estetik zövq və ideალların inkişafı, həm də cəmiyyətin ictimai və mədəni nailiyyətlərinə zəmin yaradır. Təcrübə onu göstərir ki, kiçik yaşlı uşaqlarda formalaşan bu dəyərlər sonradan onların həyatda inkişafında, təhsilində, məntiqi təfəkküründə, estetik zövqündə özünü göstərir. Belə nəticəyə gəlmək olar ki, kiçik yaşlarında öyrədilən və mənimsənilən biliklər, insanın gələcək həyatını, həyatdakı mövqeyini, dolayısıyla şəxsiyyətin özünüdərk prosesini formalaşdırır.

Bir sıra tədqiqatçılar [1; 2; 6; 8; 13] kiçik yaşlı məktəblilərin təlim-tərbiyə prosesində bədii vasitələrlə uşaqlarda fəlsəfi-estetik baxışlar və dəyər münasibətləri formalaşdıran estetik tərbiyə dövrünün obyektlərinin ön plana çıxarılmasını təklif edir. E.A.Maimin yazır: "Sənətin köməyi ilə edilən kəşflər nəinki canlı, təsirli və ən mükəmməl, həm də yaxşı kəşflərdir. Sənət vasitəsilə gələn gerçəkliyin biliyi həm bəşəri, həm də çox bəşəri bilikdir" [14].

Məktəb tədrisində estetik tərbiyənin çatışmazlıqları bir çox tədqiqatçıların əsərlərində müəyyən edilmişdir [6; 8; 10; 12]. Hələ 1960-cı illərdə Yakobson yazırdı ki, estetik yanaşmadan daha çox obyektiv yanaşma zamanı "dərin estetik təsir əvəzinə səthi reaksiya meydana çıxır" [16], yəni emosional təəssürat almaq əvəzinə, adətən, emosiyasız, soyuq bir reaksiya meydana çıxır [4; 13]. Bu da öz növbəsində şagirdlərin estetik üstünlüklərinin aşağı olmasını, sənətə marağın azalmasını təmin edirdi. Son illərdə pedaqoji tədqiqatlarda da oxşar nəticələr çıxarılmışdır. Odur ki, məktəbdə estetik tərbiyənin səmərəli təşkili bu gün də aktual olaraq qalır. Bunu ilk növbədə şəxsiyyətin mənəvi dünyasının formalaşması kimi başa düşmək lazımdır. İncəsənətin pedaqoji potensialı bir çox pedaqoji alimlərin tədqiqat obyektidir. Müvafiq ədəbi mənbələrin təhlili, ibtidai siniflərin iş təcrübəsi ilə tanışlığın nəticələri göstərir ki, kiçik yaşlı şagirdlərin müasir konsepsiyalara uyğun estetik inkişafı məsələsi hələ də lazımi səviyyədə həllini tapmamış, texnologiya, fənlərin mənimsənilməsi prosesi hələ tam şəkildə dövrün artan tələblərinə cavab vermir. [3; 9; 13]. Estetik fəaliyyətin hər bir növü elmi ədəbiyyatda müxtəlif şərhlərə və qavrayışla müşayiət olunur. Bu, uşağın real hadisələrə və estetik təcrübələrə səbəb olan proseslərin, xassələrin, keyfiyyətlərin necə qavranılması və gələcəkdə öz sənətində bunları fərqləndirmək bacarığına malik olması qabiliyyətidir. Estetik qavrayış, pedaqoji təsir prosesində formalaşan xüsusi

yaradıcılıq və idrak fəaliyyətinin bir yoludur [5; 8].

Onu da qeyd etmək vacibdir ki, kiçik yaşlı şagirdlərin estetik qavrayışını formalaşdırmaq üçün tədris prosesi zamanı bədii komplekslərdən istifadə prosesi innovativ əhəmiyyət kəsb edir. Eyni zamanda bu şagirdlərin idrak və yaradıcılıq qabiliyyətlərinin, yaradıcı ifadə formasının, bədii yaradıcılığa marağın inkişafına təkan verir. Buna misal olaraq, məsələn, incəsənət əsərlərinin qavranılması prosesində onun mahiyyəti məlumat əldə etməklə məhdudlaşmır, bu, həm də mənəvi və əməli xarakter daşıyır. Uşağın mənəvi dünyasını zənginləşdirməyə yönəlir və iki amillə:

1) müəyyən edilən bədii əsərlərin qavranılması;
2) onun xarakterinin psixoloji qarşılıqlı əlaqəsi

ilə müəyyən olunur. Təbii ki, əgər sənət əsəri uşaq tərəfindən yalnız maraq əlaməti kimi qəbul edilirsə, o zaman qavrayış prosesində cansıxıcı olacağı kimi, onun şagirdə təsiri sıfıra bərabər olacaqdır. Odur ki, estetik qavrayışın inkişafından danışarkən, kiçik yaşlı şagirdin daxili tələbatla gördüyü və qavramalı olduğu sənət əsəri arasında olan əlaqə nəzərdə tutulur. İncəsənətlə bu tanışlıq şagirdi mənəvi cəhətdən daha zəngin edəcək [15]. Amma təbii ki, burada hər bir şagirdə fərdi yanaşma da mütləqdir. Qarşıya qoyduğumuz məsələnin məqsədi bədii komplekslərdən istifadə edərək kiçik yaşlı şagirdlərin estetik qavrayışının formalaşması üçün pedaqoji şərtləri daha müasir tədqiq etmək və nəzəri cəhətdən əsaslandırmaqdır: psixofizioloji, yaş və fərdi xüsusiyyətlərini nəzərə alaraq uşaqların estetik qavrayış prosesinin yaradıcı motivasiya əsaslarını gücləndirmək və bu istiqamətdə hər bir şagirdin bədii estetik təcrübəyə etibarlılığını müəyyən etməkdən ibarətdir [7]. Uşaqların bədii və estetik fəaliyyətinin təşkilinə sistemli kompleks yanaşmanın həyata keçirilməsi kiçik yaşlı şagirdlərin bədii fəaliyyətə cəlb edilməsi, onların yaradıcılıq potensialının zənginləşdirilməsinə müəllim və tələbələrin birgə yaradıcılığının inkişafına zəmin yaradır. Bu da öz növbəsində müəllim-şagird tandeminin daha sıx bağlarla bağlı olmasına əyani bir sübutdur. Kiçik yaşlı şagirdlərin estetik qavrayışının formalaşdırılması yollarının işlənib hazırlanmasının nəticələrinə xeyli sayda yerli və xarici pedaqoqların tədqiqatları həsr edilmişdir. Eyni zamanda müvafiq ədəbi mənbələrin tədqiqinin nəticələri, o cümlədən ümumtəhsil müəssisələrinin təcrübəsinin ümumiləşdirilməsi göstərir ki, bu problem müasir təhsil konsepsiyaları işığında hələ də kifayət qədər həllini tapmayıb. Təhsil sahəsində bir çox fənlərin məzmunu, fikrimizcə, aydın metodoloji əsaslara malik deyil. Estetik dövrün mövzusu çox vaxt lazımınca qiymətləndirilmir. Nəticədə, hər il şagirdlərin estetik savadı pisləşir, parlaq təsvirlər, təxəyyüllər yaratmaq və onları sərbəst idarə etmək bacarığına mane olur. Ətraf mühitdə estetik qavrayış qabiliyyəti, gözəllik duymaq hissi azalır, aqressivlik artır, mənəviyyatda tənəzzül baş verir.

Buna görə də kiçik yaşlı şagirdlərin estetik qavrayışının formalaşması prosesində bədii estetik kompleksin pedaqoji potensialının aşkar edilməsinə ehtiyac var.

Kiçik yaşlı şagirdlərin estetik qavrayışının formalaşdırılmasına dair diaqnostik təhlil, müasir dövrün tələblərinə cavab verən qiymətləndirmə, fəaliyyət və yaradıcılıq bu istiqamətdə bir çox nəticələr əldə etməyə imkan verdi. Təbii ki, bütün yuxarıda sadalananlar estetik inkişafın əsas vəzifələrinə əsaslanır. Bu əsaslar aşağıdakı kimidir:

1) bədii qavrayışın inkişafı;
2) müəyyən estetik biliklərin bir hissəsinin mənimsənilməsi, bilik və bacarıqların formalaşması;
3) uşaqların yaradıcılıq qabiliyyətlərinin inkişafı [11].

Yuxarıda qeyd olunanları nəzərə alaraq, sonda belə bir nəticəyə gəlmək olar ki, kiçik yaşlı məktəblilərin ədəbi kompozisiyalar vasitəsilə estetik tərbiyəsinin təşkilində müəllimin bilavasitə rolu və iştirakı danılmazdır. Hər bir müəllim-pedaqoqun funksiyaları özündə qavrayış, konstruktivlik, yaradıcılıq, kommunikativlik və s. mövqelərini birləşdirməlidir. Bu da öz növbəsində bədii, estetik təxəyyülün formalaşmasında, şagirdin öz düşüncəsini sərbəst ifadə etmə bacarığında, hadisələrə düzgün və obyektiv qiymət verməsində və bu kimi bir sıra vacib məsələlərdə şagirdin şəxsi inkişafına zəmin yaradır.

## ƏDƏBİYYAT


1. *Brovçak L.S., Starovoit L.V., Likhitska L.M.* İncəsənət vasitəsilə məktəbəqədər uşaqların yaradıcılıq və bədii inkişafı üçün pedaqoji şərtlər // Yeni Təhsil İcmalı, 2018, 52(2), s.206-217
2. *Əliyev Y.B., Tolstoy L.N.* Məktəblilərin emosional və dəyərli fəaliyyəti, onların incəsənətlə tanışlığının didaktik əsası kimi // Təhsilin müasir problemləri: Toplu. Tula: Tula Dövlət Pedaqoji Universiteti, 1997, s.18-32
3. *Əliyev Y.* Məktəblilərin emosional və dəyərli fəaliyyəti onların incəsənətlə tanışlığının didaktik əsası kimi // Təhsilin müasir problemləri: Toplu. Tula: Tula Dövlət Pedaqoji Universiteti, 1997, s.18-32
4. *Gembitskaya E.* Ümumtəhsil məktəbində estetik tərbiyə sistemində musiqinin rolu // Uşaq və Gənclərin Musiqi Təhsili üzrə Beynəlxalq Cəmiyyəti: Konfrans, Hesabatlar. M., 1970, s.16-19
5. *Havigerova J., Smetanova V., Kroustkova M.İ.* Məktəbəqədər uşaqlarda istedad və yaradıcılıq // Pedaqogika, 2016, 21(4), s.77-98
6. *Kaqan M.S,* Sənətin məktəbin həyatında yeri haqqında // Bir nömrəli məktəbdə incəsənət, 1992, s.11-19
7. *Kandaeva N.A., Bachieva E.Y.* Ölkənin mədəniyyəti və incəsənəti ilə tanışlıq prosesində kiçik yaşlı məktəblilərin estetik tərbiyəsi // İzvestiya DSPU, Mahaçqala: DSPU, 2012, s.33-37

8. *Kiyaşenko N.İ.* “Təhsil”dən təhsilə // İncəsənət 2 №-li məktəbdə, 1992, s.5-11
9. *Kulikova Y.I.* İncəsənət və insan dünyası // IX Beynəlxalq Estetik Konqresin nəticələri. M., 1981, s.64
10. *Lixaçev B.T., Kvyatkovski E.* Ümumtəhsil məktəbində estetik tərbiyə sisteminin mahiyyəti, prinsipləri // Pedaqogika, № 7, 1980, s.27-33
11. *Likhachev D.S.* Mərhəmət və gözəllik haqqında məktublar. M.: Uşaq ədəbiyyatı, 1985, 207 s.
12. *Likhitska L.M.* Gələcək musiqi müəllimlərinin bədii innovasiya fəaliyyətinin tədrisinə, müasir yanaşmalara hazırlığı. Elm, tədqiqat, inkişaf // Pedaqogika, 2017, s.126-132
13. *Maimin E.A.* Estetik tərbiyənin pedaqoji şərtləri “VIII Maimin oxumaları” Beynəlxalq elmi konfransın materialları, 22-24 oktyabr 2015-ci il, s.42
14. *Maslov S.İ.* Kiçik məktəblilərin təhsil prosesində bədii və emosional tərbiyəsi // Təhsilin müasir problemləri: Toplu, 2019, № 6, s.1-5
15. *Todosiyenko N.L.* Multikultural fəaliyyət vasitəsilə kiçik yaşlı şagirdlərin estetik qavrayışının formalaşdırılması. Bakı: Elm, 2013, 236 s.
16. *Yakobson R.* Formal məktəb və müasir rus ədəbiyyatşünaslığı. Bakı: "Slavyan mədəniyyətlərinin dilləri" nəşriyyatı, 2011, s.15-17

Redaksiyaya daxil olub 04.07.2022

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2022, C.70, №3, s. 148-155
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2022, V.70, №3, pp. 148-155

*UOT 37*

***N.E.Əhmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*nargiz_ahmedova@mail.ru*

# BMT-nin DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİ PROQRAMINDA TƏHSİLİN İNKİŞAF KONSEPSİYASI

***Açar sözlər:*** *dayanıqlı inkişaf, təhsil, konsepsiya, kontekst, paradiqma*

BMT-nin dayanıqlı inkişaf məqsədləri proqramı təhsilin inkişaf etdirilməsi qarşısında bir sıra mühüm vəzifələr qoyur. Bunlar ilk növbədə təhsilin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlıdır. Bu baxımdan məqalədə dayanıqlı inkişaf konsepsiyası kontekstində respublikamızda təhsilin inkişaf etdirilməsinin aşağıdakı bir sıra mühüm konsepsiyaları xarakterizə edilmişdir: 1) təhlükəsiz inkişaf konsepsiyasının həyata keçirilməsi; 2) təhsilin cəmiyyətin inkişafına yönəldilməsi; 3) təhsilin sosial, iqtisadi, siyasi kontekstlə əlaqələndirilməsi; 4) dayanıqlı inkişaf konsepsiyasının şəxsiyyət, onun cəmiyyətdəki yeri haqqında təsəvvürlərin metodoloji əsası kimi qəbul edilməsi; 5) təhsilin məzmunu və metodlarının davamlı inkişaf konsepsiyasının əsas prinsiplərinə söykənməsinin təmin edilməsi; 6) əhalinin böyük sosial-demoqrafik qrupunu təşkil edən tələbə-gənclərin cəmiyyətimizin tərəqqisi və dayanıqlı inkişafı təmin etmək üçün onların potensialdan səmərəli istifadə edilməsi.

***Н.Э.Ахмедова***

# КОНЦЕПЦИЯ РАЗВИТИЯ ОБРАЗОВАНИЯ В ПРОГРАММЕ ЦЕЛЕЙ УСТОЙЧИВОГО РАЗВИТИЯ ООН

***Ключевые слова:*** *устойчивое развитие, образование, концепция, контекст, парадигма*

Программа ООН Цели устойчивого развития ставит ряд важных задач по развитию образования. Они в первую очередь связаны с определением направления развития образования. В связи с этим в статье характеризуются следующие важные концепции развития образования в нашей стране в контексте концепции устойчивого развития: 1) реализация концепции безопасного развития; 2) направление образования на развитие общества; 3) связь образования с социальным, экономическим, политическим контекстом; 4) принятие концепции устойчивого развития как методологической основы представлений о личности, ее месте в обществе; 5) обеспечение того, чтобы содержание и методы образования основывались на основных принципах концепции устойчивого развития; 6) эффективное использование потенциала студенческой молодежи, составляющей большую социально-демографическую группу населения, для обеспечения прогресса и устойчивого развития нашего общества.

***N.E.Ahmadova***

## THE CONCEPT OF THE DEVELOPMENT OF EDUCATION IN THE PROGRAM OF THE UNO SUSTAINABLE DEVELOPMENT GOALS

***Keywords:*** *sustainable development, education, concept, context, paradigm*
The UNO Sustainable Development Goals program sets a number of important goals for the development of education. These are primarily related to determining the direction of development of education. In this regard, the article characterizes the following important concepts of the development of education in our country in the context of the concept of sustainable development: 1) implementation of the concept of safe development; 2) directing education to the development of society; 3) linking education with social, economic, political context; 4) acceptance of the concept of sustainable development as a methodological basis of ideas about the personality, its place in society; 5) ensuring that the content and methods of education are based on the basic principles of the concept of sustainable development; 6) effective using of the potential of student youth, who form a large socio-demographic group of the population to ensure the progress and sustainable development of our society.

Dayanıqlı inkişafa keçid ilk növbədə cəmiyyətin gələcəkdə hansı tip insan formalaşdıracağından asılıdır. Fərdi şüurun inkişaf səviyyəsini, onun şəxsiyyətlərarası əlaqələrinin xarakterini və dolğunluğunu, sosial həyata qatılma dərəcəsini onun dəyələri, motivləri təyin edir. Bunlara isə cəmiyyət təhsil sahəsində dayanıqlı inkişafın hədəflərinə uyğun gələn siyasətlə nail ola bilər. Məhz bu baxımdan dayanıqlı inkişaf konsepsiyasının pedaqogika nəzəriyyəsi və tarixi çərçivəsində tədqiqini zəruri hesab edirik. Hesab edirik ki, məhz bu elm dayanıqlı inkişaf strategiyasını möhkəmləndirmək, onun anlayışlar aparatını müəyyən etmək və onu ictimai şüura çatdırmaq iqtidarındadır. Belə ki, bəşəriyyətin sağ qalma strategiyası kimi dayanıqlı inkişaf konsepsiyasının işığında təhsilin xüsusi rolu var. Müasir şəraitdə təhsil qlobal problemləri həll edəcək, sivilizasiyanın sağ qalması, biosferin qorunub saxlanması üçün öz töhfəsini verəcək insan yetişdirməli, onlara "insan-təbiət-cəmiyyət" sistemində təşəkkül tapmış münasibətlərin yeni mərhələsində yeni dəyərləri aşılamalıdır. Dayanıqlı inkişaf demək olar ki, cəmiyyətin məqsəd və dəyərlərində bir inqilabdır ki, onun da əsas istiqamətini istehlakçılıq prioritetlərinin mənəvi dəyərlərlə əvəz edilməsi təşkil edir. Hesab edirik ki, dayanıqlı inkişaf konsepsiyası bu gün təhsil nəzəriyyəsinin, pedaqogikanın ideoloji əsaslarının tərkibinə daxil edilməli və müasir dünyada təhsilin məqsəd və funksiyaları onun məqsəd və prinsipləri nöqteyi-nəzərdən dərk edilməlidir. Təhsil nəzəriyyəsi, pedaqogika gələcəkdə öz metodoloji əsaslarını qurmaq üçün dayanıqlı inkişaf konsepsiyasından istifadə etməlidir.

Belə bir suala cavab axtarmaq olar ki, təhsil ilə dayanıqlı inkişaf konsepsiyasının qarşılıqlı əlaqəsi nədə özünü büruzə verir? Bu suala cavab vermək

üçün təhsilə aksioloji yanaşmanın imkanlarına müraciət etməliyik. Bu kontekstdə "davamlılıq" normalda inkişafın necə baş verməli olduğunu göstərir: inkişaf sosial cəhətdən ədalətli, ekoloji və qənaətcil olmalıdır. İnsan-təbiət-cəmiyyət triadasında harmoniyaya yönələn dayanıqlı inkişafın tədqiqində aksioloji yanaşma inkişaf (development) anlayışı ilə bağlı olan yeni dəyərləri, konsepsiyaları üzə çıxarmağa imkan verir. Onların arasında təhlükəsizlik, azadlıq, bərabərlik, həmrəylik, demokratiya, mədəniyyət və s. təməl dəyərlər qeyd olunur. Dayanıqlı inkişafın bu dəyərləri beynəlxalq təşkilatların demək olar ki, bütün sənədlərində daha konkret şəkildə öz əksini tapmışdır.

Belə konsepsiyalardan biri təhlükəsizlik (security) konsepsiyasıdır. Bu konsept çox vaxt "təhlükəsiz inkişaf" ("development security") və ya "inkişafın sekuritləşməsi" [2, s.78-94] kimi də işlədilir. Bu mənada birincisi, təhlükəsizlik cəmiyyət və dövlətin də əsas dəyərlərindən biridir. Dayanıqlı inkişaf kontekstində isə söhbət sistemli təhlükəsizlikdən gedir. Təhsil isə insanın təməl hüquqlarından biri olmaqla, dayanıqlı inkişafın, ölkələr arasındakı sülhün və sabitliyin açarıdır və buna görə də qloballaşmadan təsirlənən cəmiyyətlərin həyatında və XXI əsrin iqtisadiyyatında səmərəli iştirak üçün zəruri vasitə kimi xidmət edir. Dayanıqlı inkişafa keçid şəraitində təhsil artıq bilik və mədəniyyətin ötən nəsillərdən indiki və gələcək nəsillərə translyasiyası vasitəsi kimi çıxış etmir. Təhsil dayanıqlı inkişafda bir proses olaraq uzunmüddətli iqtisadi inkişafın təmin olunmasında, ekoloji tarazlığın qorunmasında və sosial rifahın yüksəldilməsində lazımi qərarların qəbul edilməsi və həyata keçirilməsi haqqında biliklər verir. Cəmiyyət üçün təhlükə yaradan problemlərlə bağlı müvafiq qərarları qəbul etmək üçün lazımi bacarıqlar verməklə, cəmiyyətin təhlükələrdən qorunmasında və dayanıqlı inkişafın hər bir mərhələsində ortaya fərqli baxış və qiymətləndirmələrin meydana çıxmasına səbəb olmaqla, təhsil milli prioritetlərdən biri, milli təhlükəsizliyin təmin edilməsinin əsasını təşkil edir.

İkincisi, təhsil cəmiyyətin rifahını və dayanıqlı inkişafını təyin edən əsas qurumlardan biridir. Təhsil sistemi gələcəkdə insanın rifahına töhfə verir, adambaşına daha yüksək istehsal və daha yüksək məhsuldarlığı təmin edir. Eyni zamanda təhsil mövcud rifahla əlaqəlidir, çünki tədqiqatlar göstərir ki, daha yüksək təhsil səviyyəsi olan insanlar həyatdan daha çox məmnunluq hissi keçirir, sağlamlıqları, başqaları ilə birgə sosiallaşmaq və cəmiyyətlərinin həyatında iştirak etmək üçün daha yaxşı imkanlara malik olurlar. Təhsil bir sıra sosial-iqtisadi məsələlərin həllinə, o cümlədən ətraf aləmdə baş verən prosesləri anlamağa və birgəyaşayış qabiliyyətinin artırılmasına köməklik etməklə tolerant mühitin formalaşmasına zəmin yaradır. Həmçinin iqtisadi təhlillər göstərir ki, inkişaf etmiş ölkələrin inkişafına təsir göstərən başlıca amil təhsil və onun inkişaf etdirilməsidir. Hansı ölkələrin təhsil səviyyəsi yüksəkdirsə, həmin ölkələrin iqtisadi səviyyəsi də yüksəkdir.

Üçüncüsü, təhsil sosial, iqtisadi, siyasi kontekstdən ayrıca mövcud ola

bilməz, çünki bütün sosial təsisatlarla sıx əlaqədə olan təhsil iqtisadi, siyasi, sosial, mədəni kimi bir çox amillərdən təsirlənir. Bəşəriyyətin dayanıqlı inkişafa keçidi də təhsildə köklü transformasiyalara səbəb olur. Rəsmi sənədlərin əksəriyyətində, dayanıqlı inkişaf kontekstində təhsil problemləri ilə bağlı elmi tədqiqatlarda "Dayanıqlı inkişaf naminə təhsil" konsepsiyasına rast gəlirik. Bu tədqiqatlarda dayanıqlı inkişaf prinsiplərinə əməl etmək üçün təlimin fənlərarası inteqrasiya prinsip üzərində qurulmalı, dayanıqlı inkişaf məsələlərinin bütün fənlərin ayrılmaz elementi olmalı və bütün tədris planlarına daxil edilməli olduğu vurğulanır [3, s.94-103].

Dördüncüsü, dayanıqlı inkişaf konsepsiyası şəxsiyyət, onun cəmiyyətdəki yeri haqqında təsəvvürlərin metodoloji əsası kimi qəbul edilməlidir. Dayanıqlı inkişaf konsepsiyası bir tərəfdən bu günün reallıqlarını açıqlayır, digər tərəfdən fəaliyyət proqramını işləyib hazırlayır və dövlətin şəxsiyyətin yetişdirilməsində konkret öhdəliklərini müəyyən edir. Dayanıqlı inkişaf konsepsiyasının bu günün maraqlarını təmin edərkən gələcək nəsillərin mənafelərinin nəzərə alınması zərurətinə dair müddəası metodoloji yanaşma olaraq dövlətin vəzifələrinə və onun təhsil sisteminin xüsusiyyətlərinə əsaslı dərəcədə təsir göstərməlidir. Şəxsiyyətin sosiallaşması bu gün yeni dəyərlər əsasında həyata keçməlidir ki, onların da bəziləri məhz dayanıqlı inkişaf konsepsiyasında öz əksini tapmışdır. Yeni dəyərlər və münasibətlər, davranış və yaşayış tərzi təhsil vasitəsilə yeridilir, bununla da dayanıqlı inkişaf təmin olunur. Bu baxımdan təhsil özü bir dəyərdir, çünki cəmiyyətin bütün digər dəyərləri onun köməyi ilə formalaşır. Beləliklə, müddəalarına şəxsiyyətin sosiallaşması ilə bağlı ideyaların da daxil edildiyi Dayanıqlı inkişaf konsepsiyası mütəxəssis şəxsiyyəti haqqında yeni elmi-nəzəri əsasları fomalaşdırır. Belə mütəxəssislərdən biri müəllim, onun bir çox bacarıqlara, o cümlədən kommunikativ bacarıqlara malik şəxsiyyət kimi formalaşmasının pedaqoji əsaslarının işlənilməsidir.

Beşincisi, təhsilin məzmunu və metodları Dayanıqlı inkişaf konsepsiyasının aşağıdakı əsas prinsiplərinə söykənir: ehtiyatlılıq, təbii mühitin qorunması, əməkdaşlıq, səmərəli iştirak, insanın şüur və dünyagörüşünün ekolojiləşdirilməsi. Burada önləyicilik prinsipini xüsusi vurğulamaq istərdik. Rio-de-Janeyro Bəyannaməsinin bu ehtiyatlılıq prinsipi (15-ci prinsip) bəşər sivilizasiyasının üzləşdiyi müxtəlif problemlərin qarşısını almaq üçün qabaqlayıcı hərəkətlərə ehtiyacının olmasının konkret ifadəsindən başqa bir şey deyildir. Müvafiq olaraq təhsil sistemi də yeni sosial-iqtisadi və elmi-texniki şəraitdə qeyri-trivial problemləri həll edəcək, önləyici tədbirlər görəcək, lazımi dərəcədə uzaqgörən olan mütəxəssis yetişdirməlidir. Buna görə də təhsil getdikcə proqnostik istiqamət almalı, yəni təbiət, texniki və humanitar elmlərdə baş verən müasir proseslər haqqında bilik sistemini təmin etməklə yanaşı, müvafiq tendensiyaları ekstrapolyasiya etmək qabiliyyətini də formalaşdırmalıdır. Belə təhsili səciyyələndirmək üçün A.D.Ursul "önləyici təhsil" anlayışını işlədir. Bununla da,

yəni mütəxəssis hazırlığının yüksək keyfiyyətini təmin etməklə onlarda qlobal ictimai şüuru və səmərəli həyat qabiliyyətini formalaşdırmaqla ali təhsil qlobal problemlərin həllinə öz töhfəsini vermiş olar.

Və nəhayət, altıncısı, əhalinin böyük sosial-demoqrafik qrupunu təşkil edən tələbə-gənclər güclü innovasiya potensialına malikdir və cəmiyyətimizin tərəqqisi, dayanıqlı inkişafı bir çox mənada bu potensialdan səmərəli istifadə ilə bağlıdır. Eyni zamanda məhz gənclər bu gün dünyada təbii resurs ehtiyatlarından istifadənin bugünkü təşkilindən əziyyət çəkən təbəqədir. Cəmiyyətin dayanıqlı inkişafının aktiv iştirakçısı olan tələbə-gənclərin peşə səriştəliliyi üzərində çalışmadan dayanıqlı inkişafı təsəvvür etmək mümkün deyil. Axı tələbələr yeni ideologiya və dünyagörüşünü aktiv yayan əhali qrupudur. Gənclər milli dövlət maraqlarının obyekti və Azərbaycan dövləti və cəmiyyətinin qarantlarından biridir. Ölkəmizin müxtəlif sferalarında gənclərin iştirakı olmadan pozitiv dəyişikliklər mümkün olmazdı. Gənclərin innovativ potensialı, təşəbbüskarlığı, peşə karyerası baxımından perspektivlərinin olması ölkəmizdə cərəyan edən sosial-iqtisadi proseslərin xarakteri və sürətinə ciddi təsir göstərir. “Gənclər xalqımızın, millətimizin, ölkəmizin gələcəyidirlər”, - deyən Ulu öndərimiz H.Əliyev gənclərə xitabən bu haqda çox gözəl demişdir: *“Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir və öz həyatını qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən özü haqqında da düşünməlidir, ailəsi haqqında da düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir”* [1, s.344].

Beləliklə, dayanıqlı inkişaf konsepsiyası nəinki gənclərin, o cümlədən tələbələrin xüsusi qayğıya ehtiyacı olduğunu təsdiqləyir, həm də tələbə gənclərin özləri dayanıqlı inkişafa keçid prosesinin əsas iştirakçıları, "davranış qaydalarının dəyişdirilməsi agentləri" elan olunurlar. Demək olar ki, Dayanıqlı inkişaf konsepsiyasını təsbit edən bütün sənədlərdə və müqavilələrdə (Gündəm 21, Dayanıqlı İnkişaf haqqında Yohannesburq Bəyannaməsi, Dayanıqlı İnkişaf üzrə Ümumdünya Sammitinin Qərarlarının İcra Planı, “Dayanıqlı inkişaf üçün təhsil və maarifləndirmə”, “XXI əsrdə innovativ cəmiyyət üçün təhsil”) dayanıqlı inkişafın həyata keçirilməsində əsas amil kimi təhsilin əhəmiyyəti xüsusi vurğulanır. Hələ 1992-ci ildə keçirilmiş Sammitin Proqramının 36-cı bəndində “Təhsil dayanıqlı inkişafın təməlidir” kimi bir müddəa yer almışdır. Bu fikir 10 il sonra Yohannesburq Sammitində bir daha təsdiqləndi. Yenə də qeyd olundu ki, dayanıqlı inkişaf konsepsiyası təhsil sistemi vasitəsilə translyasiya olunmalıdır.

Dayanıqlı inkişaf üçün təhsilin əhəmiyyətini ictimaiyyətə çatdırmaq istiqamətində atılan mühüm addımlardan biri də BMT Baş Assambleyasının 2005-2014-cü illər üçün “Dayanıqlı İnkişaf üçün Təhsil Onilliyi”nin (“education for sustainable development”) keçirilməsi ilə bağlı elanı oldu. Burada əsas məqsəd dayanıqlı inkişaf sahəsində bütün prinsipləri, dəyərləri və təcrübəni təhsil və

maarifçiliyin bütün aspektlərinə inteqrasiyası etdirmək idi. Eyni zamanda qeyd edilirdi ki, təhsilin dayanıqlı inkişaf kontekstində təkmilləşdirilməsi bütün ölkələrdə və qitələrdə insanların davranışının dəyişməsinə töhfə verəcək və indiki və gələcək nəsillərə münasibətdə təmiz mühit, iqtisadi sabitlik və ədalət ilə səciyyələnən davamlı bir gələcək üçün şərait yaradacaqdır. “Təhsil onilliyi” proqramının əsas məqsədlərindən biri də dayanıqlı inkişaf siyasətinin yeridilməsində innovativ təhsil metodlarının tətbiqi və bu sahədə beynəlxalq əməkdaşlığı inkişaf etdirmək olmuşdur. Bu strategiya əsasən auditoriyası ilə fərqlənən aşağıdakı dörd istiqamətdə yeridilməli idi:

- orta təhsili səviyyəsinin yüksəldilməsi;
- təhsilin hər bir səviyyəsində dayanıqlı inkişafın təmin edilməsi üçün müvafiq təkmilləşdirilmə proqramların tətbiq edilməsi;
- “dayanıqlı inkişaf” anlayışının geniş əhali kütləsi arasında təbliği;
- dayanıqlı inkişaf sahəsində mütəxəssislərin hazırlanması.

“Təhsil onilliyini" təbliğ və təşviq etmək, bu sahədə fəaliyyəti əlaqələndirmək üçün YUNESKO "aparıcı agentlik" olaraq işə salındı. Dayanıqlı inkişaf məqsədlərinə uyğun olaraq bu qurum tədris olunan proqramlarda müvafiq dəyişikliklər edilməsi məsələsini gündəmə gətirdi.

Beləliklə, BMT tərəfindən elan edilmiş “Dayanıqlı İnkişaf üçün Təhsil Onilliyi” proqramının ideyaları əsasında yeni təhsil paradiqması yaradıldı və hər bir ölkənin inkişafında və təhsil sistemində mövcud olan fərqlərlə yanaşı, milli səviyyədə, təhsilin dayanıqlı inkişafı naminə strateji planlaşdırmanın konturları formalaşmağa başladı.

Bütün bu sənədlərin təhlili Dayanıqlı İnkişaf Konsepsiyasının təhsillə bağlı əsas fikirlərinin nədən ibarət olduğunu göstərir.

BMT-nin dayanıqlı inkişafla bağlı qərarlarına uyğun olaraq başqa dövlətlərdə olduğu kimi, Azərbaycan Respublikasında da ölkənin dayanıqlı inkişaf strategiyası işləndi. Dayanıqlı inkişaf fenomeninin nəzəri dərki ilə bağlı ölkəmizin elm adamları tərəfindən çox işlər görüldü və bu işlər “Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli 2198 saylı Sərəncamı, 29 dekabr 2012-ci il tarixli 800 saylı Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 26 yanvar 2015-ci il tarixli Sərəncamı ilə məntiqi şəkildə tamamlandı. Bu sənədlərdə səy və mənbələri dayanıqlı inkişaf üçün elm və təhsilə yönəltməyin zəruriliyi haqqında müddəalar yer almışdır.

Şübhəsiz ki, sadalanan sənədlərin məzmunu BMT-nin 2015-ci ilin sentyabr ayında Nyu-Yorka keçirilən Sammitinin “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində gündəlik”- “Gündəlik-2030” adlı yekun sənədi ilə tam uzlaşır. Sammitdə Dayanıqlı İnkişaf sahəsində Minilliyin Məqsədlərinə nail

olma dərəcəsi müzakirə edilmiş və 2015-ci ildən sonrakı dövr üçün yeni fəaliyyət vektorları müəyyən edilmişdir. Dayanıqlı inkişaf sahəsində 17 məqsəd və 169 vəzifə qarşıdakı işlərin miqyası və gərginliyindən xəbər verir. Hökumətlərdən bu 17 məqsədi qəbul etmək və onlara nail olmaq üçün milli çərçivələr yaratmaq gözlənilir. Ölkələrin əsas öhdəliyi dayanıqlı inkişaf məqsədlərinin icrasında əldə olunan irəliləyişi izləmək və təhlil etməkdir. Bunun üçün keyfiyyətli və əlçatan məlumatların vaxtında toplanması tələb olunur. Dayanıqlı inkişaf məqsədlərinin icrasının regional səviyyədə izlənməsi və təhlili isə milli səviyyədə aparılan təhlillərə əsaslanacaq və qlobal səviyyədə izləmə və təhlil işində istifadə olunacaq. Sənəddə bir daha dayanıqlı inkişaf triadasının, yəni onun iqtisadi, sosial və ekoloji komponentlərinin ayrılmaz olduğu vurğulanmaqla kompleks yanaşmanın zəruriliyi əsaslandırılmışdır [4].

"Gündəlik-2030"- da əks olunan və 1 yanvar 2016-cı il tarixdə rəsmi şəkildə qüvvəyə minmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuş ölkəmizdə "Gündəlik-2030"dan irəli gələn milli öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Azərbaycan Respublikasının Davamlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası" yaradıldı, milli səviyyədə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasına dair monitorinq və hesabatlıq mexanizmi müəyyən edildi, müvafiq dövlət orqanlarının qarşısında konkret vəzifələr qoyuldu. Bu vəzifələr əsasən aşağıdakılardan ibarət idi:

- "Gündəlik-2030"un milli səviyyədə icrası ilə bağlı Dövlət Statistika Komitəsinin üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi;
- Dayanıqlı İnkişaf Məqsədlərinə nail olma göstəriciləri üzrə statistik məlumatların toplanması, işlənməsi, müvafiq statistik məlumat bazasının hazırlanması və yayımı;
- ölkənin dayanıqlı inkişaf vəziyyətini xarakterizə edən statistik göstəricilər əsasında kompleks təhlillərin aparılması;
- dayanıqlı inkişaf statistikasının təşkili və həyata keçirilməsi sahəsində fəaliyyətin təmin edilməsi üçün Dövlət Statistika Komitəsi aparatının strukturunda Davamlı İnkişaf Statistikası şöbəsi yaradılması.

Ümumiyyətlə, Davamlı inkişafa dəstək üzrə tədbirlərin sayı isə ildən-ilə artır. Ölkəmizdə dayanıqlı inkişaf ideyalarını ali təhsil sahəsində də həyata keçirmək istiqamətində addımlar atılır. Belə ki, respublikanın bir çox universitetlərində, müxtəlif kurslarda mövzuya aid beynəlxalq konfranslar, treninq-kurslar və debatlar keçirilir. Lakin apardığımız təhlil nəticəsində müəyyən edilmişdir ki, dayanıqlı inkişaf sistemində ekoloji konsepsiya öz güclü mövqelərini saxlayır. Dayanıqlı inkişaf konsepsiyası yalnız ekologiyaya dair ixtisas və fakültələrdə ekoloji məsələlərin açıqlanması ilə məhdudlaşır. Çox az sayda ali məktəblərdə dayanıqlı inkişaf sahəsində müvafiq metodiki müşayiətlə təmin olunan, sosial-iqtisadi fənlər blokunu daxil edən inteqrativ təhsil proqramları həyata keçirilir. Dayanıqlı inkişaf

üçün yalnız ekoloji, təbiətin mühafizəsi üzrə kursların təşkili yetərli deyil. Dayanıqlı inkişaf ideyalarını ümumi və xüsusi kurslara inteqrasiya etdirmək, ali və orta məktəbin qarşılıqlı təsirlərini gücləndirmək lazımdır. Təhsilin ekologiyası bu prosesdə geniş yer tutur. Bu gün üçün xüsusi və vacib problemlərdən biri dayanıqlı inkişafa xidmət edən pedaqoji kadrların hazırlanmasıdır.

Yuxarıda qeyd etdiyimiz kimi, bu gün cəmiyyətlə, bizneslə ətraf mühit arasında ziddiyyətlər mövcuddur. Bunlardan birində arzuolunan nəticələr digərində arzuolunmaz nəticələrə səbəb olur. Eyni vəziyyət cəmiyyətdə mövcud olan qüvvələr tərəfindən müxtəlif cür qiymətləndirilir. Beləliklə, dayanıqlı inkişaf mümkün nəticələri qabaqcadan görə bilmək, qarşılıqlı təsirləri işə salmaq bacarıqlarını tələb edir [Huber, S., Berchtold, C., Kummert, R. & Kyburz-Graber, R. (2001). Ernährung heute und morgen. Interdisziplinäre Materialien zu Produktion, Verarbeitung, Handel und Konsum. Aarau: Bildung Sauerländer]. Buna isə bütövlükdə o zaman nail olmaq mümkündür ki, cəmiyyətə və onun bir sahəsi olan təhsilə innovativ sistem kimi baxılsın.

## ƏDƏBİYYAT

1. *Əliyev H.Ə.* Təhsil millətin gələcəyidir / Tərtib edənlər: M.Mərdanov, Ə.Quliyev. Bakı: Təhsil, 2002, 580 s.
2. *Бартенев В.И.* Связка «безопасность – развитие» в современных западных исследованиях // Международные процессы, 2015, Т.13, № 3(42), с.78-94
3. *Осмоловская И.М.* Междисциплинарный подход в решении дидактических проблем в российском образовании // Ценности и смыслы. 2016, №4 (44), с.94-103
4. Преобразование нашего мира: повестка дня в области устойчивого развития на период до 2030 года [Электронный ресурс] / ООН, Нью-Йорк, 2015 –44с. http://unctad.org/meetings/en/SessionalDocuments/ares70d1_ru.pdf

Redaksiyaya daxil olub 12.08.2022

*UOT 159.9*

***L.M.Qurbanova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*lamiye.74@mail.ru*

# MÜHARİBƏ İŞTİRAKÇILARININ POSTTRAVMATİK STRESS POZUNTULARI VƏ ARADAN QALDIRILMASI YOLLARI

***Açar sözlər:*** *posttravmatik hərbi stress pozuntusu, psixoanaliz, psixoanalitik terapiya, psixoloji müdafiə, transformasiya, şüuraltı*

Məqalədə Qarabağ müharibəsində iştirak edən döyüşçülərdə posttravmatrik stress pozuntularının yaranma səbəbləri və aradan qaldırılması yolları araşdırılmışdır. Məqalənin gedişatında problemin aktuallığı əsaslandırılmış, problemi yaşayan pasientlərlə aparılan psixoloji xidmət işindən nümunələr təqdim edilmiş, o cümlədən pasientlərə təqdim edilən aparıcı psixoloji xidmət metodları olan psixoanaliz, psixoanalitik terapiya haqqında məlumat təqdim edilmişdir. Nəticə olaraq hərbi psixoloji pozuntu yaşayan döyüş iştirakçıları ilə həyata keçirilən psixoloji xidmətin mərhələləri və onların real həyata reabilitasiyasına yardım edəcək digər kompleks tədbirlər açıqlanmışdır.

***Л.М.Гурбанова***

# ПОСТТРАВМАТИЧЕСКИЕ СТРЕССОВЫЕ РАССТРОЙСТВА УЧАСТНИКОВ ВОЙНЫ И ПУТИ ИХ ПРЕОДОЛЕНИЯ

***Ключевые слова:*** *посттравматическое военно-стрессовое расстройство, психоанализ, психоаналитическая терапия, психологическая защита, трансформация, подсознание*

В статье исследованы причины посттравматических стрессовых расстройств у бойцов, принимавших участие в Карабахской войне, и пути их преодоления. В ходе статьи была научна обоснована актуальность проблемы, представлены примеры работы психологической службы с пациентами, испытывающими военно-психические травмы, в том числе сведения о психоанализе и психоаналитической терапии, которые являются ведущими методами психологической помощи, предлагаемыми пациентам. В результате был раскрыт этапы оказания психологической помощи участникам войны, пережившим военно-психические расстройства, и другие комплексные мероприятия, которые помогут им реабилитироваться в реальной жизни.

**L.M.Gurbanova**

## POST-TRAUMATIC STRESS DISORDERS OF WAR VETERANS AND WAYS TO OVERCOME THEM

***Keywords:*** *post-traumatic military stress disorder, psychoanalysis, psychoanalytic therapy, psychological defense, transformation, subconsciousness*

The article explores the causes of post-traumatic stress disorders in soldiers who took part in the Karabakh war, and ways to overcome them. In the course of the article, the relevance of the problem was scientifically substantiated, examples of the work of the psychological service with patients experiencing military-psychic traumas, including information about psychoanalysis and psychoanalytic therapy, which are the leading methods of psychological assistance offered to patients, are presented. As a result, the stages of providing psychological assistance to war veterans who have experienced military mental disorders, and other comprehensive measures that will help them rehabilitate in real life, are announced.

Qloballaşma adı altında həyata keçirilən qlobal siyasətin tərkib hissəsi olaraq bir çox xalqların milli kimliyinin tanınmaz hala gətirilməsi və bununla da insanların vahid mərkəzdən daha asanlıqla idarə edilməsini həyata keçirmək istiqamətində istər KİV-lərdə, istər sosial şəbəkələrdə və digər təbliğat vasitələrində çox işlər görülmüşdür. Əslində bu proses çox çətin prosesdir: milli kimliyi unutdurmaq çox çətindir, çünki yaddaş vasitəsilə də məlumatların genetik olaraq nəsildən-nəslə ötürülməsi elmi faktdır. Milli kimliyi unutdurmaq üçün şüuraltına təsir edəcək xüsusi proqram işlənilmişdi ki, bu proqram vasitəsilə insanların şüuraltısı əslində milli məsuliyyətsizliyə sövq edilən yalançı demokratiya ilə, şirnikləşdirici məlumatlarla, arzularla, istəklərlə və s. yüklənirdi. Məqsəd milli kimlik, milli qürura aid olan informasiyaların şüuraltının daha dərin qatlarına sıxışdırılması və yavaş-yavaş unutdurulması idi: "milli mənlik şüuru məhv olmuş xalq məhvə məhkumdur" prinsipi getdikcə dünyəvi siyasi proseslərdə aktiv şəkildə özünü büruzə verirdi. Təbii ki, məqsəd keçmiş tarixi proseslərdə olduğu kimi, daha güclü dövlətlər tərəfindən kiçik dövlətlərin təbii sərvətlərinin və insani resurslarının mənilsənilməsinə köklənmişdi. Yer üzündə çox millət yaşayır, lakin öz milli kimliyini qoruyub saxlaya bilməyənlərin dövləti, dili bir vaxtlar məhv olmuş və bu xalqlar digər xalqların içinə assimilyasiyaya məruz qalmışlar. Azərbaycan xalqına qarşı da uzun illər qeyd etdiyimiz mənfur siyasət həyata keçirilmişdir: bizim torpağın istər zəngin sərvəti, istərsə də düşünən beyinləri daim güclü dövlətlərin "tamahı"nı cəlb etmişdir. Ona görə də tariximiz boyu yaşadığımız çoxsaylı müharibələr qaçılmaz olmuşdur: zəfərlərimiz çoxdur və daim də zəfər çalacayıq, çünki Allah bu torpağın qorunması, insanlarının səfərbər olunması məqsədilə hər dəfə ən çətin məqamlarda güclü sərkərdələr yetişdirir! Yüksək elmi biliyi,

dünyagörüşü olan insanların Allaha inamı daha böyükdür, çünki bu insanlar elmi araşdırmalar nəticəsində əmin olurlar ki, Allahın insanlara buyurduqlarının hamısı Yer üzərində insanlığı, mənəviyyatı qorumağa xidmət edir. Milli kimliyimizi – türkçülüyümüzü, demokratiyamızı, milli birliyimizi, milli qürurumuzu Allaha olan inamımızdan, islam dinimizdən kənarda təsəvvür etmək mümkün deyil: dini təfəkkürümüz bizi daim azğınlığa, itaətə boyun əyməməyə səsləmiş və kölə xislətliləri tənqid etmişdi: "Allah yolunda savaşın sizinlə savaşanlarla..." , "Harada yaxalasanız, öldürün onları, sizi çıxardıqları yerdən siz də çıxardın onları. Fitnəkarlıq adam öldürməkdən daha betərdir... Savaşsalar, öldürün onları. Budur kafirlərin cəzası" (3, s.14).

Tarixi zəfərlərimiz çoxdur. Ancaq dövlətimiz SSRİ-nin tərkibində olduğu zamanlar (1922–1991-ci illər) hansı uğurumuz olmuşdusa, hamısı sovetlər birliyinin adına yazılırdı. 18 oktyabr 1991-ci ildə SSRİ-nin dağılması ilə yaranan tarixi şərait nəticəsində Azərbaycan dövləti öz müstəqilliyini ikinci dəfə yenidən bərpa etmişdir (1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin hüququ varisidir). SSRİ-nin dağılma ərəfəsində münbit şəraitin olmasını fürsət bilmiş, dünyanın idarə edilməsində pay sahibi olmaq iddiasında olan dövlətlərin maraqlarına xidmət edəcək "alət" rolunu oynamağı milli xarakterinə hopdurmuş ermənilər Azərbaycanın döyünən ürəyi, milli qürur mərkəzi olan Qarabağ uğrunda döyüşlərə (I Qarabağ müharibəsi) başladılar. I Qarabağ müharibəsinin (1988–1994) əsas məqsədi SSRİ-nin tərkibindən ayrılan Azərbaycandan daha çox ərazi qopardaraq erməni ərazisini genişləndirmək və böyük Ermənistan arzusunun reallaşması istiqamətində irəliləmək idi. Həmin dövrlərdə ermənilərə sovetlər birliyinin hərbi bazalarından çoxlu sayda silah-sursat miras qalmışdı, eləcə də xaricdə yaşayan ermənilər tərəfindən müharibəyə hazırlıq istiqamətində yardımlar edilmişdi... Bu dövrlərdə Azərbaycan xalqı gözləmədiyi xəyanətlə baş-başa qalmışdı... Hərbi gücün düşmən tərəfinin xeyrinə olmasına baxmayaraq, Azərbaycan xalqı I Qarabağ Müharibəsində məğlub olmadı: 1994-cü ildə atəşkəs elan edildi ("Bişkek protokolu" imzalandı). (I Qarabağ Müharibəsində Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olundu, çoxlu sayda soydaşlarımız ata-baba yurdlarından köçkün düşdü..., milli qürur məkanımıza çevrilən Şəhidlər Xiyabanları salındı... Uzun illər Azərbaycan xalqı qisas-intiqam hissi ilə yaşadı: şüuraltına yığılmış, sıxışdırılmış travmalar nəhayət ki, 2020-ci ildə vulkan kimi püskürdü: Sərkərdəmiz İlham Əliyevin "Dəmir Yumruq" əməliyyatını icra edən Azərbaycan ordusu tarixi zəfər çaldı: itirilmiş torpaqlarımız qayıtdı..., 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Azərbaycanın qələbəsi şərəfinə Zəfər paradı keçirildi... Bu qələbəni bizə Azərbaycan dövləti, xalqı var olduqca milli qürur simvollarına çevrilərək yad ediləcək şəhidlərimiz, qazilərimiz, veteranlarımız və digər döyüş iştirakçılarımız yaşatdı. Dövlətimizin diqqəti və qayğısı bu seçilmiş insanlara nə qədər yüksək səviyyədə olsa da yenə də

müharibə sonrakı posttravmatik stress pozuntularının (PTSP) yaşanılması qaçılmazdır. Müharibə sonrakı posttravmatik stresslərin aradan qaldırılması istər frontal, istərsə də fərdi yanaşma kontekstində dərin psixoloji təhlillər və tədqiqatlar tələb edir. PTSP – psixi sağlamlıq üçün təhlükəli, qorxulu, olduqca böyük mənəvi-psixoloji fəsadlara səbəb olan pozuntulardır. Bu pozuntular aradan qalxmadıqca zaman-zaman şüuraltındakı "toxum"larını daha geniş psixi sahələrə şaxələndirərək dəhşətli hadisələrin yaşanmasına səbəb ola bilər, məsələn, suisid, eləcə də problem yaşayan insan tərəfindən onun ətrafındakı insanların həyatları üçün də təhlükə...

Posttravmatik stress səbəbləri müxtəlif ola bilər: həyatdakı travmatik hadisələr, zorakılıq, ölüm-insan itkisi, müharibələr, təbii və ya ontropogen fəlakətlər və s. Posttravmatik stress yaşanması ehtimal olunan insanlar risk qrupuna daxil edilərək mütəxəssislər tərəfindən nəzarətə götürülür və zaman-zaman onlara psixoloji yardım göstərilir. I Qarabağ Müharibəsi sonrası yaşanan posttravmatik stresslərin aradan qaldırılması istiqamətində psixoloji təcrübəsizlik səbəbindən lazımi səviyyədə iş həyata keçirilməsə də, nəzəri araşdırmaları və bəzi praktik uğurları inkar etmək olmaz. Lakin II Qarabağ Müharibəsi sonrası istər frontal, istərsə də fərdi şəkildə xeyli işlər görüldü. Uğurlu işlərin olmasına baxmayaraq, problemlər yenə də qalır və qalacaq. Çünki elə elm sahələri mövcuddur ki, tədqiqat üçün aktual olan problemlər araşdırıldıqca tədqiqat sferası daralırsa, psixologiya elminin və psixoloji xidmətin tədqiqat sferası dövrü dəyişikliyə analoji bağlılıq səbəbindən həndəsi silsilə ilə artmağa davam edir: yaşanan xatirələr, travmalar və digər psixi təsirə malik hadisələrin izləri yaddaş hüceyrələri vasitəsilə nəsildən-nəslə ötürülür. Müharibələr məhz belə hadisələrdəndir ki, onun vurduğu fəsadlar tək tarixi kitablarda qeydə alınmır, qan yaddaşımızda da əbədi həkk olunur.

Döyüşçülərin psixi travmalarını digər insanların travmalarından fərqləndirən əsas cəhətə diqqət yetirək: müharibədə onlar ölümə hazırlıq proqramı ilə döyüşə qatılıblar... bu proqram sağ qalanlarda şüuraltına sıxışdırılıb..., lakin "münbit" şəraitdə qabarır və proqram işə düşür...!!! Ona görə də müharibədən sonra hansısa stressogen faktor yaşanan zaman müharibə iştirakçılarının suisid törətməsi hallarına ciddi yanaşmaq tələb olunur ki, psixoloji sirayət baş verməsin. Hələ vaxtilə də ikinci dünya müharibəsi döyüşçülərinin və onların ailə üzvlərinin mühitə identifikasiyası problemi psixoanalitik Eriksonun (ing. Erik Homburger Erikson) diqqətini cəlb etmişdi. Erikson müharibə iştirakçısı olan pasiyentləri barədə qeyd edirdi ki, "...müharibə şəraitində əsgərlər öz rollarına alışır, lakin müharibədən qayıtdıqdan sonra cəmiyyətdə normal şəxsiyyətlərarası münasibətlərə adaptasiya çətinliyi yaşayırlar və bu çətinliyi keçə bilməyənlər nevroz xəstəliyinə tutulurlar...". Müharibələr zamanı yaşanan travmalar sosial, siyasi, iqtisadi, fizioloji, psixoloji və digər müxtəlif istiqamətlərdə təhlil edilir. Qeyd edilənlər içərisində ən mürəkkəbi hərbi psixoloji travmalardır (HPT). Təsnifatına görə, HPT-lər növbəti şəkildə qruplaşdırılır: 1) kəskin, 2) yarımkəskin (orta), 3) xroniki. Kəskin HPT davranış reaksiyaları əsasən 2 formada özünü göstərir: a) adaptasiya olunmuş,

b) adaptasiya olunmamış (dezadaptasiya). Dezadaptasiya davranış reaksiyaları akronim (yun. άκρος "ifrat", όνυμος "ad") COSR (Combat and Operational Stress Reaction) hesab edilir. Posttravmatik hərbi stress pozuntuları xroniki qrupa aid edilir.

II Qarabağ Müharibəsi döyüşçüləri arasında posttravmatik hərbi stress pozuntusu yaşayanların bəzi problemlərinin təhlilini aşağıdakı nümunələrdə göstərək (məqalənin müəllifi – Lamiyə Qurbanovanın övladı II Qarabağ Müharibə Veteranıdır və nümunələr (1, 2, 3) də (anonimlik gözlənilməklə) müəllifin pasiyentlərinə aiddir).

Nümunə 1. Suisid riskinə daxil olan pasiyent yuxularında şəhidlərlə söhbət etdiyini və ağ, səliqəli geyimdə, üzləri təlaş olmuş, nur üzlü ruhların hansı döyüş yoldaşlarına (döyüşlərdə əsgərlərin üzlərinin tüklü olması, paltarların çirklənməsini və digər çətinlikləri yadına salırdı...) aid olduğunu tanımadığından xəcalət hissi, narahatçılıq, vicdan əzabı yaşadığını qeyd edirdi. Psixoanalizdə yuxuların təhlili metodikasından istifadə edilərək pasiyentin yuxularındakı şəhid ruhlarının kimliyinin təyini prosesi həyata keçirildikdən və onlarla bağlı hansı yarımçıq xatirənin və ya prosesin tamamlanmadığı aşkarlanaraq lazımi xidmət istiqaməti seçilmiş, eləcə də digər kompleks psixoloji xidmət tədbirləri həyata keçirilərək pasiyentə yardım edilmişdir.

Nümunə 2. Bioloji varlıq kimi hər kəsin şüuraltı təbəqəsində nüfuzunu qoruma instinkti mövcuddur və bu instinkt insanı müxtəlif səpkili fəaliyyətlərə təhrik edir, insan qələbə eyforiyasına olan ehtiyacını ödəməyə çalışır. Çünki hər hansı məğlubiyyət hissi orqanizmə həm psixoloji, həm də fizioloji tərəfdən neqativ təsir göstərir. Məğlubiyyət zamanı dofamin və endorfinin miqdarı azalır, yorğunluq, ağrı, stress hormonu olan kortizolun miqdarı çoxalır və adrenalinlə qarışaraq qorxunu daha da artırır (bu proses isə ümumilikdə, orqanizmin immunitetinə mənfi təsir göstərir), sinir toxumaları qanı özünə doğru çəkir, nəticədə əzələlər zəifləyir, beyinin hippokamp (yun. hippocampos – baş beyinin bir hissəsi olub, emosiyaların və yaddaşın formalaşmasında aktiv iştirak edir) adlanan hissəsi aktivləşir və yaddaşda uğursuzluqla bağlı neqativ xatirələr qabarır, bu xatirələr də bütün ömrü boyu ağır yük kimi insanı qarabaqara izləyir. Döyüşçü pasiyent də həyati problemlər qarşısında məğlubiyyət sindromu yaşayırdı. Posttravmatik stress pozuntusu yaşayan döyüşçü pasiyentin özünügerçəkləşdirməsi arzusunu (döyüşə gedərkən sevmədiyi işlə məşğul olurmuş və döyüşdən qayıtdıqdan sonra da sevmədiyi həyatı yaşayacağını düşünərək həyata, sosial ünsiyyətinə qarşı apatiya yaşayırdı) həyata keçirilməsinə yardım etməklə və bu prosesə ailə üzvlərini də cəlb etməklə, eləcə də şüuraltındakı neqativ yükləri pozitivə yönəltməklə uğura nail olunmuşdur.

Nümunə 3. Döyüşdən qayıtdıqdan sonra N saylı hərbi hissədə müddətdən artıq hərbi xidmət keçmə zərurəti ilə üz-üzə qalmış əsgər vaxtilə bu hərbi hissədə çiyin-çiyinə onunla xidmət etmiş döyüş yoldaşlarının artıq hər gün lövhədə asılmış

şəkilləri ilə görüşərək onların şəhidlik zirvəsinə ucaldığını ancaq özünün onlarla bir yerdə niyə şəhid olmaması sualı ilə özünü qınayaraq suisid riski yaşayırdı. Hərbi hissənin psixoloqu tərəfindən göndərişlə məzuniyyət verilərək bu sindromdan hərbi hissədən kənarda psixoloqların kompleks yardımı nəticəsində psixi sağlamlığını bərpa etmiş döyüşçü-pasiyent digər hərbi hissəyə köçürülərək xidməti borcunu uğurla yerinə yetirmişdir.

Hər üç nümunədə psixoloji yardım məqsədilə psixoanalizdən aparıcı metod olaraq istifadə edilmişdir: nümunə 1-də psixoanalizdə yuxuların yozumu+psixoanalitik terapiya metodikası istifadə edilmiş, nümunə 2-də psixoanaliz vasitəsilə "sıxışdırılma" müdafiə mexanizminin "sublimasiya" müdafiə mexanizmi ilə əvəzlənməsinə yardım edilmiş, nümunə 3-də pasiyentə psixoanaliz+psixoanalitik terapiya tətbiq edilmişdir. Bu metodikalara (psixoanaliz və psixoanalitik terapiya) nə üçün üstünlük verildiyini elmi baxımdan aşağıdakı şəkildə əsaslandıraq.

Şəkil 1-dən görünür ki, psixika üç təbəqəyə ayrılmışdır (psixoanalizə görə): 1 – şüuraltı təbəqə; 2 – senzura; 3 – şüuri. Şüuraltı təbəqədəki "+" və "-" işarəli məlumatlar hərəkətdədir və senzura təbəqəsindən keçərək şüuri təbəqənin köməyilə reallaşmaq istəyir, reallaşma baş vermədikdə psixoloji yüklənmə baş verir və psixoloji neytrallıq pozulur. Psixoloji neytrallığın pozulmaması üçün psixoloji müdafiə mexanizmi (termin ilk dəfə 1984-cü ildə Z.Freyd tərəfindən işlənmişdir) işə düşür. Psixoloji müdafiə (və ya özünümüdafiə) – psixikaya doğru yönəlmiş neqativ təsirlərin gücünün minimuma endirilməsini həyata keçirən qoruyucu xarakterli prosesdir. Müdafiə mexanizmlərinin əsasını psixoloji müqavimət, dayanıqlılıq təşkil edir. Müdafiə mexanizmləri sadə (ilkin) və mürəkkəb (ikincili) ola bilər.




**Şəkil 1**

Psixoloji müdafiənin əsas funksiyası şəxsiyyətin şüurunu neqativ təəssüratlardan qorumaqdan ibarətdir. Psixoloji müdafiə mexanizmləri çoxdur, ən populyarları:

*1)* proyeksiya (lat. projectio – qabaqlamaq) – insan öz səhvlərini, hisslərini, fikirlərini və s. xəyalən başqasına yükləyir;

*2)* reqressiya (lat. regressus - əks-hərəkət) – neqativ təsirə qarşı müqavimət xarakterli impulslar göndərilir, daha çox uşaqlarda, zəif tiplərdə, infantil şəxslərdə özünü göstərən haldır (məsələn, özünü yalandan xəstə kimi aparmaq...);

*3)* izolyasiya – psixoloji gərginlik yaşadan hadisə unudulmasa da, onun barəsində düşünməmək, bu haqda düşüncələri özündən uzaq tutmaq;

*4)* identifikasiya (lat. identificāre – eyniləşdirmək) – baş vermiş neqativ halı başqalarının da yaşadığını düşünüb təsəlli tapmaq, məsələn, "ellə gələn toy-bayramdır" (atalar sözü);

*5)* səmərələşdirmə – gərginlik yaradacaq halın gücünü azaldacaq təskinliklərdən istifadə etmək, məsələn, "əl ətə çatmayanda xarabdır deyilər" (atalar sözü);

*6)* intellektualizasiya – insan hissi elementləri özündən uzaqlaşdıraraq hər şeyi intellektual ölçülərlə, sakitliklə dəyərləndirir (yəni, insan hadisələrə emosiyaların iştirakı olmadan, neytral baxır);

*7)* təxəyyül – fantaziyalarında, xəyallarında arzulanan gələcəyi yaradaraq rahatlıq tapmaq;

*8)* sublimasiya – arzuolunmaz impulsları arzulanan istiqamətə yönəltməyi bacarmaq;

*9)* sıxışdırılma – neqativ məsələlər şüuraltına sıxışdırılır (guya unutdu, əslində unudulmur),

*10)* kompensasiya – hansısa neqativi pozitivlə tarazlamağa çalışmaq;

*11)* əvəzləmə – öz gərginliyini kiminsə üstünə atmağa imkan verir, məsələn, evdə böyük uşaq danlananda hirsini özündən kiçikdən çıxmağa çalışır;

*12)* məqsədəuyğunluq – baş verənləri xeyrə yozmağa imkan verir (4, s. 170-172).

Psixoanaliz vasitəsilə şüuraltında mövcud olan travmaların hansı müdafiə mexanizmi vasitəsilə "gizlədildiyi" aşkarlanır və prosesin pasiyent tərəfindən dərk edilməsinə, psixikanın transformasiyasına yardım edilir. Psixoanalizdə yuxugörmənin yozulması prosesinə də geniş yer verilir (təbii ki, əgər pasiyent onu tez-tez narahat edən və yadda saxladığı yuxulardan şikayət edirsə...). Yuxugörmənin yozulması metodikası psixoanalizin ən böyük nailiyyəti hesab edilir: "...yuxugörmənin yozulması ruhi həyatda bişüurun dərkinə aparan şahanə yoldur" (Ziqmund Freyd). Yuxugörmənin yozulması məqsədilə tətbiq edilən ən populyar metodlar: 1) "yuxugörmənin material"larının (yuxugörmə zamanı ruhun işlədiyi səhnələr, obyektlər, heyvanlar, proseslər, hadisələr və s.) real həyat hadisələri və ya personajlarla əlaqəsinin təyin edilməsi metodu, 2) azad

assosiasiyalar metodu (yuxunu yada salaraq ardını real həyatda təxəyyül təsvirindən istifadə etməklə tamamlamaq); 3) dialoq metodu (pasiyentlə psixoanalitikin dialoqu əsasında yuxunun təhlilinə əsaslanır).

Qeyd edildiyi kimi, psixoanaliz vasitəsilə şüuraltında sıxışdırılmış, dərk edilməyən, "gizlənmiş" səbəblər təyin edilir. Bu metod bəzən çox uzun müddət tələb edə bilər. Lakin posttravmatik hərbi stress pozuntuları yaşayan insanlara əksər hallarda qısa vaxt ərzində kifayət qədər müsbət təsir edəcək üsul tətbiq edilməlidir. Bu zaman psixoanaliz+psixoanalitik terapiyanın seçilməsi məqsədəuyğundur, çünki psixoanaliz vasitəsilə şüuraltı travmaların səbəbi aşkarlanır və psixoanalitik terapiya vasitəsilə də pasiyenti dinləyə-dinləyə psixoterapevt onun söylədiklərinin interpretasiyasını həyata keçirir. Psixoanalitik terapiya zamanı pasiyent uzanmamalıdır, seans psixoterapevtlə "üz-üzə" həyata keçirilməlidir, terapevt öz mimikası ilə də pasiyentə öz dəstəyini nümayiş etdirməlidir (psixoanalizdə isə psixoterapevt neytral mövqedə dayana bilərdi). Psixoanalitik terapiyada da psixoanaliz kimi sözlə müalicə üsulundan istifadə edilir: pasiyent onu narahat edən həyəcan, gənginliklər, emosiyalar və s. haqqında terapevtə məlumat verir və bu proses həyata keçirildikdə terapevt elə şərait yaradır ki, pasiyent danışdıqca psixoloji baxımdan yüngülləşsin. Qətiyyən pasiyenti hər hansı problemi yaşadığına görə günahlandırmaq olmaz. Hətta bəzi məsələləri birlikdə müzakirə edərək ortaq məqsədlərə gəlmək olar. Psixoanalitik terapiyanın metodları əsasən növbəti prinsiplərə əsaslanır: 1) insayt-oriyentasiyalı (anlamaq xarakterli) psixoanalitik terapiya; 2) supportiv (dəstək xarakterli) psixoanalitik terapiya. İlkin variantda adlarından da göründüyü kimi, pasiyentin problemləri araşdırılır, ikinci variantda isə dəstək nümayiş etdirilir. İkinci variantda psixoterapevt aktiv diskussiya etməyi bacarmalıdır, hətta tez-tez pasiyenti hansısa uğurlarına görə tərifləməlidir və s. Psixoanalitik metodlar istənilən halda aşağıdakı mərhələləri keçməlidir: 1) konfrantasiya (fransız sözü olub mənası qarşıdurmadır) – bu zaman psixoterapevt təyin etməlidir ki, pasiyent şüuraltında nəyə qarşı senzura yaradıb; 2) aydınlaşdırma – psixoterapevt hissə-hissə hər bir şeyi təsnif etməli, yerbəyer etməlidir; 3) interpretasiya; 4) mükəmməl şəkildə emal etmək (yardım etmək, həll etmək və s.).

Nəticə olaraq qeyd edilməlidir ki, HPT yaşayanlarla problemin ağırlıq dərəcəsi və pasiyentin fərdi-psixoloji resursları nəzərə alınmaqla psixoanaliz, psixoanalitik terapiya və digər kompleks psixoloji xidmət tədbirləri həyata keçirilə bilər. Qızıl qayda isə ondan ibarətdir ki, "nəticəsi uğurlu olan hər bir metod düzgün seçilmişdir!" Həyata keçirilən psixoloji xidmət işi aşağıdakı mərhələləri özündə əks etdirir:

1. HPT-nin yaranma səbəbi, tarixçəsi barədə ətraflı məlumat toplamaq lazımdır ki, növbəti addımlar zamanı həssas məqamlara toxunulmasın;
2. Pasiyentin fərdi-psixoloji keyfiyyətləri haqqında ətraflı məlumata malik olmaq (psixoloji portretin dəqiq psixodiaqnostikasını həyata keçirmək);

3. Psixoloji xidmət proqramının seçilməsi və tətbiqi prosesi.

Qazilərin, veteranların normal həyata reabilitasiyasına müsbət təsir edən aşağıdakı addımlar HTP yaşayanlara göstərilən psixoloji yardımın uğurunu daha da artırır və prosesi asanlaşdırır:

- döyüşdən evə qayıdanların layiqli şəkildə qarşılanması;
- döyüşdə iştirak edənlərin sosial statuslarının və döyüşmələrinin sosial əhəmiyyətinin ictimaiyyət tərəfindən tanınması, dəyərləndirilməsi;
- döyüşdə iştirak edənlərin statuslarının daha yüksək olmasının ictimaiyyət tərəfindən qəbullanması;
- döyüş iştirakçlarının hər hansı həssas duruma qarşı fərqli psixi reaksiyalar nümayiş etdirmələrinin anlayışla qarşılanması;
- döyüş iştirakçılarının aktiv ictimai işlərə cəlb edilməsi;
- ailədə döyüş iştirakçılarına maksimum qayğı və məhəbbətlə yanaşılması (psixoloji rahatlıq üçün əlverişli psixoloji iqlimin yaradılması);
- döyüş iştirakçılarının iştirak etdiyi hər hansı şəxsiyyətlərarası konfliktə dərhal müdaxilə edib onun konstruktiv həllinə yardım edilməsi;
- zaman-zaman döyüş iştirakçılarının cəmiyyətdə yaşadıqları sosial stratifikasiyanın (lat. stratum "lay" + facio "edilən") aradan qaldırılması.

## ƏDƏBİYYAT


1. *Bayramov Ə.S., Əlizadə Ə.Ə.* Psixologiya: Dərs vəsaiti. Bakı: Çinar-çap, 2002, 620 s.
2. *Əliyev R.İ.* Psixologiya: Dərs vəsaiti. Bakı: Nurlan, 2008, 352 s.
3. *Qasımoğlu N.* Qurani-Kərim. Bakı: Azərbaycan, 1993, 368 s.
4. *Qurbanova L.M.* Psixi sağlamlıq: Dərs vəsaiti. Bakı: Azəri (Sumqayıt), 2019, 216 s.
5. *Караяни А. Г.* Военная психология: Учебник и практикум для вузов. Москва: Юрайт, 2021, 593 с.
6. Bişkek protokolu / https://az.wikipedia.org/wiki/Bi%C5%9Fkek_protokolu
7. Vətən müharibəsi / https://president.az/az/pages/view/azerbaijan/karabakh2


Redaksiyaya daxil olub 23.07.2022

***УДК 159.9***

***Г.С.Ризаева***
*Азербайджанский университет языков*
*grizayeva01@gmail.com*

# ДЕТСТВО И ФОРМИРОВАНИЕ ЛИЧНОСТИ

***Ключевые слова:*** *детство, семья, формирование личности, процесс воспитания, любовь и уважение.*

Результатом процесса воспитания и самовоспитания можно назвать в человеке личность. Для того, чтобы стать личностью недостаточно родиться просто человеком, а им нужно стать. Поэтому это долгий процесс самовоспитания и воспитания. Личность всегда осознает свою неординарность, уникальность, индивидуальность. Из определяющего повседневного поведения, которое в основном составляет совокупность определенных отработанных привычек и предпочтений состоит и сама личность. Многие известные педагоги и психологи высказывали свое отношение к вопросу о личности.

Семья играет основную роль в сложном процессе формирования личности ребенка. Основы общения, которые будет в будущем развивать ребенок, закладываются именно в семье.

***G.S.Rizayeva***

# UŞAQLIQ DÖVRÜ VƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASI

***Açar sözlər:*** *uşaqlıq, ailə, şəxsiyyətin formalaşması, tərbiyə prosesi, sevgi və hörmət*

Tərbiyə və özünütərbiyə prosesinin nəticəsini insanda şəxsiyyət adlandırmaq olar. Şəxsiyyət olmaq üçün sadəcə insan olaraq doğulmaq kifayət deyil, insan olmaq lazımdır. Buna görə də bu, uzun bir özünütərbiyə və təhsil prosesidir. Şəxsiyyət həmişə özünəməxsusluğunun, bənzərsizliyinin, fərdiliyinin fərqindədir. Əsasən müəyyən vərdişlərin və üstünlüklərin məcmusundan ibarət olan gündəlik davranışı müəyyən edən şəxsiyyətin özündən ibarətdir. Bir çox tanınmış pedaqoq və psixoloqlar şəxsiyyət məsələsinə öz münasibətini bildirmişlər.

Uşağın şəxsiyyətinin formalaşmasının mürəkkəb prosesində ailə böyük rol oynayır. Uşağın gələcəkdə inkişaf etdirəcəyi ünsiyyətin əsasları ailədə qoyulur.

***G.S.Rizayeva***

# CHILDHOOD AND IDENTITY FORMATION

***Keywords:*** *childhood, family, personality formation, the process of upbringing, love and respect*

The result of the process of upbringing and self-education can be called a personality. In order to become a person, it is not enough to be born just a person, but you have to become a person. Therefore, it is a long process of self-education and nurturing. A person is always aware of his or her uniqueness, uniqueness, individuality. From the defining everyday behavior, which is basically a set of certain worked habits and preferences consists of the personality itself. Many famous educators and psychologists have expressed their attitude to the question of personality.

The family plays a major role in the complex process of forming a child's personality. It is in the family that the foundations of communication, which the child will develop in the future, are laid.

Все мы родом из детства. И это действительно так, потому что с годами наше прошлое нас не отпускает, наполняя сердце теплыми воспоминаниями. Хотя жизнь показывает, что детство не у всех было радужным, более того, многие, повзрослев, хотят о нем забыть. Вполне естественно, что из этих противоречий возникла проблема детских воспоминаний. Аргументы в пользу их влияния на человека в различные периоды его жизни есть в трудах писателей, педагогов, психологов.

Семья играет основную роль в сложном процессе формирования личности ребенка. Основы общения, которые будет в будущем развивать ребенок, закладываются именно в семье. Положительными и отрицательными факторами развития личности ребенка выступает семья. Одним из положительных факторов является то, что именно самые близкие люди: дедушка, бабушка, папа, мама, брат и сестра заботятся и любят ребенка так, как никто на свете. Отражением взрослых являются именно наши дети. Дети стараются во всем подражать своим родителям, и это закладывает на плечи взрослых ответственность, при котором, они должны контролировать каждое свое слово, каждый свой поступок. Оставлять ребенка на самотек в процессе воспитания категорически нельзя. Ребенку помогает стать личностью именно семья. Для того, чтобы правильно вести себя в тех или иных ситуациях, правильно поступать в трудных ситуациях, также помогает семья. Родительская любовь служит важнейшим формирующим фактором в формировании личности ребенка. Лишая ребенка любви, мы можем сделать так, что он будет замкнутым, неуверенным в себе, с апатичным взглядом на жизнь. Если привести, как пример детей из детского дома, то мы можем наблюдать то, что у многих из них какой-то бессмысленный, безразличный взгляд, пессимистичный настрой к жизни. Они очень часто чувствуют себя ненужными людьми. Обычно, становление личности у этой категории детей происходит намного позже, чем у детей, которые получали любовь, ласку, внимание в семье. Поэтому, получая безусловную любовь в семье, ребенок как бы получает основу, почву для развития целостной личности. На формирование духовного благополучия и

равновесия ребенка, и на развитие гармоничной личности также влияет семья. Глубокий смысл содержит сам термин личность. Этот термин применяется во многих науках: философии, социологии, психологии, педагогике.

Результатом процесса воспитания и самовоспитания можно назвать в человеке личность. Для того, чтобы стать личность недостаточно родиться просто человеком, а им нужно стать. Поэтому это долгий процесс самовоспитания и воспитания. Личность всегда осознает свою неординарность, уникальность, индивидуальность. Из определяющего повседневного поведения, которое в основном составляет совокупность определенных отработанных привычек и предпочтений состоит и сама личность. Многие известные педагоги и психологи высказывали свое отношение к вопросу о личности. При этом они говорили о том, что ребенок является личностью. Недопустимы в отношении ребенка какие-то телесные наказания, стрессовые ситуации, унижения и оскорбления. Обязательным условием становления личности ребенка являются любовь и уважение. О том, что страх является самым негативным фактором в становлении личности ребенка писал еще выдающийся русский невропатолог, психиатр Владимир Михайлович Бехтерев. Он говорил о том, что именно страх препятствует тому, что ребенок не проявляет инициативу, убивает в нем впечатлительность, не дает ребенку правильно воспринимать окружающий мир. Он писал о том, что нужно не пугать, не наказывать ребенка, а в доступной форме представлять ему информации. В этом случае ребенок будет развиваться как личность гармонично (3, с.54-55). Очень сложным, длительным и противоречивым процессом является человеческое развитие. Особенно интенсивно в детстве происходят изменения в детском возрасте. Они затрагивают физическую, психологическую и духовную сферу человека. Развитие не ограничивается простым накоплением определенных изменений и прямым поступательным движением от самого малого до самого высокого. В это время происходят различные переходы от количественных до качественных изменений в личности ребенка. Именно в это время происходят изменения, которые формируют его отношение к окружающим людям. Для того, чтобы оно было правильным, нужно в правильном направлении развивать ребенка и приводит ему такие примеры, которые смогли бы направить его в правильное русло формирования личности ребенка. В работе, учебе, в историческом существовании человека формируется сама личность. В различных группах и командах, где начинает личность обучаться и воспитываться, идет процесс формирования личности.

Детство является важным периодом в развитии личности. В отношении личности детство имеет решающее значение. Так как, все те качества личности, которым он будет характеризоваться как личность в

будущем, формируется в детстве. Все основные черты, связанные с мотивацией, стилистические черты личности формируются в детстве (4 с.225). Первое относится к интересам человека, целям, которые он ставит перед собой, его основным потребностям и поведенческим мотивам. Инструментальные черты включают в себя предпочтительные для человека средства достижения соответствующих целей и удовлетворения реальных потребностей, а стилистические черты – это темперамент, характер, манеры. К концу школьных лет личность в значительной степени формируется, и индивидуальные черты личного характера, приобретенные ребенком в школьные года обычно на разных уровнях сохраняются и в позднем жизненном цикле. В развитии личности каждый возраст несет существенный вклад. Главными периодами жизни, которые формируют человека как личность, являются периоды начиная с дошкольного возраста до поступления в школу. Именно в этот период формируются основные стилевые и в некоторой степени инструментальные черты личности, сначала (в раннем детстве) от взаимодействия генотипа и окружающей среды, а затем (к более старшему дошкольному возрасту) уже начинают развиваться. В дошкольные годы формируются предрасположенности, но чувствительный период развития способностей, основанных на них, длится до конца школьных лет.

Младший школьный и ранний подростковый возраст – это период интенсивного развития способностей, а более старший период – наиболее благоприятный период для развития нравственности, мировоззрения, определенных жизненных установок.

Периоды правильного личностно-познавательного развития детей в основном не чередуются, как об этом описывается в периодах психологического развития, а перекрываются онтогенезом и переплетаются усложненными примерами. Нужно отметить, что когда мы говорим об интеллектуальном развитии в соотношении личностного развития, то это происходит намного интенсивнее, чем личностное развитие. И тут нужно говорить и о том, что процессы когнитивного развития также коротки, чем периоды развития личности. В сравнении интеллектуального и личностного развития можно смело говорить о том, что интеллектуальное развитие опережает личностное. Так как интеллектуальное развитие проходит шесть периодов (младенческий, раннее детство, дошкольный период, начальные классы, ранний подростковый и подростковые возрасты), тогда как личностный всего лишь четыре. Двое из перечисленных периодов это дошкольный (от самого рождения до трех лет и от трех до шести лет), а двое периоды школы (от шестилетнего возраста до десяти, одиннадцати, двенадцати, до пятнадцати, шестнадцатилетнего возраста). Более того, весь процесс развития личности обычно заканчивается позже, чем само

интеллектуальное развитие, и как правило, простирается и на периоды после школы. Становление личности ребенка происходит в школьные годы, а заканчивается периодом окончания школы, с обретением социальной и психологической независимости, с приобретением чувств, дающих ему внутреннюю свободу (2, с.7). Все это формирует высокоразвитую личность. Пути для продолжительного морального самосовершенствования, различные тупиковые ситуации, с которыми может сталкиваться личность, хорошо описаны известным психологом Э.Фроммом. Со временем в раннем детстве человек приходит к пониманию того, что его мама и другие люди, которые окружают его, нечто отдельное, чем он сам. В этом ему помогает, способность применять манипуляцию предметами и исследовать их, управлять ими и учиться мысленно. Через определенное время ребенок присваивает себе мир вещей и людей вокруг него и отделяет себя от него через деятельность, общение, осуществляемое взрослыми по отношению к нему.

Постепенно в периоды взросления детей, после разрыва его первичных физиологических и социально психологических связей с матерью, с другими лицами, которые заменяют и дополняют его в детстве, у него развивается стремление к личной самостоятельности и временной свободе. Последующие этапы, когда происходит физическая самостоятельность (когда ребенок отдаляется от матери); самостоятельность физиологически (появляется способность самостоятельно удовлетворять органические потребности); психологическая самостоятельность, понимание свободы, умение мыслить и действовать исходя с принятыми своими принципами, моралью. В современном обществе, где возрастают такие чувства как индивидуализм, независимость, эмансипация, всегда есть место для человеческих, но и для нечеловеческих отношений, ощущение покинутости может возрастать. В силу того, как ребенок становится все более изолированным, он чувствует себя одиноким, пишет Э.Фромм. Это одиночество приводит к ощущению беззащитности и страха. Одной из главных проблем в этот период может быть то, что это может помешать личностному развитию детей в социуме, которое строится на соперничестве между людьми, не обладающими высокими моральными и культурными ценностями. Сложность заключается в том, что человек не получает той моральной поддержки, которую он ожидает от окружающих, и он вынужден просто защищаться от них и психологически, и физически. Растущая тяга к индивидуальности приводит или к подчинению окружающим, или к угнетению других, либо к изоляции от этих людей. С начало, чтобы избавиться от чувства страха и тревоги, дети стараются быть такими же, как они, подчиняются им и превосходят их (1, с.114-116). Но для этого необходимо полностью или частично отказаться от собственного «я», быть

личностью.

Во втором случае отношения с людьми приобретают неравную характеристику, несмотря на это ребенок начинает развиваться как личность, используя других людей, при этом свое личностное развитие останавливается, так как рядом нет людей, с кого бы он взял пример. Таким образом, возникают два основных типа личности, типичных для недемократической, тоталитарной государственной системы: конформистский тип, не имеющий эго, и авторитарный, деспотичный тип, лицо которого искажено гримасой, выражающей все, что угодно, но только не лучшее из человеческих побуждений и чувств.

В третьей категории психологически изолированного человека происходит тогда, когда отношения между, казалось бы, свободными, независимыми людьми основываются именно на рыночных. К примеру, я тебе, ты мне. В таких условиях нравственный человек будет развиваться лишь тогда, когда он отделяет себя от общества единомышленников, не имеющего глубокой нравственной основы. Это приводит к типу человека, который добровольно отдалился от людей, дабы не быть в центре бесчеловечных человеческих отношений. Самый последний путь предлагает пространство для целостного развития личности. Эта дорога к укреплению и самосовершенствованию человека, как личности. Под влиянием разных социальных институтов происходит развитие личности в детстве. Это семья, школа, внешкольные учреждения, влияние средств массовой информации (интернет, радио, телевидение) и также прямого общения между ребенком и людьми, которые его окружают. Количество социальных учреждений, вовлеченных в формирование личности ребенка, и их воспитательная ценность различаются в разных возрастных группах развития личности. В процессе личностного развития ребенка от рождения до третьего года жизни доминирует семья, и с ней в первую очередь связаны ее основные личные трансформации. В дошкольные годы к влиянию самых близких людей примыкает и общение со своими одноклассниками, с посторонними взрослыми и использование доступных средств массовой информации. Когда ребенок поступает в учебное заведение, перед ними открываются новые примеры влияния через своих одноклассников и учителей. Также происходит расширение мировоззрения за счет чтения художественной литературы, общения, через средства  массовой информации. Все это также формирует личность ребенка. Следующим этапом является подростковый период, когда ребенок получает столько информации и общения, что все эти процессы меняют его как личность, создают именно тот образ, к которому он стремиться.  Ребенок становится независимым, автономным. Это происходит не только физически, а также и психологически.

Эмоциональное состояние ребенка тесным образом взаимосвязано с

семьей. Это сильный фундамент для будущих отношений с другими людьми, которые будут окружать его по жизни. Именно семья служит площадкой для душевного состояния ребенка. Получая положительную энергетику в семье, ребенок учится взаимодействовать с людьми. Поэтому ключевым вопросом в семье нужно считать вопросы, связанные с воспитанием.

Гармоничный стиль в семейном воспитании имеет характеристику, при котором присутствует взаимное принятие, чувство эмпатии, удовлетворение определенных потребностей ребенка; принятие его прав, признание самоценности, изменения систем воспитания, связанных с различными возрастами ребенка.

Если же в семье присутствуют дисгармоничные отношения и стили воспитания, то это, безусловно, недостаток приятия ребенка, эмоциональная отверженность, недостаток взаимных чувств, отсутствие сплоченных родителей, противоречивость в семье, непоследовательность в требованиях, завышенный уровень притязаний к ребенку, сильный контроль со стороны родителей. Д.Баумринд подчеркивал в основном четыре вида воспитания: 1) авторитетный, 2) авторитарный, либеральный 4) индифферентный. Они в основном опираются на две категории. Первая в основном состоит из степени эмоциональной близости, которая отражается в виде родительской теплоты к своему ребенку, а вторая категория связана со степенью контроля за поведением ребенка.

При авторитетном стиле родители всячески проявляют любовь и заботу к своему ребенку, показывая на личном примере, как нужно жить и как нужно поступать. Поэтому эти родители предпочитают демократический стиль общения со своим ребенком и если нужно будет, то они могут поменять свои требования, исходя из тех изменений с чем они сталкиваются при воспитании ребенка.

Авторитарный стиль общения является полной противоположностью другим стилям воспитания. Здесь воспитание будущего поколения строится в основном на требовании, беспрекословном подчинении, безапелляционности, на угрозах и требованиях.

Либеральный тип воспитания также имеет свои нюансы. При этом виде воспитания, исходя из большой любви родителей к детям, все дозволяется, все прощается, никаких целей и задач не ставится перед детьми.

Интересным является и индифферентный стиль воспитания. Это всегда холодное отношение к ребенку, безразличие к развитию и к делам ребенка. Фактически он предоставлен сам себе.

Безусловно, по мере развития и роста ребенка, роль семьи в жизни ребенка утрачивает свою значимость. Это уже не те отношения, которые были между матерью и ребенком во младенческом возрасте. В целом семья начинает активно влиять на ребенка с раннего возраста, когда ребенок

овладевает речью и правильной осанкой, и имеет возможность поддерживать разнообразные контакты с различными членами семьи. В первые годы жизни воспитательное влияние семьи, по существу, ограничивается различными воздействиями на эмоциональность ребенка, а также на поведение ребенка – соблюдение элементарных дисциплинированных и гигиенических норм и правил. В дошкольном возрасте помимо описанных семейных воздействий существуют воздействия, направленные на формирование у детей любознательности, правильной самооценки, стремление к веселью, общению, дружелюбию. Также формирует нравственные устои личности, которые в основном проявляются в основном в общении с людьми. Это приличия, чувство чести и достоинства, милосердие, доброта и т. д. Здесь в воспитании детей принимает участие не только родители, но и сверстники, с кем он проводит много времени. Так они играют, общаются вместе.

Когда ребенок начинает школьную жизнь, образовательное семейное влияние становится слабым, так как она успешна конкурирует со школой. В настоящее время ребенок проводит значительное количество своего времени вне дома, общаясь со своими сверстниками и учителями. Поэтому в таких условиях говорить о том, что влияние семьи является главным не приходится. Осознавая это, семья все свои усилия направляет на воспитание в ребенке личностных качеств, которые необходимы для успешного обучения и взаимодействия со своими сверстниками в школе. Однако в первые школьные годы семейное влияние и воздействие школы является практически одинаковыми. Но, начиная с подросткового периода, жизнь и формирование подростка радикально меняется. Начинается личностное и деформирующие изменения подростка. Он меняется на глазах. На это оказывает влияние и семья, и общение подростка. Люди, которые окружают подростка, практически кардинально его меняют. Меняют его характер, манеру общения, отношение к людям. Он начинает разбираться в людях, понимает, что есть хорошо, а что есть плохо. Если в это время семья смогла сохранить хорошие отношения с подростком, то семья может оставаться доминирующим институтом положительного социального и психологического влияния на протяжении длительного периода созревания. Если отношения конфликтны и не однозначны, то семья теряет авторитет над ребенком. В раннем подростковом возрасте для подавляющего большинства детей влияние вне семейных учреждений начинает превалировать над семейным воспитанием. Дальнейшее развитие ребенка предполагает строго индивидуальное и личностное развитие. То есть именно с этого периода каким он будет, и как он сможет служить обществу и людям, зависит от него самого. Семья здесь не играет определенно никакой роли. Так как семья не может постоянно находиться или контролировать его.

Приведем пример Гарбузова, который выделяет три стиля

дисгармоничного воспитания:

Первый стиль, это когда есть неприятие; эмоциональное отвержение, непринятие каких-то личностных качеств ребенка, и попытка «переделать» ребенка на свой лад. Здесь происходит то, что родители начинают всячески контролировать жизнь ребенка, вмешиваться во все его дела. Иногда бывает и так, что родители дабы наказать ребенка, могут отказаться от ребенка, помещая его в интернат. Такая ситуация может произойти с матерью-одиночкой, которая не справляется со своими обязанностями и считает, что она должна воспитать ребенка в строгости. Первый стиль также может сопровождаться с полным попустительством со стороны матери. То есть она может и не заниматься ребенком, его воспитанием. И по большому счету этот стиль повторяет авторитарный стиль воспитания.

Второй стиль воспитания также имеет свои нюансы. В этом стиле воспитания, наоборот, мать мнительно относиться к ребенку. Волнуется за каждый его шаг, контролирует все его действия. Мамы очень волнуются за то, какое место займет ребенок среди своих сверстников. Поэтому они всячески нагружают ребенка. Это может быть одновременно занятия в школе, рисование, лепка, спорт, иностранные языки. Это может привести к тому, что ребенок просто не выдержит такой график, и у него может начаться психологическая и физическая депрессия.

Третьим стилем дисгармоничного воспитания является эгоцентричное воспитание. Этот стиль характеризуется тем, что все внимание семьи направлено на одного ребенка, в ущерб другим детям. В этом случае дети растут эгоцентричными. Они требуют к себе постоянного внимания. Они бывают эмоционально неустойчивыми. Самым правильным и гармоничным стилем воспитания является авторитетный стиль воспитания. Здесь перед ребенком всегда ставятся последовательные и ясные требования, и происходит полное принятие своего ребенка, в зависимости от его способностей и умений.

Влияние специализированных внешкольных образовательных учреждений не является постоянным фактором развития личности ребенка, поскольку не все дети имеют возможность посещать эти учреждения. Нужно отметить, что характер их работы, педагогический состав этих учреждений существенно различается и поэтому говорить о том, что они влияют одинаково не стоит. У детей в этих учреждениях обычно есть интересы и занятия, которые их привлекают, и они находят много хороших примеров для подражания среди взрослых, которые там работают. Образцом подражания для ребенка может быть тренер команды или просто старший друг в группе друзей, с которыми они делятся интересным занятием. Все социальные институты оказывают непосредственное влияние на развитие личности ребенка. Это развитие может идти хорошо только при достаточно

благоприятных отношениях, в которых система создана и работает взаимная поддержка, доверие, открытость, есть искреннее желание общаться друг с другом, люди самоотверженно помогают друг другу, способствуют развитию друг друга как личности. В плохих отношениях, наоборот, препятствия стоят на пути личного совершенства, потому что в этом случае происходит недоверие со стороны людей друг к другу, в отношениях показывают себя с негативной стороны, отсутствует желание помогать друг к другу.

Как считает А.Н.Леонтьев: «Развитие личности ребенка находит свое выражение в изменении иерархии мотивов деятельности». Все мотивы часто меняются. То есть одни мотивы заменяют другие, которые приводят и к изменению личности ребенка. Происходит трансформация личности и в общении, и в деятельности. Поэтому важными являются следующее:

1. Не нужно пытаться изменить ребенка. Нужно его взросление принимать таким, какой он есть.

2. Не нужно ущемлять права и гордость ребенка.

3. Нужно дать возможность ребенку определять что для него важно именно сейчас. Конечно, в рамках дозволенного.

4. Нужно озадачить ребенка взрослыми поручениями. Не нужно смотреть на него как на беспомощного. Пусть даже он справляется с этими задачами не так, как вы.

5. У ребенка должно быть право выбора. В общении предпочтение нужно отдавать просьбе, а не приказу.

6. Не нужно конфликтовать с ребенком. Если даже происходят оскорбления с его стороны, нужно интонацией и мимикой показывать ребенку, что вы не ожидали от него этого поступка. От такого отношения он скорее исправится, чем от оскорбительных слов в его адрес.

7. Нужно использовать ролевые игры, как бы переключая ребенка на другие действия.

Из всего вышесказанного можно сделать вывод, что процесс формирования личности ребенка начинается с первого года жизни, но происходит поначалу скрытно от внешнего наблюдателя. О том, что формируется в личности ребенка в эти годы, мы можем судить в основном ретроспективно, отслеживая происхождение тех личностных качеств, которые уже сформировались и проявляются только в более позднем возрасте. Например, многие черты характера обладают этими качествами: дружелюбие, коммуникабельность, отзывчивость, внимательность, доверие к людям. Трудно предположить, что они врожденные, но все же основание полагать, что истоки этих качеств уходят глубоко в раннее детство и корнями в опыт общения и взаимодействия со взрослыми, который есть у младенца на первом году жизни. Раннее формирование личности можно связать с формированием у ребенка уверенности в себе. А уверенность в себе

появляется только в тех семьях, где ребенка воспитывают в любви и гармонии.

**ЛИТЕРАТУРА**

1. *Князев Е.К.* Владимир Бехтерев: создание института человека: журнал для студентов высших учебных заведений // Дошкольное воспитание, М.: Академия, 2013, № 6, с.112-116
2. *Кулагина И.Ю.* Возрастная психология: Учебное пособие для студентов высших учебных заведений. М., 1999, 250 с.
3. *Листик Е.М.* Влияние стиля воспитания на эмоциональное развитие детей дошкольного возраста: журнал для студентов высших учебных заведений // Дошкольник. М.: Академия, 2014, №6, с.53-55
4. *Сидоров К.Р.* Самооценка в психологии: журнал для студентов высших учебных заведений // Мир психологии. М., 2006, с.224-230

Redaksiyaya daxil olub 30.07.2022

***UOT 37.01***

***P.H.Rzayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*rzayeva_1984@bk.ru*

# "ŞƏRQ QADINI" JURNALINDA KİÇİK YAŞLI UŞAQLARIN ƏXLAQ TƏRBİYƏSİ HAQQINDA

***Açar sözlər:*** *"Şərq qadını", jurnal, nəşr, tərbiyə, ana, uşaq, əxlaq*

XX əsrin əvvəllərində çap olunan "Şərq qadını" jurnalı anaları maarifləndirmək məqsədilə kiçik yaşlı uşaqların tərbiyəsinə dair müxtəlif məzmunlu yazılar təqdim etmişdir. Uşaqların fiziki, əxlaqi, əqli, ailə, iradə tərbiyəsinə dair yazılmış məqalələr bu gün də öz aktuallığını saxlamaqdadır. Bu məqalədə əxlaq tərbiyəsinə dair jurnalda çap olunmuş pedaqoji yazılar təhlil olunmuş və tərbiyəvi təsir imkanları göstərilmişdir. Uşaq ilkin tərbiyəni ailədə aldığı üçün jurnal anaların bu pedaqoji biliklərə yiyələnməsini vacib hesab edirdi. Jurnalda kiçik yaşlı uşaqların əxlaq tərbiyəsi mövzusunda analara asan praktik biliklər verilir və qarşılaşacaqları çətin vəziyyətlərdə necə davranacaqlarına dair yollar göstərilir.

***П.Г.Рзаева***

# О НРАВСТВЕННОМ ВОСПИТАНИИ ДЕТЕЙ МЛАДШЕГО ВОЗРАСТА В ЖУРНАЛЕ "ШАРК КАДЫНЫ"

***Ключевые слова:*** *"Шарк кадыны", журнал, издание, воспитание, мать, ребенок, нравственность*

В журнале «Шарк кадыны» («Восточная женщина»), выходившем в начале XX века, были представлены статьи различного содержания о воспитании детей раннего возраста в целях воспитания матерей. Статьи, написанные о физическом, нравственном, умственном, семейном и волевом воспитании детей, актуальны и сегодня. В данной статье анализируются педагогические статьи, опубликованные в журнале по нравственному воспитанию, и показываются возможности воспитательного воздействия. Поскольку начальное образование ребенок получает в семье, журнал считал важным приобретение матерями этих педагогических знаний. В журнале матерям даются легкие практические знания о нравственном воспитании детей раннего возраста и способах поведения в трудных ситуациях, с которыми они столкнутся.

***P.H.Rzayeva***

**ABOUT MORAL EDUCATION OF YOUNG CHILDREN IN "SHARG GADINI" JOURNAL**

***Keywords**: "Sharg gadini", journal, publish, upbringing, mother, child, morality*

The magazine "Sharg gadini", published in the early twentieth century, presented various articles on the upbringing of young children for the education of mothers. Articles on the physical, moral, intellectual, family and will education of children are still relevant today. This article analyzes the pedagogical articles published in the journal on moral education and shows the possibilities of educational impact. Since the child received his first upbringing in the family, the magazine considered it important for mothers to acquire this pedagogical knowledge. The magazine provides easy practical knowledge for mothers on the moral education of young children and shows them how to behave in difficult situations.

## Giriş

Əxlaq cəmiyyətdə insanın əməl etmək məcburiyyətində olduğu davranış qaydalarıdır. Əxlaq bir inanc və düşüncə sistemi, mənəvi dəyərdir. Əxlaq olmazsa cəmiyyət də olmaz, yəni insanlar əxlaqsız bir arada yaşaya bilməz. Əxlaqın varlığı bir təbiət qanunudur. Suyun olduğu yerdə necə ki, həyat var, insanların olduğu yerdə də əxlaq var. Böyüyən nəslə əxlaqi dəyərlərin öyrədilməsi də bu baxımdan önəmlidir. Sağlam bir cəmiyyətin formalaşması fərdlərin sağlam olmasına bağlıdır. Gələcəyini qarant altına almaq istəyən cəmiyyətlər əxlaqlı bir nəsil yetişdirmək üçün səy göstərmişlər.

Sovet hakimiyyəti də yeni qurulduğu bir vaxtda yaxşı başa düşürdü ki, gələcək cəmiyyətin taleyi anaların öz uşaqlarına verdiyi tərbiyədən çox asılıdır. Çünki uşaq ilkin tərbiyəni ailədən alır. Analar isə öz övladlarının tərbiyəsində əsasən öz dünyagörüşlərinə və özlərinin tərbiyə olunduğu təcrübəyə əsaslanır. Nəticələr isə onu göstərirdi ki, bu təcrübədə köklü dəyişiklik etmək lazımdır. Bu dəyişikliyin əsas mexanizmi isə daha çox kütləyə xitab edə biləcək bir jurnalın olması idi. Beləliklə, 1923-cü ildə "Şərq qadını" adlı əbədi-bədii, ictimai-siyasi, pedaqoji tipli yazıları ilə qadınların maarifləndirilməsinə istiqamətlənmiş jurnal işıq üzü görməyə başladı.

Jurnal təkidlə qeyd edir ki, qadınların elm və maarifdən, bəşəri hüquqlardan məhrum edilməsi övlad tərbiyəsinə çox böyük ziyan vurur, çünki gələcək cəmiyyətin taleyi ananın öz uşağına verdiyi tərbiyədən çox asılıdır.

"Şərq qadını" jurnalı anaları maarifləndirmək məqsədilə tərbiyənin müxtəlif istiqamətlərində mövzular təqdim etmişdir. Jurnalda kiçik yaşlı uşaqların əxlaq tərbiyəsinə dair mövzular üstünlük təşkil edirdi və qeyd olunurdu ki, tərbiyəvi təsir uşaqların təkcə hərəkətlərinə deyil, düşüncə və hislərinə də təsir etməlidir.

Azərbaycan ədəbi mühitində təlim və tərbiyə ilə yanaşı, pedaqoji fikir mühitinin formalaşmasında Osmanlı mədəniyyətinin də izi vardır. Belə ki, Şərqdə ilk demokratik cümhuriyyət olan Azərbaycan Demokratik Cümhuriyyəti yaradıldıqdan həmən sonra təhsilə, maarifə, tərbiyə işinə önəm verdi. Bu işi daha incəliklə həyata keçirmək üçün hökumətin dəvəti ilə Osmanlıdan 50 nəfər türk müəllim ölkəyə dəvət edildi [14, s.250; 13, s.171; 10, s.21; 11, s.73].

Jurnalda tərbiyə mövzusunda yazılan məqalələrin böyük əksəriyyətinin müəllifi türkiyəli pedaqoq Xəlil Fikrət olmuşdur ki, onun fikrinə görə kiçik yaş dövrü yaxşı və pis alışqanlıqların qüvvətli bir surətdə kök salmağa başladığı dövrdür. Böyüklər üçün əhəmiyyətsiz görünən məsələlərin uşaq üçün daima bir həyati əhəmiyyəti vardır. Uşaqları tərbiyələri nöqsanlı olan tərbiyəçilərin öhdəsinə təslim etmək, uşaqların həm səhhət, həm də tərbiyəsi nöqteyi-nəzərindən bağışlanmaz qüsur və qəbahətdir [1, s.34].

Uşaqlarda baş verən cəsarətsizlik və qorxaqlıq kimi halların əmələ gəlməsini bu zamandan baş verdiyini bildirən müəllif yazır ki, uşaqlar oynayarkən, qaçarkən bəzən yıxılırlar, bir-birlərini incidirlər. Bu kimi hallar zamanı valideyn sükutu pozmamalı, heç bir şey olmamış kimi davranmalıdır. “Sənə nə oldu?” “Haranı əzdin?” “Vay-vay” kimi qorxaq və əsəbi sözlərin faydası yox, amma zərəri vardır. Bu vəziyyətdə uşağı çox əzizləmək olmaz. “Özü yıxılan ağlamaz” qaydası uşaqlara bu dövrdən tətbiq edilməlidir. “Əks təqdirdə cocuqlar cəsarətsiz və nazlı olurlar və irəlidə həyatın çətinlikləri qarşısında daim əzəmətsiz qalır və məğlub olurlar” [2, s.36].

Belə vəziyyətlərdə sakit olmaq, problem nədirsə soyuqqanlılıqla, həllinə istiqamətlənmək lazımdır. Bu zaman baş verən problemi olduğundan kiçik göstərməyə çalışmaq, uşağın mənəviyyatını yüksəldəcək sözlər, məsələn, bir yeri qanamışsa: “heç bir şey yoxdur, mən elə bildim nə isə olub, tezliklə keçib gedər” kimi sözlərlə uşağın keyfini yerinə gətirməlidir. Əgər valideyn əksinə hərəkət edərsə, uşaq ağlamasa da ağlayacaq. “...Doktorların təcrübələri meydana qoymuşdur ki, çocuğun əsəbiyyət göstərən anası, atası çocuğun mənəviyyatını bozarsa, xəstəlik beş gündə keçəcəksə on gündə keçər” [3, s.78].

Uşağın əxlaqi və iradə tərbiyəsindən bəhs edən jurnal analara məsləhət görür ki, əxlaqi tərbiyədə əvvəlcə bir qisim hisslərin tərbiyəsini diqqət mərkəzində saxlamaq lazımdır. Bu ümumi hisslər: “Xoşa getməyən bir taqım intibalara və hissiyata çocuğu hakim etməklə çalışmaq” [3, s.78]. Bunun üçün ən birinci şərt dayələrin, ana, atanın uşağa nümunə olmasıdır. Başqa bir məqalədə göz tərbiyəsində söyləndiyi kimi, xoş olmayan və çirkin heyvanların uşağa göstərilməsi ona görə vacibdir ki, sonrakı zamanlarda uşaq xoşuna gəlməyən bəzi şeyləri gördüyü zaman əsəbi olmasın.

“Uşaqlar sözdənsə hərəkətlərlə daha çox tərbiyə olunur” fikrinə üstünlük verən jurnal yazır ki, valideynlər çox vaxt düşünmürlər ki, uşaqlar təqlidçidirlər. Uşaqlar anasının, atasının, dayənin və hətta tez-tez təmasda olduğu insanların

hərəkətlərində, üzlərində gördüyünü daim təkrar edir. Üz ruhun aynasıdır. Uşaqlar qarşılarında hirsli, əsəbi, kefsiz insanlar görürsə, o da zaman keçdikcə əsəbi, hirsli, qaraqabaq olur. "Təcrübə ilə sabitdir ki, nəşəli olmayan bir ruh çabuq xəstə olur. Nəşə bir növ qüvvəyi-mənəviyyatdır. İnsan azarlı olduğu zamanlarda belə nəşəsini itirməzsə azarlılıq tez yox olur" [3, s.78].

Buna görə də uşaqlara qarşı daim şən olmalı, onlarla bol-bol gülməli, oynamalıdır. Gülmək səhhətin atasıdır.

Jurnal uşaqlarda itaət yaradılması fikrini müdafiə edir. Xəlil Fikrət qeyd edir ki, tərbiyənin başında itaət vardır. "İtaətin birinci çocuqluq dövründə əldə edilməsi vacibdir. Yarın çocuğa veriləcək tərbiyənin əsası itaətdədir. İtaət olmazsa tərbiyəyə gec müvəffəq oluruz" [3, s.79]. Cocuqluq dövrü bir yaşdan yeddi yaşa kimi hesab olunurdu və özlüyündə birinci və ikinci çocuqluq dövrlərinə bölünürdü. Birinci çocuqluq dövrü birinci ilin axırından ikinci, üçüncü və bəzi zəif uşaqlarda dördüncü yaşın sonuna kimi davam edir. İkinci çocuqluq dövrü isə birinci dövrün sonundan 7 yaşa kimi olan dövrü əhatə edir.

Xəlil Fikrət bu barədə olan müxtəlif fikirləri izah edib göstərir ki, bəziləri itaətə əhəmiyyət verilməsini istəməzlər, çünki onlar itaət ilə uşağın fərdiyyətinin əziləcəyini düşünürlər. Fərd sərbəst inkişaf etmək istərsə, əsarət çəpərindən keçməməlidir. "İtaət insanı həqir və alçaq ruhlu yapar" [3, s.79]. Lakin o, bütün bu deyilənlərin əksinə çıxaraq qeyd edir ki, itaət həm fərdi, həm də ictimai nöqteyi-nəzərdən lazımdır. Fikrini sübut etməyə çalışaraq yazır: "İctimai bir həyatda yaşayan insanların çox şeylərə itaət etmələri məcburidir. Dövlətin qanunlarına, ictimai əxlaqın düsturlarına itaət bəşər üçün müqərrərdir" [3, s.79]. Bundan sonra o, itaətin kor-koranə olmaması, şüurluluq şəklinə tədricən keçməsi mərhələsinin olacağını göstərir. Müəllif Jan Jak Russonun da itaətə qarşı çıxdığını bildirir. "Jan Jak Russonun fikrincə, cocuq tərbiyəsi lüğətində itaət qalxmalıdır" [3, s.79].

Jurnalda birinci uşaqlıq dövründə uşaqlarda yalan danışmanın səbəbləri və aradan qaldırılması yolları göstərilir. Xəlil Fikrət qeyd edir ki, birinci cocuqluq dövründə uşaqlarda yalançılıq, xudbinlik, pislik kimi mənfi xüsusiyyətlərdən çəkindirmək lazımdır.

Uşaqlarda yalançılıq müxtəlif səbəblərdən irəli gəlir. Bəzən uşaq anladacağı şeylərə xəyal qarışdırır, bu zaman xəyal ilə həqiqəti tapdırmaq lazımdır. Məsələn, uşaq bir yuxu görsə, onu bizə həqiqətən yaşamış bir hadisə kimi danışar. Çünki bu yaş dövründə eqosentrik düşüncə (fərdin öz nəzər nöqtəsindən başqa hər hansı digər fikri qəbul etməməsi) üstünlük təşkil edir. Onlar canlı və cansız varlıqları tam ayırd edə bilmirlər. Yuxuda gördüklərini də həqiqətdə olmuş kimi qavrayırlar. Biz buna əhəmiyyət verməli və ona hansı cəhətlərin xəyal olduğunu tapmasına kömək etməliyik. Sonra uşaq bu gün gördüyü və yaşadığı hadisəni əvvəllər gördüyü və yaşadığı hadisələrlə qarışdırır. Bunun üçün də biz uşağın danışdıqlarını dinləməli zamana görə qarışdırdıqlarını müəyyən edib düzəliş verməliyik ki, uşaq gözəl, açıq bir dil ilə məqsədini, fikrini anlatsın. Bu iki nöqtə

yalançılığın həqiqi növləri olmasa da, bu vərdiş gələcəkdə olmuş əhvalatı başqa cür danışmağa səbəbiyyət verdiyindən, yəni həqiqi yalançılıq şəklinə girə bilər. O zaman gənc həyatında yaşadığı hadisələri kefinə görə anladar və söylədiyi məsələyə özündən bir çox əlavələr edər. Bu zaman onun söylədiyi əhvalatın doğru olmadığı anlaşılarsa, yalançılıq etdiyini hər kəs hökm edər.

Həqiqi yalançılıq qorxaqlıqdan və mənfəətdən, diqqət çəkmək üçün meydana gələn yalançılıqlardır. Bu kimi yalançılıqların uşaqda yaranmasına səbəb bəzən verilən tərbiyənin çox sərt və şiddətli olmasıdır. "Çocuq bir şüşə sındırdığı zaman: "Bunu kim sındırdısa onu gəbərtəcəyəm" şəklində söylərsək, təbiidir ki, gəbərmək istəməyən çocuq sövqi-təbii ilə sükut edər və yaxud: "And içirəm ki, kim sındırdı bilmirəm" deyər və çocuq yalan söyləyərək bir dəfə döyülməkdən qurtulursa sevinir" [4, s.29].

Bu zaman uşaq yalançılığı yaxşı bir müdafiə vasitəsi bilər. Bu fikrə və ruha malik olan bir uşağın ruhunda yalançılığın kök salması və pis bir vərdiş halına keçməsi təhlükəsi vardır. Bunun üçün nə etməli? sualını Xəlil Fikrət belə cavablandırır. "Yapılacaq iş çocuğun tərbiyəsində çox şiddətli və sərt olmamaq, tərbiyəni mümkün mərtəbə mülayim bir hala salmaqdır. Daima düşünməliyik ki, çocuq təcrübə yaparaq həyatını intizama qoyacaqdır və bu təcrübəsiz həyatda çocuq sındıracaq, paltarlarını yırtacaq və əlinə keçən bir şeyi itirəcək... yəni bizim xoşumuza getməyən bir çox hərəkətlər yapacaqdır" [4, s.29].

Müəllif valideynləri uşaqlarını daha yaxşı başa düşməsi üçün vurğulayır ki, əgər uşaqlar heç bir xəta etməsəydi, onda tərbiyəyə heç bir ehtiyac qalmazdı. Düşünməliyik ki, biz də onlar kimi xətalar edərək böyümüşük. Hətta bir çoxlarımız bu gün də əxlaq xətaları edirik. Uşaqlara hər şeyi qadağan etməkdə yalançılığa gətirib çıxaran səbəblərdəndir. Qadağan etmək məsələsində ən çox yox, ən azı düşünməliyik, yəni maksimum deyil, minimum cəhətini düşünməliyik.

Jurnalda qeyd edilir ki, bu yaş dövründə diqqət ediləcək məsələlərdən biri də uşaqların lovğa olmamasıdır. Lovğa olmaq özünü hər kəsdən üstün görmək, hər kəsə yuxarıdan aşağıya baxmaqdır. Lovğalığın dostu kimi qısqanclıq, paxıllıq, hiyləgərlik, haqsızlıq və s. göstərmək olar.

Valideyn çalışmalıdır ki, uşağı təvazökar ruhda böyüsün. "Bunu nə surətlə yapmalıdır?" sualını müəllif belə cavablandırır: "Hər şeydən əvvəl çocuğu başqalarının yanında "mənim oğlum belədir, mənim oğlum elədir, filan çocuq pisdır... ilaxır" şəklində söz söyləməməli. Çocuq anasının, atasının ağzından eşitdiklərini doğru sayar və kəndisincə fazla əhəmiyyət verərək digər çocuqları bəyənməməyə başlar" [2, s.30]. Lovğa, başqasını bəyənməyən uşaq böyüdüyü zaman öz həyatından da razı qalmaz.

"Şərq qadını" jurnalı "insanların həyatında "kapriz" qədər pis və sıxıntılı bir şey yoxdur", - deyə qeyd edir. Uşağın kaprizli böyüməməsi üşün ən yaxşı vasitə kiçik yaşlarından "uşağın hər istədiyini ona verməmək"dir. Ana və ataların ən böyük səhvi bu nöqtədə görülür. Bəzən valideynlər uşaqların hər istək və arzularını

anında yerinə yetirməyə çalışırlar. "Kaprizli böyüyən çocuq hər şey istəyəcək, qazancı ilə sərfiyyatını müvazinədə bulundurmayacaq və bundan mütəəssir olacaq. Qazancını çoxaltmaq üçün qeyri-məşru vasitələrə, məsələn, yalançılığa, ikiüzlülüyə, hətta oğurlamağa, vəzifəsindən sui-istifadə yapmağa başlayacaq" [4, s.31]. Belə insan ömrünün sonuna kimi daha, daha deyərək, həyatından narazı olaraq yaşayacaq. Müəllif haqlı olaraq yazır ki, məncə, həyatın ən böyük sərvəti qazancı ilə ehtiyaclarını uyğun bir tərzdə birləşdirməyə çalışmaq və qəlbən heç bir zaman yaşadığı həyatdan məmnun qalmayacaq bir surətdə gözünü başqalarına dikməməkdir. Xəlil Fikrət qədim yunan filosofu Sokrat haqqında belə bir əhvalat yazır: "Məşhur filosof Sokrat bazara gedib gəldikdən sonra daima keyflənər, gülər və sevinərmiş. Səbəbini soran kimsələrə cavab olaraq: Görürəm ki, dışarıda ağıla, xəyala gəlməyən bir çox əşya sərilmiş, hər dükanda bir çox şeylər var və hər kəs böyük bir təlaşla bunları əldə etmək üçün arı kimi bir oraya, bir buraya koşuyor və hər kəs bu şeylər üçün bütün mövcudiyyətini əfna etməyə çalışır. Mən isə bütün bu şeylərə qətiyyən möhtac olmadığım üçün nə qədər məsud və bəxtiyar olduğumu düşünərək sevinirəm" [4, s.32]. Ona görə də valideynlər uşaqlarını hər şeyə qarşı acgöz yetişdirməsələr, onları bir çox əxlaqsızlıqlardan qurtarar və onlara insani hisləri təlqin etmiş olarlar. Bunun üçün uşağın kaprizlərinə əhəmiyyət verməməli, onları sadə, düzgün, təmiz bir həyata alışdırmalıyıq.

Xəlil Fikrət uşaqların həyat təcrübəsini kiçik yaşdan yaşadığı hadisələrdən öyrəndiyini yazaraq, təbii cəzaya dair nümunə gətirir. Yazır ki, uşaq yıxıldığı və ya başını masaya vurduğu vaxt bir ağrı hiss edər ki, bunun xatirəsi uşağı gələcək üçün daha diqqətli edər və bu uşaq üçün bir həyat təcrübəsidir. Çünki bu hallar dəfələrlə təkrar olunarsa, uşaq özünü daha yaxşı idarə etməyə başlar. "Əlini şamın alovuna gətirər və yaxud dərisinin üzərinə qaynar su tökərsə, bu yanma kolay-kolay unudulacaq, yaddan çıxacaq bir dərs deyildir. Buna bənzər bir çox hadisələrin hüsula gətirəcəyi dərslər o qədər dərin və çox olur ki, çocuq gələcəkdə heç bir surətlə həyatın sarsılmaz qanunlarına qarşı gəlməməyə çalışır" [5, s.50].

Demək olar ki, bu dərsləri bizə verən təbiətdir. "Məlumdur ki, bütün insanlar nəzərində fel və hərəkətlərin həqiqi ölçüsü, onlardan hüsula gələn səadət və fəlakətdir" [5, s.50]. Əgər oğurluq oğurlayana və ailəsinə xoşbəxtlik gətirsə idi, bunu mənfi xasiyyətlər qrupuna aid etməzdik. Müsbət xüsusiyyətlər, hərəkətlər insanların həyatına pis təsir etsə idi, onları pis hərəkətlər qrupuna aid edərdik. "O halda haqq və nahaq ölçüsü, mənfəət və zərərdir" [5, s.51].

Uşaq bu kimi nadincliklər edərsə, onun cəzası təbiətin verəcəyi cəza olmalıdır. Bu kimi təbii cəzaların xüsusiyyətlərindən biri budur ki, onlar təqib etdikləri hərəkətlərin sadəcə zəruri nəticəsidir. Müəllif bildirir ki, qapının astanasına ilişib yıxılan kiçik bir nadinc uşağın gördüyü təbii cəza kifayət deyilmiş kimi onu ayrıca döymək və söymək nahaqdır. Bu nöqtəyə də diqqət yetirilməlidir ki, uşağın səhv hərəkətlərini təqib edən təbii cəzalar etdiyi hərəkətə müvafiq, səssiz və daimidir. Uşaq əlinə iynə batırarsa, bir ağrı yaranar, təkrar batırarsa, yenə həmin

ağrı yaranar. Bununla da uşaq “təbiətin hökmlərinin qəti və dəyişməz olduğunu bu surətlə idrak edər və onunla bu kimi xüsuslarda mücadilənin lüzumsuz və faydasız olduğunu və ən yaxşı mübarizənin fəna hərəkətlərdən çəkinməsi olduğunu idrak edər” [5, s.51].

Bu hal yalnız kiçik uşaqlar üçün deyil, böyüklər üçün də doğrudur. Hər halda süni cəzalar, yəni insanların tərbiyəsi məqsədi ilə tərtib edildiyi cəzalar, əxlaqın yaxşılaşması haqqında heç bir zaman təsirli olmamış və bir çox cinayətləri çoxaltmışdır.

Müəllif süni əks-təsirlərə nisbətən təbii əks-təsirlərdən nə nəticələr əldə edildiyini aşağıdakı misallarla verir.

Kiçik uşaqların olduğu hər evdə belə bir halla rastlaşılır. Uşaq oyuncaqları ilə oynayır və yerdə dağınıq vəziyyətdə qoyur. Yaxud stolun üstündəki çiçəkləri dağıdır. Yaxud kiçik bir qız gəlinciyinə paltar tikmək üçün oynadığı parçaları ortalıqda qoyur. Bu zaman çox vaxt bu dağıntıları yığışdırmaq zəhməti anaların və baxıcıların üzərinə düşür. Uşağa “utanmazlar, nədir bu etdikləriniz?” deyərək ana və dayə hər şeyi düzəldir. Uşaqlar yalnız bir, iki kəlmə söz ilə cəza alırlar. Belə halda müəllif təbii cəza olan “etdiklərini uşağın özünə yığışdırtmaq” prinsipindən istifadə etməyi məsləhət görür. “Əgər tərbiyə həyat işləri üçün bir hazırlanma isə, hər çocuğun ta balaca ikən buna alışması lazımdır” [5, s.51]. Dağıtdığı əşyaları yığışdırmaqdan boyun qaçıran, zəhməti başqalarına, yəni anasına yükləyən uşağın oyuncaqları əlindən alınmalıdır. Uşaq gələn dəfə oyuncaq qutusunu istədiyi zaman anası: “Keçən dəfə oyuncaqlarını dağınıq qoydun, mən onları yığmağa məcbur oldum. Oyuncaqlarla oynayandan sonra yığışdırıb yerinə qoymasan, sənə bir daha oyuncaqlarını verməyəcəyəm” deməlidir. Bu münasibət həmişə eyni cür olmalıdır ki, uşaq bunun bir prinsip olduğunu anlasın. Bir işin ancaq əyləncəli və xoş hissəsi ilə məşğul olub zəhmətini başqasının üstünə atmaq düzgün deyildir.

Digər bir misalda müəllif yazır ki, hər gün gəzməyə gediləcəyi zaman vaxtında hazır olmayan bir kiçik qızı anası, atası əsəbiləşib danlayar və onu gözləməyə məcbur olarlar. Bu üsulun heç vaxt bir faydası olmaz. Əslində uşağa bu həyat qaydasını öyrətmək lazımdır. “Dünyada hazırlıqsız bulunmaq əldə ediləcək mənfəətlərin qaçmasını icab etdirir” [5, s.52]. Əgər uşaq lazım olan vaxtda hazır olmazsa, bunun təbii nəticəsi gəzintidən məhrum olmasıdır. Kiçik qız bir əyləncədən, gəzintidən məhrum olarsa gələcəkdə gedəcəyi yerə tez hazır olmağa çalışar.

Daha bir misalda isə müəllif qeyd edir ki, bəzən uşaqlar hər hansı bir əşyasını diqqətsizlikdən, məsuliyyətsizlikdən itirirsə, ana və ata bu kimi vəziyyətdə “bunlar pul ilə alınır, pul qazanmaq üçün çalışıb zəhmət çəkmək lazımdır. Ancaq mən bilsəm ki, sən gələcəkdə əşyalarını daha diqqətlə qoruyacaqsan, o vaxt bəlkə yenisini alaram” deməlidir. Süni cəzalarla uşaqlar etdikləri səhv hərəkətdən həyat dərsi almırlar. “Təbii cəzalardan qazanılan təcrübələr çocuğun başında möhkəm qalır və kəndisinə həyatdan alınmış dərslər yerinə keçir. Sonra təbii cəzalara qarşı

çocuq üsyan etməz. Bunun üçün bu cəzalar ən adil cəzalar yerinə keçir" [5, s.52].

Uşaq üst-başını batırarsa, onun təbii cəzası özünə təmizlətməkdir. Uşaq palçığı təmizləyərkən haqsız bir cəzaya məruz qaldığını ağlına belə gətirməz. Uşaqlar təbii cəzanı çəkərkən cəza ilə cəzanın səbəbləri arasındakı əlaqə ilə maraqlanar və öz-özünə düşünməyə məcbur olar. Əgər belə tərbiyə üsullarının uşağa təsiri olmazsa, məsələn, onun paltarları tez xarab olar. Valideyn isə təbii cəza metodunu rəhbər tutaraq uşağa yeni paltar almaz. Uşağın təmiz paltarı olmadığı üçün şənlik və tədbirlərə gedə bilməz, utanar. Bütün bunların səbəbkarı özü olduğunu düşünərək, uşaq paltarlarını daha yaxşı mühafizə edər. Müəllif bu yerdə çox adi görünən, lakin uşağın gələcəyinə mühüm təsir edəcək bir nümunəni çəkir. Uşaq evdə xarab paltarlarla gəzərsə, evə qonaq gələndə ən yaxşı paltarlarını geyinərsə, o vaxt uşaq özü üçün deyil, özgə üçün yaşamağa başlayar. Təkəbbürü, göstərişi sevməyə başlayar. Uşağı həmişə təzə yox, həmişə təmiz paltarlara alışdırmaq lazımdır. Yəni təzə paltar həyat üçün az vacibdir, amma təmizlik həmişə lazımdır.

Süni cəzaların verilməsi hər iki tərəfdə yersiz əsəbilik yaradar. Məsələn, qız öz qardaşının oyuncağını diqqətsizlikdən və ya bilərəkdən sındırarsa, valideynlər tərəfindən necə hərəkət edilir? Oyuncağı sındıran döyülür, digərinə isə yeni oyuncaq alınır. Əslində ata nə zaman ki, hər iki uşağa da hədiyyə almalıdır, bu zaman ata oyuncağı sındıran uşağa heç nə almamalı, digərinə isə iki dənə almalıdır. Bunun səbəbini uşağa söylədikdə uşaq müvəqqəti olaraq hirslənər, lakin bu cəzanın ədalətsiz olmadığını öz-özünə etiraf edər və bir daha qardaşına qarşı kobud hərəkət etməməyə çalışar. Bu üsulun faydaları haqqında Xəlil Fikrət aşağıdakıları xülasə edir:

1. Uşaq etdiyi hərəkətlərin yaxşı və pis nəticələrini öz-özünə təcrübə edər və doğru hərəkəti səhv hərəkətdən ayıracaq dərəcədə bilik və təcrübə sahibi olur. Bu təcrübə uşağın özü tərəfindən qazanılmışdır.
2. Uşaq öz hərəkətləri üçün aldığı cəzaların adilanə olduğunu özü anlayır.
3. Cəza alan ilə cəza verən arasında gərəksiz düşmənçilik meydana gəlməz.

Təbii cəza üsuluna aid müəllifin nümunələri maraqlıdır. Uşağın qarşısında şam yanır. Uşaq kağız alıb şamda yandırmaq istəyir. Yaxşı düşünməyən ana qəzadan qorxar və uşağa: Belə bir şey etmə! Əllərini qıraram! deyir, lakin bir az zəkalı ana belə mühakimə yürüdür: "Əgər uşağın bu oyununa maneə olsam, uşağın təcrübə qazanmasına da maneə olacağam deməkdir. Uşağa "etmə" deməklə, uşağın bir tərəfini yandırmaqdan xilas edə bilərəm, lakin sonra nə olacaq? Uşaq bu təcrübəni etməzsə, yanında heç kim olmadıqda bu hərəkəti etmək istərsə, o zaman təhlükə daha da böyük olar. Həm özü yanar, həm də evi yandırar. Bu vəziyyətdə işin ən yaxşı cəhəti uşağı oyunla sərbəst buraxmaq və təhlükə olacağını düşünərək hazırlıqlı olmaqdır.

Müəllifin fikrinə görə bu vəziyyətdə uşaq əlini yandırarsa, nə qazanmış olacaq:

1. Öz salamatlığı üçün yaxşı bir təcrübə qazanacaq.
2. Anasının tənbehlərinin onun xeyrinə olduğunu daha yaxşı dərk etmiş olacaq. Bu da anasını daha çox sevməklə onun sözlərinə əhəmiyyət verməyə səbəb olacaq.

Müəllif nümunə göstərərək yazır ki, əgər uşaq oğurluq edərsə, bunun təbii cəzası nədir? "Bunun iki nəticəsi olur: ya doğrudan doğruya və yaxud əksi, yəni bilavasitə. Doğrudan doğruya olan nəticə, ədalətin əmrini yerinə yetirmək, yəni zərəri ödəməkdir" [6, s.41]. Zərəri ödəmək dedikdə, müəllif onu nəzərdə tutur ki, uşağı xərcliklərdən məhrum etmək, ürəyi istədiklərini almamaq oğurladığını həmin pul ilə almaqdır.

"Bilavasitə olan cəza isə valideynin ciddi bir surətdə təəssüfüdür" [6, s.42]. Bu təəssüf yuxarıda da qeyd olunduğu kimi, uşaq ağıllanana qədər davam etməli, uşaqla oynamamalı, ona üz verilməməli, tək qoyulmalıdır. Ta ki, səhvini anlayıb etdiklərinə görə üzr istəsin. "Burada şərt çocuğun valideyninin səmimi dostu olmasıdır. Hər halda döymək, kobudluq etmək olmamalıdır. Vəhşət vəhşət doğurur, nəzakət isə nəzakət doğurur" [6, s.42].

Müəllif məşhur pedaqoq Con Lokkdan sitat gətirərək yazır: "Cəzaların çox şiddətli olması tərbiyədə çox zərərlidir. Çox cəza görmüş olan uşaqlardan mükəmməl adamlar yetişməsi nadirdir" [6, s.42].

Əlavə olaraq Pentenvil həbsxanası məmurlarından biri tərəfindən yazılmış bir faktı da qeyd edir: "Qırmanc ilə döyülən gənc müchimlər çox vaxt həbsxanaya yenidən girərlər" [6, s.42]. Bu halda məktəblərdə və ev tərbiyəsində sərt və şiddətli hərəkət yerinə mülayim və nəzakətli hərəkət etmək daima faydalıdır.

Müəllif buraya qədər kiçik yaşlı uşaqların tərbiyəsinə dair söylədiklərini ümumiləşdirərək qısa düsturlar şəklində aşağıdakı kimi vermişdir.

"Uşaqdan böyük miqdarda əxlaqilik gözləməyin. Həyatın ilk illərində hər mədəni adam əcdadı olan vəhşi qumların keçdikləri yolları keçir... Çocuqlardan lap yüksək hərəkətlər gözləmək qaidə deyildir. Necə ki, insanın fikri tezcə yüksəlməz, əxlaq və xasiyyəti də elədir" [7, s.44].

Xəlil Fikrət tərbiyədə xətaların ən fənası etinasızlıqdır deyərək, söz və əməlin vəhdəti prinsipindən danışır. Yəni bir dəfə elə, ikinci dəfə başqa cür hərəkət etmək uşaq tərbiyəsində intizamsızlığa, iradəsizliyə gətirib çıxarır. "Ədalət qətiyyətlə tətbiq edilməyən cəmiyyətlərdə cinayətlər çoxalar. Bir az da cəzaların intizamsızca yapılması qüsurları və yolsuzluqları dəhşətli surətdə artırır. Daima qorxudan və qorxutmasını nadir olaraq icra edən: tez əmr verib sonra peşman olan, kefinə görə bir qəbahətə qarşı bəzən şiddətli, bəzən isə həmin qüsura qarşı mülayim müamilə edən ana, həm kəndinə və həm də çocuqları üçün qəti bir fəlakət hazırlar. Özünü çocuqların nəzərində kiçildər. Onlara hissiyata hökm olmamaq nümunəsi verir" [8, s.45].

Müəllif yenə də tərbiyədə şiddəti inkar edərək yazır: "Təkrar söyləmək lazımdır: mümkün olan yerlərdə təzyiq vasitələrindən əl çəkiniz. Buna fəqət ibsitat

və mütəliqəyətə lazım hasil olursa, ciddi bir surətdə onu tətbiq ediniz" [8, s.45].

1926-cı il 6 №-li sayında "Ailə tərbiyəsi" rubrikasında "ikinci çocuqluq dövründə tərbiyənin ümumi xətaları" adı altında Xəlil Fikrət uşaqların tərbiyəsində mühitin təsirini önə çıxardaraq aşağıdakı fikirləri qeyd edir. İkinci uşaqlıq dövründə uşaq vaxtının bir qismini dostları ilə keçirir və onların təsiri altına düşür. "Demək k, çocuğu yalnız ailə deyil, onun öz mühiti daha dəxi tərbiyə etməkdədir. Bunun üçün də imkan olduğu nisbətdə çocuğa çocuq mühiti bulunmalıdır" [9, s.30].

Müəllif yazır ki, uşaq eqoist olmamalıdır. Eqoist uşaqları başqalarına kömək etmək, fədakarlıq etmək kimi hallara alışdırmaq lazımdır. Uşaq öz haqlarını bilməlidir və onu əlindən verməməyi öyrənməlidir. Həmçinin bu dövrdə uşağı intizama alışdırmaq, sözünü tutmağı öyrətmək, təmizliyi sevdirmək üçün nə qədər çalışsa, yeridir. "Zahirə bu kimi məziyyətlər çocuğa ölüncəyə qədər lazım olacaqdır. Bu dövrdə bu kimi məziyyətlər əldə edilməzsə, irəlidə daha gecdir" [9, s.30].

Bəzi uşaqlar yaxşılıq görərsə, mütləq anasından bir hədiyyə, bir mükafat almaq üçün edər. Onları yaxşı işlər görməyə alışdırmaq üçün ara-sıra mükafat verilməlidir. Lakin yavaş-yavaş bundan vaz keçilməlidir. Uşaq göstəriş üçün yaxşı adam olmamalıdır.

İkinci uşaqlıq dövründə Xəlil Fikrətin önəm verdiyi məsələlərdən biri də budur ki, bu dövrdə uşaqda özgənin malına və haqqına göz dikməmək keyfiyyətlərini də formalaşdırmaq lazımdır. Çox vaxt uşaqlar bu dövrdə başqasının oyuncaqlarını mənimsəyir, öz oyuncaqlarını başqaları ilə paylaşmır. Bu zaman həmin uşağın oyuncaqlarından birini digərinə verməli və yaxud oyuncaqlarından biri öz əlindən alınmalıdır. Belə hərəkət edilərsə, uşaq yavaş-yavaş özgəsinin malına qiymət verməyə başlayar və özgəyə qarşı yersiz haqsızlıq etməz.

"Analık və çocuqluq mühafizəsi"nin davamı olaraq "müəllimə S.M.J." imzası ilə yazılmış "Uşaklara necə tərbiyə verməli?" məqaləsində uşaqların əxlaq tərbiyəsində mühitin rolundan bəhs olunur. Müəllif qeyd edir ki, anaların çoxu qonşuları və tanışları ilə söhbət edərkən uşaklarından yanıqlı-yanıqlı şikayət edirlər. Analardan biri deyir: "...Başa düşə bilmirəm oğlum kimə çəkibdir. Atası bir sakit və salim adam idi, mən də boş yerə ağzımı açan deyiləm, oğlum isə bizə çəkməmişdir. Əlindən nə dincligim var, nə rahətligim.... " [12, s.21]. Ata və analar təəccüb edirlər ki, uşaqları çox vaxt onların heç birinə çəkməmişdir. Bunlar uşaqların müəyyən adət və xasiyyət ilə doğulmayaraq, sonradan mühitə uyduqlarını bilmirlər. Uşaq hər şeyi öz mühitindən öyrənir. "Məsələn, bir türq (türk) çocuğu qitay (kitay) ailəsi içərisinə düşərsə, o türq dilini bilməyəcəq və onun hər bir oturuşu, duruşu və bütün adət və rəftarı haman qitay ailəsinin adət və rəftarına bənzəyəcəkdir" [12, s.21].

**Nəticə**

“Şərq qadını” jurnalı kiçik yaşlı uşaqların əxlaq tərbiyəsi mövzusunda analara asan praktik biliklər verir və qarşılaşacaqları çətin vəziyyətlərdə necə davranacaqlarına dair yol göstərir. Bu məqalələrin əsas faydalı xüsusiyyətlərindən biri də anaları etdikləri səhvlərə görə günahlandırmadan onlara yol göstərən bir üslubda yazılmasıdır. Bu məqalələri oxuyan analarda günahkarlıq duyğusu keçirmək əvəzinə məsuliyyət duyğusunu inkişaf etdirir və bunun nəticəsində də davranışlarında müsbət istiqamətli dəyişikliklər yaradır.

Üzərindən bir əsrə yaxın müddətin keçməsinə baxmayaraq, bu jurnalda yer alan maarifləndirici, tərbiyəvi təsirə malik məqalələr indi də aktuallıq kəsb edir. Hələ də kiçik yaşlı uşaqların tərbiyəsi, sağlamlığı, təhsili ilə əlaqədar problemlər qalmaqdadır. “Şərq qadını”nın məsləhətləri bu gün də əhəmiyyətlidir, gərəklidir. Bu pedaqoji yazılar indiyə qədər araşdırlmamışdır, bu baxımdan tədqiq olunub öyrənilməsi aktualdır.

**ƏDƏBİYYAT**


1. *Xəlil Fikrət.* Birinci çocuqluq dövründə fikri və əxlaqi tərbiyə // Şərq qadını, 1924, №2, s.30-37
2. *Xəlil Fikrət.* Cocuqluq dövrü // Şərq qadını, 1924, №8, s.18-23
3. *Xəlil Fikrət.* Cocuq əxlaqı və iradi tərbiyəsi // Şərq qadını, 1924, №10, s.77-79
4. *Xəlil Fikrət.* Ailə tərbiyəsi // Şərq qadını, №12, s.29-32
5. *Xəlil Fikrət.* Cocuqluq dövründə əxlaq tərbiyəsi // Şərq qadını, 1925, №3, s.50-52
6. *Xəlil Fikrət.* Ailə tərbiyəsi // Şərq qadını, 1925, №6, s.40-42
7. *Xəlil Fikrət.* Əxlaq tərbiyəsi // Şərq qadını, 1925, №7, s.44-45
8. *Xəlil Fikrət.* Cəza və rəğbətləndirmə // Şərq qadını, 1925, №9, s.45-46
9. *Xəlil Fikrət.* Ailə tərbiyəsi // Şərq qadını, 1926, №6, s.30-33
10. *Rüstəmov F.* Azərbaycan-Türkiyə elmi-pedaqoji əlaqələrinin inkişafı tarixindən // Azərbaycan məktəbi, Bakı, 2013, №6, s.21-27
11. *Şahverdiyev A.B.* Azərbaycan mətbuatı tarixi. Bakı: Təhsil, 2016, 252 s.
12. *Yaqub S.M.* Uşaqlara necə tərbiyə verməli // Şərq qadını, 1929, № 8, s.21-24
13. *Enver Kartekin.* Devrim Tarihi ve Türkiye Cumhuriyeti Rejimi. İstanbul: Sinan Yayınları, 1973, 267 s.
14. *Аскерзаде Г.А., Таваккулоглы А.* История Азербайджанской журналистики. Баку: Elm, 2015, 455 s.


Redaksiyaya daxil olub 03.08.2022

# YAZI QAYDALARI

- “Pedaqoji Universitetin Xəbərləri” dövri elmi jurnalının “Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər” seriyası əvvəllər nəşr olunmamış elmi məqalələri qəbul edir.
- Məqalələr **Azərbaycan, ingilis, türk** və **rus** dillərində jurnalın elektron ünvanına – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com** göndərilir.
- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, s. 8].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.
- Məqalələrin həcmi: 5-12 səhifə.
- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# WRITING RULES

- “Humanitarian, social and pedagogical-psychological sciences” series of the periodic scientific journal “Transactions of Pedagogical University” accepts previously unpublished scientific articles.
- The articles can be sent in **Azerbaijani, English, Turkish** and **Russian** languages to the journal’s electron address – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com**.
- Articles should be written in **Microsoft Word** writing program Times New Roman alphabet in the font size 12 punto with interval between line in the range of 1.0 characters. Page sizes: from the right and left 2.0 sm, from above 2.5 sm and the bottom 2.2 sm.
- **The title** should be written in black and capital letters in the middle.
- The structure of the article should be consist of the following format: author's first name/patronymic/last name, position, scientific degree and title, a summary and the key words in three languages (100-150 words, 11 punto) and the list of literature. Summaries written in three languages should be equal to each other and match the content of the article.
- **The drawings, pictures, graphics and tables** in the articles should be correct, clear and given in the text and writings that belong to them should be written underneath.
- References indicating in square brackets should be numbered in alphabetical order and given at the end of the article. For example: [1, 8]
- Information about any reference given on the list of literature must be complete and accurate. The bibliographic description of the source reference should be based on its kind (monographs, textbooks, scientific papers, etc.). The name of the article or thesis must be shown when referring to the symposium, conference materials or to the theses.
- The volume of the articles: 5-12 pages.
- Articles are published on the basis expert review (in confidence) by the decision of the Editorial Board of the journal. Editorial Board may return the article to the author to make corrections.
- Unpublished articles are not returned.

*Nəşriyyatın direktoru:* Hüseyn Hacıyev
*Texniki redaktor:* Mustafa Şəfiyev
*Korrektor:* Sevinc Mamoyeva

Çapa imzalanmışdır: 27.09.2022
Kağız formatı $70\times100^{1/16}$, 11,9 ç.v.
Sifariş 396. Sayı 100.

**ADPU-nun mətbəəsi**
Bakı, Ü.Hacıbəyli, 68